Səudiyyə Ərəbistanı Krallığı
İslam işləri, vəqfləri,
təbliğatı və təlimi nazirliyi
Şanlı Quranın nəşri üzrə
kral Fəhd adına Kompleks
Elmi işlər üzrə
Baş Katiblik

**Quran və Sünnə işığında**

# İmanın əsasları

Müəlliflər:

**Saleh əs-Suheymi**
**Abdur-Rəzzaq əl-Bədr**
**İbrahim ər-Ruheyli**

İxtisas redaktorları:

**Əli Nasir əl-Fəqihi**
**Əhməd əl-Ğamidi**

Ərəb dilindən tərcümə edən

Aydın Salehli

**Redaksiya heyəti**

**Ə. Z. Musayev**
**M. N. Qarayev**
**A. X. Salehli**
**S. Z. Səfərbəyov**

**Kompüter tərtibatı**

**M. N. Qarayev**
**E. Q. Rüstəmov**

**Bu kitab Azərbaycan Respublikası**
**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin**
**razılığı ilə çap edilmişdir.**

**(DK-1180/Ə 17.08.2022)**

## Mərhəmətli və Rəhmli Allahın adı ilə!

*İslam işləri, vəqfləri, təbliğatı və təlimi naziri, Kompleksin baş nəzarətçisi, Əlahəzrət şeyx Saleh ibn Abdüləziz ibn Muhəmməd Ali əş-Şeyxin*

## *ÖN SÖZÜ*

Həmd olsun aləmlərin Rəbbi Allaha! O, Öz Şanlı Kitabında belə buyurur: **"*İnsanları* Rəbbinin yoluna hikmətlə və gözəl öyüd-nəsihətlə dəvət et."** (ən-Nəhl, 125). Peyğəmbərlərin və elçilərin ən şərəflisinə – *Muhəmmədə* Allahın salavatı və salamı olsun! O demişdir: "Mənim adımdan bir ayə də olsa, təbliğ edin" ("Səhih əl-Buxari", 3461).

Yer üzündə yaşayan bütün müsəlmanlara xeyirxahlıq etmək məqsədilə ilk növbədə Allahın Kitabına sayğı göstərib onun nəşr edilməsində, habelə onun mənalarının müxtəlif dünya dillərinə tərcümə edilərək bunun həm müsəlmanlar, həm də onu oxuyub araşdırmaq istəyən qeyri-müsəlmanlar arasında yayılmasında, həmçinin müsəlmanlara həm dini, həm də dünyavi işlərində fayda verəcək məlumatların yayılmasında əlindən gələni əsirgəməyən, Toxunulmaz iki məscidin Xadimi, Kral Abdullah ibn Abdüləziz Ali Səudun (Allah onu qorusun!) göstərişi ilə Nurlu Mədinədə yerləşən, Şanlı Quranın nəşri üzrə Kral Fəhd adına Kompleksi təmsil edən İslam işləri, vəqfləri, təbliğatı və təlimi Nazirilyi, mötəbər dəlillər əsasında Uca Allaha dəvət etməyin əhəmiyyətli olduğuna inanaraq, məmnunluqla aşağıdakı kitabı təqdim edir:

### "Quran və Sünnə işığında imanın əsasları"

Bu kitabı nəşr etməkdə məqsəd, imanın əsası sayılan əqidə məsələlərini müsəlmanlara aşılamaqdır. Çünki Rəsulullah səllallahu aleyhi və səlləm demişdir: "Bədəndə bir ət parçası vardır. Əgər o yaxşı olarsa, bütün bədən yaxşı olar..." ("Səhih əl-Buxari", 52). İn şaa Allah, bunun ardından hədislər, şəriət məsələləri, zikrlər və dualarla bağlı

bir sıra kitablar da nəşr ediləcəkdir. Uca və Qüdrətli Allahdan diləyirik ki, bununla cəmi müsəlmanlara fayda versin!

Bu münasibətlə mən bu kitabın hazırlanmasında (təlif edilməsində, yoxlanılmasında və redaktə edilməsində) çalışan qardaşlara – səmimi qəlbdən səy göstərdiklərinə görə, habelə Kompleksin baş Katibliyinə – bu işə diqqət yetirdiyinə və nəzarət etdiyinə görə təşəkkür edirəm. Uca Allahdan diləyirəm ki, Toxunulmaz iki məscidin Xadiminin, Əlahəzrət Şahzadə Vəliəhdin və Nazirlər Kabinetinin Başçısı Əlahəzrət İkinci Müavinin (Allah onları qorusun!) rəhbərliyi altında dinə sayğı göstərən və düzgün əqidəni qoruyan bu məmləkəti hifz etsin!

Axırda *yenə Uca Allahı* tərif edib deyirik: Həmd olsun aləmlərin Rəbbi Allaha!

## Mərhəmətli və Rəhmli Allahın adı ilə!

## MÜQƏDDİMƏ

Bu dini bizim üçün kamil edən, bizə olan nemətini tamamlayan, bizim müsəlman ümmətimizi ən xeyirli ümmət edən və bizə öz içimizdən Allahın ayələrini bizə oxuyan, bizi *günahlardan* təmizləyən, Kitabı və hikməti bizə öyrədən bir elçi göndərən Allaha həmd olsun! Allahın aləmlərə rəhmət olaraq göndərdiyi Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

Sonrasına gəlincə, həqiqətən, cinlərin və insanların yaradılışında hikmət Tək Allaha ibadət etməkdir. Bu xüsusda Uca Allah buyurur: **"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım."** (əz-Zariyat, 56). Elə bu səbəbdən də əsas və mübarək mənbələrdən – Allahın Kitabı və Onun elçisinin ﷺ sünnəsindən götürülmüş tövhid və düzgün əqidə həmin o ibadətin yerinə yetirilməsi üçün qayədir. Tövhid bu kainatın qurulmasına rəvac verən bünövrədir. Odur ki, tövhidin aradan qaldırılacağı təqdirdə bu kainatda fəsad, qarmaqarışıqlıq və hərc-mərclik meydana gələr. Bu xüsusda Uca Allah buyurur: **"Əgər göydə və yerdə Allahdan başqa məbudlar olsaydı, onların hər ikisi fəsada uğrayardı. Ərşin sahibi olan Allah pakdır və *müşriklərin Ona* aid etdikləri sifətlərdən uzaqdır!"** (əl-Ənbiya, 22). Pak və müqəddəs Allah həmçinin buyurur: **"Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allahdır. Vəhy onların arasında ona görə nazil olur ki, Allahın hər şeyə qadir olduğunu və Allahın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz."** (ət-Talaq, 12). Bu (mövzuya dair) başqa ayələr də mövcuddur.

İnsan ağlı bu əqidəni təfsilatı ilə dərk edə bilmədiyinə görə, Allah Öz elçilərini göndərmiş və Öz kitablarını nazil etmişdir ki, bunu insanlara müfəssəl şəkildə izah etsin və onlar da elmə və mötəbər dəlillərə, həmçinin açıq-aydın əsaslara və düzgün etiqada istinad edərək Allaha ibadət etsinlər. Odur ki, Allahın elçiləri bir-birinin ardınca

göndərilərək bu əqidəni (insanlara) təbliğ etmiş və onu (müfəssəl şəkildə) bəyan etmişlər. Pak və müqəddəs Allah bu xüsusda belə buyurur: **"Elə bir ümmət yoxdur ki, ona xəbərdar edən** ***bir peyğəmbər*** **gəlmiş olmasın."** (Fatir, 24). Allah həmçinin buyurur: **"Sonra bir-birinin ardınca elçilərimizi göndərdik."** (əl-Muminun, 44). Bu o deməkdir ki, peyğəmbərlər bir-birinin ardınca göndərilmiş və nəhayət, bu ardıcıllıq onların ən hörmətlisi, ən fəzilətlisi və imamları sayılan Peyğəmbərimiz Muhəmməd ﷺ ilə tamamlanmışdır. O, Allahın risalətini təbliğ etmiş, öhdəsinə düşən vəzifəni yerinə yetirmiş, ümmətə öyüd-nəsihət vermiş, Allah yolunda səmimi-qəlbdən (canı və malı ilə) vuruşmuş və (insanları) gizlində və aşkarda Allaha tərəf çağırmışdır. O, boynuna düşən peyğəmbərlik yükünü layiqincə daşımış, Allah yolunda ən ağır əziyyətlərə məruz qalmış və bütün bunlara, digər ulul-əzm [1] peyğəmbərlərin səbir etdiyi kimi, səbir etmişdir. O, (bəşəriyyəti) o vaxta qədər Allaha tərəf çağırmış və Onun doğru yoluna yönəltmişdir ki, nəhayət, Allah onun əli ilə bu dinə zəfər qazandırmış və Öz nemətini tamamlamışdır. Məhz onun dəvəti sayəsində insanlar dəstə-dəstə Allahın dininə daxil olmuşlar. Allah Öz peyğəmbərinin əli ilə bu dini kamilləşdirməyincə və Öz nemətini tamamlamayınca, Peyğəmbər bu dünyadan köçməmişdir. Bu xüsusda pak və müqəddəs Allah bu ayəni nazil etmişdir: **"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim."** (əl-Maidə, 3).

Peyğəmbər ﷺ bu dini tamamilə – bütün əsasları və ikinci dərəcəli ayinləri ilə bəyan etmişdir. Bu xüsusda hicrət diyarının[2] imamı Malik ibn Ənəs رحمه الله demişdir: "Peyğəmbər ﷺ öz ümmətinə ayaqyolunda təmizlənməyi öyrətmiş, amma tövhidi öyrətməmişdir"– deyə onun haqqında pis zənn etmək ağlasığmazdır.

[1] Ulul-əzm peyğəmbərləri deyildikdə xüsusi əzmkar və səbirli olanlar nəzərdə tutulur. Bunlar Nuh, İbrahim, Musa, İsa və Muhəmməddir ﷺ.

[2] Burada "hicrət diyarı" deyildikdə, Peyğəmbərimizin ﷺ və onun səhabələrinin hicrət etdiyi Mədinə şəhəri nəzərdə tutulur.

Peyğəmbər ﷺ (bəşəriyyəti) tövhidə və səmimi qəlbdən Allaha ibadət etməyə, habelə şirkdən tamamilə – həm böyüyündən, həm də kiçiyindən üz çevirməyə çağırmışdır. Elçilərin hamısının vəzifəsi də məhz bu olmuşdur. Belə ki, onların hamısı tövhidə dəvət xüsusunda həmrəy olmuş və yekdilliklə buna dəvət etmişlər. Üstəlik, bu onların dəvətinin çıxış nöqtəsi, peyğəmbərlik missiyasının məğzi və onların göndərilməsinin əsas məramı olmuşdur. *Bu xüsusda* Uca Allah buyurur: **“Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”–** ***deyə,*** **elçi göndərdik. Onlardan kimisini Allah doğru yola yönəltmiş, kimisinə də azmaq nəsib etmişdir. Yer üzündə gəzib dolaşın və görün** ***haqqı*** **yalan sayanların aqibəti necə oldu!”** (ən-Nəhl, 36). O, həmçinin buyurur: **“Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: “Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!”– deyə vəhy etməyək.”** (əl-Ənbiya, 25). O, həmçinin buyurur: **“Səndən əvvəl göndərdiyimiz elçilərdən –** ***onların davamçılarından*** **soruş; Biz Mərhəmətli** ***Allahdan*** **başqa ibadət ediləsi məbudlarmı icad etmişik?”** (əz-Zuxruf, 45). O, həmçinin buyurur: **“*Allah* Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: “Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!”** (əş-Şura, 13).

İmam Buxari və Muslimin “Səhih” əsərlərində Əbu Hureyradan رضي الله عنه rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: “Peyğəmbərlər ata bir, ana ayrı övladlardır. Anaları ayrı olsa da, dinləri birdir”[1]. *Peyğəmbərlərin* dini və əqidəsi eyni, şəriət qayda-qanunları isə başqa-başqa olmuşdur. Bu haqda Uca Allah buyurur: **“Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik.”** (əl-Maidə, 48).

Elə buna görə də hər bir müsəlman yəqin bilməli və hər bir möminə aydın olmalıdır ki, dini məsələlərdə mülahizə yürütmək və ağıla istinad edərək hökm vermək olmaz. Odur ki, yer üzündə olan hər bir müsəlman, peyğəmbərlərin və elçilərin etiqadı üzərində olmalı, onların iman gətirdikləri, üstəlik heç bir şəkk və tərəddüd etmədən dəvət etdikləri əsaslara iman gətirməlidir.

---

[1] “Səhih əl-Buxari”, 3443; “Səhih Muslim”, 2365.

**"Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də *iman gətirdilər*. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər. *Onlar dedilər*: "Biz Onun elçiləri arasında fərq qoymuruq! Onlar dedilər: "Eşitdik və itaət etdik! Ey Rəbbimiz! Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!"** (əl-Bəqərə, 285).

İman gətirmək, *Allaha* boyun əymək, təvazökar olmaq, itaətkarlıq göstərmək və qəbul etmək – məhz bunlar möminlərin gördüyü işlər və onların tutduğu yoldur. Mömin bunları yerinə yetirdiyi təqdirdə ona salamatlıq nəsib olur və o, əmin-amanlıq içində yaşayır. Üstəlik onun mənəviyyatı təmizlənir, qəlbi rahatlıq tapır və batil etiqadları üzündən yolunu azmış insanların düşdüyü azğınlıqdan – təzadlı düşüncələrdən, ziddiyyətli fikirlərdən, şübhəli məsələlərdən, yanlış qərarlardan, hərc-mərclikdən və qərarsızlıqdan tamamilə uzaq olur.

Dəyişməz əsasları, tutarlı özülləri və möhkəm dayaqları olan düzgün İslam əqidəsi insanlara həm bu dünyada, həm də Axirətdə xoşbəxtlik, firavanlıq və uğur qazandıran yeganə əqidədir. Bu ona görədir ki, *İslam əqidəsi* açıq-aydın əlamətləri, mötəbər dəlilləri, tutarlı əsasları və sübutları olan, habelə qüsursuz fitrətə, sağlam düşüncəyə və saf qəlbə uyğun gələn bir əqidədir.

Elə buna görə də bütün İslam aləminin bu saf əqidəni öyrənməyə böyük ehtiyacı vardır. Belə ki, bu aləmin xöşbəxtliyi məhz həmin əqidədən asılıdır və onsuz nicat tapmaq mümkün deyildir.

Müsəlman bu yığcam risalədə hər bir müsəlman üçün ən lazımlı sayılan İslam əqidəsinin əsaslarını və onun ən mühüm dayaqlarını, habelə bu əqidənin ən bariz xüsusiyyətlərini və əlamətlərini tapa bilər. Üstəlik bunların hər birinin dəlil-sübutla əsaslandırıldığını da görə bilər. Bu kitab Quran və Sünnə işığında imanın əsaslarını açıqlayır. Bunlar isə peyğəmbərlərdən miras qalmış, gün kimi aydın olan, kiçikdən böyüyə qədər hər kəsin ən qısa müddətdə dərk edə biləcəyi əzəmətli əsaslardır. Hidayətə qovuşdurmaq isə təkcə Allaha aiddir!

Biz fürsətdən istifadə edib bu kitabın hazırlanmasında əllərindən gələni əsirgəməyən şəxslərə – doktor Saleh ibn Səd əs-Suheymi-

yə, doktor Abdurrəzzaq ibn Abdulmuhsin əl-Abbada və doktor İbrahim ibn Amir ər-Ruheyliyə, habelə onu yoxlayıb ərsəyə gətirən doktor Əli ibn Muhəmməd Nasir əl-Fəqihiyə və doktor Əhməd ibn Ətiyyə əl-Ğamidiyə təşəkkürümüzü bildiririk.

Pak və müqəddəs Allahdan diləyirik ki, bunun sayəsində cəmi müsəlmanlara xeyir nəsib etsin! Axırda *yenə Uca Allahı* tərif edib deyirik: Həmd olsun aləmlərin Rəbbi Allaha!

Şanlı Quranın nəşri üzrə
kral Fəhd adına Kompleksin
Baş Katibliyi

# Giriş

İmanın olduqca əhəmiyyətli və çox dəyərli olması, üstəlik möminə həm bu dünyada, həm də Axirətdə çoxlu xeyir və mənfəət qazandıracağı heç bir müsəlmana sirr deyildir. Məhz düzgün iman sayəsində həm bu dünyada, həm də Axirətdə xeyir qazanmaq olar. Belə ki, iman tələb olunan ən mühüm məsələ, qarşıya qoyulan ən ali məqsəd və ən böyük hədəf sayılır. Məhz onun sayəsində insan xoşbəxt və firavan həyat sürür, xoşagəlməz hadisələrdən, şərdən və bədbəxtçilikdən canını qurtarır, üstəlik heç vaxt yoxa çıxmayacaq və puç olmayacaq axirət savabına, əbədi nemətlərə və tükənməz xeyir-bərəkətə nail olur.

Uca Allah buyurur: **"Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq."** (ən-Nəhl, 97). Uca Allah həmçinin buyurur: **"Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar."** (əl-İsra, 19).

Uca Allah buyurur: **"Kim *Onun hüzuruna* yaxşı əməllər etmiş bir mömin kimi gələrsə, onlara ən yüksək dərəcələr nəsib olar."** (Ta ha, 75). Uca Allah həmçinin buyurur: **"İman gətirib xeyirxah əməllər işləyənlərin məskəni isə Firdovs bağları olacaqdır. Onlar orada əbədi qalacaq, oranı *başqa bir yerə* dəyişmək istəməyəcəklər."** (əl-Kəhf, 107-108). Bu mövzuya aid Qurani Kərimdə başqa ayələr də vardır.

Quran və Sünnədə (varid olmuş ayə və hədislər) dəlalət edir ki, iman altı əsas üzərində qurulur. Bunlar Allaha, Onun mələklərinə, Onun kitablarına, Onun elçilərinə, Axirət gününə və qədərə – onun xeyrinə və şərinə iman gətirməkdir. Bu əsaslar həm Qurani Kərimdə, həm də Peyğəmbərin ﷺ sünnəsində bir çox yerlərdə zikr edilmişdir:

1. Uca Allah buyurur: **“Ey iman gətirənlər! Allaha, Onun elçisinə və elçisinə nazil etdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allahı, Onun mələklərini, kitablarını, elçilərini və Axirət gününü inkar edən şəxs dərin bir azğınlığa düşmüşdür.”** (ən-Nisa, 136).

2. Uca Allah buyurur: **“Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl *sahibləri* Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən...”** (əl-Bəqərə, 177).

3. Uca Allah buyurur: **“Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də *iman gətirdilər*. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər. *Onlar dedilər*: “Biz Onun elçiləri arasında fərq qoymuruq! Onlar dedilər: “Eşitdik və itaət etdik! Ey Rəbbimiz! Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!”** (əl-Bəqərə, 285).

4. Uca Allah buyurur: **“Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq”** (əl-Qəmər, 49).

5. İmam Muslimin “Səhih” əsərində nəql olunmuş və Ömər ibn Xəttabın رضي الله عنه rəvayət etdiyi məşhur hədisdə deyilir ki, Cəbrail عليه السلام Peyğəmbərə ﷺ: “Mənə iman haqqında xəbər ver”– demiş, o da belə cavab vermişdir: “(İman odur ki,) Allaha, Onun mələklərinə, Onun kitablarına, Onun elçilərinə və Axirət gününə, habelə qədərə – onun xeyrinə və şərinə iman gətirəsən.”[1]

İman məhz bu altı əzəmətli əsas üzərində qurulur. Odur ki, bu əsaslara iman gətirməyən kimsə mömin sayıla bilməz. Bu əsaslar birbiri ilə sıx bağlıdır və ayrılmazdır. Bunların bir qisminə iman gətirmək digərlərinə də iman gətirməyi vacib edir. Onlardan bəzilərinə qarşı küfr edən digərlərini də inkar etmiş hesab olunur. Bu baxımdan hər bir müsəlman bu əsasları öyrənib araşdırmalı və onlara diqqət yetirməlidir. Aşağıda bu əsaslardan birincisi olan Allaha imandan söhbət açılır.

---

[1] “Səhih Muslim”, 1.

# I hissə.
# ALLAHA İMAN

Şübhəsiz ki, Allaha iman gətirmək imanın əsaslarının ən mühümü, ən əzəmətlisi, ən təqdirəlayiq olanıdır. Bu, imanın əsası, binasının təməli və məğzi hesab edilir. Digər əsaslar da ona tabedir, ona əsaslanır və onun üzərində qurulur. Qüdrətli və qüvvətli Allaha iman gətirmək, Onun həm Rububiyyətdə, həm Uluhiyyətdə, həm də ad və sifətlərdə tək ilah olduğuna iman gətirməkdir. Allaha iman məhz bu üç əsas üzərində qurulur. Əslində, İslam dininin Tövhid dini adlanmasının səbəbi odur ki, Allah Öz mülkündə və Öz etdiklərində təkdir və Onun şəriki yoxdur, həm zatında, həm də ad və sifətlərində Onun tayı-bənzəri yoxdur, habelə Uluhiyyətdə də O təkdir və Onun şəriki yoxdur.

Bundan da aydın olur ki, peyğəmbərlərin və elçilərin tövhidi üç qismə bölünür:

**1. Rububiyyət tövhidi:** Bu Allahın hər şeyin Rəbbi, Hökmdarı, Yaradanı və ruzi verəni olduğunu, Onun Öldürən və diriltdən, xeyir və zərər toxunduran olduğunu, ehtiyacı olan kimsənin duasını Tək Onun qəbul etdiyini, hər bir işin aqibətinin Ona məxsus olduğunu, hər bir xeyirin Onun Əlində olduğunu, bütün işlərin Ona qayıtdığını və Onun heç bir şərikinin olmadığını təsdiq etməkdir.

**2. Uluhiyyət tövhidi:** Bu, zəlillik, itaət, sevgi, qorxu, rüku, səcdə, qurban, nəzir və digər ibadətləri Tək Allaha yönəltmək və Ona şərik qoşmamaqdır.

**3. Ad və sifətlər tövhidi:** Bu, Allahı Öz Kitabında və ya Öz Peyğəmbərinin ﷺ dili ilə Özünü adlandırdığı və vəsf etdiyi bütün ad və sifətlərdə təkləşdirməyə, Onu bütün eyib və nöqsanlardan təmizə çıxarmağa, Ona xas olan xüsusiyyətlərdə isə Onu heç kimə bənzətməməyə deyilir. Həm də o deməkdir ki, Allah hər şeyi Biləndir, hər şeyə Qadirdir, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur, Onu

nə mürgü, nə də yuxu tutar. Hər şeyin müqəddəratı Onun Əlindədir və O, hikmət Sahibidir. O, Eşidəndir, Görəndir, Rəhimlidir və Bağışlayandır. O, Ərşin üzərinə ucalmış və Öz mülkünü ehtiva etmişdir. O, Hökmran, Müqəddəs, Pak, haqqı təsdiq edən, hər şeyi müşahidə edən, Qüdrətli, Qadir, Məğrur Allahdır. Allah başqalarının Ona şərik qoşduqlarından ucadır. Beləcə, digər gözəl ad və sifətlər də məhz Ona aiddir.

Bütün bu ad və sifətlərə dair Quran və Sünnədə çoxlu sayda dəlillər vardır.

Quran bütövlükdə tövhiddən, onun hüquq və mükafatlarından, şirkdən, onun əhlindən və onların cəzalarından bəhs edir. Elm əhli Quran və Sünnəyə əsaslanaraq tövhidin bu üç qisimdən ibarət olduğunu bildirmişlər. Bu, şəriətə aid dəlillərin araşdırılması nəticəsində alınmışdır və şəriətimizin mahiyyəti də bunu sübut edir. Şəriət göstərir ki, insanlar Rububiyyətdə, Uluhiyyətdə, həmçinin ad və sifətlərdə Allahın təkliyinə iman gətirməlidirlər. Bütün bunları etməyən kəs mömin sayıla bilməz. Aşağıda üç fəsil vardır ki, onlardan hər biri bu qisimləri ayrı-ayrılıqda bəyan edir.

## I fəsil.
## RUBUBİYYƏT TÖVHİDİ.

### *I mövzu.*
### *Mənası; Quran, Sünnə, ağıl və fitrətdən ona dəlillər.*

**1. Tərifi.**

***a) Lüğəvi mənası:*** Rububiyyət sözü rabəbə feilindən əmələ gəlmiş məsdərdir. Rəbb sözü də bu feildən əmələ gəlmişdir. Rububiyyət Allahın sifətidir. Bu, Allahın Rəbb adından götürülmüşdür. Rəbb sözü ərəb dilində müxtəlif mənalar daşıyır: Bunlardan bəziləri hökmdar, itaət olunması gərəkən rəhbər, islah edəndir.

***b) İstilahi mənası:*** Rububiyyət tövhidi – Allahı gördüyü işlərdə təkləşdirməyə deyilir. Bu işlərə yaratmaq, ruzi vermək, hökmranlıq etmək, nemət vermək, mülk sahibi olmaq, surət vermək, əta etmək və məhrum etmək, fayda vermək və zərər yetirmək, öldürüb-diriltmək, dəqiq idarə etmək, hökm vermək və təqdir etməyi misal göstərmək olar. Bütün bu işlərdə Allahın şəriki yoxdur. Odur ki, hər bir bəndə bunlara iman gətirməlidir.

**2. Dəlilləri.**

***a) Qurandan dəlillər.***

Uca Allah buyurur: **"O, göyləri görə biləcəyiniz bir dirək olmadan yaradıb saxlamış, yer sizi silkələməsin deyə, orada möhkəm dağlar qurmuş və ora cürbəcür heyvanlar yaymışdır. Biz göydən yağmur yağdırıb orada cürbəcür gözəl bitkilər bitirdik. Bunlar Allahın yaratdıqlarıdır. İndi siz mənə göstərin görüm, Ondan başqaları nə yaradıblar? Xeyr! Zalımlar açıq-aydın azğınlıq içindədirlər."** (Loğman, 10-11). Uca Allah həmçinin buyurur: **"Bəlkə onlar öz-özünə** (yaxud əbəs yerə) **yaranıblar? Yaxud onlar yaradanlardır?"** (ət-Tur, 35).

***b) Sünnədən dəlillər.***

İmam Əhməd və Əbu Davud Abdullah ibn Şixxirdən ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Seyyid, Uca və Ulu Allahdır..." Tirmizinin "Sunən" əsərində və başqa rəvayətlərdə Peyğəmbər ﷺ İbn Abbasa vəsiyyət edərək demişdir: "Bil ki, bütün ümmət yığışıb sənə fayda vermək istəsə, Allahın sənin üçün yazdığından başqa sənə heç bir fayda verə bilməzlər. Həmçinin əgər onlar yığışıb sənə bir zərər yetirmək istəsələr, Allahın sənin üçün yazdığından başqa sənə heç bir zərər yetirə bilməzlər. Artıq qələmlər qaldırılmış, mürəkkəblər də qurumuşdur."[1]

***c) Əqli dəlillər.***

Ağıl Allahın möcüzələrinə baxıb onlar haqda düşünməklə Allahın varlığına və Onun Rububiyyətdə təkliyinə, Onun kamil qüdrət sahibi olmasına və insanlar üzərində nəzarət etməsinə dəlalət edir. Belə ki, Allahın yaratdıqlarına baxıb onunla Allahın Rububiyyətdə tək olmasına müxtəlif yollarla dəlil gətirmək olar. Həmin yolların ən məşhuru ikidir:

**Birinci yol.** İnsanın yaradılışı barədə düşünməklə Allahın möcüzələrinə nəzər salmaqdır ki, bu da nəfsi dəlalət adlanır. İnsan Allahın ən böyük möcüzələrindən biridir. Bununla Allahın tək və şəriksiz olmasına dəlil gətirmək olar. Uca Allah buyurur: **"Qəti inananlar üçün yer üzündə dəlillər vardır. Sizin özünüzdə də *dəlillər vardır.* Məgər görmürsünüz?"** (əz-Zariyat, 20-21). Uca Allah həmçinin buyurur: **"And olsun nəfsə və onu yaradıb kamilləşdirənə."** (əş-Şəms, 7). Əgər insan özü haqda, habelə Allahın onu qəribə biçimdə yaratdığı barədə dərindən düşünsə, başa düşər ki, onun Yaradan, Müdrik və (hər şeydən) Xəbərdar olan Rəbbi var. Axı insan özünün yaranmış olduğu nütfəni yarada bilməz, yaxud bu nütfəni laxtalanmış qana, qan laxtasını bir parça ətə və o bir parça əti sümüklərə çevirə bilməz, yaxud bu sümükləri ət ilə örtə bilməz.

---

[1] "Sunən Tirmizi", 2516; "Musnəd Əhməd", 1/307. Bu hədisi Tirmizi "həsən", Hakim isə "səhih" hesab etmişdir.

**İkinci yol.** Allahın kainatı yaratmasındakı möcüzələrə nəzər salmaqdır ki, buna da kainat dəlilləri deyilir. Bu da Allahın Rububiyyətinə dəlalət edən ən böyük möcüzələrdən hesab olunur. Uca Allah buyurur: **"*Quranın* haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyil?"** (Fussilət, 53).

Hər kim kainata, yerə, göyə, ulduzlara və planetlərə, günəşə və aya, yer üzərindəki dağlara, ağaclara, dənizlərə və çaylara, gecə ilə gündüzün bir-birini əvəz etməsinə, kainatın tam dəqiqliklə hərəkət etməsinə nəzər salarsa, bütün bunları yaradan, yoxdan var edən və sahmana salan bir varlığın olmasına əmin olur. Ağıllı adam hər dəfə bu məxluqatlar barədə düşündükdə, kainatın bu ecazkarlığına nəzər saldıqda, onların həqiqətən haqq üçün və haqq ilə yaradıldığını, habelə bu kainatın, Allahın Özü haqda verdiyi xəbərləri təsdiq edən möcüzələrlə dolu səhifələr və dəlil-sübutla dolu kitablar, həmçinin Onun Təkliyini sübut edən dəlillər olduğunu dərk edir.

Rəvayət olunur ki, bir dəfə bir qrup şəxs Allahın Rububiyyəti barəsində İmam Əbu Hənifə ilə mübahisə etmək istəyir. İmam da onlara belə deyir: "Söhbətimizə başlamazdan əvvəl, bir mənə deyin görüm, Dəclə çayında öz-özünə gedib (göyərtəsini) ərzaq və sairə ilə dolduran, öz-özünə gedib-gələn, heç kəsin idarə etmədiyi bir gəmi haqda nə düşünürsüz?" Onlar dedilər: "Belə bir şeyin olması əsla mümkün deyil." İmam dedi: "Əgər bunun gəmiyə aid edilməsi mümkün deyilsə, bu aləmdə – göydə və yerdə baş verməsi necə mümkün ola bilər?"

Bununla da o bildirmişdir ki, bu aləmdə olanlar arasındakı bağlılıq, habelə bu aləmin dəqiq və kamil biçimdə yaradılması, onun tək olan Xaliq tərəfindən yaradıldığına dəlalət edir.

## *II mövzu.*
## *Tövhidin bu növünü təsdiq etməyin əzabdan qurtulmaq üçün kifayət etmədiyinin bəyanı.*

Qeyd etdiyimiz kimi, Rububiyyət tövhidi tövhidin üç qismindən biridir. Odur ki, Allahı Rububiyyət tövhidində təkləşdirmədikcə heç kəsin imanı kamil ola bilməz. Allahın elçilərinin göndərilməsinin qayəsi də sadəcə bu olmamışdır. İnsan Uluhiyyət tövhidinin tələblərinə əməl etmədən Allahın əzabından yaxa qurtara bilməz.

Uca Allah buyurur: **"Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir."** (Yusuf, 106). Yəni insanların çoxu Allahın Rəbb, yaradan, ruzi verən və idarə edən olmasına inandıqları halda, – bunların da hamısı Rububiyyət tovhidinə aiddir, – Allahdan qeyrilərinə, heç bir faydası və ya zərəri olmayan bütlərə ibadət edərək Ona şərik qoşurlar.

Səhabə və tabiinlər bu ayənin mənasını məhz belə izah etmişlər.

İbn Abbas رضي الله عنهما demişdir: "Müşriklərin inamı belədir ki, onlardan: "Səmanı kim yaradıb?", "yeri kim yaradıb?", "dağları kim yaradıb?"– deyə soruşsan, onlar: "Allah"– deyə cavab verərlər. Lakin bununla yanaşı Allaha şərik qoşarlar."

İkrimə demişdir: "Onlardan: "Özlərini, səmaları və yeri kim yaradıb?"– deyə soruşsan onlar: "Allah"– deyə cavab verərlər. Onlar Allaha belə etiqad etdikləri halda qeyrilərinə tapınırlar."

Mücahid demişdir: "Onların inamı budur ki, Allah bizi yaradıb, bizə ruzi verir və bizi öldürür. Lakin bu etiqadla yanaşı Allaha şərik qoşurdular."

Abdurrəhman ibn Zeyd ibn Əsləm ibn Zeyd demişdir: "Allahdan qeyrisinə ibadət edən hər bir kəs əlbəttə ki, Allaha iman gətirir, üstəlik bilir ki, onun Rəbbi, onu yaradan və ona ruzi verən Allahdır. Lakin bununla yanaşı Ona şərik qoşur." İbrahimin عليه السلام nə dediyini görmürsənmi? **"O dedi: "Siz nəyə ibadət etdiyinizi görürsünüzmü –**

**həm siz, həm də ulu babalarınız? Aləmlərin Rəbbindən başqa, onların hamısı mənim düşmənimdir."** (əş-Şuəra, 75-77).

Sələflərdən bu xüsusda bir çox rəvayətlər nəql olunmuşdur. Hətta Peyğəmbərin ﷺ zamanında yaşamış müşriklər belə Allahın Rəbb, yaradan, ruzi verən və idarə edən olduğunu təsdiqləyirdilər, lakin ibadətdə Allaha şərik qoşurdular. Belə ki, onlar bütlərə tapınır, onlara dua edir, onlardan yardım diləyir və öz istəklərinə nail olmaq üçün onlara üz tuturdular.

Qurani Kərim bir çox yerdə müşriklərin Allahın Rəbb olduğuna etiqad etdikləri halda, ibadətdə Ona şərik qoşduqlarını xəbər verir. Uca Allah buyurur: **"Əgər sən onlardan: "Göyləri və yeri yaradan, günəşi və ayı ram edən kimdir?"– deyə soruşsan, onlar mütləq: "Allahdır!"– deyəcəklər. Onlar necə də *haqdan* döndərilirlər!"** (əl-Ənkəbut, 61). Uca Allah həmçinin buyurur: **"Əgər sən onlardan: "Göydən yağış nazil edib onunla yeri quruduqdan sonra canlandıran kimdir?"– deyə soruşsan, onlar mütləq: "Allahdır!"– deyəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların çoxu *bunu* başa düşmür."** (əl-Ənkəbut, 63). O, həmçinin buyurur: **"Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə: "Allah!"– deyərlər. *Gör* necə də *haqdan* döndərilirlər!"** (əz-Zuxruf, 87). O, həmçinin buyurur: **"De: "Əgər bilirsinizsə, *deyin görüm* yer və onun üstündə olanlar kimindir?" Onlar: "Allahındır!"– deyəcəklər. De: "Bəs düşünüb ibrət almayacaqsınız?" De: "Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?" Onlar: "Allahdır!"– deyəcəklər. De: "Bəs qorxmursunuz?" De: "Əgər bilirsinizsə, *deyin görüm* hər şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir?" Onlar: "Allahdır!"– deyəcəklər. De: "Bəs necə olur ki, aldanırsınız?"** (əl-Muminun, 84-89).

Müşriklər bütlərin yağış yağdırdıqlarına, bu aləmə ruzi verdiklərinə və işləri səhmana saldıqlarına etiqad etmirdilər. Əksinə, onlar etiqad edirdilər ki, bütün bunları edən pak və müqəddəs olan Allahdır. Ona da etiqad edirdilər ki, Allahdan başqa tapındıqları bütlər məxluqdurlar, nə özlərinə, nə də onlara ibadət edənlərə müstəqil şə-

kildə xeyir və ya ziyan toxundura bilməzlər. Onlar nə öldürməyə, nə həyat verməyə, nə də ki öləndən sonra diriltməyə qadirdirlər, nə eşitmir, nə də görmürlər. Müşriklər yəqin bilirdilər ki, bütün bunlar yalnız Allaha məxsus vəsflərdir və Onun heç bir şəriki yoxdur. Nə onlar, nə də ibadət etdikləri bütlər bunları etməyə qadir deyillər. Onlar bilirdilər ki, yaradan yalnız pak və müqəddəs olan Allahdır və Ondan savayı hər şey məxluqdur. Lakin onlar həmin bütləri Allahla özləri arasında vasitə edir, onları şəfaətçi qəbul edir və bu bütlərin onları Allaha yaxınlaşdırdıqlarına inanırdılar.

Bu barədə Uca Allah buyurur: **"Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"–** ***deyirlər.*** **Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz."** (əz-Zumər, 3). Yəni bütləri Allah yanında şəfaətçi edirdilər ki, Allah onlara yardım etsin, onlara ruzi versin və onların dünyadakı işlərini səhmana salsın.

Müşriklərin Allahın Rəbb olduğuna etiqad etmələri onları İslama daxil etməmişdir. Əksinə, Uca Allah onların müşrik və kafir olduqlarını bildirmiş, onlara Cəhənnəm odunu və orada əbədi qalacaqlarını vəd etmiş, Öz elçisinə ﷺ də onların mallarını və qanlarını halal buyurmuşdur. Çünki onlar Rububiyyət tövhidinin tələblərini lazımınca yerinə yetirməmişlər – tək Allaha ibadət etməmişlər.

Bununla da aydın olur ki, təkcə Rububiyyət tövhidi ilə kifayətlənib onun ayrılmaz hissəsi sayılan Uluhiyyət tövhidini tərk etmək insanı Allahın əzabından xilas edə bilməz. Əksinə, bu, ibadəti vacib edən və insanın əleyhinə olan tutarlı bir əsasa çevrilir. Uluhiyyət tövhidinə əməl etməyən kəs əlbəttə ki, kafirdir, üstəlik onun qanı və malı halaldır.

## *III mövzu.*
## *Rububiyyət tövhidindən azmanın təzahürləri.*

İnsanların Rububiyyət tövhidinə etiqad etmələrinə və bunun onların fitrətində olmasına, həmçinin bu barədə bir çox dəlillərin olmasına baxmayaraq, bəzi insanlar tövhidin bu növündə də azmışlar. Bu azmanın təzahürlərinin xülasəsini bu fəsildə belə qeyd etmək olar:

1. Allahın Rəbb olduğunu qəbul etməmək və Onun varlığını inkar etmək. Bu da ateistlərin fikridir. Belə ki, onlar bütün məxluqatın təbiət tərəfindən, yaxud gecə ilə gündüzün növbələşməsi nəticəsində və ya başqa səbəblərdən yarandığını deyirlər. Uca Allah buyurur: **"Onlar dedilər: "*Həyat* ancaq bizim dünya həyatımızdır. *Kimimiz* ölür, *kimimiz də* doğulur. Bizi öldürən ancaq zamandır."** (əl-Casiyə, 24).

2. Pak və müqəddəs Allaha xas olan bəzi xüsusiyyətləri, habelə Rububiyətin mənalarından bir qismini inkar etmək. Belə ki, bəziləri Allahın öldürüb diriltməyə qadir olduğunu, fayda və ya zərər verə biləcəyini və bu kimi digər məsələləri inkar edirlər.

3. Rububiyyətə xas olan bəzi mənaları Allahdan qeyrisinə aid etmək. Hər kim qüdrətli və qüvvətli Allahla yanaşı kainatı idarə edə bilən – yaradan, yox edən, dirildən, öldürən, xeyir verən, şəri dəf edən və Rububiyyətə aid olan digər işləri yoluna qoyan başqa bir qüvvənin varlığına etiqad edərsə, həmin şəxs Əzəmətli Allaha şərik qoşmuş hesab olunur.

## II fəsil.
## ULUHİYYƏT TÖVHİDİ

Uluhiyyət sözü ilah kəlməsindən əmələ gəlmişdir və itaətə layiq məbud deməkdir. İlah Allahın gözəl adlarından biridir. Uluhiyyət isə Allahın Əzəmətli sifətlərindən biridir. Bütün nöqsanlardan uzaq olan Allah ilahiləşdirilməyə və ibadət olunmağa haqqı olan yeganə varlıqdır. Qəlblər onu ilahiləşdirməli, Ona itaət etməli, Onun qarşısında zəlil olmalı və Ona boyun əyməlidir. Çünki Allah bu kainatı yaradan, kainatdakı işləri idarə edən, kamil sifətlərlə vəsf olunan və hər bir nöqsandan uzaq olan Əzəmətli Rəbdir. Odur ki, yalnız Onun qarşısında əyilmək və yalnız Ona itaət etmək gərəkdir. Tək yaradan, yoxdan var edən və öldükdən sonra dirildən yalnız Odur və Onun heç bir şəriki yoxdur. Bu da o deməkdir ki, ibadət olunmağa haqqı olan da başqası deyil, yalnız Odur və ibadətdə Onun heç bir şəriki yoxdur.

**Uluhiyyət tövhidi** Allahı ibadətdə təkləşdirməyə deyilir. Yəni insan tam yəqinliklə bilməlidir ki, həqiqi ilah və məbud yalnız Allahdır, Uluhiyyətin vəsfləri və mənaları heç bir məxluqa yox, məhz Uca Allaha məxsusdur. Bunları bilən və etiraf edən hər kəs, həm zahiri, həm də batini ibadətləri yalnız Allaha yönəldər. Beləliklə o, İslam şəriətinin buyruqlarını – namaz, zəkat, oruc, həcc, yaxşı işləri əmr etmək, pis işlərdən çəkindirmək, valideyinlərə qayğı göstərmək, qohumluq əlaqələrini möhkəmləndirmək və sair bu kimi bütün zahiri ibadətləri, habelə Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə, Axirət gününə, qədərin xeyrinə və şərinə iman gətirmək kimi batini ibadətləri yalnız bir məqsədlə – Allahın rizasını qazanmaq və Onun verdiyi savaba nail olmaq üçün edər.

Bu fəsildə tövhidin bu növü ilə bağlı bəzi mühüm mövzulara toxunacağıq.

### *I mövzu.*
### *Onun dəlilləri və əhəmiyyətinin bəyan edilməsi.*

**Birinci məsələ. Dəlilləri.**

Allahı Uluhiyyətdə təkləşdirməyin vacib olması barədə bir çox (müqəddəs) mətnlər və açıq-aydın dəlillər mövcuddur. Bunlar müxtəlif yollarla Uluhiyyətdə təkləşdirməyin vacib olmasına dəlalət edir:

1. Bəzən buna əmr olunur. Uca Allah buyurur: **"Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə** *Allahdan* **qorxasınız."** (əl-Bəqərə, 21); **"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın!"** (ən-Nisa, 36); **"Rəbbin yalnız Ona ibadət etməyi buyurmuşdur..."** (əl-İsra, 23). Buna bənzər digər ayələr də mövcuddur.

2. Bəzən yaradılışın qayəsini – insanların və cinlərin yaradılmasında əsas məqsədin məhz ibadət olmasını bəyan edir. Uca Allah buyurur: **"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım."** (əz-Zariyat, 56).

3. Bəzən peyğəmbərlərin məhz bunu etmək üçün göndərildiklərini bəyan edir. Uca Allah buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"–** ***deyə,*** **elçi göndərdik."** (ən-Nəhl, 36); **"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək."** (əl-Ənbiya, 25).

4. Bəzən ilahi kitabların məhz buna görə nazil olduğunu bəyan edir. Uca Allah buyurur: **"*Allah* Öz hökmü ilə qullarından istədiyi kimsəyə mələkləri vəhylə göndərib buyurur: "*Qullarımı* qorxudub xəbərdar edin ki, Məndən başqa *ibadətə layiq olan* məbud yoxdur. Məndən qorxun!"** (ən-Nəhl, 2).

5. Bəzən, ona əməl edənlərin savab qazanacaqlarını, onlar üçün həm bu dünyada, həm də axirətdə böyük mükafatlar və bol-bol nemətlər hazırlandığını bəyan edir. Uca Allah buyurur: **"İman gətirdik-**

**dən sonra imanlarına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır."** (əl-Ənam, 82).

6. Bəzən də buna qarşı çıxanların qarşılaşacaqları təhlükə və onu tərk edənlərin düçar olacaqları ağrılı-acılı əzab barədə xəbər verir. Uca Allah buyurur: **"Həqiqətən, Allaha şərik qoşan kimsəyə Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır."** (əl-Maidə, 72). O, həmçinin buyurur: **"Allahla yanaşı başqa məbuda ibadət etmə, yoxsa qınanmış və qovulmuş halda Cəhənnəmə atılarsan."** (əl-İsra, 39).

Tovhidin bu növünü təsdiqləyən, ona dəvət edən, fəzilətinin fərqli olduğunu, ona riayət edənlərin böyük savaba nail olacaqlarını, müxalif olanların isə təhlükəyə giriftar olacaqlarını bəyan edən neçə-neçə başqa dəlillər də mövcuddur.

Peyğəmbərimizin ﷺ sünnəsi də tövhidin bu növünü və onun əhəmiyyətini göstərən dəlillərlə doludur:

1. İmam Buxari "Səhih" əsərində Müaz ibn Cəbəldən رضي الله عنه Peyğəmbərin ﷺ ona belə dediyini rəvayət etmişdir: "Ey Müaz, bilirsən Allahın qulları üzərindəki haqqı nədir?" O dedi: "Allah və Onun rəsulu daha yaxşı bilir." O buyurdu: "Qulların Ona ibadət edib heç kəsi Ona şərik qoşmamalarıdır. Bəs bilirsənmi qulların Allah üzərindəki haqqı nədir?" O dedi: "Allah və Onun rəsulu daha yaxşı bilir." Peyğəmbər ﷺ buyurdu: "*Ona heç nəyi şərik qoşmayan* qullarına əzab verməməsidir."[1]

2. İbn Abbas رضي الله عنهما rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Müazı Yəmənə göndərərkən ona belə buyurmuşdur: "Sən Kitab əhlindən olan bir qövmün yanına gedirsən. Elə isə ilk əvvəl onları Allahı təkləşdirməyə dəvət et. Əgər bunu qəbul etsələr, onlara xəbər ver ki, Allah onlara gündəlik olaraq beş vaxt namaz qılmağı vacib buyurmuşdur...." Hədisi Buxari rəvayət etmişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 7373.

[2] "Səhih əl-Buxari", 7372.

3. İbn Məsud رضي الله عنه rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: "Kim başqasını Allaha şərik qoşduğu halda ölərsə, Cəhənnəmə daxil olar." Hədisi Buxari rəvayət etmişdir.[1]

4. Cabir ibn Abdullah رضي الله عنهما rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kim Allaha şərik qoşmadığı halda Ona qovuşarsa, Cənnətə girər. Kim də Allaha şərik qoşduğu halda Ona qovuşarsa, Cəhənnəmə girər." Hədisi Muslim rəvayət etmişdir.[2]

Bu barədə digər hədislər də mövcuddur.

**İkinci məsələ. Tövhidin bu növünün əhəmiyyəti və peyğəmbərlərin dəvətinin əsasını məhz bunun təşkil etməsi barədə.**

Şəkk yoxdur ki, Uluhiyyət tövhidi bəşəriyyəti islah etmək üçün ən əzəmətli, ən kamil, ən əfzəl və ən vacib əsaslardandır. Uca Allah cinləri və insanları yalnız bunun üçün yaratmış, məhz buna görə məxluqatı xəlq etmiş və qayda-qanunlar qoymuşdur. Bu tovhid olduğu yerdə düzgünlük hökm sürür, aradan qaldırıldıqda isə şər və fitnə-fəsad meydana gəlir. Məhz buna görə də bu tövhid bütün rəsulların dəvətinin məğzini, peyğəmbərlik missiyasının qayəsini və onların dəvətinin əsasını təşkil etmişdir. Uca Allah buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"–** ***deyə*****, elçi göndərdik."** (ən-Nəhl, 36). O, həmçinin buyurur: **"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək."** (əl-Ənbiya, 25).

Qurani Kərim bir çox yerlərdə bildirir ki, Uluhiyyət tövhidi elçilərin dəvətinin açarı hesab edilir. Həmçinin onu da xəbər verir ki, Allahın göndərdiyi elçilərin hər biri öz qövmünü ilk əvvəl təkAllahlığa və ixlasla Ona ibadət etməyə çağırmışlar. Uca Allah buyurur: **"Ad qövmünə də qardaşları Hudu** ***göndərdik*****. O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur."** (əl-Əraf, 65). Uca Allah həmçinin buyurur: **"Səmud qövmünə də qardaşları Salehi** ***göndərdik*****. O dedi: "Ey qövmüm! Allaha ibadət edin!**

[1] "Səhih əl-Buxari", 4497.

[2] "Səhih Muslim", 93.

**Sizin Ondan başqa məbudunuz yoxdur."** (əl-Əraf, 73). O, həmçinin buyurur: **"Mədyən qövmünə də qardaşları Şueybi** ***göndərdik.*** **O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur."** (əl-Əraf, 85).

**Üçüncü məsələ. Uluhiyyət tövhidinin peyğəmbərlərlə onların qövmləri arasında ədavətə səbəb olmasının bəyan edilməsi.**

Yuxarıda qeyd etdik ki, yalnız Allaha ibadət etmək peyğəmbərlərin hamısının dəvətinin əsasını təşkil etmiş və bu elçilərin hər biri öz qövmünü ilk əvvəl təkAllahlığa dəvət etmişlər. Elə bu səbəbdən də peyğəmbərlərlə onların qövmləri arasına ədavət düşmüşdür. Peyğəmbərlər onları təkAllahlığa və ixlasla Allaha ibadət etməyə çağırır, qövmləri isə Allaha şərik qoşmaqda və bütlərə ibadət etməkdə israr edirdilər. Yalnız Allahın hidayət verdiyi kəslərdən başqa.

Uca Allah Nuhun qövmü barəsində buyurur: ***"Onlar özlərinə tabe olanlara*** **dedilər: "Öz məbudlarınızı tərk etməyin; Vəddi, Suvaı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!" Artıq onlar çoxlarını azdırmışlar. Sən də zalımlara azğınlıqdan başqa bir şey artırma."** (Nuh, 23-24).

Hudun qövmü barəsində isə Uca Allah belə buyurur: **"Onlar isə dedilər: "Sən bizi məbudlarımızdan döndərməyəmi gəldin? Əgər doğru danışanlardansansa, bizə vəd etdiyini gətir!"** (əl-Əhqaf, 22); **"Onlar dedilər: "Ey Hud! Sən bizə açıq-aydın bir dəlil gətirmədin, biz də sənin sözünlə məbudlarımızı tərk edən deyilik. Biz sənə inanmırıq."** (Hud, 53).

Salehin qövmü barəsində də Uca Allah belə buyurur: **"Onlar dedilər: "Ey Saleh! Sən bundan əvvəl içərimizdə ümid edilən bir kimsə idin. Doğrudanmı atalarımızın ibadət etdiyinə ibadət etməyi bizə qadağan edirsən? Doğrusu, biz sənin bizləri dəvət etdiyin** ***əqidə*** **barəsində şübhə doğuran şəkk içindəyik."** (Hud, 62).

Şüeybin camaatı barəsində Uca Allah buyurur: **"Onlar dedilər: "Ey Şueyb! Atalarımızın ibadət etdikləri** ***məbudlardan,*** **yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir? Doğrudan da, sən yumşaq xasiyyətlisən, ağıllısan."** (Hud, 87).

Qureyş kafirləri barəsində isə Uca Allah belə buyurur: **“Öz aralarından onlara xəbərdarlıq edən** ***bir peyğəmbər*** **gəldiyinə təəccüb edərək kafirlər dedilər: “Bu, yalançı bir sehrbazdır! O, bütün məbudları bir məbudmu etdi? Həqiqətən, bu, əcaib bir şeydir.” Onların adlı-sanlı adamları çıxıb gedərək** ***dedilər*****: “Gedin öz məbudlarınızla səbirlə davranın. Doğrusu, bu** ***sizdən*** **istənilən bir şeydir. Biz bunu axırıncı dində də eşitməmişik. Bu, uydurmadan başqa bir şey deyil.”** (Sad, 4-7).

Həmçinin buyurur: **“Onlar səni gördükdə ancaq sənə lağ edir** ***və deyirlər*****: “Budurmu Allahın elçi göndərdiyi kəs? Əgər biz məbudlarımıza tapınmaqda səbirli olmasaydıq, az qala o bizi onlardan uzaqlaşdıracaqdı.” Onlar əzabı gördükləri zaman kimin** ***haqq*** **yoldan daha çox azdığını anlayacaqlar. Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Sən ona vəkillikmi edəcəksən? Yoxsa elə hesab edirsən ki, onların əksəriyyəti eşidəcək və ya anlayacaq? Onlar heyvan kimidirlər, hətta,** ***haqq*** **yoldan daha çox uzaqlaşmışlar.”** (əl-Furqan, 41-44).

Bu ayələr açıq-aşkar onu göstərir ki, peyğəmbərlərlə qövmləri arasındakı qarşıdurmanın səbəbi onların qövmlərini tək Allaha ibadət etməyə və bu dini ixlasla Ona yönəltməyə dəvət etmələri olmuşdur.

(İmam Buxari və Muslimin) “Səhih” əsərlərində rəvayət edilir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “İnsanlar Allahdan başqa *haqq* məbudun olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirməyincə, namaz qılıb zəkat verməyincə, *onlarla* vuruşmaq mənə əmr edildi. Əgər *aşkarda bunu* yerinə yetirsələr – İslam haqqı istisna olmaqla – canlarını və mallarını məndən qorumuş olarlar. Onların *gizli əməllərinin* haqq-hesabı isə Allaha aiddir.”[1]

Həmçinin (imam Muslimin) “Səhih” əsərində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: “Kim “Lə iləhə illəllah”– desə və Allahdan savayı ibadət olunanları inkar etsə, onun malı və canı haram *toxunulmaz* olar. *Gizli əməllərinin* haqq-hesabı isə Allaha aiddir.”[2]

---

[1] "Səhih əl-Buxari", 25; "Səhih Muslim", 22.

[2] "Səhih Muslim", 23.

## *II mövzu.*
## *Tək Allaha ibadət etməyin vacibliyi.*

**Birinci məsələ. İbadət sözünün mənası və üzərində qurulduğu əsaslar.**

İbadət sözünün lüğəvi mənası: zəlil olmaq və alçalmaq deməkdir. Məsələn ərəbcə uzanmış halda olan dəvəyə "bəirun muəbbədun", ayaqlar altında tapdanaraq düzəlmiş yola isə "tariqun muəbbədun" deyilir.

İbadət sözünün istilahi mənası isə belədir: Allahın sevdiyi və razı qaldığı hər bir zahiri və batini söz və əməl ibadət adlanır.

İbadətin bəzi növləri haqda söhbət açdıqda bunu izah edəcəyik.

İbadət üç sütun üzərində qurulur:

1. Pak və müqəddəs olan Allahı kamil şəkildə sevmək. Uca Allah buyurur: **"İman gətirənlərin Allaha olan sevgisi isə daha güclüdür."** (əl-Bəqərə, 165).

2. Allahın mərhəmətinə tam şəkildə ümid bəsləmək. Uca Allah buyurur: **"Onlar Allahın rəhmətini umurlar..."** (əl-İsra, 57).

3. Nöqsansız və qüsursuz Allahdan layiqincə qorxmaq. Uca Allah buyurur: **"və Onun əzabından qorxurlar."** (əl-İsra, 57).

Pak və müqəddəs Allah bu üç əzəmətli əsası "əl-Fatihə" surəsində cəm etmişdir: **"Həmd olsun aləmlərin Rəbbi Allaha, Mərhəmətli və Rəhmliyə, Haqq-hesab gününün Hökmdarına!"** Birinci ayədə məhəbbət vardır. Belə ki, Allah nemət verəndir, elə buna görə də O, sevilməlidir. İkinci ayədə ummaq vardır, Mərhəmətli olanın da rəhm edəcəyinə ümid bəsləmək lazımdır. Üçüncü ayədə isə qorxu vardır, haqq-hesab çəkən və cəza verənin əzabından isə qorxmaq gərəkdir.

Sonra Uca Allah buyurur: **"Biz yalnız Sənə ibadət edir...",** yəni ey Rəbbim, mən sənə üç şeylə ibadət edirəm: **"Həmd olsun aləmlərin Rəbbi Allaha."** ayəsinin dəlalət etdiyi məhəbbətlə, **"Mərhəmətli və**

**Rəhmliyə"** ayəsinin dəlalət etdiyi ümid bəsləməklə və bir də **"Haqq-hesab gününün Hökmdarına!"** ayəsinin dəlalət etdiyi qorxu ilə.

İbadət yalnız iki şərtlə qəbul olunur:

**1. İbadət olunanın qarşısında ixlaslı olmaq.** Uca Allah buyurur: **"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək əmr olunmuşdu."** (əl-Beyyinə, 5); **"Doğrusu, əsl din ancaq Allaha məxsusdur."** (əz-Zumər, 3); **"De: "Mən dinimi məhz Allaha məxsus edərək yalnız Ona ibadət edirəm."** (əz-Zumər, 14).

**2. Peyğəmbərin ﷺ yolunu tutub getmək.** Belə ki, Uca Allah yalnız Peyğəmbərin ﷺ yoluna uyğun olan əməlləri qəbul edir. Uca Allah buyurur: **"Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin!"** (əl-Həşr, 7). O, həmçinin buyurur: **"Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca, iman gətirmiş olmazlar."** (ən-Nisa, 65).

Rəsulullah ﷺ belə buyurmuşdur: "Kim bizim bu işimizə (dinimizə) ondan olmayan bir şeyi əlavə edərsə, o rədd olunar."[1] Yəni onun özünə qayıdar.

Allah üçün ixlasla edilməyən və Peyğəmbərin ﷺ sünnəsinə müvafiq olmayan bir əməl faydasız hesab olunur. Fudeyl ibn İyad رحمه الله Uca Allahın **"Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün."** (Hud, 7; Mulk, 2) ayəsi barəsində demişdir: "Yəni ən ixlaslı və ən dürüst olanını." Soruşdular ki, ey Əbu Əli! Ən ixlaslı və ən dürüst olanı nə deməkdir? Dedi: "Əgər bir əməl ixlasla yerinə yetirilsə, lakin düzgün olmazsa qəbul olunmaz. Həmçinin əgər dürüst olsa, ancaq ixlasla yerinə yetirilməzsə, yenə də qəbul olunmaz. Gərək həm ixlasla yerinə yetirilə, həm də dürüst ola. İxlasla deyildikdə, yalnız Allah üçün edilən əməllər, dürüst deyildikdə isə Sünnəyə müvafiq olan əməllər nəzərdə tutulur."[2]

---

[1] "Səhih Buxari", 2697.

[2] "Hilyətul-Övliya", 8/95.

Uca Allahın "əl-Kəhf" surəsinin axırındakı ayəsi bu iki şərti özündə cəm edən ayələrdəndir: **"De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və yerinə yetirdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!"** (əl-Kəhf, 110).

**İkinci məsələ. İbadətin bəzi növləri haqqında.**

İbadətin bir çox növləri vardır. Allahın sevdiyi və razı qaldığı hər bir zahiri və batini söz və ya əməl özlüyündə bir ibadət sayılır. Aşağıda ibadətin bəzi növlərini qeyd edəcəyik:

**1. Dua**. Bu da iki qismə bölünür: istək duası və ibadət duası.

Uca Allah buyurur: **"Dini məhz Allaha aid sayıb, Ona dua edin!"** (Ğafir, 14); **"Şübhəsiz ki, məscidlər Allahındır. Allahdan başqa heç kəsə dua etməyin!"** (əl-Cinn, 18); **"Allahı qoyub Qiyamət gününədək özünə cavab verə bilməyən əşyalara yalvaran kimsədən daha çox azmış kim ola bilər? Halbuki, *o bütlər* onların yalvarışından xəbərsizdirlər. İnsanlar bir yerə toplanılacaqları zaman *bütlər* onlara düşmən kəsiləcək və onların ibadətini inkar edəcəklər."** (əl-Əhqaf, 5-6).

Kim Allahdan başqasına dua edərək ondan yalnız Allahın qadir olduğu bir şeyi istəyərsə – dua edilənin diri və ya ölü olmasından asılı olmayaraq – həmin şəxs kafir və müşrik sayılar. Diri bir şəxsə müraciət edərək onun edə biləcəyi bir şeyi, məsələn: "Ey filankəs mənə yemək ver!" və ya "Mənə su ver!"– deyə istəyənə gəldikdə isə onun əməlində bir qəbahət yoxdur. Bu istəyi ölüyə və ya həmin yerdə olmayan bir şəxsə ünvanlayan kəs isə müşrik sayılır. Çünki ölü və ya həmin müraciəti eşitməyən kəs onun istəyini yerinə yetirə bilməz.

Qeyd edildiyi kimi, duanın iki qismi vardır: istək duası və ibadət duası.

İstək duası Allahdan dünya və axirətin xeyrini diləməyə deyilir. İbadət duasına isə bütün zahiri və batini yaxşı əməllər daxildir. Çünki Allaha ibadət edən kəs dili və qəlbi ilə Allahdan onun ibadətini qəbul etməsini və ona savab yazmasını diləyir.

Qurani Kərimdə dua etməyə aid varid olan əmrlər, Allahdan qeyrisinə dua etməyə dair qadağalar və dua edənlərin əldə etdikəri

savablar barəsindəki ayələr həm istək dualarına, həm də ibadət dualarına şamil edilir.

**2, 3, 4. Sevgi, qorxu və ümid bəsləmə** də ibadətin növlərindəndir. Yuxarıda qeyd etmişdik ki, bunlar ibadətin sütunlarıdır.

**5. Təvəkkül** də ibadətin bir növüdür. Bu, kiməsə və ya nəyə isə arxayın olmaq deməkdir. Allaha təvəkkül etmək: xeyir qazanmaq və zərəri dəf etmək üçün Allahın buyurduğu və izn verdiyi səbəblərdən tutaraq hər bir işi ürəkdən Uca Allaha həvalə etmək, Ona arxayın olmaq və Ona inanmaq deməkdir. Uca Allah buyurur: **"Əgər möminsinizsə, Allaha təvəkkül edin!"** (əl-Maidə, 23). O, həmçinin buyurur: **"Kim Allaha təvəkkül etsə, *Allah* ona kifayət edər."** (ət-Talaq, 3).

**6, 7, 8. Rəğbət bəsləmək, qorxmaq və müti olmaq** da ibadətin növləridir. Rəğbət bəsləmək – istədiyin bir şeyə nail olmaq üçün çalışmaqdır. Qorxmaq – qorxduğun bir şeydən çəkinməkdir. Müti olmaq isə Allahın əzəməti qarşısında zəlil olmaq və boyun əyməkdir ki, bununla insan Allahın həm kainata, həm də şəriət qayda-qanunlarına aid qəzavü-qədərinə boyun əymiş olur. Uca Allah bu üç növ ibadət barəsində belə buyurur: **"Həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə yalvarardılar. Onlar Bizə müti *qullar* idilər."** (əl-Ənbiya, 90).

**9. Qorxu.** Qorxduğu şeyin hökm sahibi olduğunu və əzəmətini dərk edərək ondan qorxmaq. Uca Allah buyurur: **"Onlardan qorxmayın, Məndən qorxun..."** (əl-Bəqərə, 150); **"Onlardan qorxmayın, Məndən qorxun."** (əl-Maidə, 3).

**10. Yönəlmək.** Allahın buyruqlarını yerinə yetirmək və qadağan etdiyi əməllərdən çəkinməklə, Allaha üz tutmaq deməkdir. Uca Allah buyurur: **"Rəbbinizə üz tutun və Ona itaət edin."** (əz-Zumər, 54).

**11. Yardım diləmək.** Bu, həm dini, həm də dünyəvi işlərin həyata keçirilməsi üçün Allahdan kömək diləməkdir. Uca Allah buyurur: **"Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik."** (əl-Fatihə, 5). Peyğəmbər ﷺ İbn Abbasa رضي الله عنه belə tövsiyə etmişdir: "Kömək diləmək istəsən, onu yalnız Allahdan dilə..."[1]

---

[1] "Sunən Tirmizi", 2516; "Musnəd Əhməd", 1/307. Bu hədisi Tirmizi "həsən", Hakim isə "səhih" hesab etmişdir.

**12. Sığınmaq**. Bu, xoşa gəlməyən bir şeydən *qorunmaq üçün Allahdan* himayə və sığınacaq istəməyə deyilir. Uca Allah buyurur: **"De: "Sığınıram sübhün Rəbbinə! Məxluqatının şərindən."** (əl-Fələq, 1-2). O, həmçinin buyurur: **"De: "Sığınıram insanların Rəbbinə, insanların Hökmdarına, insanların məbuduna! Vəsvəsə verənin, *Allahın adı çəkiləndə isə hövlündən* geri çəkilən *şeytanın* şərindən."** (ən-Nas, 1-2).

**13. Kömək diləmək.** Bu, əzabdan və həlak olmaqdan qurtulmaq üçün yardım istəməkdir. Uca Allah buyurur: **"O vaxt siz Rəbbinizdən kömək diləyirdiniz. O da: "Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm"– deyə duanızı qəbul etmişdi."** (əl-Ənfal, 9).

**14. Qurban kəsmək.** Bu, Allaha yaxınlaşmaq məqsədilə xüsusi bir qaydada heyvanı kəsib qanını axıtmağa deyilir. Uca Allah buyurur: **"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür!"** (əl-Ənam, 162). O, həmçinin buyurur: **"Sən də Rəbbin üçün namaz qıl və qurban kəs!"** (əl-Kovsər, 2).

**15. Nəzir**. Bu, insanın hər hansı bir işi görməyi və ya vacib olmayan xeyirxah bir əməli yerinə yetirməyi özünə vacib etməsidir. Uca Allah buyurur: **"Onlar vəd etdikləri nəziri verər və dəhşəti *hər yeri* sarsıdacaq gündən qorxarlar."** (əl-İnsan, 7).

Burada ibadətin bəzi növlərini qeyd etdik. Bütün bu ibadətlər yalnız Allaha yönəlməli və Ondan qeyrisinə aid edilməməlidir.

İbadət, hansı əzalarla yerinə yetirilməsi baxımından üç qismə bölünür:

**Birinci qism** – qəlblə olunan ibadətlərdir ki, buna sevgi, qorxu, ümid bəsləmək, yönəlmək, qorxmaq, təvəkkül etmək və s. aiddir.

**İkinci qism** – dillə olunan ibadətlərdir ki, buna həmd etmək, lə iləhə illəllah demək, subhanallah demək, bağışlanma diləmək, Quran oxumaq, dua etmək və s. aiddir.

**Üçüncü qism** – bədən üzvləri ilə olunan ibadətlərdir ki, buna da namaz, oruc, zəkat, həcc, sədəqə, cihad və s. aiddir.

### *III mövzu.*
### *Peyğəmbərin ﷺ tövhidin toxunulmazlığını qoruması.*

Peyğəmbər ﷺ ümmətinə ürəkdən qayğı göstərər və əlindən gələni edərdi ki, ümməti qüdrətli və sarsılmaz olub tövhiddən möhkəm yapışsın və ona zidd olan, onu puç edən bütün vasitələrdən və səbəblərdən çəkinsin. Uca Allah buyurur: **"Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir."** (ət-Tovbə, 128).

Peyğəmbər ﷺ dəfələrlə (ümmətinə) Allaha şərik qoşmağı qadağan etmiş, (onları) şirkdən çəkindirmiş və əzabla qorxutmuşdur. O, bunu təkrar-təkrar yada salmış, həm xüsusi, həm də ümumi şəkildə həzər edərdi ki, təkAllahlığı – İbrahimlə عليه السلام göndərilmiş pak və hənif dinini, onu alçaldacaq və hörmətdən salacaq hər bir sözdən və əməldən qorusun. Bu haqda Sünnədə çoxlu dəlillər vardır. Bunların sayəsində Peyğəmbər ﷺ (ümmətinə) hüccət qaldırmış, şübhələri dəf etmiş, üzrləri yox etmiş və özündən sonra aydın bir yol qoyub getmişdir.

Növbəti fəsildə Peyğəmbərin ﷺ tövhidi necə qoruduğunu, onun şirkə və batilə aparan yolların qarşısını necə aldığını qeyd edəcəyik.

**Birinci məsələ. Ovsun.**

**a) Tərifi.** Ovsun dedikdə, şəfa tapmaq və sağalmaq məqsədilə Quran ayələri və ya Peyğəmbərdən ﷺ varid olmuş dualar vasitəsilə oxuyub üfürmək nəzərdə tutulur.

**b) Hökmü.** Ovsun oxumaq caizdir və buna aşağıdakıları dəlil göstərmək olar:

Auf ibn Malik رضي الله عنه demişdir: "Biz cahiliyyə dövründə ovsun oxuyardıq. (İslama gəldikdən sonra) Peyğəmbərdən ﷺ: "Ya Rəsulullah, bu haqda nə deyə bilərsən?"– deyə soruşduq. Dedi: "Ovsunları-

nızı mənə göstərin görüm. Tərkibində şirk olmayan ovsunu oxumaqda heç bir eyib yoxdur." Hədisi Muslim rəvayət etmişdir.[1]

Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullah ﷺ gözdəymədən, zəhərlənmədən və *bədəndə çıxan* yaralardan qorunmaq üçün ovsun oxumağa icazə verdi." Hədisi Muslim rəvayət etmişdir.[2]

Cabir ibn Abdullah ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Qardaşına fayda verə bilən hər kəs bunu ondan əsirgəməsin." Hədisi Muslim rəvayət etmişdir.[3]

Aişə ﷺ demişdir: "Bizlərdən birimizin bir yeri ağrıyanda Rəsulullah ﷺ sağ əlini ağrıyan yerə sürtər və deyərdi: "Ey insanların Rəbbi, bu xəstəliyi aradan qaldır və şəfa ver. Axı Sənsən Şəfa verən! Sənin verdiyin şəfadan başqa bir şəfa yoxdur. Elə bir şəfa ki, bundan sonra heç bir xəstəlik qalmaz." Hədisi Buxari və Muslim rəvayət etmişlər.[4]

**c) Şərtləri.** Ovsun oxumağın düzgün və caiz olmasının üç şərti vardır:

1. Gərək ovsun oxuyan kəs oxuduğunun özü-özlüyündə faydalı olduğuna yox, yalnız Allahın şəfa verəcəyinə etiqad etsin. Ovsunun özünün faydalı olmasına etiqad etmək haram və şirk hesab olunur. Əksinə, etiqad etməlidir ki, ovsun sadəcə səbəbdir, və bu, yalnız Allahın izni ilə fayda verə bilər.

2. Gərək ovsunda şəriətə müxalif sözlər olmasın. Misal üçün, Allahdan başqasına dua etmək, yaxud cinlərdən mədəd diləmək və ya başqa bu kimi ovsunlar haram və şirk sayılır.

3. Gərək ovsunun sözləri aydın və anlaşılan olsun. Tilsim oxumaq və ya şarlatanlıq etmək qadağandır.

Bir dəfə İmam Malikdən soruşurlar ki, ovsun oxumaq, yaxud oxutmaq olarmı? O belə cavab verir: "Əgər gözəl sözlərlədirsə, olar."

---

[1] "Səhih Muslim", 2200.
[2] "Səhih Muslim", 2196.
[3] "Səhih Muslim", 2199.
[4] "Səhih Buxari", 5743; "Səhih Muslim", 2191.

**ç) Qadağan olunmuş ovsun.** Yuxarıdakı şərtləri özündə cəm etməyən bütün digər növ ovsunlar qadağan və haramdır. Yəni ovsunun özünün faydalı olduğunu etiqad edərək oxumaq, yaxud şirk, küfr və bidət sözlərindən ibarət olan ovsunları oxumaq, yaxud da başa düşülməyən tilsimləri oxumaq haramdır.

**İkinci məsələ. Həmail.**

**a) Tərifi.** Fayda gətirmək və ya pislikdən qorunmaq üçün boyundan asılan dua, sümük, muncuq və sairəyə deyilir. Ərəblər cahiliyyə dövründə övladlarını gözdəymədən qorumaq iddiası ilə onların boyunlarından həmail asardılar.

**b) Hökmü.** Haramdır.

Burada Allahdan başqasına bağlılıq olduğuna görə bu, şirkin bir növü sayılır. Çünki qoruyan yalnız Allahdır və pisliklərdən yalnız Allah, bir də Onun ad və sifətləri vasitəsilə qorunmaq olar.

İbn Məsud ﷺ demişdir ki, mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Şübhəsiz ki, tilsimlər, həmaillər və tivələ[1] şirkdir." Hədisi Əbu Davud və Hakim rəvayət etmişdir.[2]

Abdullah ibn Ukeym ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə demişdir: "Kim (boynundan, paltarından və s.) bir şey assa, elə ona da həvalə edilər." Hədisi Əhməd, Tirmizi və Hakim rəvayət etmişdir.[3]

Uqbə ibn Amir ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə demişdir: "(Boynundan) həmail asan kimsəyə Allah salamatlıq nəsib eləməsin, balıqqulağı asan kimsəyə də Allah rahatlıq verməsin!" Hədisi Əhməd və Hakim rəvayət etmişdir.[4]

---

[1] Tivələ – qadını ərinə sevdirmək üçün istifadə olunan sehr növü.

[2] "Sunən Əbu Davud", 3883; "Mustədrək əl-Hakim", 4/241. Hakim hədisi səhih saymış, Zəhəbi də onunla razılaşmışdır.

[3] "Musnəd Əhməd", 4/310; "Sunən ət-Tirmizi", 2072; "Mustədrək əl-Hakim", 4/241. Hakim hədisi səhih saymışdır.

[4] "Musnəd Əhməd", 4/154; "Mustədrək əl-Hakim", 4/240. Hakim hədisi səhih saymış, Zəhəbi də onunla razılaşmışdır.

Uqbə ibn Amir رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ belə demişdir: "Həmail asan kimsə Allaha şərik qoşmuş olur." Hədisi Əhməd rəvayət etmişdir.[1]

Bütün bu dəlillər cahiliyyə dövründə ərəblərin oxuduqları və içərisində şirk olan ovsunlara aiddir. Bunlarda Allahdan qeyrilərinə bağlılıq və şirk olduğuna görə qadağan edilmişdir.

**c)** İçində Quran ayələri yazılmış həmaillərə gəlincə, bu xüsusda İslam alimləri ixtilaf etmişlər. Bəziləri bunu caiz hesab etmiş, digərləri isə haram saymış və: "Şəfa tapmaq məqsədilə boyundan Quran asmaq olmaz"– demişlər. Bu rəy aşağıdakı əsaslara görə daha doğru hesab edilir:

**Birincisi,** həmail asmağı qadağan edən dəlillər ümumidir (hər cür həmailə aiddir) və bunu xüsusiləşdirən (hansısa həmailin daşınmasına rüsxət verən) bir dəlil yoxdur.

**İkincisi,** daha böyük günaha aparan yolun qarşısını kəsmək üçün: belə ki, bu gün boynundan Quran ayəsi asan kimsə, sabah başqa həmailləri də asa bilər.

**Üçüncüsü,** Quranı boynundan asan kimsə onunla ayaqyoluna getdikdə və orada təbii ehtiyacını rəf etdikdə, yuyunduqda və başqa bu kimi natəmiz işlərdə Allahın ayələrinə qarşı hörmətsizlik etmək məcburiyyətində qalacaq.

**Dördüncüsü,** şəriətə görə Quran oxumaq vasitəsilə şəfa diləmək yalnız müəyyən formada caizdir. Bu da, xəstəyə Quran oxumaqdır ki, bundan artığını da etmək olmaz.

**Üçüncü məsələ. Həlqə, sap və buna bənzər şeylər taxmaq.**

**a)** Həlqə dedikdə dəmir, qızıl, gümüş və ya misdən olan dairə nəzərdə tutulur. Sap isə məlumdur – yundan da ola bilər, kətandan da. Cahiliyyə dövründə ərəblər gözdəymədən qorunmaq, xeyir əldə

---

[1] "Musnəd Əhməd", 4/156; "Mustədrək əl-Hakim", 4/244. Hakim hədisi səhih saymış, Abdurrəhman ibn Həsən isə demişdir ki, hədisin raviləri etibarlıdır.

etmək və şərdən qorunmaq üçün bunları asardılar. Uca Allah buyurur: **"De: "Bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi? Ya da O mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?" De: "Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!"** (əz-Zumər, 38); **"De: "Allahdan başqa məbud saydıqlarınızı çağırın. Onlar bəlanı sizdən nə uzaqlaşdırmağa, nə də** ***onu başqasına*** **yönəltməyə qadir deyillər."** (əl-İsra, 56).

İmran ibn Husayn رضي الله عنه demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ bir kişinin qolunda misdən bir həlqə gördü və (ondan): "Bu nədir belə?"– deyə soruşdu. O dedi: "Taxıram ki, ağrılarımı azaltsın." Peyğəmbər ﷺ buyurdu: "Çıxart onu, çünki o sənin ancaq zəifliyini artırır, onu at getsin, əgər o sənin üzərində olduğu halda ölsən, heç vaxt nicat tapmayacaqsan." Hədisi Əhməd rəvayət etmişdir.[1]

Bir dəfə Huzeyfə ibn Yəmən رضي الله عنه bir kişinin qızdırmadan qorunmaq üçün əlinə bağladığı bir ipi qırdı və bu ayəni oxudu: **"Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir."** (Yusuf, 106).

**b)** Həlqə, sap və s. taxmağın hökmü haramdır. Əgər bunu edən kəs bunların öz gücü ilə təsir etdiyinə etiqad edərsə, həmin şəxs Rububiyyət tövhidində böyük şirk etmiş olur. Çünki bu zaman o Allahdan başqa idarə edənin olduğuna etiqad etmiş olur. Allah isə Ona qoşulan şəriklərdən ucadır və uludur.

Yox, əgər etiqad etsə ki, təsir edən yalnız Allahdır, lakin bu həlqə, sap və s. sadəcə bir səbəbdir, bu zaman həmin şəxs kiçik şirkə yol vermiş olur. Çünki o səbəb olmayan bir şeyi səbəb hesab edərək qəlbini qeyrisinə yönəltmiş olur. İnsanın qəlbi həmin şeyə bağlandıqda ondan şəri dəf edərək xeyir gətirməsini umacaqdır ki, bu da nəticədə böyük şirkə yol verməsinə gətirib çıxaracaqdır.

---

[1] "Musnəd Əhməd", 4/445.

**Dördüncü məsələ. Daşlardan, ağaclardan və başqa bu kimi digər şeylərdən bərəkət diləmək.**

Təbərrük etmək bərəkət diləmək deməkdir. Bərəkət diləmək isə iki cür ola bilər:

1. Şəriətin buyurduğu məlum bir şeylə, məsələn Quranla təbərrük etmək. Uca Allah buyurur: **"Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır"** (əl-Ənam, 92, 155). Quranın bərəkəti ondadır ki, bu Kitab insanlara doğru yol göstərir, qəlblərə şəfa verir, nəfsləri islah edir, əxlaqı gözəlləşdirir və s.

2. Və ya şəriətin buyurmadığı qaydada – daşlar, ağaclar, qəbirlər, məqbərələr, xüsusi yerlər və sairə ilə təbərrük etməkdir ki, bunların hamısı şirk sayılır.

Əbu Vaqid əl-Leysi ﷺ demişdir: "Biz Peyğəmbərlə ﷺ birlikdə Huneyn deyilən yerə getdik. Həmin vaxt biz hələ İslamda təzə idik. Müşriklərin orada başına toplanıb silahlarını üzərindən asdıqları zatul-Anvat adlı sidr[1] ağacı var idi. Biz onun yanından keçərkən Peyğəmbərə ﷺ dedik: "Ya Rəsulullah, onların zatul-Anvat ağacı olduğu kimi, bizim üçün də belə bir ağac seç." Peyğəmbər ﷺ buyurdu: "Allahu Əkbər! Bu, əvvəlkilərin yoludur. Allaha and olsun ki, siz İsrail oğullarının Musaya dediyi kimi dediniz: **"Onların məbudları olduğu kimi, bizim üçün də bir məbud düzəlt.** ***Musa*** **dedi: "Həqiqətən, siz cahil bir tayfasınız."** (əl-Əraf, 138). Heç şübhəsiz ki, siz özünüzdən əvvəlkilərin yolunu tutub gedəcəksiniz." Hədisi Tirmizi səhih olaraq rəvayət etmişdir.[2]

Bu hədisdən bəlli olur ki, ağaclardan, qəbirlərdən, daşlardan və sairədən bərəkət ummaq, habelə onların ətrafında toplaşmaq və qurban kəsmək şirkdir. Elə buna görə hədisdə onların dediyi, İsrail oğullarının **"Onların məbudları olduğu kimi, bizim üçün də bir məbud düzəlt."** dediyinə bənzədilir. Bunlar müşriklər kimi sidr ağacı ilə təbərrük etmək istəyirdilər. İsrail oğulları da həmçinin müşriklərin ilahı kimi bir ilah istəmişdilər. Bu tələblərin hər ikisi tövhidə ziddir. Çünki

---

[1] Sidr tikanlı ağac növüdür.

[2] "Sunən ət-Tirmizi", 2180.

ağacdan bərəkət diləmək şirkin bir növüdür, Allahdan qeyrisini ilah seçmək isə açıq-aydın şirk hesab olunur.

Peyğəmbərin ﷺ: "Siz özünüzdən əvvəlkilərin yolunu tutub gedəcəksiniz" sözlərinə gəlincə, bu Peyğəmbərin ﷺ öz ümmətinin başına gələcək bir şeyi əvvəlcədən xəbər verməsidir və o, həm xəbərdarlıq, həm də qadağan etmişdir.

**Beşinci məsələ. Qəbirlərlə bağlı bəzi əməllərin qadağan olması barədə.**

İnsanlar cahiliyyətdən yeni çıxdıqları üçün, habelə tövhidin qorunması naminə İslamın ilk dönəmində qəbirləri ziyarət etmək qəti qadağan olunmuşdu. İman insanların qəlbinə yeridikdə və hər tərəfə yayıldıqda, tövhidin dəlilləri aydın olduqda və şirkin şübhələri aradan qalxdıqda, şəriət müəyyən qaydalar, hədəflər və məqsədlər çərçivəsində qəbirləri ziyarət etməyə icazə verdi.

Bureydə ibn Husayb ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: "Mən sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, indi isə onları ziyarət edin." Hədisi Muslim rəvayət etmişdir.[1]

Əbu Hureyra ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Qəbirləri ziyarət edin, çünki onlar sizə ölümü xatırladır."[2]

Əbu Səid əl-Xudri ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mən sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, indi isə onları ziyarət edin, çünki bunda ibrət vardır."[3]

Ənəs ibn Malik ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mən sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, indi isə onları ziyarət edin, çünki bu qəlbləri yumşaldır, gözləri yaşardır və axirəti yada salır. Lakin orada artıq-əskik söz danışmayın."[4]

---

[1] "Səhih Muslim", 977.

[2] "Səhih Muslim", 975.

[3] "Musnəd Əhməd", 3/38; "Mustədrək əl-Hakim", 1/531.

[4] "Mustədrək əl-Hakim", 1/532.

Bureydə ﷺ demişdir: "Allahın Rəsulu ﷺ bizlərə qəbirləri ziyarət etməyə gedərkən bu sözləri deməyi öyrədərdi: "Ey bu diyarın mömin və müsəlman sakinləri! Sizlərə salam olsun! İn şaa Allah biz də sizlərə qovuşacağıq. Allahdan həm özümüzə, həm də sizlərə salamatlıq diləyirəm." Hədisi Muslim rəvayət etmişdir.[1]

Bu mənada varid olan bütün hədislər qadağan olunduqdan sonra qəbirləri iki məqsədlə ziyarət etməyin lazım olduğunu bildirir:

**Birincisi,** dünyaya könül bağlamamaq, axirəti, ölümü və çürüməyi xatırlamaq, habelə qəbirdəkilərdən ibrət almaq üçündür. Bu da insanın imanını artırır, onun yəqinliyini və Allaha olan bağlılığını daha da möhkəmləndirir, üstəlik onu Allahdan üz çevirməkdən və qafil olmaqdan qoruyur.

**İkincisi,** ölülər üçün dua etmək, Allahdan onlar üçün rəhmət, bağışlanma və əfv diləməklə ölülərə yaxşılıq etmək.

Qeyd etdiyimiz dəlillər məhz bunları əmr edir. Kim bundan başqa bir şeyi iddia edərsə, ondan bunu əsaslandırması və dəlil-sübut gətirməsi tələb olunar.

Peyğəmbərimizin ﷺ sünnəsi tövhidi qorumaq üçün qəbirlərlə bağlı bir sıra məsələləri qadağan etmişdir ki, hər bir müsəlman zəlalətə düşməsin və batilə yol verməsin deyə bunları öyrənməlidir. Bu qadağalara aşağıdakılar aiddir:

**1. Ziyarət əsnasında artıq-əskik sözlər danışmaqdan çəkinmək.**

Az öncə qeyd etdiyimiz hədisdə Peyğəmbər ﷺ demişdir: "Artıq-əksik sözlər danışmayın." Burada artıq-əksik sözlər deyildikdə, şəriətin qadağan etdiyi sözlər nəzərdə tutulur ki, bunların da önündə qəbirlərə dua edib onlardan istəməklə Allaha şərik qoşmaq, onlardan mədəd və yardım diləmək gəlir. Bunlar açıq-aşkar şirk və küfrdür. Bir çox hədislərdə Peyğəmbər ﷺ bunları qadağan etmiş, bu yaramazlıqları edənləri isə lənətləmişdir. Muslimin "Səhih" əsərində Cundəb ibn Abdullahın ﷺ belə dediyi rəvayət olunur: "Peyğəmbərin

[1] "Səhih Muslim", 975.

ﷺ vəfatından beş gün əvvəl onun belə dediyini eşitdim: "Bilin ki, sizdən əvvəlkilər peyğəmbərlərinin və aralarındakı əməlisaleh insanların qəbirlərini məbəd etmişlər. Nəbadə qəbirləri məscidlərə çevirəsiniz! Mən sizə bunu qadağan edirəm."[1]

Deməmk, ölülərə dua etmək, onlardan nə isə istəmək, habelə hər hansı bir ibadəti onlara yönəltmək böyük şirkdir. Qəbirlərin ətrafına toplanıb, onların yanında Allahdan onların dualarını qəbul etməsini diləmək, habelə içərisində qəbir olan məsciddə namaz qılmaq isə dində inkar edilən bidət və yeniliklərdir.

Buxari və Muslimin "Səhih" əsərlərində Aişədən رضي الله عنها rəvayət edilir ki, Peyğəmbər ﷺ ölümündən qabaq belə demişdir: "Allah yəhudilərə və xristianlara lənət eləsin! Onlar peyğəmbərlərinin qəbirlərini ibadətgaha çevirmişlər."[2]

**2. Qəbirlərin yanında qurban kəsmək.**

Əgər bu əməl, qəbirdəkilər onların istəklərini yerinə yetirsin deyə onlara yaxınlaşmaq üçün edilirsə, bu böyük şirk sayılır. Yox əgər başqa məqsədlə edilirsə, onda bu, ən təhlükəli bidətlərdən – şirkə aparan ən böyük vasitələrdən hesab edilir. Peyğəmbər ﷺ demişdir: "İslamda (cahiliyyə dövründə olduğu kimi) qurban kəsmək yoxdur." Abdur-Rəzzaq demişdir: "O zaman müşriklər qəbirlərin yanında inək və ya qoyun kəsərdilər."[3]

**3, 4, 5, 6, 7. Qəbrin içərisindən çıxan torpaqdan əlavə torpaq qoymaqla onu hündür etmək, onu gipslə suvamaq, üzərində yazı yazmaq, üzərində tikili ucaltmaq və üzərində oturmaq barədə.**

Bütün bu sadalananlar həmin o bidətlərdir ki, yəhudilər və xaçpərəstlər bunların vasitəsilə azğınlığa düşmüşlər. Bunlar şirkə aparıb çıxaran ən böyük vasitələrdən sayılır. Cabir رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ qəbirləri gipslə suvamağı, onların üzərində oturmağı, üzərlərində tikili bina etməyi, yer səviyyəsindən hündür etməyi və üzərin-

---

[1] "Səhih Muslim", 532.

[2] "Səhih əl-Buxari", 1330; "Səhih Muslim", 531.

[3] "Sunən Əbu Davud", 3222.

də yazı yazmağı qadağan etmişdir." Hədisi Muslim, Əbu Davud və Hakim rəvayət etmişdir.[1]

**8. Qəbirlərə tərəf və ya onların yanında namaz qılmaq.**

Əbu Mərsəd əl-Ğənəvi ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Qəbirlərə tərəf namaz qılmayın və onların üzərində oturmayın." Hədisi Muslim rəvayət etmişdir.[2]

Əbu Səid əl-Xudri ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Məzarlıq və hamam istisna olmaqla, bütün yer üzü səcdəgahdır." Hədisi Əbu Davud və Tirmizi rəvayət etmişlər.[3]

**9. Qəbirlərin üzərində məscid tikmək barədə.**

Bu əməl də yəhudi və xaçpərəstlərin gətirdikləri bidətlərdəndir. Əvvəldə qeyd etmişdik ki, Aişənin ﷺ rəvayət etdiyi hədisdə deyilir: "Allah yəhudi və nəsranilərə lənət etsin, onlar öz peyğəmbərlərinin qəbirlərini məscidlərə çevirdilər."

**10. Qəbirləri ziyarət etməyi adət halına salmaq.**

Bu da, böyük bir zərəri olduğuna görə barəsində açıq-aydın qadağalar varid olan bidətlərə aiddir. Əbu Hureyra ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mənim qəbrimi ziyarətgaha çevirməyin, evlərinizi də qəbirstanlığa döndərməyin, harada olsanız mənə salavat deyin və bilin ki, sizin salavatınız mənə çatdırılır". Hədisi Əbu Davud və Əhməd rəvayət etmişlər.[4]

**11. Ziyarətgahları ziyarət etmək məqsədilə səfərə çıxmaq.**

Bu da qadağan edilmiş əməllərdəndir. Çünki bu əməl şirkə aparan vasitələrdəndir. Əbu Hureyra ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Üç məsciddən başqa heç bir yerə (ibadət məqsədi ilə) səfər etmək olmaz: (bu) – Məscidül-Həram, Peyğəmbərin ﷺ məs-

---

[1] "Səhih Muslim", 970; "Sunən Əbu Davud", 3225; "Mustədrək əl-Hakim", 1/525.

[2] "Səhih Muslim", 972.

[3] "Sunən Əbu Davud", 492; "Sunən ət-Tirmizi", 317. Hakim hədisi səhih saymış, Zəhəbi də onunla razılaşmışdır.

[4] "Sunən Əbu Davud", 2042; "Musnəd Əhməd", 2/367.

cidi və Məscidül-Əqsadır." Hədisi Buxari və Muslim rəvayət etmişlər.[1]

**Altıncı məsələ. Təvəssül.**

**a) Tərifi.** "Təvəssül" vəsilə sözündən əmələ gəlmişdir – insanın öz muradına çatması üçün səy göstərməsinə deyilir.

Şəriətdə isə Allahın buyurduqlarını yerinə yetirib, qadağan etdiklərindən çəkinməklə Onun razılığını və Cənnəti qazanmağa deyilir.

**b) Qurani Kərimdə vəsilə sözünün mənası.**

Qurani Kərimdə iki yerdə vəsilə sözü işlənmişdir:

1. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allahdan qorxun, Ona *yaxınlaşmaq üçün* vasitə axtarın və Onun yolunda cihad edin ki, bəlkə nicat tapasınız."** (əl-Maidə, 35).

2. Uca Allah buyurur: **"Onların yalvardıqları məbudların özləri də Rəbbinə – hansı daha yaxın olacaq deyə vəsilə axtarırlar, Onun rəhmətini umurlar, əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabından qorunmaq gərəkdir."** (əl-İsra, 57).

Hər iki ayədə vəsilə sözünün mənası Allahı razı salacaq əməlləri yerinə yetirməklə Ona yaxınlaşmaq deməkdir. Hafiz İbn Kəsir birinci ayənin təfsirində İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdir: "Vəsilə yaxınlaşmaq deməkdir." Bunun bənzəri Mücahid, Əbu Vail, Həsən əl-Bəsri, Abdullah ibn Kəsir, əs-Suddi, İbn Zeyd və başqalarından da nəql olunmuşdur.[2]

İkinci ayəyə gəlincə, möhtərəm səhabə Abdullah ibn Məsud ﷺ onun nazil olması və mənası barədə demişdir: "Bu ayə bir dəstə cinə ibadət edən bir dəstə ərəb barəsində nazil olmuşdur. Həmin şəxslərin özləri də hiss etmədən ibadət etdikləri cinlər İslamı qəbul etmişdilər."[3]

---

[1] "Səhih əl-Buxari", 1189; "Səhih Muslim", 1397.

[2] "Təfsir ibn Kəsir", 2/50.

[3] "Səhih Muslim", 3030; "Səhih əl-Buxari", 4714.

Buradan aydın olur ki, vəsilə deyildikdə, saleh əməllər və şanlı ibadətlər vasitəsilə Allaha yaxınlaşmaq nəzərdə tutulur. Uca Allahın: **"Onların yalvardıqları məbudların özləri də Rəbbinə – hansı daha yaxın olacaq deyə, vəsilə axtarırlar."** Yəni onların özləri də Allaha yaxınlaşmaq və Onun razılığını qazanmaq üçün, onları Allaha yaxınlaşdıracaq əməlləri vasitə götürürlər.

**c) Təvəssülün növləri:**

Təvəssül iki qisimdir: icazə verilən və qadağan olunan təvəssül.

**1. İcazə verilən təvəssül.** Burada Quran və Sünnədə əsası olan və şəriətin icazə verdiyi formada təvəssül etmək nəzərdə tutulur. Quran və Sünnədə göstərilən təvəssül formaları caiz, qeyriləri isə qadağan hesab olunur.

İcazə verilən təvəssül də üç növdür:

**Birincisi,** Allahın gözəl adları və əzəmətli sifətləri ilə təvəssül etmək. Müsəlman kəs dua etdikdə deyir: "Allahım, Səndən bağışlanmağımı diləyirəm! Axı Sən Mərhəmətlisən, Rəhmlisən!" və ya deyir: "Allahım! Səndən hər şeyi əhatə edən mərhəmətinlə məni bağışlamanı diləyirəm!"

Təvəssülün bu növünə dəlil Uca Allahın bu ayəsidir: **"Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsilə dua edin."** (əl-Əraf, 180).

**İkincisi,** insanın, hər hansı bir yaxşı əməl vasitəsilə təvəssül etməsidir. Belə olduqda məsələn adam deyir: "Allahım, Sənə olan imanıma görə, Sənə olan sevgimə görə, Sənin elçinə etdiyim itaətə görə məni bağışla!", yaxud deyir: "Allahım, Sənin peyğəmbərin Muhəmmədə ﷺ olan sevgimə, bir də ona olan imanıma görə mənim işimi avand et." Ya da ki, insanın nə vaxtsa etdiyi bir yaxşı əməli xatırlatmaqla təvəssül etməsidir. Buna dəlil olaraq üç nəfərin mağarada qalması hədisini qeyd edəcəyik.

Bu növ təvəssülə dəlil Uca Allahın bu ayələridir: **"O kəslər ki: "Ey Rəbbimiz! Həqiqətən, biz iman gətirdik, bizim günahlarımızı bağışla və bizi Od əzabından qoru!"– deyirlər."** (Ali-İmran, 16); **"Ey Rəbbimiz! Biz sənin nazil etdiyinə iman gətirdik və *göndərdi-***

***yin* elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!"** (Ali-İmran, 53).

Həmçinin dəlil olaraq mağara hədisini də misal göstərmək olar. Abdullah ibn Ömər رضي الله عنهما rəvayət edir ki; "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Sizdən əvvəl yaşamış ümmətlərdən üç nəfər səfərə çıxdı və *yolda* yağışdan daldalanmaq üçün bir mağaraya çəkildilər. Onlar mağaraya daxil olduqdan sonra dağdan böyük bir qaya parçası yuvarlanıb yerə düşdü və mağaranın ağzını qapadı. Onlar *bir-birlərinə* dedilər: "Sizi bu qaya parçasından ancaq etdiyiniz yaxşı əməllərinizin vasitəsilə Allaha dua etməyiniz qurtara bilər. Onlardan birisi dedi: "Ey Allahım! Mənim qoca ata-anam var idi. Mən hər axşam onlara süd içirtməmiş nə ailəmə, nə də xidmətçilərimə süd verməzdim. Bir gün mən bir iş dalınca çox uzağa getdim, evə qayıtdıqda ata-anam artıq yatmışdı; mən onlar üçün süd sağıb gətirdim, lakin *gəlib* onları yatmış gördüm. Mən onlara süd içirtməmiş ailəmə və xidmətçilərimə süd vermək istəmədim. Odur ki, sübh açılanadək əlimdə *süd dolu* bardaq onların yuxudan oyanmasını gözlədim. *Nəhayət,* onlar yuxudan oyanıb südlərini içdilər. Allahım, əgər mən bunu Sənin Üzünü dilədiyimə görə etmişəmsə, bizi bu qaya parçasına görə düşdüyümüz *çətinlikdən* qurtar!" Bundan sonra *mağaranın keçidi* bir balaca açıldı, lakin onlar *bayıra* çıxa bilmədilər". Peyğəmbər ﷺ buyurdu: "Digəri dedi: "Ey Allahım! Mənim hamıdan çox sevdiyim bir əmim qızı var idi. Mən onun könlünü ələ almaq istədim, lakin o mənə könül vermədi. Aradan illər keçdi. Nəhayət, *quraqlıq ilində* o mənim yanıma gəldi və mən ona mənimlə yaxınlıq etmək şərtilə yüz iyirmi dinar təklif etdim. O da buna razılıq verdi. Mən onu ağuşuma aldıqda o dedi: "Haqsız yerə bakirəliyimi pozmağa sənə halallıq vermirəm". Mən onu ələ almaqla günah qazanacağımdan qorxdum, onu buraxıb getdim, ona verdiyim qızılı da ona bağışladım. Halbuki o mənim üçün ən əziz insan idi. Allahım, əgər mən bunu Sənin Üzünü dilədiyimə görə etmişəmsə, bizi bu düşdüyümüz *çətinlikdən* qurtar!" Bundan sonra qaya parçası yerindən bir az da tərpəndi, lakin onlar mağaradan çıxa bilmədilər." Peyğəmbər ﷺ buyurdu: "Üçüncüsü dedi: "Ey Allahım! *Bir dəfə* mən bir dəstə işçi tutdum və onların hamısının zəhmət haqqını

verdim. Yalnız biri öz zəhmət haqqını almadan çıxıb getdi. Mən onun zəhmət haqqını işə qoydum və onun malları artdı. Xeyli vaxt keçdikdən sonra həmin adam gəlib dedi: "Ey Allahın qulu, mənim zəhmət haqqımı ver!" Mən ona dedim: "Gördüyün bu dəvələr, inəklər, qoyunlar və kölələr sənin zəhmət haqqındır." O dedi: "Ey Allahın qulu, mənə istehza etmə!" Mən dedim: "Mən sənə istehza etmirəm." Bundan sonra adam malların hamısını sürüb apardı və onlardan heç bir şey saxlamadı. Allahım, əgər mən bunu Sənin Üzünü dilədiyimə görə etmişəmsə, bizi bu düşdüyümüz *çətinlikdən* qurtar!" Beləliklə, qaya parçası tamamilə aralandı və onlar oradan çıxıb getdilər." Hədisi Buxari rəvayət etmişdir.[1]

**Üçüncüsü,** dualarının qəbul olacağı güman olunan əməlisaleh bir şəxsin duası ilə təvəssül etmək. Məsələn, biri əməlisaleh, təqvalı bir şəxsin yanına gedib ondan düşdüyü çətinlikdən qurtulması və işinin asanlaşması üçün dua etməsini istəyir.

Bu növ təvəssülün caiz olmasına dəlil səhabələrin Peyğəmbərin ﷺ yanına gələrək onlar üçün ümumi və xüsusi şəkildə dua etməsini istəmələridir.

Ənəs رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ cümə günü xütbə verərkən bir nəfər minbərin qarşısındakı qapıdan içəri daxil oldu və Peyğəmbərlə ﷺ üzbəüz durub dedi: "Ya Rəsulullah, mal-qara məhv oldu, yollar bağlandı, Allaha dua et ki, bizə yağmur endirsin." Peyğəmbər ﷺ əllərini *göyə* qaldırıb dedi: "Allahım, bizə yağmur endir! Allahım, bizə yağmur endir! Allahım, bizə yağmur endir!" Vallahi, *həmin an* biz göydə nə bir bulud, nə bir bulud parçası, nə də başqa bir şey görürdük. Bizimlə Səl dağının arasında nə bir ev, nə də bir koma vardı. *Bu vaxt* dağın arxasından qalxanabənzər bir bulud göründü. O gəlib göyün ortasına çatdıqdan sonra *ətrafa* yayıldı və yağış yağmağa başladı. Vallahi, altı gün biz günəşi görmədik. Növbəti cümə günü Peyğəmbər ﷺ xütbə verərkən *yenə* bir nəfər həmin qapıdan içəri daxil oldu və Peyğəmbərlə ﷺ üzbəüz durub dedi: "Ya Rəsulullah, mal-

[1] "Səhih əl-Buxari", 3465.

lar zay oldu, yollar bağlandı. Allaha dua et ki, yağışı dayandırsın. Peyğəmbər ﷺ əllərini *göyə* qaldırıb dedi: "Allahım, *yağışı* üstümüzə deyil, ətrafımıza yağdır. Allahım, *onu* təpələrə, dağlara, bağlara, yamaclara, vadilərə və ağac bitən yerlərə *yağdır*!" Yağış kəsdi və biz günəşli havada *gəzişmək üçün* bayıra çıxdıq."

Şureyk dedi: "Mən Ənəsdən: "(Bir həftədən) sonra gələn adam birinci dəfə gələn həmin adam idimi?"– deyə soruşdum. Ənəs: "Bilmirəm"– dedi."[1]

Peyğəmbər ﷺ ümmətindən yetmiş min nəfərin sorğu-suala çəkilmədən və əzaba düçar olmadan Cənnətə girəcəyini bildirərkən demişdir: "Bunlar özlərinə ovsun oxunmasını tələb etməyən, *hər hansı bir hadisəni* uğursuzluq əlaməti saymayan, *müalicə məqsədilə* bədəninə dağ basmayan və yalnız Rəbbinə təvəkkül edən kimsələrdir." Bu vaxt Ukkaşə ibn Mihsən ayağa qalxıb dedi: "Ya Rəsulullah, Allah dua et ki, məni onlardan etsin!" Peyğəmbər ﷺ: "Sən onlardansan"– dedi."[2] Həmçinin Uveys əl-Qərani barəsində olan hədis də buna dəlildir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "Ondan sizlər üçün bağışlanma diləməsini istəyin."[3]

Bu növ təvəssül yalnız diri olan kimsədən istənilə bilər, ölülərə gəlincə isə onlardan bunu diləmək olmaz. Çünki o, hər hansı bir əməli etmək iqtidarında deyildir.

**2. Qadağan olunmuş təvəssül.** Burada təvəssülün şəriətdə buyurulmayan əməllərlə edilən növü nəzərdə tutulur. Bu növ təvəssül metodlarının biri digərindən daha təhlükəlidir. Onlardan bəzilərini qeyd edirik:

**Birincisi,** Allaha, ölülər və mövcud olmayan şəxslər vasitəsilə dua edib, onlardan kömək istəmək, yardım diləmək, sıxıntıları ara-

---

[1] "Səhih əl-Buxari", 1013; "Səhih Muslim", 897.

[2] "Səhih əl-Buxari", 5705; "Səhih Muslim", 218.

[3] "Mişkat əl-Məsabih", 6257;

dan qaldırmaq və sairədir ki, bu da böyük şirk olub adamı İslam ümmətindən çıxarır.

**İkincisi,** Allaha, qəbirlərin və məqbərələrin yanında dua edib onlara ibadət etmək, onların üstünü tikib ucaltmaq, üzərinə lampa qoymaq, örtük salmaq və s. ilə olan təvəssüldür ki, bu da tövhidin kamilliyinə zidd olan kiçik şirkdir. Bu isə böyük şirkə aparan bir yoldur.

**Üçüncüsü,** Allaha, peyğəmbərlərin və əməlisaleh insanların Allah yanında olan hörmətləri, yüksək məqamları və dərəcələri vasitəsilə təvəssül etməkdir ki, bu da haram sayılır, daha dəqiq desək, bu, sonradan meydana çıxmış bidətlərdəndir. Çünki bu növ təvəssülü Allah nə buyurmuş, nə də buna izn vermişdir. Uca Allah buyurur: **"Allahmı sizə icazə vermişdir?"** (Yunus, 59). Bir də ki, əməlisaleh şəxslərin hörmətləri yalnız onların özlərinə fayda verir. Uca Allah buyurur: **"İnsan yalnız can atdığı şeyə nail olar."** (ən-Nəcm, 39). Odur ki, Peyğəmbərin ﷺ və onun səhabələrinin dönəmində bu növ təvəssül olmamışdır. Bir çox elm əhlindən bunun qadağan və haram olmasına dair rəvayətlər nəql olunmuşdur.

Əbu Hənifə – Allah ona rəhmət eləsin! – demişdir: "Dua edən kəs belə sözlər deməməlidir: "Səndən filankəsin xatirinə, yaxud Sənin övliyalarının və peyğəmbərlərinin hörmətinə, yaxud Beytul Həramın və ya Məşərül həramın xatirinə diləyirəm."

**ç) Təvəssüllə bağlı şübhələr və onlara cavab.**

Əhli-Sünnə vəl-Cəmaəyə müxalif olanlar öz yanlış mövqelərini əsaslandırmaq və avam adamları özlərinə tərəf çəkmək üçün təvəssül məsələsində şübhəli sitatlar və etiraz doğuran fikirlər gətirirlər. Onların şübhələrini iki qismə bölmək olar:

**Birinci.** Bəzən onlar zəif və uydurma hədislərə əsaslanır ki, bunların zəif və əsassız olduğunu sübuta yetirmək mümkündür. Onların bəzilərini qeyd edirik:

1. "Mənim hörmətimlə təvəssül edin, şübhəsiz ki, Allah yanında mənim hörmətim böyükdür" və ya "Allahdan bir şey dilədikdə, mənim hörmətim vasitəsilə diləyin, şübhəsiz ki, Allah yanında mə-

nim hörmətim böyükdür." Bu batil hədisdir, elm əhlindən heç kəs onu rəvayət etməmişdir və hədis kitablarından heç birində keçmir.

2. "İşləriniz dolaşığa düşdükdə, qəbirdəkilərdən istifadə edin", yaxud "Qəbirdəkilər vasitəsilə yardım diləyin." Alimlərin yekdil rəyinə görə, bu hədis uydurma və Peyğəmbərə ﷺ iftiradır.

3. "Bir kimsə daş barəsində belə yaxşı zənn etsə, həmin daş ona fayda verər" Bu hədis bəzi müşriklər tərəfindən uydurulmuş batil və İslama zidd bir hədisdir.

4. "Adəm xətaya yol verdikdən sonra belə demişdir: "Ey Rəbbim Muhəmmədin xatirinə Səndən məni bağışlamağını diləyirəm." Allah dedi: "Ey Adəm, Mən Muhəmmədi yaratmadığım halda sən onu haradan tanıyırsan?" O dedi: "Ey Rəbbim, Sən məni iki Əlinlə yaradıb mənə Öz ruhundan üfürdüyün zaman mən başımı qaldırıb ərşin dayaqlarının altında: "Lə iləhə illəllah, Muhəmmədən rəsulullah" sözlərini gördüm və bildim ki, Sən Öz İsminlə yanaşı yalnız ən sevimli məxluqunun adını qoyarsan." Allah dedi: "Mən səni bağışladım, əgər Muhəmməd olmasaydı, səni yaratmazdım."[1] Bu hədis də batil və əsassızdır. Buna bənzər digər bir hədis isə budur: "Əgər sən olmasaydın, kainatı yaratmazdım."

Bu kimi yalan və qondarma rəvayətlərə müsəlman nəinki əsaslanmamalı, heç onlara tərəf nəzər belə salmamalıdır.

**İkincisi.** Bir sıra səhih hədislər vardır ki, həmin şəxslər onları düz başa düşmür, onların əsl mənasını təhrif edirlər. Həmin hədislərdən bəziləri bunlardır:

1. Səhih bir hədisdə deyilir: "Quraqlıq olduğu zaman Ömər ibn Xəttab, Abbas ibn Abdulmüttəlibin vasitəsilə Allahdan yağmur diləyib deyərdi: "Allahım, əvvəllər biz Peyğəmbərimiz ﷺ vasitəsilə Səndən yağmur diləyərdik, Sən də bizə yağış göndərərdin. İndi isə biz Peyğəmbərimizin ﷺ əmisi vasitəsilə Sənə təvəssül edirik. Bizə yağmur endir." Bundan sonra yağış yağardı."[2]

---

[1] əl-Albani, "Silsilət əl-əhadis ad-daifə vəl-məuduə" (1/88/25).

[2] "Səhih əl-Buxari", 1010.

Müxaliflər bu hədisi başqa cür yozaraq bildirirlər ki, burada Ömər, Abbasın hörməti vasitəsilə Allahdan diləyirdi. Hədisdəki: "Allahım, əvvəllər biz Peyğəmbərimiz ﷺ vasitəsilə Səndən yağmur diləyərdik"– sözünü Peyğəmbərin ﷺ hörməti vasitəsilə mənasına yozurlar, "indi isə biz Peyğəmbərimizin ﷺ əmisi vasitəsilə Səndən yağış istəyirik" – yəni əmisinin hörməti vasitəsilə.

Şəkk yoxdur ki, bu səhv, hədisin mənasına nə yaxından, nə də uzaqdan uyğun gəlməyən bir açıqlamadır. Belə ki, səhabələr əsla Peyğəmbərin ﷺ hörməti vasitəsilə Allaha təvəssül etməzdilər. Onlar sadəcə Peyğəmbərin ﷺ həyatda olduğu müddətcə ancaq duası vasitəsilə Allaha təvəssül edərdilər. Bu hədisdə də Ömər Peyğəmbərin ﷺ əmisi ilə təvəssül dedikdə, onun hörmətini deyil, duasını nəzərdə tutmuşdu. Əgər hörmət vasitəsilə təvəssül etmək deyilən şey onlara məlum olsaydı, o zaman Ömər nə üçün Peyğəmbəri ﷺ qoyub, onun əmisi ilə təvəssül edirdi?! Yaxud səhabələr ona irad tutardılar ki, biz bəşəriyyətin ən xeyirlisi olan Peyğəmbəri ﷺ qoyub niyə Abbasın vasitəsilə təvəssül etməliyik?! Buna isə heç kəs etiraz etməmişdi. Bu da onu göstərir ki, onlar hörmət xatirinə deyil, dua vasitəsi ilə təvəssül edirdilər.

Beləliklə aydın olur ki, hörmət vasitəsilə təvəssül etməyə caizdir deyənlər üçün bu hədisdə heç bir dəlil-sübut yoxdur.

2. Osman ibn Huneyf rəvayət etmişdir ki, bir dəfə gözü kor bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Allaha dua et məni sağaltsın." Peyğəmbər ﷺ buyurdu: "İstəyirsən sənin üçün dua edim, ya da istəyirsən səbir et, bu sənin üçün daha xeyirlidir." O dedi: "Yox dua et." Peyğəmbər ﷺ ona gözəl bir tərzdə dəstəmaz alıb bu duanı deməyi buyurdu: "Allahım, mən rəhmət olaraq göndərilmiş peyğəmbərin Muhəmməd ﷺ vasitəsilə Səndən diləyirəm, mən bu ehtiyacımın ödənilməsi üçün Allaha dua etdim, Allahım onu mənə şəfaətçi buyur." Hədisi Tirmizi, Əhməd rəvayət etmiş, Beyhəqi isə səhih hədisdir demişdir.[1]

[1] "Sunən ət-Tirmizi", 3578; "Musnəd Əhməd", 4/138.

Müxaliflər bu hədisdən belə bir nəticə çıxarmışlar ki, Peyğəmbərin ﷺ, yaxud əməlisaleh insanların hörməti xatirinə təvəssül etmək olar. Halbuki, bu hədisdə buna dəlil yoxdur. Burada kor bir kişi Peyğəmbərdən ﷺ onun üçün Allaha dua etməsini istəyir. Peyğəmbər ﷺ də: "İstəyirsən sənin üçün dua edim, ya da istəyirsən səbir et"– deyə buyurur. O isə deyir ki: "Dua et." Bu da sübut edir ki, təvəssül Peyğəmbərin ﷺ hörməti və ya özü ilə deyil, duası vasitəsilə olmuşdur. Elm əhli buna əsaslanaraq bu hədisi Peyğəmbərin ﷺ möcüzəsinə və duasının müstəcəb olmasına dəlil gətirmişlər. Belə ki, Peyğəmbərin ﷺ duası sayəsində Allah o kişinin gözlərini açdı. Elə bu səbəbdən də Beyhəqi bu hədisi "Dəlail ən-Nubuvvə (peyğəmbərliyin dəlilləri)" əsərində qeyd etmişdir.[1]

İndiki zamanda Peyğəmbər ﷺ dünyasını dəyişmiş olduğundan heç kəs üçün dua edə bilmədiyinə görə bunu etmək qeyri-mümkündür. Peyğəmbər ﷺ demişdir: "İnsan öldükdən sonra, üç əməl istisna olmaqla, onun bütün əməlləri kəsilir: davamlı sədəqə, faydalı elm və ona dua edən əməlisaleh övlad." Hədisi Muslim rəvayət etmişdir.[2]

Duanın özü də, ölüm gəldikdə kəsilən saleh əməllərdən sayılır.

Hər bir halda bunların bütün iddiaları ya səhih olmadığı, ya da onların düzgün anlamadıqlarına görə əsassızdır.

**Yeddinci məsələ. Həddi aşmaq.**

**a) Tərifi.** Həddi aşmaq deyildikdə, bir şeyi layiq olduğundan artıq tərifləmək və ya pisləmək nəzərdə tutulur.

Şəriətdə isə bu istər əqidədə, istərsə də ibadətdə olsun, Allahın insanlar üçün qoyduğu hüdudları aşmağa deyilir.

**b) Hökmü:** haramdır. Bir çox dəlillər bunu qadağan edir, ondan çəkindirir və bunu edənin aqibətinin yaxşı olmayacağını bildirir. Uca

[1] Beyhəqi, "Peyğəmbərliyə dəlillər", 6/167.
[2] "Səhih Muslim", 1631.

Allah buyurur: **“Ey Kitab əhli! Dininizdə ifrata varmayın və Allah barəsində yalnız həqiqəti deyin.”** (ən-Nisa, 171).

Uca Allah həmçinin buyurur: **“De: “Ey Kitab əhli! Dininizdə haqsız yerə ifrata varmayın. Öncə azmış, bir çoxlarını da azdırmış və doğru yoldan çıxmış bir dəstənin istəklərinə tabe olmayın.”** (əl-Maidə, 77).

İbn Abbas رضي الله عنهما Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Həddinizi aşmaqdan çəkinin! Şübhəsiz, sizdən öncəkiləri həlak edən dinlərində həddi aşmaları olmuşdur.” Hədisi Əhməd və Hakim rəvayət etmişdir. Hakim hədisi səhih hesab etmiş, Zəhəbi də Hakimin bu rəyini dəstəkləmişdir. [1]

İbn Məsud رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “İfrata varanlar həlak oldular.” O bunu üç dəfə təkrar etdi.” Hədisi Muslim rəvayət etmişdir.[2]

Ömər ibn Xəttab رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Nəsranilər Məryəm oğlunu şişirtdikləri tək siz də məni şişirtməyin, mən sadəcə Allahın qulu və elçisiyəm.” Hədisi Buxari rəvayət etmişdir.[3]

Bu hədisin mənası odur ki, xaçpərəstlər İsanı ilahiləşdirdikləri kimi, siz də məni həddindən ziyadə tərifləməyin. Mən Allahın quluyam, odur ki, məni, Rəbbimin məni vəsf etdiyi kimi vəsf edin – Allahın qulu və elçisi deyin. Əfsuslar olsun ki, insanlar zəlalətə düşərək Peyğəmbər ﷺ barəsində həddi aşıblar. Nəsranilər İsanı şişirtdikləri kimi, bəzi müsəlmanlar da Peyğəmbəri ﷺ şişirdərək ondan günahlarının bağışlanmasını, sıxıntılarının aradan qaldırılmasını, xəstəliklərinə şəfa verməsini və başqa bu kimi, heç bir şəriki olmayan Tək Allaha xas olan digər əməlləri diləyirlər. Bütün bunlar sözsüz ki, dində həddi aşmaq sayılır.

---

[1] "Musnəd Əhməd", 1/347; "Mustədrək əl-Hakim", 1/638.

[2] "Səhih Muslim", 2670.

[3] "Səhih əl-Buxari", 3445.

## *IV mövzu.*
## *Şirk, küfr və onların növləri.*

Heç şübhəsiz ki, hər bir müsəlmana şirk və küfr anlayışını, onların yaranma səbəblərini, onlara aparan yolları və onların növlərini öyrənmək çox faydalıdır. Bunları bilən kəs onlardan yaxa qurtarmağa çalışır, nəticə etibarilə isə şərdən qorunmağa və salamatlığa qovuşmağa nail olur. Pak və müqəddəs Allah sevir ki, insan haqqa aparan yolu öyrənib onu sevsin və ona yönəlsin, habelə sevir ki, insan batil yolları öyrənib ondan uzaqlaşsın və ona nifrət etsin. Hər bir müsəlmandan haqq yolunu öyrənib ona əməl etmək tələb olunduğu kimi, şər yolunu öyrənmək də tələb olunur. Buxari və Muslimin "Səhih" əsərlərində Huzeyfə ibn Yəmənin رضي الله عنه belə dediyi rəvayət olunur: "İnsanlar Peyğəmbərdən ﷺ xeyirxah işlər barədə soruşardılar, mən isə ondan şər əməllər barəsində soruşardım ki, xətəri mənə dəyməsin."[1]

Ömər ibn Xəttab رضي الله عنه demişdir: "İslamda cahilliyin nə olduğunu bilməyən insanlar yetişdiyi zaman, İslamın ipi lif-lif qırılıb dağılacaq."

Qurani Kərim şirk və küfrün nə olduğunu izah edən, onlardan çəkinməyi əmr edən və bunlara uyan kimsələrin aqibətinin həm bu dünyada, həm də axirətdə pis olduğunu göstərən ayələrlə doludur. Hətta deyə bilərik ki, Qurani Kərimin və pak Sünnənin əsas məramı da məhz budur. Uca Allah buyurur: **"Günahkarların tutduğu yolun aydınlaşdırılması üçün Biz ayələrimizi beləcə bir-bir izah edirik."** (əl-Ənam, 55).

Aşağıda bununla bağlı bəzi məsələləri qeyd etmək istəyirik.

**Birinci məsələ. Şirk.**

**a) Tərifi.** Lüğəvi mənada şirk iki şeyi bir-birinə bərabər tutmağa deyilir.

Şəriətdə isə bunun iki mənası vardır: ümumi və xüsusi mənası.

---

[1] "Səhih əl-Buxari", 7084; "Səhih Muslim", 1847.

**1. Ümumi məna.** Pak və müqəddəs Allaha xas olan məsələlərdə başqalarını Ona tay tutmaq. Bunun da üç növü vardır:

***Birinci növü*** Rububiyyətdə şirkdir. Bu, yaratmaq, ruzi vermək, öldürmək, diriltmək və başqa bu kimi Rububiyyətə xas məsələlərdə başqalarını Allaha tay tutmağa və ya həmin məsələlərdən hər hansı birini Ondan qeyrisinə mənsub etməyə deyilir.

Uca Allah buyurur: **"Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq varmı? Ondan başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur. Siz necə də *haqdan* döndərilirsiniz!"** (Fatir, 3).

***İkinci növü*** ad və sifətlərdə Allaha şərik qoşmaqdır. Bu barədə Uca Allah buyurur: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir."** (əş-Şura, 11).

***Üçüncü növü*** Uluhiyyətdə şirkdir – namaz, oruc, dua, kömək istəmək, qurban kəsmək, nəzir demək və başqa bu kimi Uluhiyyətə xas məsələlərdə Allaha şərik qoşmağa deyilir.

Uca Allah buyurur: **"İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini *Ona* tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər."** (əl-Bəqərə, 165).

**2. Xüsusi məna.** Allahdan qeyrisini tanrı qəbul edib ona Allaha dua etdiyi kimi dua etmək, ondan Allahdan şəfaət dilədiyi kimi şəfaət diləmək, ona Allaha ümid bəslədiyi kimi ümid bəsləmək və onu Allahı sevdiyi kimi sevməkdir. Quran və Sünnədə "şirk" kəlməsinə rast gəldikdə, ilk əvvəl bu məna başa düşülür.

**b) Allaha şərik qoşmağın pis əməl olduğuna dair dəlillər və bunun təhlükəli olmasının izahı.**

Allaha şərik qoşmağın pis və təhlükəli əməl olmasına dair, habelə ondan çəkinmək barəsində, üstəlik müşriklərin həm bu dünyada, həm də Axirətdə aqibətlərinin pis olmaları haqqında Quran və Sünnədə fərqli-fərqli dəlillər vardır.

**1.** Pak və müqəddəs Allah xəbər vermişdir ki, Ona şərik qoşan kimsəni ölümündən qabaq tövbə etməyincə əsla bağışlamayacaqdır. Uca Allah buyurur: **"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını**

**bağışlamaz, bundan kiçik** *olan günahları* **isə istədiyi kimsəyə bağışlayar."** (ən-Nisa, 48).

**2.** Başqa bir ayədə isə Allah şirkin ən böyük zülm olduğunu bildirərək buyurur: **"Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!"** (Loğman, 13).

**3.** Digər bir ayədə Uca Allah şirkin əməlləri batil etdiyini bildirərək buyurur: **"Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan."** (əz-Zumər, 65).

**4.** Başqa bir ayədə Uca Allah bildirir ki, şirk, aləmlərin Rəbbi olan Allaha qarşı edilən bir haqsızlıq və başqasını Ona bərabər tutmaqdır. Uca Allah buyurur: **"Onlar orada höcətləşərək deyərlər: "Allaha and olsun ki, biz açıq-aydın azğınlıq içində idik – o vaxt ki, biz sizi aləmlərin Rəbbinə tay tuturduq."** (əş-Şuəra, 96-98).

**5.** Allah həmçinin xəbər vermişdir ki, Ona şərik qoşduğu halda ölən kimsə əbədi olaraq Cəhənnəm odunda qalacaqdır: **"Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır."** (əl-Maidə, 72).

Bu mövzuya dair Qurani Kərimdə başqa növ neçə-neçə dəlillər vardır.

**v) Şirkin baş vermə səbəbi.**

Şirkin kökü və onun insanlar arasında baş verməsinin əsas səbəbi onların əməlisaleh kəslər barədə ifrata varmaqları, onları mədh edib təriflərdikdə hədlərini aşmaları olmuşdur. Uca Allah buyurur: **"Onlar** *özlərinə tabe olanlara* **dedilər: "Öz məbudlarınızı tərk etməyin; Vəddi, Suvanı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!" Artıq onlar çoxlarını azdırmışlar. Sən də zalımlara azğınlıqdan başqa bir şey artırma."** (Nuh, 23-24).

Bu adlar Nuhun qövmündən olan əməlisaleh kəslərin adlarıdır. Onlar öldükdə qövmü onlara heykəl qoymuş, üstəlik onları uca tut-

maq, xatirələrini əbədiləşdirmək və onların fəzilətini hər zaman xatırlamaq üçün bu heykəllərə həmin şəxslərin adlarını vermişdilər. Nəhayət, iş o yerə gəlib çatdı ki, onlar həmin heykəllərə sitayiş etməyə başladılar.

Bunu İbn Abbasın ﷺ bu rəvayəti təsdiq edir: "Nuh qövmünün tapındığı bütlər sonradan ərəblər arasında meydana gəldi. Vədd, Kilab və Dovmətul-Cəndəl qəbilələrinin, Suva isə Huzeyl qəbiləsinin tapındığı bütlərə çevrildi. Yəğusa gəlincə, ona əvvəlcə Murad qəbiləsi, sonra isə Səba yaxınlığındakı Couf deyilən yerdə yaşayan bənu Ğətif qəbiləsi tapınmağa başladı. Yəuqa isə Həmdan qəbiləsi sitayiş edirdi. O ki qaldı Nəsrə, o da himyərlilərdən Zul-Kəla ailəsinin tapındığı bütə çevrildi. Bunlar Nuh qövmündən olan əməlisaleh kəslərin adları idi. Onlar öldükdə şeytan onların qövmlərinə vəsvəsə etdi ki, heykəl düzəldib onların oturub-durduqları yerlərə qoysunlar və bu heykəllərə onların adlarını versinlər. O zaman insanlar hələ onlara tapınmırdılar. Həmin nəsil ölüb getdikdən və elm[1] aradan qalxdıqdan sonra insanlar həmin heykəllərə tapınmağa başladılar."[2]

İbn Cərir ət-Təbəri Nuhun qövmü ilə bağlı **"Öz məbudlarınızı tərk etməyin..."**[3] ayəsi barəsində Muhəmməd ibn Qeysin belə dediyini nəql etmişdir: "Onlar Adəm oğullarından olan əməlisaleh kimsələr idilər və onların yolunu tutub gedən ardıcılları var idi. Onlar öldükdə onların yolunu gedən dostları: "Biz onların rəsmlərini çəksək, hər dəfə onları gördükdə bu bizi ibadət etməyə həvəsləndirər"– dedilər və onların rəsmlərini çəkdilər. Onlar öldükdən sonra növbəti nəsil gəldi və İblis yavaş-yavaş onlara yaxınlaşıb dedi: "Sizdən əvvəlkilər onlara ibadət edər və bunun sayəsində göydən onlara yağış yağardı." Beləliklə, onlar həmin heykəllərə ibadət etməyə başladılar."[4] Bununla da iki cür fitnəni cəm etmiş oldular:

---

[1] Yəni bu heykəllərin nə məqsədlə qoyulduğu barədə olan elm.

[2] "Səhih əl-Buxari", 4920.

[3] "Nuh" surəsi, 23.

[4] "Təfsir ət-Təbəri", 12/254.

Birinci: Onlar bu əməlisaleh bəndələrin qəbirlərinin başına yığışmağa başladılar.

İkinci: Onların rəsmlərini çəkib məclislərinə qoyar və onların yanında oturardılar.

Beləliklə də bəşəriyyət tarixində ilk dəfə olaraq insanlar Allaha şərik qoşmuş oldular. Bu iki amil hər bir zamanda və hər bir məkanda şirkə aparan əsas yollar sayılır.

**q) Şirkin növləri.** Şirk iki qismə bölünür: Böyük şirk və kiçik şirk.

**1. Böyük şirk.**

Allahla yanaşı başqa bir tanrı qəbul edib ona Allaha ibadət etdiyi kimi ibadət etməyə deyilir. Bu növ şirk insanı İslamdan çıxarır və əməlləri batil edir. Və əgər Allaha şərik qoşan adam bu vəziyyətdə ölərsə, əbədi olaraq Cəhənnəmdə qalacaq və orada nə öləcək, nə də əzabı yüngülləşəcəkdir.

Böyük şirk dörd növdür:

***Birinci növü*** duada şirkdir. Belə ki, dua ibadətin ən böyük növlərindəndir, hətta ibadətin özəyidir. Peyğəmbər ﷺ demişdir: "Dua ibadətin elə özüdür." Hədisi Əhməd və Tirmizi rəvayət etmiş və Tirmizi bu hədisin "həsən səhih" olduğunu söyləmişdir.[1] Uca Allah buyurur: **"Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər."** (Ğafir, 60).

Əgər duanın ibadət olması məlumdursa, deməli onu Allahdan başqasına etmək də şirk sayılır. Peyğəmbərə, övliyaya, mələyə, qəbrə və ya digər məxluqlara dua edən kəs müşrik və kafir hesab olunur. Uca Allah buyurur: **"Kim Allahla yanaşı, haqqında özünün heç bir dəlili olmadığı başqa bir məbuda ibadət edərsə, onun cəzasını Rəbbi Özü verəcəkdir. Şübhəsiz ki, kafirlər nicat tapmazlar!"** (əl-Muminun, 117).

---

[1] "Musnəd Əhməd", 4/267; "Sunən ət-Tirmizi", 2969.

Duanın ibadət və Allahdan qeyrisinə edilməsinin şirk olmasına başqa bir dəlil isə Uca Allahın bu ayəsidir: **“Onlar gəmiyə mindikləri zaman dini yalnız Allaha məxsus edərək, Ona yalvarırlar. *Allah* onları xilas edib quruya çıxaran kimi, yenə də *Ona* şərik qoşurlar.”** (əl-Ənkəbut, 65).

Bu ayədə Allah müşriklərin xoş günlərində Allaha şərik qoşduqlarını, bəla gəldikdə isə Allaha dua etdiklərini bildirərək bunu pisləyir. Bəs görəsən həm xoş gündə, həm də bəla gəldikdə Allaha şərik qoşanların halı necə olacaqdır?!

***İkinci növü*** niyyətdə, istəkdə və qəsddə şirkdir. Bu da insanın, etdiyi əməlləri Allahın Üzü xatirinə və axirəti qazanmaq üçün yox, münafiqlər kimi, dünyanı əldə etmək, özünü göstərmək və şan-şöhrət qazanmaq naminə etməsidir. Bunu da etmək böyük şirk sayılır.

Uca Allah buyurur: **“Kim dünya həyatını və onun bər-bəzəyini istəyərsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər. Onlar, axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar.”** (Hud, 15-16).

Şirkin bu növü çox incə və çox təhlükəlidir.

***Üçüncü növü*** itaətdə şirkdir. Kim İslama zidd olduğunu bilərək, halal olanları haram, haramları isə halal edənlərə bu işdə tabe olarsa, onların həqiqətən bunu etməyə səlahiyyətlərinin çatdığını və onlara həm özünün, həm də başqalarının itaət etməsinin icazəli olduğuna etiqad edərsə, həmin şəxs böyük şirklə Allaha şərik qoşmuş olur. Uca Allah buyurur: **“Onlar Allahı qoyub baş keşişlərini və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər. Halbuki, onlara ancaq tək olan İlaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur. O, bunların şərik qoşduqları şeylərdən uzaqdır.”** (ət-Tövbə, 31).

Ayənin təfsirində alimlərə və abidlərə ibadət etmək deyil, *Allahın hökmünü dəyişməklə olan asi işlərdə onlara* itaət etmək nəzərdə tutulur. Adiy ibn Hatim ﷺ Peyğəmbərdən ﷺ “Axı biz onlara ibadət etmirik?”– deyə soruşduqda Peyğəmbər ﷺ ayəni məhz bu cür təfsir et-

mişdir. O Adiyə "Onların ibadətləri *Allahın hökmünü dəyişməklə* olan asi işlərdə onlara tabeçilik göstərmələridir"– deyə xəbər vermiş və demişdir: "Məgər onlar Allahın halal buyurduğunu haram saydıqda siz də onu haram sayır, haram buyurduğunu halal saydıqda siz də onu halal saymırsınız?!" O: "Bəli" – deyə cavab verdikdə, Peyğəmbər ﷺ buyurmuşdur: "Bu onlara ibadət etmək sayılır." Hədisi Tirmizi Həsən olaraq, Təbərani isə "Mucəmul Kəbir" əsərində rəvayət etmişdir.[1]

***Dördüncü növü*** məhəbbətdə şirkdir. Burada ehtiram göstərməyi, təzim etməyi, zəlil və müti olmağı vacib edən ibadətdə olan məhəbbət nəzərdə tutulur ki, bu da yalnız heç bir şəriki olmayan Allaha yönəlməlidir. Bu məhəbbəti insan Allahdan qeyrisinə bəslədikdə, böyük şirklə Allaha şərik qoşmuş olur. Uca Allah buyurur: **"İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini *Ona* tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür."** (əl-Bəqərə, 165).

**2.** İkinci növ şirk isə **kiçik şirkdir.**

Burada kiçik şirk deyildikdə böyük şirkə aparıb çıxaran, onun baş verməsi üçün vasitə olan, habelə ayələrdə və hədislərdə şirk adlanan, lakin böyük şirkin dərəcəsinə çatmayan əməllər və deyilən sözlər qəsd edilir. Bunu edən şəxsin aqibəti, böyük günah sahibinin aqibəti kimi Allahın istəyinə bağlıdır. Buna bəzi misalları göstərək:

**a)** Az miqdarda riyakarlıq etmək. İmam Əhməd və digərləri Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Sizin üçün ən çox qorxduğum şey kiçik şirkdir." Onlar soruşdular: "Kiçik şirk nədir, ya Rəsulullah?" Rəsulullah ﷺ buyurdu: "Bu, riyakarlıqdır. Uca Allah Qiyamət günü insanları mükafatlandıracağı zaman belə buyuracaq: "Dünya həyatında ikən əməllərinizi göstərdiyiniz kəslərin yanına gedin, qoy sizin mükafatınızı onlar versin."[2]

---

[1] "Sunən ət-Tirmizi", 3095; "Mucəmul kəbir", 17/92.

[2] "Musnəd Əhməd", 5/428.

**b)** “Allah və sən istədin” ifadəsidir. Əbu Davud “Sunən” əsərində Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Allah və filankəs istədi”– deməyin, “Allah, sonra da filankəs istədi”– deyin.”[1]

**v)** “Allah və filankəs olmasaydı” və ya, məsələn, “ördək olmasaydı, oğrular gələrdi”– deməkdir. İbn Əbu Hatim öz "Təfsir"ində İbn Abbasdan Uca Allahın **“Siz də *bunu* bildiyiniz halda *heç kəsi* Allaha tay tutmayın”** (əl-Bəqərə, 22) ayəsi barəsində demişdir: “Bu ayədə tay deyildikdə, qaranlıq bir gecədə qara daşın üzərindəki qarışqanın yerişindən də gizli olan şirk nəzərdə tutulur. Məsələn, biri deyir: “Ey filankəs! Allaha, sənin və mənim canıma and olsun”, yaxud “bu it və ya ördək olmasaydı, evimizə oğrular gələrdi”. Bir də insanın öz dostuna: “Allah və sən istədin”, yaxud “Allah və filankəs olmasaydı”– deməsidir. Odur ki, filankəsi bu işə aid etmə. Çünki bütün bunlar şirk hesab olunur.[2]

**Böyük şirklə kiçik şirk arasında olan fərq.**

Böyük şirklə kiçik şirk arasında bir çox fərqlər vardır. Onların ən mühüm olanlarını qeyd edirik:

1) Böyük şirki Allah yalnız tövbə vasitəsilə bağışlayır, kiçik şirk isə Allahın istəyinə bağlıdır.

2) Böyük şirk bütün əməlləri batil edir, kiçik şirk isə yalnız içərisində olduğu əməli batil edir.

3) Böyük şirk insanı İslam ümmətindən çıxarır, kiçik şirk isə çıxarmır.

4) Böyük şirk sahibi əbədi olaraq Cəhənnəmdə qalacaq və Cənnətdən məhrum olacaq, kiçik şirk isə digər günahlar kimidir.

**İkinci məsələ. Küfr.**

**a) Tərifi.** Lüğəvi mənada küfr “örtmək” deməkdir.

---

[1] "Sunən Əbu Davud", 4980.

[2] "Təfsir İbn Əbu Hatim", 1/62.

Şəriətdə isə təkzib edib-etməməkdən asılı olmayaraq Allaha və Onun rəsuluna iman gətirməməyə, həmçinin onlara şəkk və şübhə içində iman gətirməyə, habelə həsəd, təkəbbürlük və risalətə tabe olmaqdan yayındıran bəzi nəfsani istəklər üzündən Allaha və Peyğəmbərinə ﷺ imandan üz döndərməyə küfr deyilir.

**b) Küfrün növləri.** Küfr iki növdür: böyük küfr və kiçik küfr.

Böyük küfr, sahibini əbədi Cəhənnəmə vasil edir. Kiçik küfr edən isə əbədi olmayan əzaba layiqdir.

*Birinci növ:* **Böyük küfr.** Böyük küfr beş növdür:

**1. Təkzib küfrü.** Bu növə peyğəmbərləri yalan saymaq aiddir. Kim zahiri və ya batini olmasından asılı olmayaraq, peyğəmbərlərin gətirdikləri vəhyi yalan sayarsa, küfr etmiş olur. Uca Allah buyurur: "**Allaha qarşı yalan uyduran və yaxud özünə haqq gəldikdə onu yalan sayan kəsdən daha zalım kim ola bilər? Cəhənnəmdə kafirlər üçün yermi yoxdur?**" (əl-Ənkəbut, 68).

**2. İmtina və təkəbbürlük küfrü.** Bu, Peyğəmbərin ﷺ düzdanışan olduğunu və onun gətirdiyinin Allah tərəfindən haqq olduğunu bilə-bilə inadkarlıq və təkəbbürlük üzündən ona itaət etməməyə deyilir. Uca Allah buyurur: **"Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!"– dedikdə, İblisdən başqa *hamısı* səcdə etdi. O imtina edib təkəbbür göstərdi və kafir oldu."** (əl-Bəqərə, 34).

**3. Şübhə və tərəddüd küfrü.** Bu, peyğəmbərlərə yəqinliklə iman gətirməməyə deyilir. Buna yəqinliyin əksi olan zənn küfrü də deyilir. Uca Allah buyurur: **"O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!" Onunla söhbət edən yoldaşı isə dedi: "Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni kişi qiyafəsinə salmış *Rəbbinə* küfrmü edirsən? Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram!"** (əl-Kəhf, 35-38).

**4. Üz döndərmə küfrü.** Burada dindən bütövlükdə üz döndərmək, yəni Peyğəmbərin ﷺ gətirdiyi vəhydən bilərəkdən və qəlbən üz çevirmək nəzərdə tutulur. Uca Allah buyurur: **"Kafirlər isə xəbərdar edildikləri şeylərdən üz döndərdilər."** (əl-Əhqaf surəsi, 3).

**5. Nifaq küfrü.** Burada etiqadi nifaq, yəni insanın imanı büruzə verib küfrü gizlətməsi nəzərdə tutulur. Uca Allah buyurur: **"Bu ona görədir ki, onlar iman gətirdikdən sonra kafir oldular. Sonra da onların qəlbinə möhür vuruldu. Artıq onlar anlamırlar."** (əl-Münafiqun, 3).

Nifaq da iki növdür:

**1) Etiqadda nifaq.** Bu böyük küfr sayılır və sahibini İslam ümmətindən çıxarır. Bunun da altı növü vardır: Peyğəmbəri ﷺ təkzib etmək, onun gətirdiyi bəzi şeyləri yalan saymaq, Peyğəmbərə ﷺ nifrət etmək, onun gətirdiyi şeylərə nifrət bəsləmək, Peyğəmbərin ﷺ dininin alçalmasına sevinmək, bir də Peyğəmbərin ﷺ dininin qələbə çalmasını istəməmək.

**2) Əməldə nifaq.** Bu kiçik küfrdür və sahibini İslam ümmətindən çıxarmır. Lakin bu böyük bir günah və cinayətdir. Bu barədə Peyğəmbər ﷺ demişdir: "Dörd *xislət* vardır ki, bunlar kimdə olarsa, əsl münafiq sayılar və hər kimdə bunlardan biri olarsa, onu tərk edənə qədər özündə münafiqlik xisləti qalmış sayılar: ona əmanət verildiyi zaman xəyanət edər; danışdığı zaman yalan danışar; əhd bağladığı zaman *əhdini* pozar; mübahisə etdiyi zaman haqsızlıq edər." Hədisi Buxari və Muslim rəvayət etmişlər.[1]

Peyğəmbər ﷺ demişdir: "Münafiqin üç əlaməti var: danışanda yalan danışar, vəd verəndə vədinə xilaf çıxar və özünə əmanət verildiyi zaman xəyanət edər." Hədisi Buxari rəvayət etmişdir.[2]

***İkinci növ:*** **Kiçik küfr.** Bu növ küfr, sahibini İslam ümmətindən çıxarmır və onu əbədi Cəhənnəmlik də etmir, onu yalnız şiddətli bir əzaba düçar edir. Bu da nemətə qarşı olan küfrdür. Quran və hədislərdə qeyd olunan və böyük küfrün dərəcəsinə çatmayan küfr ifadəsi bu növə aiddir. Buna aşağıdakıları dəlil göstərmək olar:

---

[1] "Səhih əl-Buxari", 34; "Səhih Muslim", 58.

[2] "Səhih əl-Buxari", 33.

Uca Allah buyurur: **"Allah təhlükəsizlik və əmin-amanlıq için-də olan bir diyarı (Məkkəni) məsəl çəkir. Ona öz ruzisi hər yerdən bol-bol gəlirdi. Lakin o *diyarın əhalisi* Allahın nemətlərinə nankorluq etdi, Allah da onları etdikləri əməllərə görə aclıq və qorxu libasına bürüdü."** (ən-Nəhl surəsi, 112).

Peyğəmbər ﷺ demişdir: "İnsanlarda iki xislət vardır ki, bunların onlarda olması küfrdür: əsil-nəcabətə tənə vurmaq və ölülərin üzərində vay-şivən salıb ağlamaq". Hədisi Muslim rəvayət etmişdir.[1]

Həmçinin demişdir: "Məndən sonra bir-birinizin boynunu vuraraq kafir olmayın". Hədisi Buxari və Muslim rəvayət etmişdir.[2]

Bütün bu sadalananlar kiçik küfrdür və sahibini İslam ümmətindən çıxarmır.

Uca Allah buyurur: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini *yerinə yetirməyə* qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir. Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin."** (əl-Hucurat, 9-10). Möminlərin bir-biri ilə vuruşmalarına rəğmən Uca Allah onları mömin adlandırmışdır.

O, həmçinin buyurur: **"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa *olan günahları* isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur."** (ən-Nisa, 48). Ayədən açıq-aydın görünür ki, şirkdən başqa bütün günahların əfv olunması Allahın istəyinə bağlıdır. Allah istəsə, ona həmin günaha görə əzab verər, istəsə də onu bağışlayar. Lakin şirki Allah əsla bağışlamır. Uca Allah buyurur: **"Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır."** (əl-Maidə, 72).

---

[1] "Səhih Muslim", 67.

[2] "Səhih əl-Buxari", 121; "Səhih Muslim", 65.

***V mövzu.***

***Qeybi və bununla bağlı məsələləri bilməyi iddia etmək.***

Qeyb, keçmişdə, hazırda və gələcəkdə ağıllara və gözlərə gizli qalan hər bir şeyə deyilir. Nöqsansız olan Allah bunu yalnız Özünə aid etmişdir. Uca Allah buyurur: **"De: "Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz."** (ən-Nəml, 65). O, həmçinin buyurur: **"*Allah* qeybi və aşkarı Biləndir, Böyükdür, Ucadır."** (ər-Rəd, 9).

Demək, qeybi Allahdan savayı, nə göndərilmiş bir peyğəmbər, nə də yaxın olan bir mələk bilmir. O ki qalsın, onlardan qeyriləri!?

Uca Allah Nuh عليه السلام barəsində demişdir: **"Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm."** (Hud, 31). Hud barəsində isə buyurur: **"*Hud* dedi: "*Bu haqda* bilgi ancaq Allaha məxsusdur. Mən sizə yalnız mənimlə göndərilənləri təbliğ edirəm."** (əl-Əhqaf, 23). Uca Allah rəsulu Muhəmmədə ﷺ belə buyurur: **"De: "Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm."** (əl-Ənam, 50). Həmçinin Uca Allah buyurur: **"*Allah* Adəmə bütün *şeylərin* adlarını öyrətdi. Sonra onları mələklərə göstərib dedi: "Doğru danışanlarsınızsa, bunların adlarını Mənə deyin!" Onlar dedilər: "Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Biləndir, Müdriksən!"** (əl-Bəqərə, 31-32). Uca Allah bəzi bəndələrinə vəhy vasitəsilə müəyyən qeybi məsələləri bildirir. O buyurur: **"O, qeybi Biləndir və Öz qeybini heç kəsə açmaz; razı qaldığı elçidən başqa. Həqiqətən, *Allah* onların önündə və arxasında gözətçilər qoyur ki, *hər kəs* onların, Rəbbinin göndərdiklərini necə təbliğ etdiyini bilsin. *Allah* onların nə etdiklərini nəzarəti altında saxlayır və hər şeyi ayrı-ayrılıqda hesaba alır."** (əl-Cin, 26-28).

Allahın bildirdiyi qeybin bu növü, bəzi insanların bilib, digərlərinin isə bilmədiyinə görə nisbi qeyb sayılır. Mütləq qeybə gəlincə isə bunu Allahdan başqa heç kəs bilmir. Allah qeybi yalnız Özünə məxsus etdiyi halda, kim bunu bildiyini iddia edə bilər?!

Odur ki, hər bir müsəlman Allaha iftira yaxan, qeybi bildiyini iddia edən yalançılardan uzaq durmağa çalışmalıdır. Bu cür sehrbaz, yalançı və münəccimlər həm özləri haqq yoldan azırlar, həm də bir çox insanları azdırırlar.

Bu məqamda qeybi bildiyini iddia edənlərin, avam insanları çaşdıranların, onların əqidələrini və imanlarını korlayanların etdikləri əməllər barəsində söhbət açacağıq.

**1. Sehr.**

Lüğəvi mənada sehr gizli qalan və səbəbi incə olan mənasındadır.

İstilahi mənada isə sehr bədənlərə və qəlblərə təsir edib, Allahın izni ilə insanı xəstələndirən, öldürən, yaxud ərlə-arvadı bir-birindən ayıran cadulara, ovsunlara və düyünlərə deyilir. Sehr küfrdür və sehrbaz Əzəmətli Allaha qarşı küfr etmiş sayılır, Axirətdə isə onun heç bir payı olmur. Uca Allah buyurur: **"Onlar Suleymanın səltənətində şeytanların oxuduqlarının ardınca getdilər. Süleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular.** ***Mələklər*****: "Biz ancaq bir sınağıq, sən gəl kafir olma!"– deməmiş** ***onu*** **heç kəsə öyrətmirdilər.** ***Yəhudilər*** **ərlə arvadı bir-birindən ayıracaq işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar özlərinə zərər verən, faydası olmayan şeyləri öyrənirdilər. Onlar bilirdilər ki, onu əldə edən kimsə üçün axirətdə heç bir pay yoxdur. Nəfslərinin əvəzində satın aldıqları şey necə də pisdir! Kaş** ***bunu*** **biləydilər!"** (əl-Bəqərə, 102).

Düyünlərə üfürmək də sehr sayılır: **"De: "Sığınıram sübhün Rəbbinə! Məxluqatının şərindən, çökən zülmətin şərindən, düyünlərə üfürən** ***cadugər*** **qadınların şərindən və həsəd apardığı zaman paxılın şərindən!"** (əl-Fələq, 1-5).

**2. Münəccimlik.**

Bu, göydə baş verən hadisələrin yerdə olacaq məsələlərlə əlaqələndirilməsinə deyilir. İbn Abbas Rəsulullahın ﷺ belə dediyini rəva-

yət etmişdir: "Ulduzlar barəsində elm alan sehrdən elm almış olar. (Elmi) artdıqca (sehr) də artar." Hədisi Əbu Davud rəvayət etmişdir.[1]

**3. Quş uçurmaq və yerə xətt çəkmək.**

Qətən ibn Qəbisə atasından rəvayət etmişdir ki, mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Quş uçurmaq, onu uğursuzluq əlaməti saymaq və yerdə xətt çəkmək sehrdəndir."[2] Quş uçurmaq dedikdə, onun adlarını, səslərini və uçduğu istiqamətlərini uğursuzluq əlaməti saymaq, yerdə xətt çəkmək dedikdə isə yerdə xətt çəkib və ya daş atıb onunla qeybi iddia etmək nəzərdə tutulur.

**4. Kahinlik.**

Bu da qeybi iddia etməyə deyilir. Bu əslində cinlərin mələklərdən bəzi xəbərləri oğurlayıb kahinin qulağına pıçıldaması ilə baş verir. Əbu Hureyra رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Kahinin yanına gəlib onun dediklərinə inanan kəs Muhəmmədə ﷺ nazil olana qarşı küfr etmiş olur." Hədisi Əbu Davud, Əhməd və Hakim rəvayət etmişlər.[3]

**5. Əbcəd hərflərini yazmaqla olan sehr (Kabala).**

Bu, hər hansı hərfə müəyyən miqdarda rəqəmlər qoyub onlara əsaslanaraq insan, zaman və məkan adlarını tutuşdurmaqla bunun uğurlu və ya uğursuz olacağına dair hökm verməyə deyilir.

İbn Abbas رضي الله عنهما əlifba hərflərini yazan və ulduzlara baxıb qeybdən xəbər verən bir qövm haqqında demişdir: "Bu əməlləri edənin Allah yanında bir payı olacağını güman etmirəm". Hədisi Abdurrəzzaq "əl-Musənnəf" əsərində rəvayət etmişdir.[4]

---

[1] "Sunən Əbu Davud", 3905.

[2] "Sunən Əbu Davud", 3907; "Musnəd Əhməd", 3/477.

[3] "Sunən Əbu Davud", 3904; "Musnəd Əhməd", 2/429; "Mustədrək əl-Hakim", 1/50.

[4] "əl-Müsənnəf", 11/26.

**6. Ovuca və ya fincana nə isə oxumaq.**

Bununla bəziləri gələcəkdə baş verəcək ölümü, həyatı, yoxsulluğu, var-dövləti, xəstəliyi, sağlamlığı və başqa bu kimi şeyləri bildiklərini iddia edirlər.

**7. Ruhların çağırılması.**

Bunu edənlər ruhları çağırmaqla onlardan ölülər barəsindəki xəbərləri – onların nemət və ya əzab içində olub-olmadıqlarını soruşduqlarını iddia edirlər ki, bu da yalan və şeytani şarlatanlıqdan başqa bir şey deyildir. Bununla onlar insanların əqidəsini və əxlaqını korlamış və avam insanların başlarını tovlayıb mallarını haqsız olaraq yemiş olurlar.

**8. Xurafata inanmaq.**

Bu, quşun, ceyranın və ya digər heyvanın hər hansı bir istiqamətə getməsini uğurlu və ya uğursuzluq əlaməti saymağa deyilir. Bu şeytanın vəsvəsələri və qorxutması ilə olan şirkdir. İmran ibn Husayn ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Quş uçuran və bunu tələb edən, fala baxan və baxdıran, sehr edən və etdirən bizdən deyil. Kim falçının yanına gəlib onun dediklərinə inanarsa, Muhəmmədə ﷺ nazil olana küfr etmiş olar." Hədisi Bəzzar rəvayət etmişdir.[1]

Allahdan istəyirik ki, müsəlmanların işlərini yoluna qoyub onlara dinlərini öyrətsin ki, onlar şeytanın dostlarının və hiyləgərlərin toruna düşməsinlər.

[1] "Musnəd əl-Bəzzar", 9/3578.

# III fəsil
## Ad və sifətlər tövhidi

**Bu fəsil müqəddimədən və üç mövzudan ibarətdir**

*Müqəddimə. Allahın ad və sifətlərinə iman gətirmək və bunların müsəlmana təsiri*

*I mövzu. Ad və sifətlər tövhidinin tərifi və dəlilləri*

**1. Tərifi**

**2. Onu isbat etməyin düzgün yolu**

**3. Bu qaydaların dəlilləri**

*II mövzu. Quran və Sünnə işığında ad və sifətlərin isbatı üçün tətbiqi misallar*

*III mövzu. Ad və sifətlərlə bağlı qaydalar*

# III fəsil.
# AD VƏ SİFƏTLƏR TÖVHİDİ

## *Müqəddimə.*
## *Allahın ad və sifətlərinə iman gətirmək və bunların müsəlmanın davranışına təsiri.*

Allahın ad və sifətlərinə iman gətirməyin müsəlmana və onun Rəbbinə etdiyi ibadətə çox böyük müsbət təsiri vardır.

Bu iman müsəlmanın qəlbində, Allaha təvəkkül edib, Ona güvənmək, yalnız Allahın razı qalacağı əməllər barəsində düşünərək bədən üzvlərini, qəlbinin düşüncələrini və ürəyinin səsini qorumaq, Allah üçün sevmək, Onu eşitmək və görmək, habelə Allahdan diləmək və Onun barəsində gözəl zəndə olmaq kimi dərin mənalar buraxır.

Bu mənalar insanlar arasında fərqli şəkildə həm zahiri, həm də batini ibadətlərin artmasına səbəb olur. Bu Allahın lütfüdür və O bu lütfünü istədiyinə verir.

Misal üçün, Allahın "əl-Ğaffər", yəni bağışlayan adının insanın Onu sevməsinə və Onun mərhəmətindən ümidini üzməməsinə böyük təsiri vardır. Onun "Şədidul-iqab", yəni şiddətli əzab verən adının da insanın Allahdan qorxub ona qarşı günah işlətməyə cürət etməməsinə böyük təsiri vardır. Bu minvalla hər bir ad və sifətin mənalarının müvafiq olaraq insanın davranışına, onun Allahın qanunlarına riayət etməsinə və Onu sevməsinə bilavasitə müsbət təsiri vardır. Allah sevgisi də müsəlmanın dünya və axirət səadətinə nail olmasına və böyük bir xeyrə çatmasına gətirib çıxarır. Həmçinin Allah sevgisi qulun öz Rəbbinə mükəmməl şəkildə ibadət etməsi üçün ən böyük yardımdır və o hər bir xeyir qapısının açarıdır. Belə ki, zahiri əməllər, qəlbdə olan Allah sevgisinə uyğun olaraq insanın nəfsinə ya yüngül, ya da ağır gəlir.

Müsəlmanın hər hansı əməli mükəmməl və Allahın istədiyi formada etməsi üçün ilk öncə Onu qəlbində sevməsi gərəkdir. Allahı sevmək üçün isə Onun ad və sifətlərini yaxşıca bilmək lazımdır. Məhz buna görə də Allaha ən çox ibadət edən insanlar, Onu ən çox sevən və ən yaxşı tanıyan peyğəmbərlər olmuşdur.

### *I mövzu.*
### *Ad və sifətlər tövhidinin tərifi və dəlilləri.*

**1. Tərifi.**

Ad və sifətlər tövhidi – Allah və Onun elçisinin Allaha aid isbat etdiyi bütün ad və sifətləri isbat etmək, inkar etdiklərini isə inkar etmək, onların düzgün mənalarını, nəyə dəlalət etdiklərini, məxluqata göstərdiyi təsirini və tələblərini təsdiq etməkdir.

**2. Onu isbat etməyin yolu**.

Ad və sifətlər tövhidi məsələsində düzgün mövqe onların hamısına kamil şəkildə iman gətirib, Allah və Rəsulunun ﷺ Allaha aid isbat etdiyi bütün ad və sifətləri təhrif və inkar etmədən, keyfiyyət vermədən və heç nəyə bənzətmədən əzmlə təsdiqləməyə deyilir.

**Təhrif:** bir şeyin mənasının dəyişdirilməsinə deyilir. Bu da iki qismə bölünür:

***1) Ləfzi təhrif.*** Bu, kəlməyə bir və ya daha artıq hərif əlavə etmək, yaxud ondan bir və ya daha çox hərif əksiltmək, ya da sözün hərəkəsini dəyişməyə deyilir. Buna misal olaraq Uca Allahın: **"Mərhəmətli *Allah* Ərşə ucaldı."** (Ta Ha, 5) ayəsindəki *"istəva"*, yəni ucaldı sözünün *"istəvlə"*, yəni hökmü altına aldı mənasına dəyişdirilməsini göstərmək olar. "Nuniyyə" qəsidəsinin müəllifi demişdir:

*Yəhudilərin "nun"u*[1]*, cəhmilərin də "ləm"i*[2]*,*
*Ərşin Rəbbinin ayəsində, artıq olan şeylərdi.*

---

[1] Yəhudilərə Allahdan bağışlanma diləmələri əmr olunduğu zaman onlar Allahın buyurduğu, "bizi bağışla" mənasında olan "hittə" sözündəki "tə" hərfini "nun" hərfi ilə əvəz edərək "hintə" – yəni "buğda"demişlər. Bu xüsusda Uca Allah Qurani Kərimdə buyurur: **"O zaman Biz dedik: "Bu kəndə daxil olun və orada istədiyiniz yerlərdə, rahatlıqla yeyin için. Qapıdan səcdə edərək daxil olun və: "Bizi bağışla!"– deyin ki, sizin günahlarınızı bağışlayaq". Biz yaxşı işlər görənlərə *mükafatlarını* artırarıq. Zülm edənlər özlərinə deyilən sözü başqası ilə dəyişdilər. Biz də zülm edənlərə etdikləri günaha görə göydən əzab göndərdik."** (əl-Bəqərə, 58-59).

[2] Cəhmilər Uca Allahın **"Mərhəmətli *Allah* Ərşə ucaldı."** (Ta Ha, 5) ayəsindəki *"istəva"* yəni ucaldı sözünə *"ləm"* hərfini artıraraq *"istəvlə"*, yəni hökmü altına aldı demişlər.

***2) Mənəvi təhrif.*** Bu, bir sözün mənasını Allah və Onun rəsulunun buyurduğu mənadan qeyrisinə dəyişməyə deyilir. Buna misal "əl" sözünü qüvvət və nemət mənasına dəyişənləri göstərmək olar. Bu cür açıqlamalar batil olub, nə şəriət, nə də dil baxımından heç bir əsasa söykənmir.

**İnkar.** Bu, Allahın sifətlərini inkar etməyə deyilir. Necə ki, bəziləri Allahın heç bir sifətlərinin vəsf olunmadığını iddia edirlər.

Təhriflə inkar arasındakı fərq ondan ibarətdir ki, təhrif dəlillərdə göstərilən düzgün mənanı inkar edib onu başqa bir səhv məna ilə əvəz etməyə, inkar isə bir sözün düzgün mənasını başqası ilə əvəz etmədən ümumiyyətlə inkar etməyə deyilir.

**Keyfiyyət vermək.** Bir sifətin keyfiyyətini və onun hansı formada olduğunu təyin etməyə deyilir. Bəzi yolunu azmışlar Allahın sifətlərinə keyfiyyət verərək, məsələn: "Allahın əli belədir, ucalmağı bu şəkildədir"– deyirlər. Bütün bunlar batildir, çünki Allahın sifətlərinin necəliyini Ondan savayı heç kəs bilmir. Məxluqlara gəlincə onlar bunu dərk etmək iqtidarında deyillər.

**Bənzətmək.** Bu, Allahın sifətlərini yaradılmışların sifətlərinə oxşatmağa deyilir. Məsələn: bəziləri iddia edirlər ki, Allah bizim kimi eşidir, yaxud Onun Üzü insanın üzü kimidir. Allah bu çür oxşatmalardan pakdır, uzaqdır.

Ümumiyyətlə, ad və sifətlər məsələsində haqq yolunu tutmaq üçün insan üç qaydaya diqqət yetirməlidir. Bunlara riayət edən kəs bu mövzuda azmaqdan salamat qalar:

**Birinci qayda. Allahın sifətlərindən hər hansı birini məxluqatın sifətinə oxşatmaqdan çəkinmək.**

**İkinci qayda. Allah və Onun rəsulunun ﷺ Allaha aid isbat etdikləri bütün ad və sifətlərinə Allahın böyüklüyünə və əzəmətinə layiq olan bir şəkildə iman gətirmək.**

**Üçüncü qayda. Allahın sifətlərini dərk etməyə cəhd göstərməmək. Çünki yaradılmışların bunu dərk etməsi qeyri-mümkündür.**

Bu üç qaydaya riayət edən kəs alimlərin buyurduqları şəkildə ad və sifətlərə iman gətirmiş olar.

**3. Bu qaydaların dəlilləri**.

Allahın kitabında bu qaydaların düzgünlüyünü təsdiqləyən kifayət qədər dəlillər vardır:

**Birinci qaydaya dəlillər.**

Allahı məxluqlara bənzətməkdən həzər etmək. Uca Allah buyurur: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir."** (əş-Şura, 11).

Ayə, həm Yaradanla məxluqları istənilən şəkildə bir-birinə oxşatmaqdan çəkinməyi, həm də Allahın eşitmək və görmək sifətini isbat edir. Bu iki məsələnin ardıcıl qeyd olunması onu göstərir ki, məxluqatın əksəriyyətinin eşitmə və görmə sifətlərinə malik olmalarına baxmayaraq Allahın eşitmə və görmə sifətləri onların eyni adlı sifətlərinə əsla bənzəmir. Eşitmə və görmə sifətləri barəsində deyilənlər digər sifətlərə də şamil olunur. Uca Allah buyurur: **"Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin söhbətinizi eşidir. Həqiqətən, Allah Eşidəndir, Görəndir."** (Mücadələ, 1). İbn Kəsir bu ayənin təfsirində bu hədisi qeyd etmişdir: Buxari tövhid kitabında, İmam Əhməd isə Musnəd əsərində Aişənin ﵂ belə dediyini rəvayət etmişlər: "Hər bir şeyi eşidən Allaha həmd olsun! Əri barəsində mübahisə edən qadın gəlib Peyğəmbərə ﷺ şikayət edərkən mən evin digər tərəfində olduğum üçün heç nə eşitmirdim. Amma Uca Allah: **"Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi."** ayəsini nazil etdi."[1]

Həmçinin dəlil olaraq aşağıdakı ayəni göstərmək olar: **"Heç kəsi Allaha oxşatmayın."** (ən-Nəhl, 74).

---

[1] "Təfsir İbn Kəsir", 8/60.

Təbəri bu ayənin təfsirində demişdir: "Yəni Allahı heç kimə və heç nəyə bənzətməyin, Onun tayı-bərabəri yoxdur."[1]

Uca Allah buyurur: **"Heç Ona oxşarını tanıyırsanmı?!"** (Məryəm, 65). İbn Abbas ﷺ bu ayənin təfsirində demişdir: "Yəni Rəbbimizin oxşarını və ya bənzərini tanıyırsanmı?!"

Bu qaydaya digər bir dəlil Uca Allahın bu ayəsidir: **"Onun bənzəri də yoxdur."** (əl-İxlas, 4). Təbəri demişdir: "Yəni onun oxşarı və Onun mislində heç bir şey yoxdur".

**İkinci qaydaya dəlillər.**

Yəni Allahın Quran və Sünnədə varid olan bütün ad və sifətlərinə iman gətirmək. Uca Allah buyurur: **"Allah, Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, *məxluqatın* gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur."** (əl-Bəqərə, 255). Həmçinin buyurur: "**Əvvəl də, Axır da, Zahir də, Batin də Odur. O, hər şeyi bilir."** (əl-Hədid, 3). Həmçinin buyurur: **"O, Özündən başqa heç bir məbud olmayan, qeybi və aşkarı Bilən Allahdır. O Mərhəmətlidir, Rəhmlidir. O, Özündən başqa heç bir məbud olmayan, Hökmran, Müqəddəs, Pak, *haqqı* təsdiq edən, *hər şeyi* müşahidə edən, Qüdrətli, Qadir, Məğrur Allahdır. Allah onların Ona şərik qoşduqlarından ucadır. O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, Qüdrətlidir, Müdrikdir."** (əl-Həşr, 22-24).

Sünnədən isə buna dəlil olaraq Muslimin "Səhih" əsərində Əbu Hureyradan ﷺ rəvayət etdiyi hədisi göstərmək olar. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ birimiz yatağına uzandıqda belə deməyi

[1] "Təfsir ət-Təbəri", 7/621.

buyurardı: “Allahım! *Yeddi qat* səmanın Rəbbi, yerin Rəbbi, böyük Ərşin Rəbbi, bizim Rəbbimiz və hər şeyin Rəbbi! Toxumu və çəyirdəyi cücərdib çatladan, Tövratı, İncili və Furqanı nazil edən! Kəkilindən tutduğun (idarə etdiyin) hər bir heyvanın şərindən Sənə sığınıram. Allahım! Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur. Sən Zahirsən, Səndən üstə heç nə yoxdur. Sən Batinsən, Səndən batində heç nə yoxdur, borcumuzu ödə, bizi yoxsulluqdan qurtar.” [1] Bu mövzuya dair dəlillər o qədər çoxdur ki, onları saymaq mümkün deyildir.

**Üçüncü qaydaya dəlillər.**

Bu, Uca Allahın sifətlərinin keyfiyyətini dərk etməyə cəhd göstərməməkdir ki, bu barədə də Uca Allah buyurur: **“Allah onların gələcəyini də, keçmişini də bilir. Onların elmi isə Onu ehtiva edə bilməz!”** (Taha, 110). Bəzi alimlər bu ayənin təfsiri barəsində demişlər: “İnsan şüuru səmaların və yerin Rəbbi olan Allahı dərk edə bilməz. Dərk edə bilmirsə, deməli ona keyfiyyət də verə bilməz.”

Bu qaydanı sübuta yetirən digər bir dəlil də Uca Allahın bu ayəsidir: **“Gözlər Onu dərk etmir. O isə gözləri dərk edir.”** (əl-Ənam, 103). Elm əhlindən bəziləri bu ayədən söhbət açarkən demişlər: “Bu da Allahın kamil əzəmətə malik olduğunu və hər şeydən böyük olduğunu göstərir. Çünki Allah kamil əzəmətə malik olduğa görə dərk olunmazdır. Belə ki, bir şeyi dərk etmək görməkdən artıq bir şey sayılır. Allah isə yalnız axirətdə görünə bilər, lakin dərk oluna bilməz”. Hər bir şüurlu insan bilməlidir ki, onun eşitməyinin və görməyinin bir həddi olduğu kimi, ağlının da bir həddi vardır ki, o bunu aşa bilməz. Allahın sifətlərinin keyfiyyəti barəsində düşünmək kimi ağılla dərk olunmaz bir şeyi dərk etməyə çalışan kəs divarın dalındakı şeyi görməyə, uzaq yerlərdəki səsləri eşitməyə çalışan kimsəyə bənzəyir.

---

[1] "Səhih Muslim", 2713.

### *II mövzu.*
### *Quran və Sünnə işığında ad və sifətlərin isbatı üçün tətbiqi misallar.*

Quran və Sünnədə Allahın ad və sifətlərinin isbatına dair bir çox məqamlarda müxtəlif tərzdə çoxlu dəlillər vardır. Kitab və Sünnə ilə sabit olmuş Allahın ad və sifətləri çoxlu saydadır. Bu ad və sifətlər barəsində çoxlu sayda kitablar yazılmışdır. Həmin ad və sifətlərdən bəzilərini qeyd etmək istəyirik.

**Allahın adlarından bəziləri.**

**əl-Həyy** (*əbədi* Yaşayan) **və əl-Qəyyum**.

Quran və Sünnədə buna dair çoxlu dəlillər vardır. Uca Allah buyurur: **"Allah, Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur."** (əl-Bəqərə, 255). Sünnədən dəlilə gəlincə, Ənəs ibn Malik ﷺ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbərlə ﷺ birlikdə bir yerdə idik. Aramızda olan bir kişi namaz qılırdı. O ruku etdi, sonra səcdə etdi, sonra təşəhhüdü oxudu, sonra da dua edib dedi: "Allahım Sənə yalvarıram! Həmd Sənədir. Səndən başqa məbud yoxdur. Ey göyləri və yeri Yaradan! Ey əzəmət və ehtiram sahibi! Ey Yaşayan, ey Qəyyum!" Bu zaman Peyğəmbər ﷺ buyurdu: "O Allahın ən əzəmətli adı vasitəsilə Ona dua etdi, elə bir adla ki, onunla dua edib istəyənin, istəyini Allah verər."[1]

**əl-Həmid** (Tərifəlayiq).

Uca Allah buyurur: **"Bilin ki, Allah Zəngindir, Tərifəlayiqdir."** (əl-Bəqərə, 267).

Kəb ibn Ucranın ﷺ təşəhhüd barədə rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbər ﷺ onlara təşəhhüdü öyrədərək belə demələrini buyurmuşdur: "Allahım, İbrahimə və Onun ailəsinə xeyir-dua verdi-

[1] "Mustədrək əl-Hakim", 1856.

yin kimi, Muhəmmədə və onun ailəsinə də xeyir-dua ver; şübhəsiz ki, Sən Tərifəlayiqsən, şan-şöhrətlisən."[1]

**ər-Rəhman və ər-Rəhim** (Mərhəmətli və Rəhmli).

Uca Allah buyurur: **"Həmd olsun aləmlərin Rəbbi Allaha, Mərhəmətli və Rəhmliyə."** (əl-Fatihə, 2-3).

Sünnədən dəlil isə Peyğəmbərin ﷺ Hudeybiyyə sülhü günü müşriklərlə sülh sazişi bağlayarkən sazişin əvvəlinə "Bismilləhir-Rəhmanir-Rəhim" sözlərini yazmağı əmr etməsidir.[2]

**əl-Həlim.**

Uca Allah buyurur: **"O, Həlimdir, Bağışlayandır."** (əl-Fatir, 41). İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ çətinliyə düşəndə belə dua edərdi: "Allahdan başqa ibadət haqqına malik məbud yoxdur, O, Əzəmətlidir, Həlimdir."[3]

**Allahın sifətlərindən bəziləri.**

**Qüdrət.**

Bu, Allahın zatı sifətidir və buna Quran və Sünnədə dəlillər vardır. Zat sözünün mənası isə sifətin Allahdan ayrılmaz bir sifət olması deməkdir. Uca Allah buyurur: "**Şübhəsiz ki, Allah hər şeyə qadirdir."** (əl-Bəqərə, 20).

Osman ibn Əbul-Asdan رضي الله عنه rəvayət olunur ki, bir dəfə o, İslamı qəbul edəndən bəri bədənində hiss etdiyi bir ağrıdan Peyğəmbərə ﷺ şikayət etdi. Peyğəmbər ﷺ dedi: "Əlini bədəninin ağrıyan yerinə qoyub üç dəfə: "Bismillləh!"– de və yeddi dəfə də: "Hiss etdiyim və həzər etdiyim ağrının şərindən Allahın İzzət və Qüdrətinə sığınıram"– de."[4]

---

[1] "Səhih əl-Buxari", 3370; "Səhih Muslim", 406.

[2] "Səhih əl-Buxari", 2731.

[3] "Səhih əl-Buxari", 6345; "Səhih Muslim", 2730.

[4] "Səhih Muslim", 2202.

**əl-Həyat.**

Bu da Allahın zatı sifətlərindən biridir. Əl-Həyat sifəti Onun əl-Həyy adından qaynaqlanır. Bu barədə dəlilləri qeyd etmişik.

**əl-Elm.**

Bu sifət də Allahın zatı sifətlərindəndir. Buna Quran və Sünnədən bir sıra dəlilləri göstərə bilərik.

Uca Allah buyurur: **"Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər."** (əl-Bəqərə, 255).

Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ onlara istixarə duasını öyrədər və bu duada belə deməlөrini buyurardı: "Allahım, Səndən Öz elminlə mənə kömək etməyi və Öz qüdrətinlə mənə qüdrət verməyi diləyirəm."[1]

**İradə.**

Bu, Allahın Quran və Sünnədə sabit olan feili sifətlərindəndir. Feili sifətlər Allahın istəyinə və qüdrətinə bağlıdır, istəsə onları edər, istəməsə etməz. Uca Allah buyurur: **"Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər."** (əl-Ənam, 125).

Sünnədən olan dəlildə isə Abdullah ibn Ömər رضي الله عنهما Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Allah bir xalqa əzab göndərdikdə həmin əzab onların arasında olan hər kəsi bürüyər, sonra isə həmin adamlar əməllərinə görə həşr olunarlar."[2]

**Ucalıq.**

Bu da Allahın Quran və Sünnədə sabit olan zatı sifətlərindəndir. Uca Allah buyurur: **"Ən Uca Rəbbinin adına təriflər de!"** (əl-

[1] "Səhih əl-Buxari", 6382.

[2] "Səhih Muslim", 9287.

Əla, 1). Uca Allah buyurur: **“Onlar özlərinin fövqündə olan Rəbbindən qorxur.”** (ən-Nəhl, 50). Sünnədən dəlil isə əvvəldə qeyd etdiyimiz Əbu Hureyranın رضي الله عنه yuxudan öncə edilən dua barəsində rəvayət etdiyi hədisidir. Hədisdə deyilir: “Allahım Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur. Sən Zahirsən, Səndən üstə heç nə yoxdur. Sən Batinsən, Səndən iç üzdə heç nə yoxdur.”[1]

**Yüksəlmək.**

Bu da Allahın Quran və Sünnədə sabit olan feili sifətlərindəndir. Uca Allah buyurur: **“Mərhəmətli *Allah* Ərşə ucaldı.”** (Ta ha, 5).

Qətadə ibn Nomən رضي الله عنه rəvayət etmişdir ki, mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: “Allah məxluqatı yaratdıqdan sonra Ərşə yüksəldi.”[2]

Ərəb dilində “*istiva*” sözü ucalmaq, yüksəlmək, qərar tutmaq, yuxarı qalxmaq mənalarını verir. Uca Allahın Öz Ərşi üzərinə yüksəlməsi isə Özünə layiq şəkildə bir yüksəlmədir.

**əl-Kəlam.**

əl-Kəlam sifəti növ baxımından Allahın zatı sifəti, fərdi kəlamlara nisbətdə isə feili sifətidir. Belə ki, O istədiyi vaxt istədiyi şəkildə, eşidilən bir tərzdə danışır. Quran və Sünnədə Allahın kəlam sifətinə bir çox dəlillər vardır. Uca Allah buyurur: **“Və Allah Musa ilə sözlə** (vasitəsiz) **danışdı.”** (ən-Nisa, 164).

O, həmçinin buyurur: **“Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı. *Musa* dedi: “Ey Rəbbim! *Özünü* mənə göstər, Sənə baxım.”** (əl-Əraf, 143).

Əbu Hureyra رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Adəmlə Musa mübahisə etdilər. Musa dedi: “Ey Adəm, sən bizim atamızsan, bizi *Cənnətdən* məhrum etdin və bizi Cənnətdən çı-

[1] "Səhih Muslim", 2713.

[2] əz-Zəhəbi, "əl-Uluv", 119; əl-Həllal, "Kitab əs-Sünnə", 119.

xartdın." Adəm də dedi: "Ey Musa, Allah səninlə birbaşa danışmaqla və Tövratı Əli ilə yazmaqla Səni seçdi".[1]

**Üz.**

Bu da Uca Allahın Quran və Sünnədə sabit olan zatı, həm də xəbər şəklində varid olmuş sifətlərindəndir. Uca Allah buyurur: **"Siz onu ancaq Allahın Üzünü dilədiyinizə görə sərf edirsiniz."** (əl-Bəqərə, 272).

Həmçinin buyurur: **"Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir."** (ər-Rəhman, 27).

Cabir ibn Abdullah ﷻ demişdir: "Uca Allahın: **"De: "*Allah* başınızın üstündən sizə əzab göndərməyə qadirdir..."** (əl-Ənam, 65) ayəsi nazil olduqda, Peyğəmbər ﷺ buyurdu: "*Allahım!* Sənin Üzünə sığınıram!" Allah buyurdu: **"... və ya ayaqlarınızın altından..."** Peyğəmbər ﷺ dedi: "*Allahım!* Sənin Üzünə sığınıram!" Allah buyurdu: **"... ya da sizi qarışıqlığa salıb dəstə-dəstə etməyə və birinizə digərinin gücünü daddırmağa qadirdir."** Peyğəmbər ﷺ dedi: "Bu bir az yüngüldür."[2]

**İki Əl.**

Bu da Allahın Quran və Sünnədə sabit olan zatı, həm də xəbər şəklində varid olmuş sifətlərindəndir. Uca Allah buyurur: **"Əksinə, Onun hər iki Əli açıqdır və O, *Öz lütfündən* istədiyi kimi sərf edir."** (əl-Maidə, 64).

Həmçinin buyurur: "***Allah* dedi: "Ey İblis! Sənə Mənim iki əlimlə yaratdığıma səcdə etməyə mane olan nə idi?"** (Sad, 75).

Muslim, Əbu Musa əl-Əşaridən ﷻ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Allah gecə Əlini uzadır ki, gündüz vaxtı günah edən kimsələrin tövbələrini qəbul etsin, gündüz də Əlini uzadır ki, gecə vaxtı günah edən kimsələrin tövbələrini qəbul etsin. Bu, günəş batdığı yerdən çıxanadək beləcə davam edəcək."[3]

---

[1] "Səhih əl-Buxari", 6614; "Səhih Muslim", 2652.

[2] "Səhih əl-Buxari", 4628.

[3] "Səhih Muslim", 2759.

**İki göz.**

Bu da Allahın Quran və Sünnədə sabit olan zatı, həm də xəbər şəklində varid olmuş sifətlərindəndir. Uca Allah buyurur: **"Gözümün önündə boya-başa çatdırılasan deyə.**" (Ta ha, 39).

Həmçinin buyurur: **"Gözlərimizin önündə və vəhyimiz üzrə gəmini düzəlt."** (Hud, 37).

Buxari və Muslim, Abdullah ibn Ömərdən رضي الله عنهما Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Şübhəsiz ki, Allah sizdən gizli deyildir, O, təkgöz deyil, – Peyğəmbər ﷺ bunu deyib əli ilə gözünə işarə etdi – Məsih Dəccalın isə sağ gözü kordur, onun gözü domba üzüm dənəsinə oxşayır."[1]

**Ayaq.**

Bu da Allahın səhih hədislərdə sabit olan zatı sifətidir. Əbu Hureyradan رضي الله عنه Cənnətlə Cəhənnəmin höcətləşməsi ilə bağlı nəql olunan hədisdə deyilir: "Cəhənnəm ancaq o zaman dolacaq ki, Allah Öz Ayağını Cəhənnəmə qoyacaq və o: "Yetər, yetər!" – deyəcək. Onda o artıq dolacaq və *içindəkiləri* qaplayacaq"[2] Buxari və Muslimdə rəvayət olunan bəzi hədislərdə: "O ayağını onun üstünə qoyacaq" – deyilir.[3]

Allahın Quran və Sünnədə varid olan ad və sifətləri çoxdur. Sadalananlar isə sadəcə bir misaldır. Hər bir müsəlmana vacibdir ki, Allahın ad və sifətlərini Allah Öz kitabında isbat etdiyi kimi Onun Böyüklüyünü və Kamilliyini layiq bir şəkildə isbat etsin. Belə ki, O, Özünü məxluqatdan daha yaxşı tanıyır. Həmçinin gərək bu isbat Peyğəmbərin ﷺ sünnəsində varid olduğu kimi olsun. Çünki Peyğəmbər ﷺ öz Rəbbini digər məxluqlardan daha yaxşı tanıyır, daha yaxşı nəsihət edir, daha səlis danışır, daha yaxşı bəyan edir, Allahdan ən çox qorxan da məhz odur. Odur ki, müsəlman bu sifətləri inkar etməkdən və onları məxluqlara oxşatmaqdan çəkinməlidir. Uca Allah buyurur: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir."** (əş-Şura, 11).

---

[1] "Səhih əl-Buxari", 7407; "Səhih Muslim", 2933.

[2] "Səhih əl-Buxari", 4850; "Səhih Muslim", 2846.

[3] "Səhih əl-Buxari", 4848, 4849; "Səhih Muslim", 2848.

### *III mövzu.*
### *Ad və sifətlərlə bağlı qaydalar.*

**Birinci qayda. Allahın zatı barəsində deyilənlər, Onun sifətləri barəsində də deyilməlidir.**

Bu o deməkdir ki, Uca Allahın nə zatında, nə sifətlərində, nə də feillərində tayı-bərabəri yoxdur. Əgər Allahın, məxluqların zatına bənzəməyən həqiqi bir zatı varsa, deməli Quran və Sünnədə varid olan sifətlər barəsində də eyni fikirlər bildirilməlidir. Belə ki, Allahın sifətləri də həqiqi sifətlər olub, digər sifətlərə bənzəmir. Odur ki, Allahın zatı barəsində deyilənlər, Onun sifətləri barəsində də deyilməlidir. Bu gözəl qayda vasitəsilə Allahın zatını isbat edib, Onun sifətlərini inkar edənlərlə münaqişə edilə bilər. Bütün İslam ümməti yekdilliklə Allahın zatını təsdiq etməkdədir.

Əgər biri desə ki, "Allahın bu sifətlərini təsdiq edə bilmərəm, çünki bu zaman Onu məxluqata oxşatmış olaram", ona demək lazımdır ki, "Sən həm Allahın, həm də məxluqların həqiqi zata malik olduqlarını təsdiq edirsən. Sənin dediyinlə götürsək, məgər bu bənzətmə deyilmi?" Və əgər: "Mən yalnız Allahın başqa zatlara bənzəməyən zatının olduğunu təsdiq edirəm"– desə, demək lazımdır ki, "Bu sifətlərə də aiddir, Onun zatı həqiqətən məxluqatın zatına bənzəmədiyi kimi, sifətləri də məxluqatın sifətlərinə bənzəmir." Birdən desə ki, "Mən keyfiyyətini dərk edə bilmədiyim bir sifəti nə cür isbat edə bilərəm", soruşmaq lazımdır ki, "Bəs nə üçün sən keyfiyyətini bilmədiyin bir zatı isbat edirsən?"

**İkinci qayda. Bəzi sifətlər barəsində nə deyilirsə, digər sifətlər barəsində də o deyilməlidir.**

Yəni isbat və ya inkar etmə baxımından bəzi sifətlər barəsində nə deyilirsə, digər sifətlər barəsində də o deyilməlidir. Bu qayda vasitəsilə bəzi sifətləri təsdiq edib digərlərini inkar edənlərlə münaqişə etmək olar. Əgər bir kimsə Həyat, Elm, Qüdrət, Eşitmək, Görmək və başqa bu kimi sifətləri təsdiq edib bütün bunları olduğu kimi qəbul

edib, sonra da Məhəbbət, Razılıq, Qəzəb və başqa bu kimi sifətləri qəbul etməyib bunu məcaz adlandırarsa, ona belə deyilər: "Sənin həqiqi olaraq təsdiq etdiyin sifətlərlə digərləri arasında heç bir fərq yoxdur. Sifətlərin bəziləri barəsində nə deyilirsə, digərləri barəsində də o deyilməlidir. Allah üçün təsdiq etdiyin həyat, elm, qüdrət, eşitmə və görmə sifətlərini məxluqlar üçün təsdiq etdiyin həyat, elm, qüdrət, eşitmə və görmə sifətlərinə bənzətməməyi isbat edirsənsə, gərək eyni qaydada Onun Qəzəb, Razılıq və Məhəbbət kimi sifətlərini də isbat edəsən. Onları məxluqatın sifətlərinə oxşatmadığın kimi, bunları da oxşatmayasan. Əks təqdirdə, sənin yürütdüyün bu fikir ziddiyyət təşkil edəcək.

**Üçüncü qayda. Allahın ad və sifətləri barədə (dəlil-sübutsuz) müzakirə edilməməlidir.**

Allahın ad və sifətlərində *heç bir dəlil olmadığı təqdirdə* susmaq gərəkdir. Bu halda ağıla istinad etmək yolverilməzdir. Ona görə də bu məsələdə Quran və Sünnədə deyilənlərlə kifayətlənib, ayə və hədislərə nə isə artırmaq və nəsə əskiltmək olmaz. Belə ki, Allahın ad və sifətlərini ağılla dərk etmək qeyri mümkün olduğu üçün, dəlillərdə varid olanlarla kifayətlənmək gərəkdir. Uca Allah buyurur: **"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı *sahibinin əməlləri* barəsində sorğu-sual olunacaqdır."** (əl-İsra, 36).

Məşhur İslam alimlərinin də mövqeyi belə olmuşdur. İmam Əhməd demişdir: "Allahı Özünün və Rəsulunun vəsf etdiyi sifətlərdən başqa sifətlərlə vəsf etmək olmaz. Bu məsələdə Quran və Sünnədən kənara çıxmaq olmaz." Bəzi alimlər bildirmişlər ki, hər hansı bir şeyin vəsf olunması üçün üç yol vardır: Ya həmin şeyi görməklə, ya onun bənzərini görməklə, yaxud da onu tanıyan bir kəsin onu vəsf etməsilə. Bizim, Allahın ad və sifətləri barəsindəki bilgilərimiz üçüncü növ, yəni Onu tanıyan bir kəsin Onu vəsf etməsi vasitəsilə olmuşdur. Qətiyyətlə deyə bilərik ki, Allahı Onun Özündən, sonra da Onun vəhy etdiyi rəsullarından yaxşı tanıyan ola bilməz. Biz də ad və sifətlər məsələsində vəhyə tabe olaraq bu dünyada Allahı görməsək də Onun ad və sifətlərini təsdiq etməliyik və bilməliyik ki, O, məxluqata bənzəmir və Onun özünəməxsus ad və sifətləri vardır.

**Dördüncü qayda. Allahın bütün adları ən gözəldir.**

Allahın bütün adları ən gözəldir. Bu barədə Uca Allah buyurur: **"Ən gözəl adlar Allahındır"** (əl-Əraf, 180).

Bundan aydın olur ki, ən yaxşı və ən şərəfli adlar Allaha məxsusdur. O, hər mənada bütün nöqsanlardan uzaq olan kamillik sifətlərinə malikdir.

Misal olaraq əl-Həyyu (Yaşayan) adına nəzər salaq. Burada, əbədi və əzəli olan kamil bir həyat, nə əvvəli, nə də sonu olan bir həyat nəzərdə tutulur. Əbədi Yaşayanın da Elm, Qüdrət, Eşitmə, Görmə və digər sifətlərə malik olması labüddür. Digər bir misal əl-Alim (Hər şeyi bilən) adıdır. Bu, Allahın adlarından biridir və özündə kamil bir elmi əhatə edir. O elm ki, əzəlidir və unutqanlıq kimi naqislikləri özündə ehtiva etmir. Uca Allah buyurur: **"Rəbbim nə xəta edir, nə də unudur!"** (Ta ha, 52). Bu, hər şeyi, o cümlədən də Özünün və yaratdıqlarının feillərini əhatə edən geniş bir elmdir. Uca Allah buyurur: **"*Allah* gözlərin xaincəsinə baxışını və kökslərin *nələr* gizlətdiyini bilir."** (əl-Ğafir, 19). Uca Allahın adlarının hər biri ayrıca zikr olunarsa, bu, özü-özlüyündə gözəldir, adların bəziləri digərləri ilə birlikdə zikr olunduqda isə bu kamillik üzərinə kamillikdir.

Misal üçün əl-Əziz əl-Həkim adlarının birlikdə qeyd olunmasıdır. Uca Allah Qurani Kərimdə bir çox yerlərdə bu iki adı yanaşı zikr edir. Bu iki adın hər biri özü-özlüyündə özünə xas olan mənanın kamil şəkildə olmasına dəlalət edir. Bu da onu göstərir ki, Allah həm qüdrətlidir, həm də hikmət sahibidir. Bu iki adın yanaşı gəlməsi Allahın adının başqa bir kamilliyə də dəlalət etməsini göstərir. Bu da o deməkdir ki, Allahın qüdrəti hikmətlə olur və Onun qüdrətində zülmə, haqsızlığa yer yoxdur. Amma bəzi məxluqlar müəyyən qüdrətə sahib olduqda zülmə və haqsızlığa yol verirlər. Həmçinin bunu Hikmət barəsində də demək olar. Allahın hökmü və Hikməti qüdrətlə yanaşı gəldiyi üçün daha bir kamilliyə də dəlalət edir. Amma məxluqların hökmü və hikməti zəlillik də gətirir. Daha doğrusunu Allah bilir.

Bu fəslin sonunda müsəlmanın Allaha Rububiyyətdə, Uluhiyyətdə, ad və sifətlərdə imandan əldə etdiyi faydalardan bəzilərini qeyd etmək istəyirik:

1. Bunların sayəsində insan həm dünya, həm də axirət səadətinə nail olur. Elə buna görə də qətiyyətlə deyə bilərik ki, dünya və axirət səadətinə nail olmaq üçün Allaha iman olmalıdır. Müsəlmanın Rububiyyət, Uluhiyyət və ad və sifətlərdə Allaha olan imandan nə qədər payı vardırsa, bir o qədər də səadətdən payı vardır.

2. Allaha, Onun ad və sifətlərinə olan iman Ondan qorxmaq, Ona boyun əymək və Ona itaət etmək üçün ən böyük vasitədir. Belə ki, insan öz Rəbbini nə qədər çox tanısa, bir o qədər də Ona yaxın olar, Ondan daha çox qorxar, Ona daha çox ibadət edər və Ona qarşı günah işlətməkdən daha çox çəkinər.

3. İnsan bunların sayəsində qəlbində bir rahatlıq və sükunət, dünya və axirətdə əmin-amanlıq və hidayət tapmış olur. Uca Allah buyurur: **"Bunlar iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır."** (ər-Rəd, 28).

4. Axirət savabına nail olmaqdan ötrü Allaha iman olmalıdır. Bunun sayəsində insan axirət savabına çatır, genişliyi göylər və yer qədər olan Cənnətə daxil olaraq orada gözlərin görmədiyi, qulaqların eşitmədiyi, hətta heç kimin ağlına belə gəlmədiyi nemətlərə çatmış olur, Cəhənnəmdən və onun şiddətli əzabından qurtulur. Bunlardan daha əzəmətlisi isə odur ki, insan Rəbbinin razılığını qazanır, Rəbbinin ona heç vaxt qəzəbi tutmur və nəticə etibarı ilə o, Qiyamət günü bütün fitnələrdən uzaq olaraq Uca Allahın üzünü görməkdən ləzzət alır.

5. Allaha iman gətirmək insanın əməllərini düzəldir və məqbul edir. Bu olmadıqda əməllər çox olsa belə qəbul olunmur. Uca Allah buyurur: **"İmanı inkar edənin əməlləri boşa çıxar və o, Axirətdə ziyana uğrayanlardan olar."** (əl-Maidə, 5). Həmçinin buyurur: **"Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar."** (əl-İsra, 19).

6. Allaha düzgün formada iman gətirmək insanı həm elm, həm də əməllə haqqa tabe olmağa yönəldir. Bununla da insan faydalı moizələri, ibrətamiz və təsirli əhvalatları dinləyir, fitrəti salamat qalır, niyyəti gözəl olur, yaxşı işlərə və xeyirli əməllərə can atır, pis işlərdən

və haramlardan çəkinir, yüksək əxlaqi keyfiyyətlərə və ədəb-ərkana nail olmuş olur.

7. Allaha iman möminlər üçün hər bir insanın başına gələ biləcək şər, hüzn, qorxu, itaət, günah və bu kimi başqa işlərdə bir sığınacaq rolunu oynayır. Onlar yaxşı hallarında Allaha imana tərəf yönələrək, Ona həmd edib, şəninə təriflər deyir və nemətlərini sevdiyi şeylərə sərf edirlər. Xoşagəlməz və kədərli hallarında da Allaha imana müraciət edərək imanlarından və böyük mükafata nail olmalarından təsəlli tapırlar. Qorxu və kədər hallarında da Allaha imana müraciət edərək qəlblərində bir rahatlıq tapır, imanları artır, Allaha etimadları güclənir. İtaət etdikləri və saleh əməllərə müvəffəq olduqları zaman da Allaha imana müraciət edərək, Allahın onlara bəxş etdiyi nemətlərlə tanış olur, onları daha da kamilləşdirməyə səy göstərir, Allahdan onları sabit etməyini və müvəffəq etməsini diləyirlər. Günah işlətdikdə isə yenə Allaha imana müraciət edərək dərhal tövbə etməyə və həmin günahdan yaxa qurtarmağa tələsirlər. Beləliklə də, möminlər hər bir halda Allaha imana müraciət etmiş olurlar.

8. Allahın ad və sifətlərini tanımaq möminlərin qəlblərində Ona qarşı sevginin yaranmasına gətirib çıxarır. Belə ki, Onun ad və sifətləri hər cəhətdən kamildir. İnsanların qəlbi isə kamilliyi hər zaman sevir. İnsanın qəlbində Allah sevgisi qərar tutduqda isə əzaları da yaxşı əməllər etməyə müvəffəq olur. Nəticə etibarı ilə də Allahın insanları xəlq etməsindəki hikmət – Ona ibadət yerinə yetmiş olur.

9. Allahın ad və sifətləri haqqında bilgilərə malik olmaq insanda Allahın təkliyinə, bütün işləri idarə etməsinə və bu işdə Onun heç bir şərikinin olmamasına bir yəqinlik yaradır. Bu da insana həm dünyada, həm də axirətdə gərəkli olan təvəkkülün mövcudluğunu labüd edir. Kim Allaha təvəkkül etsə, Allah ona yetər.

10. Allahın gözəl adlarını sadalamaqla və onları öyrənməklə insan bir çox məlumatlara yiyələnmiş olur. Belə ki, bütün məlumatlar ya Onun işlərini, ya da məxluqatlarını əhatə edir. Elm ya Allahın yaratdıqları barədə, ya da qoyduğu qanunlar barədə olur. Hər iki amil – yaratma və işləri səhmana salma Allahın gözəl adları ilə sıx bağlılıq təşkil edir. Kim Allahın adlarını bəndəyə yaraşan şəkildə qavrasa, bütün elmlərə yiyələnmiş olar.

# II hissə

## İMANIN DİGƏR ƏSASLARI

**Bu hissə beş fəsildən ibarətdir**

# I fəsil

## Mələklərə iman

**Bu fəsil üç mövzudan ibarətdir**

*I mövzu. Mələklərin tərifi, onların yaranışı, sifətləri və bəzi xüsusiyyətləri*

*II mövzu. Mələklərə iman gətirməyin yeri, necəliyi və dəlilləri*

*III mövzu. Mələklərin vəzifələri*

# II hissə.
# İMANIN DİGƏR ƏSASLARI

## I fəsil. Mələklərə iman

### *I mövzu. Mələklərin tərifi, onların yaranışı, sifətləri və xüsusiyyətləri.*

**Tərifi.** Ərəbcə "Məlaikə" sözü "mələk" sözünün cəmi olub "əl-əluk" kəlməsindən götürülmüşdür, mənası – risalət, göndərilmədir.

Mələklər Allahın yaratdıqlarından biridir, incə və nurani cismə malikdirlər, onlar gözəl surətlərə, şəkillərə və qiyafələrə girə bilirlər, qeyri-adi gücə, çox böyük sürətə malikdirlər, onların sayı həddən çoxdur, saylarını Allahdan başqa heç kim bilmir. Allah onları Özünə itaət və ibadət etmək və əmrlərini yerinə yetirmək üçün yaratmışdır. Onlar Allaha qarşı əsla asilik etmir, yalnız onlara verilən əmrləri yerinə yetirirlər.

**Onların yaradılışı.**

Uca Allah mələkləri nurdan yaratmışdır. Aişə ﵂ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: "Mələklər nurdan, cinlər tüstüsüz oddan, Adəm isə bildiyiniz şeydən yaranmışdır."[1]

**Mələklərin sifətləri.**

Quran və Sünnədə mələklərin sifətlərini vəsf edən bir çox dəlillər vardır. Biz onlardan bəzilərini qeyd edəcəyik:

---

[1] "Səhih Muslim", 2996.

Mələklər güclü və qüdrətli olurlar. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun! Onun başı üstündə Allahın onlara verdiyi əmrlərə** ***heç vaxt*** **asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır."** (ət-Təhrim, 6).

Uca Allah Cəbraili ﷺ vəsf edərək buyurur: **"Bu** ***Quranı*** **ona çox qüvvətli olan öyrətdi."** (ən-Nəcm, 5). O, həmçinin buyurur: ***"O elçi ki,*** **qüvvətlidir, Ərşin sahibi yanında** ***böyük*** **hörmət sahibidir."** (ət-Təkvir, 20).

Ayə və hədislərdə mələklərin olduqca böyük və əzəmətli olduqları da bildirilir. Muslimin "Səhih" əsərində Aişədən ﷺ rəvayət olunan hədisdə belə deyilir: "Mən Peyğəmbərdən ﷺ Uca Allahın: "**O onu aydın üfüqdə gördü."** (ət-Təkvir, 23) ayəsi barədə soruşduqda, o buyurdu: "O, Cəbraildir. Mən bu iki kərədən başqa heç vaxt onu xəlq edildiyi surətində görməmişəm. Onu səmadan enərkən gördüm. Xilqətinin böyüklüyü göylə yerin arasını tutmuşdu."[1]

İmam Əhməd, Abdullah ibn Məsuddan ﷺ rəvayət etmişdir ki, "Peyğəmbər ﷺ Cəbraili əsl surətində gördü. Onun altı yüz qanadı var idi. Həmin qanadlardan hər biri üfüqü tutmuşdu. Onun qanadlarından ancaq Allaha məlum olan rəngarəng qiymətli daş-qaşlar, dürr və yaqut tökülürdü."[2] Hafiz İbn Kəsir demişdir: "Hədisin isnadı yaxşıdır."

Əbu Davud Cabir ibn Abdullahdan ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mənə Allahın mələklərindən – Ərşi daşıyan mələklərdən biri haqqında – danışmağa izn verildi. Onun qulağının mərcəyi ilə boyunu arasındakı məsafə yeddi yüz illik yol qədərdir." [3] Heysəmi "Məcməuz-Zəvaid" əsərində demişdir: "Bu hədisin raviləri etibarlıdırlar."

---

[1] "Səhih Muslim", 177.

[2] "Musnəd Əhməd", 1/395, 6/294.

[3] "Sunən Əbu Davud", 4727. Hədis səhihdir: Səhih və Daif Əbu Davud 4727-ci hədis.

Mələklər yaradılışlarına və qüdrətlərinə görə müxtəlifdirlər, eyni dərəcədə deyillər. Onlardan bəzilərinin iki qanadı, bəzilərinin üç, bəzilərinin dörd, digərlərinin də altı yüz qanadı vardır. Uca Allah buyurur: **"Göyləri və yeri Yaradan, mələkləri iki, üç və dörd qanadlı elçilər edən Allaha həmd olsun! O, xəlq etdiklərindən istədiyini artırır."** (əl-Fatir, 1).

Mələklər olduqca yüksək dərəcədə gözəlliyə malikdirlər. Uca Allah Cəbrail haqqında buyurur: **"Bunu ona çox qüvvətli olan öyrətdi, gözəl görünüşlü *Cəbrail.* O, yüksəlib *öz surətində göründü.*"** (ən-Nəcm, 5-6). İbn Abbas ﷺ demişdir: "Ayədəki "**zu mirra**" sözü gözəl görünüşlü deməkdir." Qatədə demişdir: "Böyük və gözəl bir görünüşə malik."

Qadınların Yusufu gördükləri zaman dedikləri sözlər barəsində Uca Allah belə xəbər verir: **"*Qadınlar Yusufu* gördükdə onu o qədər təriflədilər ki, *unudub meyvə əvəzinə* öz əllərini kəsdilər və dedilər: "Allah saxlasın! Bu ki bəşər deyil. Bu ancaq hörmətə layiq bir mələkdir!"** (Yusuf, 31).

Onlar bunu insanlarda mələklərin gözəl bir görünüşə malik olmaları barədə təsəvvürün olduğuna görə demişdilər.

Mələklər möhtərəm və olduqca itaətkardırlar. Uca Allah buyurur: **"*Bu səhifələr* elçilərin əllərində, möhtərəm və müti olanların *əllərindədir.*"** (Əbəsə, 15-16). Həmçinin buyurur: **"Həqiqətən, sizin üstünüzdə nəzarətçilər vardır, çox möhtərəm, *əməllərinizi* yazanlar."** (əl-İnfitar, 10-11).

Mələklər həm də həyalıdırlar. Peyğəmbər ﷺ Osman haqqında demişdir: "Mələklərin utandığı bir kəsdən mən necə utanmayım?!"[1]

Onlar həm də elmlidirlər. Uca Allah mələklərə xitab edərək buyurur: **"Həqiqətən, Mən biləni siz bilmirsiniz."** (əl-Bəqərə, 30). Bu ayədə Uca Allah mələklərin elmli olduqlarını, lakin onların Onun bildiyini bilmədiklərini bildirir. Uca Allah Cəbrail barəsində buyurur: **"Bunu ona çox qüvvətli olan öyrətdi."** (ən-Nəcm, 5). Təbəri demiş-

[1] "Səhih Muslim", 2401.

dir: "Bu Quranı Muhəmmədə Cəbrail öyrətmişdir." Bu da Cəbrailin elmli olduğunu və elm öyrətdiyini göstərir."

Quran və Sünnədə mələklərin əzəmətli və gözəl əxlaqa malik olduqlarını vəsf edən neçə-neçə dəlillər vardır ki, bu da onların necə yüksək məqama sahib olduqlarını göstərir.

**Mələklərin xüsusiyyətləri.**

Uca Allah mələklərə müəyyən xüsusiyyətlər vermişdir ki, onlar bu xüsusiyyətləri ilə cinlərdən, insanlardan və digər məxluqlardan fərqlənirlər:

Onların xüsusiyyətlərindən biri onların göydə yaşamalarıdır. Onlar yalnız Allahın tapşırığını icra etmək və öz vəzifələrini yerinə yetirmək üçün yerə enirlər. Uca Allah buyurur: **"*Allah* Öz hökmü ilə qullarından istədiyi kimsəyə mələkləri vəhylə göndərir."** (ən-Nəhl, 2). O, həmçinin buyurur: **"Sən mələklərin, Ərşi əhatə edərək, Rəbbinə həmd ilə təriflər dediklərini görəcəksən."** (əz-Zumər, 75). Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Bir dəstə mələk gecələr, bir dəstə mələk də gündüzlər növbə ilə sizin yanınıza gəlir, onlar sübh və əsr namazlarında bir yerə toplanırlar. Bundan sonra gecəni sizin aranızda keçirən mələklər *səmaya* qalxır və Allah onlardan: "Siz Mənim qullarımı nə vəziyyətdə tərk etmisiniz?"– deyə soruşur, halbuki O, qullarının *nə etdiklərini* daha yaxşı bilir. Bununla belə onlar deyirlər: "Biz onları namaz qıldıqları halda tərk etdik, yanlarına gəldikdə də onlar namaz qılırdılar."[1] Bu barədə bir çox dəlillər var ki, hamısını qeyd etmək mövzunu hədsiz böyüdərdi.

Onların başqa bir xüsusiyyəti də onların qadın cinsi ilə vəsf olunmamalarıdır. Uca Allah kafirlərin dediklərini inkar edərək belə buyurur: **"Onlar Mərhəmətli *Allahın* qulları olan mələkləri qız hesab etdilər. Məgər onlar *mələklərin* yaradılışının şahidi olublar? Onların bu şahidliyi yazılacaq və buna görə cavab verməli olacaqlar."** (əz-

[1] "Səhih əl-Buxari", 555; "Səhih Muslim", 632.

Zuxruf, 19). Həmçinin buyurur: **"Axirətə inanmayanlar, həqiqətən də, mələklərə qadın adları verirlər."** (ən-Nəcm, 27).

Onların başqa bir xüsusiyyəti də Allaha qarşı asilik və günah etməmələri, yalnız Ona itaət etmələri və Onun əmrini yerinə yetirmələridir. Uca Allah bu barədə buyurur: **"Onun başı üstündə Allahın onlara verdiyi əmrlərə *heç vaxt* asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır."** (ət-Təhrim, 6). O, həmçinin buyurur: **"*Mələklər* Ondan qabaq danışmazlar; onlar ancaq Onun əmrini yerinə yetirərlər."** (əl-Ənbiya, 27).

Onların digər bir özəllikləri Allaha ibadətdən yorulub bezməmələridir. Uca Allah buyurur: **"Onun yanında olanlar Ona ibadət etməyə təşəxxüs göstərmir və *bundan* yorulmurlar. Onlar gecə-gündüz, usanmadan *Onun* şəninə təriflər deyirlər."** (əl-Ənbiya, 19-20). Başqa bir ayədə isə O, buyurur: **"Əgər onlar təkəbbür göstərsələr *bilsinlər ki,* sənin Rəbbinin yanında olanlar gecə-gündüz usanmadan Onun şəninə təriflər deyirlər."** (əl-Fussilət, 38).

Bu, Uca Allahın mələkləri insan və cinlərdən fərqləndirdiyi bəzi xüsusiyyətlərdir. Qısa olaraq desək, mələklər tam fərqli məxluqdurlar. Onlar həm yaradılış, həm də mahiyyət baxımından insanlardan və cinlərdən fərqlənirlər. İnsanlar və cinlər də özlərinə məxsus özəllikləri ilə digər məxluqlardan fərqlidirlər. Daha doğrusunu Allah bilir.

## *II mövzu.*
## *Mələklərə iman gətirməyin yeri, necəliyi və dəlilləri.*

**Mələklərə imanın yeri.**

İslam dinində mələklərə iman gətirmək imanın rüknlərindən biri sayılır. Onsuz iman iman sayılmır. Bunu Uca Allah Öz kitabında, habelə Onun elçisi də Sünnəsində bildirmişdir.

Uca Allah buyurur: **"Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də *iman gətirdilər*. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər."** (əl-Bəqərə, 285).

Bu ayədə Uca Allah göstərir ki, mələklərə iman gətirmək imanın digər rüknləri kimi, Allahın rəsuluna nazil etdiyi, ona və ümmətinə vacib buyurduğu bir məsələdir.

Uca Allah başqa bir ayədə buyurur: **"Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl *sahibləri* Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən... şəxslərdir."** (əl-Bəqərə, 177).

Bununla da Uca Allah bu xüsusiyyətlərə iman gətirməyi yaxşı əməl sayaraq onları saleh əməllərin əsaslarından, imanın rüknlərindən olduğunu bildirmişdir.

Bunun əksi olaraq Uca Allah bildirmişdir ki, bu rüknlərə küfr edən Allaha küfr etmiş olur. O buyurur: **"Allahı, Onun mələklərini, kitablarını, elçilərini və Axirət gününü inkar edən şəxs dərin bir azğınlığa düşmüşdür."** (ən-Nisa, 136).

Bu ayədə Uca Allah bu rüknləri inkar edənləri küfr sözü ilə və dərin bir azğınlıqla vəsf etmişdir. Bu da mələklərə iman gətirməyin imanın əzəmətli bir rüknü olduğunu göstərir və onu inkar etmək insanı İslam ümmətindən çıxarır.

Sünnədə də buna dair çoxlu dəlillər vardır. Onlardan biri də İmam Muslimin "Səhih" əsərində Ömər ibn Xəttabdan رضي الله عنه rəvayət etdiyi məşhur hədisdir. Ömər رضي الله عنه belə rəvayət edir: "Bir dəfə biz Peyğəmbərin ﷺ yanında oturmuşduq. Birdən ağappaq paltarlı, zil qara saçlı, üst-başında da səfərdən bir əsər-əlamət görünməyən və heç birimizin tanımadığı bir adam yanımıza gəldi. Nəhayət, o yaxınlaşıb Peyğəmbərlə ﷺ üzbəüz oturdu, dizlərini onun dizlərinə dayadı, əllərini də öz budunun üstünə qoyub dedi: "Ey Muhəmməd, mənə İslam haqqında xəbər ver!" Peyğəmbər ﷺ buyurdu: "İslam (odur ki,) Allahdan başqa (haqq) məbud olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirəsən, namaz qılasan, zəkat verəsən, ramazan ayını oruc tutasan və imkanın olduğu təqdirdə Kəbəni ziyarət edəsən". Adam: "Doğru söylədin!"– dedi.

(Ömər ibn Xəttab dedi:) "Biz ona təəccüb etdik, o həm soruşur, həm də təsdiq edirdi. Sonra o dedi: "Mənə iman haqqında xəbər ver". Peyğəmbər ﷺ buyurdu: "(İman odur ki,) Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə və Axirət gününə iman gətirəsən, habelə qədərə – onun xeyrinə və şərinə iman gətirəsən". Adam: "Doğru söylədin!"– dedi. (Sonra) soruşdu: "Mənə ehsan haqqında xəbər ver." Peyğəmbər ﷺ buyurdu: "(Ehsan odur ki,) Allaha, sanki Onu görürmüşsən kimi ibadət edəsən. Sən Onu görməsən də, (bil ki,) O səni görür". Adam soruşdu: "Mənə Qiyamət saatı haqqında xəbər ver". Peyğəmbər ﷺ buyurdu: "Bu haqda soruşulan soruşandan çox bilmir". Adam soruşdu: "Mənə onun əlamətləri haqqında xəbər ver". Peyğəmbər ﷺ buyurdu: "(O vaxt) ki, cariyə öz ağasını dünyaya gətirəcək və sən ayaqyalın, çılpaq və kasıb çobanların hündür binalar tikməkdə yarışdıqlarını görəcəksən."

Ömər dedi: "Sonra o çıxıb getdi. Mən bir müddət (yerimdəcə) donub qaldım. Sonra Peyğəmbər ﷺ məndən soruşdu: "Ey Ömər, sual verənin kim olduğunu bilirsənmi?" Mən: "Allah və Onun rəsulu

daha yaxşı bilir!"– dedim. Peyğəmbər ﷺ buyurdu: "O, Cəbrail idi. Sizə dininizi öyrətməyə gəlmişdi."[1]

Bu əzəmətli hədis dinin bütün əsaslarını və dərəcələrini özündə ehtiva edir. Həmçinin bu hədis İslam dinini öyrənmək üçün əvəzolunmaz bir yoldur. Bu hədisdə ən əzəmətli mələk olan Cəbraillə bəşəriyyətin ən xeyirlisi Peyğəmbər ﷺ arasında baş vermiş dialoq vasitəsilə dinimiz insanlara öyrədilir. Gərək müsəlmanlar bu hədisə xüsusi diqqət yetirsinlər və dini öyrənmək və öyrətmək yolunda sələflərimiz kimi ona müraciət etsinlər. Hədisdə mələklərə imanın da imanın rüknlərindən olduğu göstərilir. Burada bunun zikr olunmasında məqsəd də bu idi. Daha doğrusunu Allah bilir.

**Mələklərə necə iman gətirmək lazımdır**.

Mələklərə iman özündə bir neçə məsələni ehtiva edir. Bəndə bu məsələləri həyata keçirməlidir ki, mələklərə olan imanı keçərli olsun.

1. Onların varlığını qəbul etmək və onları təsdiq etmək. Az öncə qeyd etdiyimiz dəlillərdən də məlum olur ki, mələklərə iman imanın bir rüknüdür və onsuz iman olmur.

2. Onların sayının həddən çox olmasına və saylarının Allahdan başqa heç kimin bilmədiyinə iman gətirmək. Uca Allah buyurur: **"Sənin Rəbbinin qoşunları barədə yalnız Özü bilir."** (əl-Müddəssir, 31). Yəni sənin Rəbbinin mələklərdən olan qoşunlarının sayını yalnız O Özü bilir. Bu da onların sayının çox olduğundan xəbər verir. Bunu bəzi sələflər də demişlər. Buxari və Muslimin Malik ibn Sasadan رضي الله عنه İsra gecəsi haqqında rəvayət etdikləri uzun hədisdə Peyğəmbər ﷺ demişdir: "Sonra mənə Beytul-Məmuru göstərdilər. Soruşdum: "Bu nədir, ey Cəbrail?" Dedi: "Bu Beytul-Məmurdur. Hər gün onun içinə yetmiş min mələk girir. Oradan çıxdıqdan sonra bir daha ora qayıtmırlar."[2]

Muslimin "Səhih" əsərində Abdullah ibn Məsud رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Qiyamət günü Cəhənnəm

[1] "Səhih Muslim", 8.

[2] "Səhih əl-Buxari", 3207; "Səhih Muslim", 164.

gətiriləcəkdir. O zaman onun yetmiş min noxtası olacaq. Hər bir noxtadan yetmiş min mələk onu dartacaqdır."[1] Bu iki hədis mələklərin nə qədər çox olduğunu göstərir. Əgər təkcə Beytul Məmura hər gün yetmiş min mələk daxil olur-çıxır, sonra da ora geri dönmürlərsə, Qiyamət günü Cəhənnəmi bu qədər çox sayda mələk gətirəcəksə, görün başqa işlərə müvəkkil edilmiş mələklərin sayı nə qədərdir. Həmin mələklərin sayını isə yalnız onları Yaradan bilir.

3. Mələklərin Allah yanında yüksək məqama, hörmətə, şərəfə sahib olmalarını etiraf etmək. Uca Allah buyurur: **"*Kafirlər*: "Mərhəmətli *Allah Özünə* övlad götürdü!"– dedilər. O, pakdır, müqəddəsdir! Əksinə, *o mələklər* möhtərəm qullardır. *Mələklər* Ondan qabaq danışmazlar; onlar ancaq Onun əmrini yerinə yetirərlər."** (əl-Ənbiya, 26-27). O, həmçinin buyurur: **"*Bu səhifələr* elçilərin əllərində – möhtərəm və müti olanların *əllərindədir*."** (Əbəsə, 15-16).

Bu ayədə Uca Allah mələklərin möhtərəm qullar olduqlarını bildirməkdədir. Uca Allah buyurur: **"Əgər onlar təkəbbür göstərsələr *bilsinlər ki,* sənin Rəbbinin yanında olanlar gecə-gündüz usanmadan Onun şəninə təriflər deyirlər."** (Fussilət, 38). Ayədə buyurulur ki, mələklər Allahın yanındadırlar və usanmadan Ona ibadət edirlər. Bu da onların şərəfli olmalarını göstərir. Uca Allah Öz kitabında bir çox yerlərdə mələklərə and içir. Bunun özü də onların Allah yanında olan şərəfini göstərir. O buyurur: **"And olsun *göylərdə və yerdə* səf-səf duranlara, *imansızları* qətiyyətlə qovanlara və Zikri oxuyanlara!"** (əs-Saffət, 1-3).

O, həmçinin buyurur: **"(And olsun) *haqqı nahaqdan* ayırdıqca ayıranlara və zikri çatdıranlara."** (əl-Mursələt, 4-5).

Allahın Kitabını mütəmadi oxuyan hər kəsə məlumdur ki, orada mələklərin möhtərəm qullar olmaları barədə müxtəlif növ və müxtəlif üslubda çoxlu sayda dəlillər vardır.

4. Quran və Sünnədə gələn bütün dəlillərə əsasən mələklərin bir-birlərindən üstün olmaları, fəzilət və Allah qatında olan məqam baxı-

[1] "Səhih Muslim", 2842.

mından onların eyni səviyyədə olmamalarına etiqad edilməlidir. Uca Allah buyurur: **"Allah mələklərdən də elçilər seçir, insanlardan da. Həqiqətən, Allah Eşidəndir, Görəndir!"** (əl-Həcc, 75).

Həmçinin buyurur: **"Nə *İsa* Məsih Allahın qulu olmağı özünə ar bilər, nə də *Allaha* yaxın olan mələklər"** (ən-Nisa, 172).

Uca Allah xəbər verir ki, bəzi mələklər elçi seçilir və Ona yaxın olurlar. Bu da həmin mələklərin qeyrilərindən üstün olmalarını göstərir. Ən əfzəl mələklər Allaha yaxın olub Ərşi daşıyan mələklərdir. Allaha yaxın olan mələklərin ən fəzilətlisi isə Peyğəmbərin ﷺ duasında adları çəkilən üç mələkdir. Peyğəmbər ﷺ gecə namazını bu dua ilə başlayardı: "Cəbrailin, Mikailin və İsrafilin Rəbbi, göyləri və yeri Yaradan, qeybi və aşkarda olanı Bilən Allahım!..."[1]

Bu üç mələkdən daha əfzəli Cəbraildir. O elçilərə vəhyi çatdırmağa müvəkkil olunub. Gördüyü vəzifənin şərəfinə görə özü də şərəfli hesab olunur. Uca Allah onu Öz Kitabında başqa mələklərini vəsf etmədiyi adlarla qeyd edib. Uca Allah onu ən gözəl ad və sifətlərlə vəsf edib. Uca Allah buyurur: **"Onu sadiq ruh *Cəbrail* endirdi."** (əş-Şüəra, 193). O, həmçinin buyurur: **"O gecə Rəbbinin izni ilə mələklər və Ruh *Cəbrail* hər işə görə *yerə* enirlər."** (əl-Qədr, 4). Bu adı Uca Allah başqa bir ayədə Özünə aid edərək belə qeyd edir: **"Biz Öz Ruhumuz *Cəbraili* onun yanına göndərdik. O, Məryəmin qarşısında kamil bir insan surətində peyda oldu."** (Məryəm, 17).

Başqa bir ayədə Uca Allah bu adı Müqəddəs adı ilə birgə qeyd edir: **"De: "Müqəddəs Ruh *Cəbrail* onu sənin Rəbbindən iman gətirənləri sabitqədəm etmək üçün, həm də müsəlmanlara doğru yol göstəricisi və müjdə olsun deyə gerçək olaraq nazil etmişdir."** (ən-Nəhl, 102).

Təfsir alimlərinin rəyinə görə Müqəddəs deyildikdə, ayədə Allah nəzərdə tutulur. Uca Allah onu həmçinin vəsf edərək buyurur: **"Həqiqətən, bu, göndərdiyimiz möhtərəm bir elçinin sözüdür. *O elçi ki,* qüvvətlidir, Ərşin sahibi yanında *böyük* hörmət sahibidir, orada**

---

[1] "Musnəd Əhməd", 6/156; "Sunən ən-Nəsai", 3/173.

**itaət ediləndir, etibarlıdır."** (ət-Təkvir, 19-21). Həmçinin buyurur: **"Bunu ona çox qüvvətli olan öyrətdi – gözəl görünüşlü *Cəbrail.* O, yüksəlib *öz surətində göründü."*** (ən-Nəcm, 5-6). Bu ayələrdə Uca Allah Cəbraili elçi, möhtərəm, qüvvətli, Onun yanında xüsusi yerə malik, səmalarda itaət olunan, vəhy etibar olunmuş və gözəl simalı adlandırmışdır.

5. Müsəlmanlar mələkləri özlərinə dost tutmalı, onlara düşmən mövqedə olmamalıdırlar. Uca Allah buyurur: **"Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır."** (ət-Tövbə, 71). Mələklər də bura daxildirlər, çünki onlar da Allaha itaət edən möminlərdir. Uca Allah onlar barəsində belə buyurur: **"Onun başı üstündə Allahın onlara verdiyi əmrlərə *heç vaxt* asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır."** (ət-Təhrim, 6). Həmçinin Uca Allah mələklərin möminlərə və Peyğəmbərə ﷺ dost olduğunu bildirir. O buyurur: **"Əgər *Peyğəmbərə* qarşı bir-birinizə dəstək versəniz, *bilin ki,* Allah, Cəbrail və əməlisaleh möminlər onun dostu və yardımçısıdır. Bunlardan başqa mələklər də onun yardımçılarıdır."** (ət-Təhrim, 4). O, həmçinin buyurur: **"Sizi zülmətlərdən nura çıxartmaq üçün sizə rəhm edən Odur. Onun mələkləri də *sizin üçün bağışlanma diləyərlər."*** (əl-Əhzab, 43).

Başqa bir ayədə O buyurur: **"Həqiqətən də: "Rəbbimiz Allahdır!"– deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub *deyirlər:* "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!"** (Fussilət, 30).

Mələklərin möminləri sevmələrinə, onlara yardım etmələrinə, onları dəstəkləmələrinə və onlar üçün bağışlanma diləmələrinə görə möminlərin də mələkləri özlərinə dost tutmaları vacibdir. Uca Allah mələklərə qarşı düşmən mövqedə olmaqdan çəkindirərək buyurur: **"Kim Allaha, Onun mələklərinə və elçilərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz ki, Allah da o kafirlərə düşməndir."** (əl-Bəqərə, 98).

Rəbbimiz xəbər verir ki, mələklərə düşmən olmaq Allaha düşmən olmaqdır. Çünki mələklər Onun əmrlərindən və hökmündən əs-

la çıxmırlar. Odur ki, kim onlarla düşmənçilik edərsə öz Rəbbi ilə düşmənçilik etmiş olur.

6. Etiqad edilməlidir ki, mələklər məxluqdurlar və onlar yaratmaq, idarə etmək, işləri yoluna qoymaq kimi qüdrətə malik deyillər. Onlar Allahın əsgərləridir və yalnız Onun əmrlərini icra edirlər. Bütün işlər Allahın əlindədir və bu işdə Onun heç bir şəriki yoxdur. Eləcə də hər hansı bir ibadət növünü mələklərə yönəltmək yolverilməzdir. Əksinə, ibadət həm Rububiyyətdə, həm Uluhiyyətdə, həm də ad və sifətlərdə heç bir şəriki və oxşarı olmayan, həm mələkləri, həm də bütün məxluqatı yaradan Allaha olmalıdır. Uca Allah bunu bəyan edərək buyurur: **"O sizə mələkləri və peyğəmbərləri özünüzə tanrılar qəbul etməyi buyurmaz. Məgər o sizə, siz müsəlman olduqdan sonra kafir olmağı əmr edərmi?"** (Ali İmran, 80). Həmçinin buyurur: **"*Kafirlər*: "Mərhəmətli *Allah Özünə* övlad götürdü!"– dedilər. O, pakdır, müqəddəsdir! Əksinə, *o mələklər* möhtərəm qullardır. *Mələklər* Ondan qabaq danışmazlar; onlar ancaq Onun əmrini yerinə yetirərlər. *Allah* onların keçmişini və gələcəyini bilir. Onlar yalnız Onun razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir və Onun qorxusundan tir-tir əsirlər. Onlardan kimsə: "Mən Ondan başqa bir məbudam!"– desə, ona Cəhənnəmi qismət edərik. Biz zalımları belə cəzalandırırıq."** (əl-Ənbiya, 26-29).

Uca Allah *bu ayələrdə* xəbər verir ki, O, mələklərə ibadət etməyi buyurmayıb. Bu əməl küfr olduğu halda Allah bunu necə əmr edə bilər. Həmçinin Uca Allah mələklərin Allahın qızları olduğunu iddia edənlərin iddialarının batil olduğunu da bəyan edir və Özünü bunlardan təmizə çıxarır. Həmçinin ayədə bildirir ki, mələklər hörmətli qullardır, onlar yalnız Allahın əmrlərini yerinə yetirirlər, Onun qorxusundan əsim-əsim əsirlər və yalnız Allahın razı qaldığı tövhid əhlindən olan kəslər üçün şəfaət diləyirlər. Sonda isə Allah bildirir ki, Uluhiyyəti iddia edən hər kəsin yeri yalnız Cəhənnəmdir. Bundan da aydın olur ki, mələklər sadəcə Allahın qullarıdır, güc və qüdrət isə yalnız onların Rəbbi və onların Xaliqi olan Allaha aiddir.

7. Quran və Sünnədə adları xüsusi olaraq qeyd olunan mələklərə, təfsilatı ilə iman gətirmək. Onlardan bəziləri aşağıdakılardır: Cəbrail, Mikail, İsrafil, Malik, Harut və Marut, Ridvan, Munkər və Nəkir və digərləri. Həmçinin dəlillərdə vəsfləri ilə qeyd olunan mələklər də belədir: hazır duran və nəzarət edən mələklər kimi. Bəzən mələklər vəzifələri ilə də qeyd olunurlar. Misal olaraq ölüm mələyini və ya dağlar mələyini göstərmək olar. Bəzi mələklərin vəzifələri ümumi olaraq qeyd olunur: Ərşi daşıyanlar, əməlləri yazan möhtərəm mələklər, məxluqatı qoruyanlar, bətinlərdə olanları qoruyanlar, Beytul Məmuru təvaf edənlər, gəzib dolanan mələklər və başqaları kimi.

Bu cür adları, vəsfləri, vəzifələri və xəbərləri qeyd olunan mələklərə təfsilatı ilə iman gətirmək və təsdiq etmək gərəkdir. Bu barədə növbəti fəsildə söhbət açacağıq.

Quran və Sünnədə gələn dəlillərə əsasən mələklər barəsində etiqad olunması vacib olan məsələlər bunlardır. Daha doğrusunu Allah bilir.

### *III mövzu. Mələklərin vəzifələri.*

Mələklər Uca Allahın əsgərləridirlər. Allah onlara mühüm işlər, böyük vəzifələr tapşırmış və bunları kamil şəkildə yerinə yetirə bilmələri üçün onlara qüdrət əta etmişdir. Bu vəzifələr də müxtəlif qisimlərə bölünür:

Mələklərdən eləsi vardır ki, vəhyi Allahdan peyğəmbərlərə çatdırmağa müvəkkəl olunmuşdur. Bu, Cəbraildir. Uca Allah buyurur: **"Onu sadiq ruh *Cəbrail* endirdi – sənin qəlbinə ki, xəbərdar edənlərdən olasan. *Bu Quran* açıq-aydın ərəb dilində *nazil edildi.*"** (əş-Şüəra, 193-195). Cəbrail mələklərin fəzilətlisi və Allah qatında ən hörmətlisidir. Uca Allah onun qüvvətli və tapşırılan işi yerinə yetirməkdə etimad ediləsi olduğunu vəsf etmişdir. Peyğəmbər ﷺ onu xəlq edildiyi surətində yalnız iki dəfə görmüşdür. Digər vaxtlarda isə onu insan şəklində görürdü. O bir dəfə Cəbraili gün doğan tərəfdə üfüqdə görmüşdü. Uca Allah bu barədə buyurur: **"O, *Cəbraili* aydın üfüqdə gördü."** (ət-Təkvir, 23). İkinci dəfə isə onu İsra gecəsi səmada görmüşdü. Uca Allah buyurur: **"Onu bir daha *öz sürətində* enərkən gördü – son həddəki Sidr ağacının yanında. Məva bağı da onun yanındadır."** (ən-Nəcm, 13-15). Muslimin "Səhih" əsərində də Aişədən رضي الله عنها rəvayət olunur ki, mən qeyd olunan iki ayənin açıqlaması barədə Peyğəmbərdən ﷺ soruşduqda o belə dedi: "Bu Cəbraildir. Mən bu iki kərədən başqa heç vaxt onu xəlq edildiyi surətində görməmişəm. Onu səmadan enərkən gördüm. Xilqətinin böyüklüyü göylə yerin arasını tutmuşdu."[1]

Mələklərdən eləsi də vardır ki, onun vəzifəsi yağış yağdırıb bitkiləri yetişdirməkdir. Bu iş isə Mikailə tapşırılıb. Uca Allah buyurur: **"Kim Allaha, Onun mələklərinə və elçilərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz ki, Allah da o kafirlərə düşməndir."** (əl-Bəqərə, 98).

---

[1] "Səhih Muslim", 177.

Mikail də Rəbbi yanında yüksək məqama malikdir. Ona görə də Uca Allah əvvəlki ayədə Mikaili və Cəbraili xüsusi olaraq zikr edərək mələklərdən olmalarına baxmayaraq onların adlarını şərəfli olduqlarına görə bir daha qeyd etmişdir. Əvvəldə qeyd etdiyimiz kimi, onun adı Peyğəmbərin ﷺ gecə namazında etdiyi duasında da çəkilir. Peyğəmbər ﷺ bu cür dua edərdi: "Ey Cəbrailin, Mikailin və İsrafilin Rəbbi Allahım!..."[1] Məhz bu hədisə istinadən alimlər bu üç mələyin ən əfzəl mələklər olduğunu bildirmişlər.

Mələklərdən eləsi də vardır ki, sur çalmaq ona tapşırılıb. Bu da üçüncü ən əfzəl mələk olan İsrafildir. Həmçinin İsrafil Ərşi daşıyan mələklərdən biridir. Sur deyildikdə içərisinə üfürüləcək böyük bir buynuz nəzərdə tutulur. İmam Əhməd "Musnəd" əsərində Abdullah ibn Amr ibn Asdan رضي الله عنه rəvayət etmişdir ki, "Bir dəfə bir bədəvi gəlib Peyğəmbərdən ﷺ soruşdu ki, Sur nədir? O dedi: "İçərisinə üfürülən buynuz."[2] Bu hədisi həmçinin Hakim də səhih olaraq rəvayət etmiş, Zəhəbi də onun bu mövqeyini dəstəkləmişdir.[3]

Həmçinin İmam Əhməd və Tirmizi Əbu Səid əl-Xudridən رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Sur sahibi surunu əlinə alıb, başını qaldırıb qulaq verərək üfürməyə əmr olunacağını gözlədiyi halda, mən necə rahat ola bilərəm?" Müsəlmanlar dedilər: "Ey Allahın rəsulu, bəs biz nə deyək?" O dedi: "Deyin ki: Allah bizə yetər, O, nə gözəl qoruyandır. Allaha təvəkkül edirik."[4] Tirmizi demişdir: "Bu hədis "həsən"-dir." Bəzi alimlər isə onu səhih saymışlar.

İsrafil sura üç dəfə üfürəcək – dəhşət gətirəcək üfürmə, qulaqbatırıcı (öldürücü) üfürmə və yenidən dirilmə üfürməyi. Uca Allah buyurur: **"Sur üfürüləcəyi gün Allahın istədiklərindən başqa, göylərdə və yerdə olanlar dəhşətə düşəcək və hamısı Onun hüzuruna baş əyərək gələcəkdir."** (ən-Nəml, 87).

---

[1] "Musnəd Əhməd", 6/156; "Sunən ən-Nəsai", 3/173.

[2] "Musnəd Əhməd", 2/162, 192.

[3] "Mustədrək əl-Hakim", 2/506, 4/589.

[4] "Musnəd Əhməd", 3/7; "Sunən ət-Tirmizi", 2431, 3243.

Burada söhbət dəhşət gətirəcək üfürmədən gedir. Digər iki üfürməyə aşağıdakı ayə dəlildir: "**Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcəkdir. Sonra bir daha ona üfürülən kimi onlar qalxıb baxacaqlar.**" (əz-Zumər, 68).

Mələklərdən eləsi də vardır ki, ona can almaq tapşırılıb. Bu da Ölüm mələyidir. Uca Allah buyurur: **"De: "Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaq, sonra da Rəbbinizə qaytarılacaqsınız!"** (əs-Səcdə, 11).

Ölüm mələyinin köməkçiləri olan mələklər də vardır. Onlar insana etdikləri əmələ müvafiq olaraq görünürlər. Əgər yaxşı əməl sahibi olmuşsa, onlar ona gözəl simada, pis əməl sahibi olmuşsa, qorxunc bir simada görünürlər. Uca Allah buyurur: **"Nəhayət, sizlərdən birinə ölüm gəldiyi zaman elçilərimiz *mələklər* onun canını alırlar və heç bir səhvə yol vermirlər."** (əl-Ənam, 61).

Həmçinin mələklərdən eləsi də vardır ki, ona dağlar tapşırılıb. Dağlar mələyi haqqında peyğəmbərliyin əvvəlində Peyğəmbərimizin ﷺ Taifə çıxaraq taifliləri dəvət etdiyi, onların da onu qəbul etmədikləri barədə hədisdə xəbər verilir. Həmin hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Mən başımı yuxarı qaldırıb üstümə kölgə salan bir bulud gördüm. Mən buluda diqqət yetirdikdə içində Cəbraili gördüm. O məni səsləyib dedi: "Allah sənin qövmünün nə dediklərini və sənə necə rədd cavabı verdiklərini eşitdi. Rəbbin dağlar mələyini sənin yanına göndərib ki, onları *bəlaya düçar etmək* xüsusunda istədiyini bu mələyə əmr edəsən." Dağlar mələyi mənə salam verdikdən sonra dedi: "Ey Muhəmməd, nə istəyirsənsə, *buyur*! İstəyirsənsə, bu iki dağı onların başına uçurdum!" Peyğəmbər ﷺ dedi: "Xeyr, mən ancaq onu diləyirəm ki, Allah onların belindən Tək Allaha ibadət edən və Ona heç bir şeyi şərik qoşmayan kimsələr gətirsin!"[1] İki dağ deyildikdə, Məkkədə yerləşən Əbu Qubeys dağı və onun qarşısındakı dağ nəzərdə tutulur.

---

[1] "Səhih əl-Buxari", 3231; "Səhih Muslim", 1795.

Bətnlərdə olanlara müvəkkil edilmiş mələk. Ənəs ibn Malikdən ﷺ Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Allah mələklərdən birinə buyurub ki desin: "Ey Rəbbim, nütfədir, ey Rəbbim laxtalanmış qandır, ey Rəbbim ət parçasıdır." Uca Allah bəndəsinə can verdikdə isə mələk soruşar: "Kişimi, ya qadınmı? Xoşbəxtmi, ya bədbəxtmi? Ruzisi və əcəli necə olacaq?" Beləliklə bütün bunlar uşağa anasının bətnində ikən yazılar."[1]

Həmçinin onlardan bəziləri Ərşi daşıyanlardır. Uca Allah buyurur: **"Ərşi daşıyanlar və onun ətrafındakılar öz Rəbbinə həmd edərək onu tərifləyir, Ona iman gətirir və möminlər üçün bağışlanma diləyirlər."** (Ğafir, 7); **"Mələklər isə onun ətrafında olacaqlar. O gün sənin Rəbbinin Ərşini səkkiz *mələk* daşıyacaqdır."** (əl-Həqqa, 17). Bəzi alimlər demişlər: "Ərşin ətrafında olan mələklər də Ərşi daşıyanlar kimi ən şərəfli mələklərdəndir."[2]

Bəzi mələklər Cənnətin gözətçiləridir. Uca Allah buyurur: "**Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: "Sizə salam olsun! Xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!"** (Zumər, 73). Həmçinin buyurur: **"Əməlisaleh ataları, zövcələri və övladları ilə birlikdə daxil olacaqları Ədn bağları hazırlanmışdır. Mələklər bütün qapılardan onların yanına daxil olacaqlar."** (ər-Rəd, 23).

Bəzi mələklər isə Cəhənnəmin gözətçiləridir. Onlar da Zəbani adlanırlar. Onların başçıları on doqquzdur. Uca Allah buyurur: **"Odda olanlar Cəhənnəm gözətçilərinə deyəcəklər: "Rəbbinizə yalvarın ki, heç olmasa, bircə gün əzabımızı yüngülləşdirsin!"** (Ğafir, 49). Uca Allah buyurur: **"Qoy o öz yığnağını çağırsın. Biz də əzab mələklərini *(Zəbaniləri)* çağıracağıq."** Uca Allah buyurur: **"Onun üzərində on doqquz *gözətçi mələk* vardır. Biz Cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik."** (əl-Müddəssir, 30-31). O, həmçinin buyurur: **"Onlar *Cəhənnəm gözətçisini* çağırıb deyəcəklər: "Ey Malik!**

---

[1] "Səhih əl-Buxari", 318; "Səhih Muslim", 2646.

[2] "Təfsir İbn Kəsir", 7/120.

**Qoy Rəbbin canımızı alıb qurtarsın!" O isə: "Siz *burada* əbədi qalacaqsınız!"– deyəcək."** (əz-Zuxruf, 77).

Sünnədə də Malikin Cəhənnəmin gözətçisi olması, habelə Peyğəmbərin ﷺ onu görməsi barədə hədislər vardır. Buxarinin "Səhih" əsərində Səmura ibn Cundəbdən رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunmuşdur: "Bu gecə gördüm ki, iki kişi mənim yanıma gəlib dedilər: "Cəhənnəm odunu alovlandıran, Cəhənnəmin gözətçisi Malikdir. Mən Cəbrailəm, bu isə Mikaildir."[1]

Mələklərdən bəziləri də Beytul Məmuru ziyarət edənlərdir. Bu mələklərdən hər gün yetmiş mini Beytul Məmura daxil olur və bir daha ora qayıtmırlar. Malik ibn Sasaə رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Sonra mənə Beytul Məmuru göstərdilər. Soruşdum: "Bu nədir, ey Cəbrail?" Dedi: "Bu Beytul Məmurdur. Hər gün onun içinə yetmiş min mələk girir. Oradan çıxdıqdan sonra bir daha ora qayıtmırlar."[2]

Bəzi mələklər isə gəzib dolaşanlardır. Onlar gəzərək zikr məclislərini axtarırlar. Buxari və Muslimin rəvayət etdiyi hədisdə Əbu Hureyra رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: "Allahın yollarda gəzib dolanaraq *Allahı* zikr edən insanları arayan mələkləri vardır. Onlar Allahı zikr edən bir camaata rast gəldikdə bir-birini çağırar və: "Axtardığınızın yanına gəlin!"– deyərlər. Sonra da onlar bu camaatı öz qanadları ilə dünya səmasınadək əhatəyə alarlar..."[3] Alimlər demişlər ki, bu mələklər insanları qoruyan mələklərdən əlavədirlər.

Həmçinin rəvayət olunmuşdur ki, bu mələklər ümmətindən Peyğəmbərə ﷺ salam göndərənin salamını ona çatdırır. İmam Əhməd və Nəsai səhih isnadla Abdullah ibn Məsuddan رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Həqiqətən Allahın yer üzərində gəzib dolanan mələkləri vardır. Onlar ümmətimin salamlarını mənə çatdırırlar."[4]

---

[1] "Səhih əl-Buxari", 3236.
[2] "Səhih əl-Buxari", 3207; "Səhih Muslim", 164.
[3] "Səhih əl-Buxari", 6408; "Səhih Muslim", 2689.
[4] "Musnəd Əhməd", 1/452; "Sunən ən-Nəsai", 1282.

Mələklərdən bəziləri də əməlləri yazan, möhtərəm mələklərdir. Onların işləri məxluqatın əməllərini yazıb onları siyahıya almaqdır. Uca Allah buyurur: **"Həqiqətən, sizin üstünüzdə nəzarətçilər vardır – çox möhtərəm, *əməllərinizi* yazanlar. Onlar sizin nə etdiklərinizi bilirlər."** (əl-İnfitar, 10-12). Həmçinin buyurur: **"Sağında və solunda iki *mələk* oturub *onun əməllərini qeydə alır.* Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın."** (Qaf, 17-18). Mücahid bu ayənin təfsirində demişdir: "İnsanın sağında bir mələk, solunda da bir mələk vardır. Sağdakı mələk yaxşı əməlləri, soldakı isə pis əməlləri qeyd edir."

Bəzi mələklərə isə qəbir fitnəsində insanları sorğuya tutmaq tapşırılıb. Onların adları Munkər və Nəkirdir. Buna bir çox səhih hədislər sübutdur. Buxari və Muslim, Ənəs ibn Malikdən ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Bəndə qəbrə qoyulduqdan sonra yoldaşları dönüb getdiyi zaman onların ayaqqabılarının səsini eşidir. Bu zaman onun yanına iki mələk gəlib onu oturdur və ondan soruşurlar ki: "Bu Muhəmməd ﷺ deyilən adam haqqında nə deyə bilərsən?" Mömin olan kəs: "Mən şəhadət verirəm ki o, Allahın qulu və elçisidir"– deyə cavab verir. Onda mələklər deyirlər: "Cəhənnəm odundakı yerinə bax! Allah onun əvəzinə sənə Cənnətdə bir yer verdi." Bu zaman həmin şəxs hər iki yerini görəcəkdir."[1]

Tirmizi və İbn Hibban Əbu Hureyradan ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Meyit, (yaxud sizlərdən biri) dəfn olunduqdan sonra onun yanına biri qara, digəri göy olmaqla iki mələk gələr. Onlardan birinin adı Munkər, digərininki isə Nəkirdir. Onlar gəlib soruşarlar: "O kişi haqqında nə deyirdin?..."[2] Tirmizi bu hədisin həsən olduğunu bildirmişdir.

Bunlar Quran və Sünnədə vəzifələri və adları qeyd olunan ən məşhur mələklər idi. Hər bir bəndə bunlara iman gətirərək dəlillərdə göstərilənləri təsdiqləməlidir. Daha doğrusunu Allah bilir.

---

[1] "Səhih əl-Buxari", 1374; "Səhih Muslim", 2870.

[2] "Sunən ət-Tirmizi", 1073; "Səhih İbn Hibban", 3117.

**Mələklərə iman gətirməyin səmərəsi.**

Mələklərə iman gətirməyin mömin üçün böyük faydaları var:

1. İnsan mələkləri yaradan Allahın həm əzəmətini, həm də Onun qüdrətinin və hökmranlığının kamil olduğunu anlamış olur.

2. Uca Allah mələklərin bəzilərinə bəndələri qorumağı, bəzilərinə onların əməllərini yazmağı, bəzilərinə də dünya və axirətləri üçün faydalı olan digər əməlləri tapşırmışdır. İnsan da bunu bilməklə, Allahın Öz bəndələrinə olan lütfünü və qayğısını anlayıb Ona şükür etmiş olur.

3. Mələklər Allaha lazımi qaydada itaət etdikləri üçün habelə, möminlərə kömək edərək onlar üçün bağışlanma dilədikləri üçün möminlər onları sevmiş olur.

# II fəsil

## Nazil olunmuş kitablara iman

### Bu fəsil müqəddimədən və dörd mövzudan ibarətdir

**"Vəhy" sözünün həm lüğəvi, həm də istilahi mənası və bir də onun növlərinin bəyanı.**

*I mövzu. Kitablara imanın hökmü və dəlilləri*

*II mövzu. Kitablara imanın məğzi*

*III mövzu. Tövrat, İncil və digər kitabların təhrif olunmasının, Quranın isə salamat qalmasının bəyan edilməsi*

*IV mövzu. Qurana iman və onun xüsusiyyətləri*

## II fəsil. Nazil olunmuş kitablara iman.

**"Vəhy" sözünün həm lüğəvi, həm də istilahi mənası və bir də onun növlərinin bəyanı.**

"Vəh" lüğəvi mənada tez və gizli gələn xəbərə deyilir.

Həmçinin vəhyin işarə, yazı, risalə və ilham mənaları da vardır. Başqasına bildirdiyin hər bir xəbər vəhy adlanır. Yəni vəhyin lüğəvi mənada yalnız Allahdan olması və peyğəmbərlərə verilməsi şərt deyil.

Beləliklə lüğəvi mənada vəhy aşağıdakı anlamlara gəlir:

1. Musanın anasına verildiyi kimi insana verilən fitri ilham. Uca Allah buyurur: **"Biz Musanın anasına: "Onu əmizdir. Ondan ötrü qorxduqda isə onu çaya at. Qorxma və kədərlənmə. Çünki Biz onu sənə qaytaracaq və onu elçilərimizdən biri edəcəyik"–** ***deyə*** **təlqin etdik."** (əl-Qəsəs, 7).

2. Arılara və başqa heyvanlara verilən instinktiv ilham. Uca Allah buyurur: **"Rəbbin bal arısına belə vəhy etdi: Dağlarda, ağaclarda və** ***insanların*** **düzəltdikləri çardaqlarda özünə pətəklər hör."** (ən-Nəhl, 68).

3. Zəkəriyyənin öz qövmünə etdiyi kimi, bir işarə ilə. Uca Allah buyurur: **"O, mehrabdan öz qövmünün qarşısına çıxıb onlara işarə ilə başa saldı ki: "Səhər-axşam** ***Allaha*** **təriflər deyin!"** (Məryəm, 11).

4. Şeytanın insana vəsvəsə verərək, öz dostlarına pis şeyi yaxşı göstərməsi. Uca Allah buyurur: **"Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mübahisə etmək üçün** ***batil əqidələr*** **təlqin edirlər."** (əl-Ənam, 121).

5. Allahın, yerinə yetirilməsi üçün mələklərə verdiyi buyuruqları. Uca Allah buyurur: **"O zaman Rəbbin mələklərə: "Mən sizinləyəm! İman gətirənləri gücləndirin. Mən kafirlərin qəlbinə qorxu salacağam. Onların boyunlarını vurun və barmaqlarının hamısını kəsin!"–** ***deyə*** **vəhy etmişdi."** (əl-Ənfal, 12).

**Vəhy sözünün istilahi mənası:**

“Vəhy” – vasitə ilə və ya vasitəsiz olaraq Uca Allahın öz peyğəmbərlərinə şəriət qanunu və ya kitab kimi çatdırmaq istədiyi xəbəridir.

**Vəhyin növləri:**

Allah tərəfindən nazil olunan vəhyin növləri vardır ki, bunları da Uca Allah əş-Şura surəsində bildirmişdir: **“Allah insanla ancaq vəhylə və ya pərdə arxasından danışır, yaxud bir elçi göndərir və o da** ***Allahın*** **izni ilə Onun istədiyini vəhy edir. Həqiqətən, O, Ucadır, Müdrikdir.”** (əş-Şura, 51). Uca Allah bu ayədə bildirir ki, vəhyin üç mərtəbəsi vardır:

***Birinci mərtəbə:*** Mücərrəd vəhydir ki, bu da Allahın dilədiyi kəsin qəlbinə istədiyi bir şeyi çatdırmasıdır. Həmin şəxs də bunun qətiyyətlə Allahdan olmasına əmin olur. Uca Allah buyurur: **“ancaq vəhylə...”** (əş-Şura, 51).

Abdullah ibn Məsuddan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: ”Müqəddəs ruh mənim qəlbimə çatdırdı ki, heç bir insan onun üçün müəyyən olunmuş ruzini tam əldə etməyincə ölməyəcək. Odur ki, Allahdan qorxun və *ruzinizi* gözəl şəkildə axtarın.” Hədisi İbn Hibban və Hakim səhih olaraq rəvayət etmişlər, Zəhəbi də onun bu mövqeyini dəstəkləmişdir.[1] Bəzi alimlər peyğəmbərlərin yuxularında gördüklərini də bu qismə aid etmişlər. Uca Allah İbrahim barəsində belə xəbər verir: **“*İbrahim* dedi: “Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör nə düşünürsən!”** (əs-Saffat, 102). Peyğəmbərliyin başlanğıcında Peyğəmbərimizin ﷺ gördüyü yuxular da bu qəbildəndir. Buxari və Muslim Aişənin ﷺ belə dediyini rəvayət etmişlər: “Allahın elçisinə ﷺ ilk vəhyin gəlməsi yuxu vasitəsilə başlamışdır. Onun gördüyü elə bir yuxu yox idi ki, sübh çağının aydınlığı kimi gerçəkləşməsin.”[2]

---

[1] "Məvariduz-Zəm'an", 1084, 1085; "Mustədrək əl-Hakim", 2/4; "Sunən İbn Macə", 2144; İbn Əbi əd-Dunyənin “əl-Qənaə” əsəri və Beyhəqinin “Şuəbbul-İman” əsəri (əl-Muğni an həmlil-əsfar, 419, 895); əl-Bəğəvi, 14/304 № 4112.

[2] "Səhih əl-Buxari", 3; "Səhih Muslim", 160.

***İkinci mərtəbə:*** Pərdə arxasından vasitəsiz olaraq danışmaq. Bu bəzi peyğəmbərlər barəsində sabit olmuşdur. Məsələn, Uca Allah Öz Kitabında bir çox yerlərdə Musa peyğəmbərlə bilavasitə danışmağı barədə xəbər vermişdir. Bu barədə Uca Allah buyurur: **"Və Allah Musa ilə sözlə (vasitəsiz) danışdı."** (ən-Nisa, 164). O, həmçinin buyurur: **"Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı."** (əl-Əraf, 143).

Uca Allahın Adəmlə danışması da belə olmuşdur: **"Adəm *tövbə etmək üçün* Rəbbindən kəlmələr öyrəndi."** (əl-Bəqərə, 37).

Həmçinin Sünnədə varid olmuşdur ki, Uca Allah Peyğəmbərlə ﷺ də İsra gecəsi danışmışdır. Uca Allah buyurur: **"Allah insanla ancaq vəhylə və ya pərdə arxasından danışır."** (əş-Şura, 51).

***Üçüncü mərtəbə:*** Mələk vasitəsilə olunan vəhy. Uca Allah buyurur: **"yaxud bir elçi göndərir və o da *Allahın* izni ilə Onun istədiyini vəhy edir."** (əş-Şura, 51).

Cəbrail عليه السلام də bu minvalla peyğəmbərlərə vəhy çatdırmışdır.

Qurani Kərim bütövlükdə beləcə nazil olmuşdur. Uca Allah Quranı söyləmiş, Cəbrail عليه السلام də onu eşitmiş və Uca Allahdan eşitdiklərini Muhəmmədə ﷺ çatdırmışdır. Uca Allah buyurur: **"Şübhəsiz ki, bu, aləmlərin Rəbbindən nazil edilmişdir. Onu sadiq ruh *Cəbrail* endirdi – sənin qəlbinə ki, xəbərdar edənlərdən olasan."** (əş-Şüəra, 192-194). Həmçinin buyurur: **"De: "Müqəddəs Ruh *Cəbrail* onu sənin Rəbbindən iman gətirənləri sabitqədəm etmək üçün, həm də müsəlmanlara doğru yol göstəricisi və müjdə olsun deyə gerçək olaraq nazil etmişdir."** (ən-Nəhl, 102).

Cəbrail vəhyi Peyğəmbərimizə ﷺ üç yolla çatdırardı:

1. Ya Peyğəmbər ﷺ onu yaradıldığı surətdə görərdi. Bu da öncəki fəsildə qeyd etdiyimiz kimi yalnız iki dəfə baş vermişdir.

2. Ya vəhy ona zınqırov cingiltisi kimi gələr, o da onu qavrayardı.

3. Ya da Cəbrail kişi qiyafəsinə girərək Peyğəmbərə ﷺ görsənər və vəhyi ona çatdırardı. Əvvəldə qeyd etdiyimiz hədisdə – Cəb-

railin عليه السلام Peyğəmbərin ﷺ yanına gəlib İslamın rüknləri barəsində soruşduğu hədisdə göstərildiyi kimi.

Peyğəmbər ﷺ Haris ibn Hişamın رضي الله عنه sualına cavab verərkən axırıncı bu iki növdən xəbər vermişdir. Hədisdə deyilir ki, Haris ibn Hişam رضي الله عنه Peyğəmbərdən ﷺ soruşdu: "Ey Allahın Rəsulu, sənə vəhy necə gəlir?" Peyğəmbər ﷺ dedi: "Bəzən vəhy mənə zınqırovun cingiltisi kimi gəlir və mənə ən ağır gələni də elə budur. Bu hal məndən çəkilən kimi *mələyin* mənə söylədikləri yadımda möhkəm qalırdı. Bəzən də mələk mənə kişi qiyafəsində görünür, mənimlə danışır, mən də onun söylədiklərini yadda saxlayıram."[1] Hədisi Buxari və Muslim rəvayət etmişlər.

---

[1] "Səhih əl-Buxari", 2; "Səhih Muslim", 2333.

## *I mövzu.*
## *Kitablara imanın hökmü və dəlilləri.*

**Kitab sözünün mənası.**

Kitab sözü ərəbcə "kətəbə" feilindən əmələ gəlmiş məsdərdir və yazılmış bir şeyə deyilir. Əslində isə kitab, üzərindəki yazısı ilə birlikdə olan səhifəyə deyilir. Uca Allah buyurur: **"Kitab əhli səndən, onlara göydən bir kitab endirməyini istəyirlər."** (ən-Nisa, 153). Burada yazılmış səhifə nəzərdə tutulurdu.

Kitablar deyildikdə, Allahın Öz elçilərinə vəhy etdiyi kəlamlarının yazıldığı kitablar və səhifələr nəzərdə tutulur. Fərqi yoxdur, bu kitablar Tövrat kimi birbaşa yazılı formada da göndərilə bilər və ya digər kitablar kimi mələklərin vasitəsilə şifahi olaraq nazil edildikdən sonra da yazıla bilər.

**Kitablara imanın hökmü.**

Allahın peyğəmbərlərinə nazil etdiyi bütün kitablara iman gətirmək imanın əzəmətli rüknlərindən və İslam dininin ən böyük əsaslarından biridir. Bu olmadan iman səhih olmur. Buna aid Quran və Sünnədə dəlillər vardır:

Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allaha, Onun Elçisinə və Elçisinə nazil etdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allahı, Onun mələklərini, kitablarını, elçilərini və Axirət gününü inkar edən şəxs dərin bir azğınlığa düşmüşdür."** (ən-Nisa, 136). Bu ayədə Uca Allah möminlərə imanın bütün rüknlərinə və şöbələrinə iman gətirməyi əmr edir. Onlara əmr edir ki, Allaha, Onun rəsuluna, yəni Muhəmmədə ﷺ və ona nazil etdiyi Kitaba, yəni Qurana, habelə ondan əvvəl nazil olmuş bütün kitablara, o cümlədən Tövrata, İncilə, və Zəbura iman gətirsinlər. Ayənin sonunda Rəbbimiz buyurur ki, kim imanın rüknlərindən hər hansı birinə

küfr edərsə dərin bir azğınlığa düşər və doğru yoldan çıxmış olar. Ayədə zikr olunan imanın rüknləri arasında kitablara iman da vardır.

Uca Allah buyurur: **"Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl *sahibləri* Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir."** (əl-Bəqərə, 177). Uca Allah bu ayədə bildirir ki, əsl yaxşılıq ayədə zikr olunan imanın rüknlərinə iman gətirmək və bu rüknlərdən sonra zikr olunan imanın şöbələrinə əməl etməkdir. Allah kitablara iman gətirməyi də imanın rüknlərindən biri olaraq qeyd etmişdir. İbn Kəsir demişdir: "Ayədəki *tək halında deyilən* kitab sözü səmadan peyğəmbərlərə nazil olunmuş bütün kitabları özündə ehtiva edir. Uca Allah bu kitablara özündən əvvəlki kitabları mühafizə edən və kitabların ən şərəflisi olan Quranla xətm vermişdir."[1]

Uca Allah bütün kitablara iman gətirməyi təsdiqləmək üçün mömin bəndələrinə əmr etmişdir ki, kitab əhlinə xitab edib belə desinlər: **"Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!"** (əl-Bəqərə, 136). Bu ayə möminlərin Peyğəmbər ﷺ vasitəsilə özlərinə nazil olan kitaba iman gətirmələrindən, həmçinin onların adları xüsusi olaraq zikr olunmuş peyğəmbərlərə nazil olan kitablara iman gətirmələrindən, habelə ümumi olaraq bütün peyğəmbərlərə nazil olan kitablara iman gətirmələrindən və peyğəmbərlərə iman gətirməkdə onların arasına fərq qoymamalarından bəhs edir. Bütün peyğəmbərlərə iman gətirmək isə öz növbəsində Allahın onlara nazil etdiyi kitablara iman gətirməyi özündə ehtiva edir.

[1] "Təfsir İbn Kəsir", 1/297.

Sünnəyə gəlincə, o da kitablara imanın vacib olduğunu və onu imanın bir rüknü olduğunu göstərir. Cəbrailin hədisində onun Peyğəmbərə ﷺ iman barədə verdiyi sual buna dəlildir. Peyğəmbər ﷺ imanın əsaslarını sadalayarkən kitablara imanı da qeyd etmişdir. Hədisi keçən fəsildə qeyd etdiyimizdən onu yenidən xatırlamağa lüzum görmürük.

Beləliklə, bütün kitablara iman gətirərək onların hamısını təsdiq etmək vacibdir. Həmçinin etiqad etmək lazımdır ki, onların hamısı Allahdandır və Uca Allah onları Öz elçilərinə haqq olan, doğru yol göstərən rəhbər, nur və işıq olaraq nazil etmişdir. Bunlardan birini yalan sayan və ya inkar edən kəs Uca Allaha qarşı küfr işlətmiş və dindən çıxmış olur.

**Kitablara iman gətirməyin faydaları.**

Kitablara iman gətirməyin möminlərə böyük faydaları vardır. Bu faydalardan bəzisi bunlardır:

1. Uca Allahın qullarına qarşı lütfkar və diqqətli olmasına görə Ona şükür etmək. Belə ki, Onun nazil etdiyi kitablarda insanların dünya və axirətləri üçün xeyirli olan məsələlər öz əksini tapmışdır.

2. Bununla Allahın hikməti görünür. Çünki O, bu kitablarda hər bir ümmətə onların halına münasib olan qanunlar qoymuşdur. Kitabların sonuncusu olan Qurani Kərim isə Qiyamət gününədək bütün zaman və məkanlar üçün bütün məxluqata münasib olan bir kitabdır.

3. Bununla möminlər Allahın kəlam sifətini isbat etmiş olurlar. Bəllidir ki, Allahın danışması, məxluqun danışmasına bənzəmir və bütün məxluqat Onun kəlamına bənzər bir kəlam gətirməkdə acizdirlər.

### *II mövzu.*
### *Kitablara imanın məğzi.*

Kitablara iman gətirmək bir neçə tərəfdən olur. Quran və Sünnədən olan dəlillər bunlara etiqad etməyin və təsdiqləməyin vacib olmasına dəlalət edir. Bu da imanın əzəmətli rüknlərindən sayılan bu rüknü həyata keçirmək üçündür.

1. Bütün kitabların Allah tərəfindən nazil olduğunu və Onun kəlamı olmasını təsdiq etmək. Uca Allah Özünə layiq tərzdə həqiqi kəlamla bunları demişdir. O buyurur: **"Allah. Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur, *əbədi* Yaşayandır, *bütün yaradılanların* Qəyyumudur. O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi, daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün. Furqanı da O nazil etdi. Şübhəsiz ki, Allahın ayələrini inkar edənlər üçün şiddətli bir əzab vardır. Allah Qüdrətlidir, intiqam almağa qadirdir."** (Ali İmran, 2-4).

Uca Allah bu ayədə buyurur ki, O, Tövratı, İncili və Quranı nazil etmişdir. Bu da onu göstərir ki, bu kitablar Onun kəlamıdır, başqasından deyil, *ilk olaraq* məhz Ondan gəlmişdir. Ayənin sonunda isə Allah buyurur ki, Onun ayələrinə iman gətirməyənlər şiddətli bir əzaba düçar olacaqlar.

Həmçinin Tövrat barəsində buyurur: **"Şübhəsiz ki, Tövratı Biz nazil etmişik. Onda hidayət və nur vardır."** (əl-Maidə, 44). Uca Allah Tövratı nazil etdiyini və onda hidayət və nur olduğunu bəyan edir. Yəhudilərdən bəhs edən başqa bir ayədə də Allah Tövratın Onun kəlamı olduğunu belə bildirir: **"Siz *yəhudilərin* sizə inanacaqlarınamı ümid edirsiniz? Halbuki onlardan bir zümrə var idi ki, Allahın Sözünü eşidib anladıqdan sonra, bilə-bilə onu təhrif edirdilər."** (əl-Bəqərə, 75). Əs-Suddi, İbn Zeyd və bir çox təfsirçilər demişlər ki, yəhudilərin eşidib təhrif etdikləri Allah kəlamı Tövrat olmuşdur.

İncil barəsində isə Uca Allah buyurur: **"Qoy İncil əhli Allahın onda nazil etdiyi *şəriət qanunları* əsasında hökm versinlər."** (əl-Maidə, 47). Yəni Allahın kəlamı sayılan əmr və qadağalara riayət etsinlər.

Quran barəsində də buyurur: **"Əlif. Ləm. Ra.** ***Bu,*** **Müdrik,** ***hər şeydən*** **Xəbərdar** ***olan Allah*** **tərəfindən, ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş bir Kitabdır."** (Hud, 1). Digər bir ayədə Rəbbimiz elçisi Muhəmmədə ﷺ xitabən buyurur: **"Həqiqətən, sən Quranı Müdrik və Bilən** ***Allahdan*** **alırsan."** (ən-Nəml, 6).

O, həmçinin buyurur: **"De: "Müqəddəs Ruh** ***Cəbrail*** **onu sənin Rəbbindən iman gətirənləri sabitqədəm etmək üçün, həm də müsəlmanlara doğru yol göstəricisi və müjdə olsun deyə gerçək olaraq nazil etmişdir."** (ən-Nəhl, 102). Həmçinin buyurur: **"Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar** ***haqqı*** **bilməyən bir qövmdür."** (ət-Tövbə, 6).

Onlara Allahın kəlamı olan və Peyğəmbərə ﷺ endirilən Quranı dinləmək əmr olunmuşdu. Çünki o Allahın həqiqi kəlamıdır.

2. Bütün kitabların Allaha ibadətə çağırdığına, onların bir hidayət, nur və xeyir olduğuna iman gətirmək lazımdır. Uca Allah buyurur: **"Heç kimə yaraşmaz ki, Allah ona Kitab, hikmət və peyğəmbərlik verdikdən sonra insanlara: "Allaha yox, mənə qul olun!"– desin. Əksinə,** ***o deyər*****: "Öyrətdiyiniz Kitabın və** ***ondan*** **öyrəndiyiniz şeyin sayəsində din xadimləri olun!"** (Ali İmran, 79). Uca Allah bildirir ki, Rəbbimiz kiməsə kitab, hikmət və peyğəmbərlik bəxş etdikdən sonra onun özünü ilahiləşdirməsi yolverilməzdir. Çünki bütün kitablar tək olan Allaha ibadətə çağırır.

Uca Allah kitablarının haqq və hidayət olduğunu bildirir: **"O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi – daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün. Furqanı da O nazil etdi. Şübhəsiz ki, Allahın ayələrini inkar edənlər üçün şiddətli bir əzab vardır. Allah Qüdrətlidir, intiqam almağa qadirdir."** (Ali İmran, 3-4).

O, həmçinin buyurur: **"İnsanlar tək bir ümmət idi. Allah** ***onlara*** **müjdə verən və qorxudan peyğəmbərlər göndərdi, onlarla birlikdə haqq olan kitab nazil etdi ki, insanlar arasında onların ixtilafa düşdükləri şeylərə dair hökm versin."** (əl-Bəqərə, 213).

O, həmçinin buyurur: **"Şübhəsiz ki, Tövratı Biz nazil etmişik. Onda hidayət və nur vardır."** (əl-Maidə, 44).

Başqa bir ayədə isə buyurur: **"İnsanlara doğru yolu göstərən, bu yolun və *haqqı batildən* ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir."** (əl-Bəqərə, 185).

Bu kimi bir çox ayələr vardır ki, səmavi kitabların Uca Allah tərəfindən hidayət və nur olaraq nazil olunduğunu bildirir.

3. Bütün kitabların bir-birini təsdiq etdiyini və onların arasında heç bir ziddiyyətin olmadığına iman gətirmək lazımdır. Uca Allah buyurur: **"Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik."** (əl-Maidə, 48).

İncil barəsində isə belə buyurur: **"Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik."** (əl-Maidə, 46).

Allahın kitabları arasında heç bir ziddiyyətin olmamasına iman gətirmək və onların nöqsanlardan xali olduğuna etiqad etmək vacibdir. Bu, Allahın kitablarını adi kitablardan, Allahın kəlamını məxluqatın kəlamından fərqləndirən başlıca cəhətdir. İnsanların yazdıqlarında isə bir çox nöqsanlar, qüsurlar və ziddiyyətlər vardır. Uca Allah Quranı vəsf edərək buyurur: **"Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar."** (ən-Nisa, 82).

4. Allahın xüsusi olaraq adlarını çəkdiyi, habelə rəsulunun ﷺ xəbər verdiyi kitablara iman gətirib onları təsdiq etmək gərəkdir. Bu kitablara aşağıdakılar aiddir:

***a) Tövrat.*** Bu, Allahın Musaya عليه السلام nazil etdiyi kitabdır. Uca Allah buyurur: **"Biz əvvəlki nəsilləri məhv etdikdən sonra Musaya insanlar üçün açıq-aydın dəlillər, doğru yol göstəricisi və rəhmət olaraq Kitab verdik ki, bəlkə, düşünüb ibrət alsınlar."** (əl-Qəsəs, 43). Buxari və Muslimin şəfaətçilik barədə Ənəs ibn Malikdən رضي الله عنه rəvayət etdikləri uzun hədisdə Peyğəmbər ﷺ demişdir: "... sonra onlar İbrahimin yanına gələcəklər. O deyəcək: Sizə lazım olan adam mən deyiləm. Etdiyi xətasını xatırladıqdan sonra deyəcək: Musanın yanına ge-

din, Allah ona Tövratı vermiş və onunla bilavasitə danışdırmışdır."[1] Uca Allah Tövratı lövhələrə yazaraq Musaya vermişdir. O, buyurur: **"Biz onun üçün lövhələrdə hər şeydən öyüd-nəsihət və hər şeyin təfsilatını yazdıq."** (əl-Əraf, 145). İbn Abbas demişdir: Burada Tövratın lövhələri nəzərdə tutulur.

Əbu Hureyradan رضي الله عنه, Adəmlə عليه السلام Musanın عليه السلام söhbəti barədə rəvayət olunmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "... Adəm ona dedi: "Ey Musa, Uca Allah Öz kəlamı ilə səni ucaltmış, Tövratı isə Öz Əli ilə yazmışdır..." Hədisi Buxari və Muslim rəvayət etmişdir.[2]

Tövrat Uca Allahın İsrail oğullarına nazil etdiyi ən möhtəşəm Kitabdır. Orada Allahın Musaya nazil etdiyi şəriət qanunlarının və əhkamlarının əsasları öz əksini tapmışdır. Musadan sonra İsrail oğullarına göndərilmiş peyğəmbərlər də ona riayət etmişlər. Uca Allah buyurur: **"Şübhəsiz ki, Tövratı Biz nazil etmişik. Onda hidayət və nur vardır. *Allaha* təslim olan peyğəmbərlər yəhudilər üçün bununla, din xadimləri və baş keşişlər isə Allahın Kitabından qorunub saxlanılanlarla hökm verirdilər. Onlar *hamısı* buna şahid oldular."** (əl-Maidə, 44).

Uca Allah Öz kitabında yəhudilərin Tövratı təhrif edərək dəyişdirmələrini bildirmişdir və bu barədə növbəti fəsildə söhbət açacağıq.

***b) İncil.*** Bu, Allahın İsaya nazil etdiyi kitabdır. Uca Allah buyurur: **"Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik."** (əl-Maidə, 46).

Qeyd etdiyimiz ayədən bəlli olur ki, Uca Allah İncili Tövratı təsdiq edən bir kitab olaraq göndərmişdir.

Bəzi alimlər demişlər: "İncil ilə Tövrat arasında çox az məsələlərdə onların ixtilaf etdikləri fərq vardır." Uca Allah (Məryəm oğlu) Məsihin İsrail oğullarına dedikləri barədə buyurur: **"Məndən əvvəl**

[1] "Səhih əl-Buxari", 7410; "Səhih Muslim", 193.

[2] "Səhih əl-Buxari", 6614; "Səhih Muslim", 2652.

***nazil olmuş* Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün *göndərildim.*"** (Ali İmran, 50).[1]

Uca Allah Öz Kitabında bildirir ki, Tövratda və İncildə peyğəmbərimiz Muhəmmədin ﷺ göndəriləcəyi barədə müjdə vardır. O, buyurur: **"O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər."** (əl-Əraf, 157).

İncil də Tövrat kimi təhrif olunaraq dəyişdirilmişdir. Bu barədə də Allahın izni ilə növbəti fəsildə söhbət açacağıq.

***c) Zəbur.*** Bu, Allahın Davuda nazil etdiyi kitabdır. O buyurur: **"Davuda da Zəburu verdik."** (ən-Nisa, 163).

Qətadə bu ayənin təfsirində demişdir: "Biz Uca Allahın Davuda öyrətdiyi Allaha həmd və tərif barədə olan, içərisində halal və haram, habelə fərzlər və qanunlar olmayan bir duası haqqında danışardıq."

***d) İbrahimin və Musanın səhifələri.*** Bu haqda Quranda iki yerdə zikr olunmuşdur. Birincisi Nəcm surəsindədir. Uca Allah buyurur: **"Yoxsa Musanın səhifələrində olanlar barədə ona xəbər verilmədi? Məgər vəfalı olan İbrahimin *səhifələrində olanlar barədə ona bildirilmədi?* Heç bir günahkar başqasının günah yükünü daşımaz. İnsan can atdığı şeyə nail olar."** (ən-Nəcm, 36-39).

İkincisi isə əl-Əla surəsindədir: **"*Günahlardan* təmizlənən kimsə isə uğur qazanmışdır. *O kimsə ki,* Rəbbinin adını xatırlayıb namaz qılmışdır. Xeyr, siz dünya həyatını *olduqca* üstün tutursunuz; Axirət isə daha xeyirli və daha sürəklidir. Həqiqətən də bu, əvvəlki səhifələrdə bildirilmişdir – İbrahimin və Musanın səhifələrində."** (əl-Əla, 14-19).

Uca Allah Musa ilə İbrahimə endirdiyi bu səhifələrədə varid olan bəzi məsələlərdən xəbər vermişdir. Həqiqi elm yalnız Allaha məxsusdur.

---

[1] "Təfsir İbn Kəsir", 2/36.

***h) Qurani-Kərim.*** Bu, Allahın peyğəmbərimiz Muhəmmədə ﷺ nazil etdiyi, digər kitabları təsdiq edən və onlar barədə şahidlik edən bir kitabdır. Quran nazil edilmiş kitabların sonuncusu, ən kamili və ən şərəflisidir. O, özündən əvvəlki kitabların hamısnı nəsx edərək hökmlərini qüvvədən salmışdır. Bundan əlavə Quran bütün cinlərə və insanlara göndərilmişdir. Uca Allah buyurur: **"Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik."** (əl-Maidə, 48). Həmçinin Quran özündən qabaq nazil olmuş kitabları təsdiqləyən bir kitabdır: **"De: "Kimin şahidliyi daha böyükdür?" De: "Allah mənimlə sizin aranızda Şahiddir. Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim. Məgər siz Allahla yanaşı** ***ibadətə layiq olan*** **başqa məbudların olduğuna şahidlik edirsiniz?" De: "Mən şahidlik etmirəm!" De: "O, Tək olan İlahdır. Mən sizin şərik qoşduqlarınızdan uzağam"** (ən-Ənam, 19). Həmçinin buyurur: **"Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı nazil edən** ***Allah*** **necə də xeyirxahdır!"** (əl-Furqan, 1).

Quranın bir çox adları vardır ki, onlardan ən məşhurları bunlardır: Quran, Furqan, Kitab, Tənzil və Zikr.

Bu kitablara aid varid olmuş dəlillərdə olduğu kimi, onların adlarına, kimlər barədə nazil olunmalarına, Allahın və Onun rəsulunun ﷺ bu kitablar və onlara tabe olanlar barədə verdiyi xəbərlərə iman gətirmək vacibdir.

5. Etiqad etmək lazımdır ki, Qurani Kərim bütün digər kitabları nəsx edərək onların hökmünü qüvvədən salmışdır. Heç bir insan və ya bir cin Quran nazil olunduqdan sonra digər kitablardakı hökmə riayət edə bilməz. Allahın Kitabında və Peyğəmbərinin ﷺ sünnəsində buna bir çox dəlillər vardır. Uca Allah buyurur: **"Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı nazil edən** ***Allah*** **necə də xeyirxahdır!"** (əl-Furqan, 1). Həmçinin buyurur: **"Ey Kitab əhli! Artıq sizə Kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allahdan bir nur və açıq-aydın bir Kitab gəldi. Allah, Onun rizasını ara-**

**yan şəxsləri *bu Kitabla* əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir"** (əl-Maidə, 15-16).

Başqa bir ayədə isə Uca Allah Öz peyğəmbərinə ﷺ kitab əhlinə Quranla hökm verməyi əmr edərək buyurur: **"Elə isə onların arasında Allahın *sənə* nazil etdiyi *Kitabla* hökm ver. Sənə gələn haqdan ayrılıb onların istəklərinə tabe olma"** (əl-Maidə, 48). O, həmçinin buyurur: **"Onların aralarında Allahın *sənə* nazil etdiyi *Kitabla* hökm ver və onların istəklərinə tabe olma. Onlardan ehtiyat et ki, Allahın sənə nazil etdiyi *hökmlərin* bəzisindən səni sapdırmasınlar."** (əl-Maidə, 49).

Sünnədə isə Cabir ibn Abdullah رضي الله عنه rəvayət etmişdir ki, bir dəfə Ömər ibn Xəttab kitab əhlindən əldə etdiyi bir kitabla Peyğəmbərin ﷺ yanına gəlib ona oxuduqda Peyğəmbər ﷺ hirslənərək belə dedi: "Bunamı heyrətlənirsən, ey Xəttabın oğlu? Canım Əlində olan Allaha and olsun ki, mən sizə təmiz, açıq-aydın olan bir Kitabla gəlmişəm. Nəbadə onlardan nə isə soruşasınız və onlar sizə haqq olan bir şeyi söyləsinlər siz də onu yalan hesab edəsiniz, yaxud onlar batil bir şeyi sizə desinlər, siz də buna inanasınız. Canım Əlində olan Allaha and olsun ki, Musa diri olsaydı yalnız mənə tabe olardı." Hədisi Əhməd, əl-Bəzzar, əl-Beyhəqi və başqaları rəvayət etmişlər.[1] Hədis digər rəvayətləri ilə birlikdə həsəndir.

Ümumilikdə, Allahın kitablarına bu minvalla iman gətirmək lazımdır. Quranla bağlı etiqad olunması gərəkən məsələlərin təfsilatına gəlincə bu barədə inşaAllah növbəti fəsildə danışacağıq.

---

[1] "Musnəd Əhməd", 3/387; "Kəşf əl-Əstar", 134 və s.

## *III mövzu.*
## *Tövrat, İncil və digər kitabların təhrif olunmasının, Quranın isə salamat qalmasının bəyan edilməsi.*

**Kitab əhlinin Allahın kəlamını təhrif etməsi.**

Qüdrət və qüvvət sahibi olan Allah Qurani Kərimdə Kitab əhlinin onlara nazil edilmiş kitabları təhrif etdiyini və dəyişdirdiyini bildirir. Yəhudilər barədə Uca Allah belə buyurur: **"Siz *yəhudilərin* sizə inanacaqlarınamı ümid edirsiniz? Halbuki onlardan bir zümrə var idi ki, Allahın Sözünü eşidib anladıqdan sonra, bilə-bilə onu təhrif edirdilər."** (əl-Bəqərə, 75). Həmçinin buyurur: **"Yəhudilərdən bəziləri kəlmələrin yerini dəyişdirir."** (ən-Nisa, 46).

Nəsranilər barəsində isə Allah belə buyurur: **"Biz xaçpərəstik! – deyənlərlə də əhd bağlamışdıq. Onlar da *özlərinə* öyrədilənin bir hissəsini unutdular. Buna görə də onların arasına Qiyamət gününə qədər ədavət və kin saldıq. Allah onlara nə etdikləri barədə xəbər verəcəkdir. Ey Kitab əhli! Artıq sizə Kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allahdan bir nur və açıq-aydın bir Kitab gəldi."** (əl-Maidə, 14-15).

Bu ayələrdən, yəhudilərin və xaçpərəstlərin müqəddəs kitabları təhrif edərək dəyişdirdikləri aydın olur. Bu təhrif isə bəzən nəyi isə artırmaqla, bəzən də nəyi isə əskiltməklə olur.

Əvvəlki ilahi kitablara artırma barədə Uca Allah buyurur: **"Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: "Bu, Allah tərəfindəndir!"– deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına!"** (əl-Bəqərə, 79).

Əksiltmə barədə isə Allah buyurur: **"Ey Kitab əhli! Artıq sizə Kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allahdan bir**

**nur və açıq-aydın bir Kitab gəldi."** (əl-Maidə, 15). Həmçinin buyurur: **"Onlar: "Allah insana heç bir şey nazil etməmişdir"– deməklə Allahı layiqincə qiymətləndirmədilər. De: "Musanın insanlar üçün nur və doğru yolu göstərən rəhbər olaraq gətirdiyi Kitabı kim nazil etmişdir? Siz onu kağızlara yazıb *bir qismini* göstərir, çoxunu isə gizlədirsiniz."** (əl-Ənam, 91).

**Tövrat və İncilin təhrif olunması və buna dəlillər.**

Qeyd etdiyimiz ayələr kitab əhlinin ümumilikdə Allahın kəlamını təhrif etmələri barədə idi. Bundan əlavə Tövrat və İncilin təhrif olunmaları barədə ayrıca dəlillər də vardır.

Tövratın təhrif olunması barədə Uca Allah buyurur: **"De: "Musanın insanlar üçün nur və doğru yolu göstərən rəhbər olaraq gətirdiyi Kitabı kim nazil etmişdir? Siz onu kağızlara yazıb *bir qismini* göstərir, çoxunu isə gizlədirsiniz. Axı, sizin də, atalarınızın da bilmədiyiniz şeylər sizə öyrədilmişdir". Sən: "Allah!"– de, sonra da onları burax ki, öz boşboğazlıqları ilə əylənsinlər."** (əl-Ənam, 91).

Bu ayənin təfsirində belə deyilir: "Yəni Musanın gətirdiyi Kitabı gizlədərək, onu, habelə Peyğəmbərin ﷺ gələcəyi barədə olan dəlilləri təhrif etməklə istəklərinizə nail olmaq istəyirsiniz."

Uca Allah həmçinin buyurur: **"Siz *yəhudilərin* sizə inanacaqlarınamı ümid edirsiniz? Halbuki onlardan bir zümrə var idi ki, Allahın Sözünü eşidib anladıqdan sonra, bilə-bilə onu təhrif edirdilər."** (əl-Bəqərə, 75).

Əs-Suddi bu ayəni təfsir edib demişdir: "Burada Tövrat nəzərdə tutulur. Onlar onu dəyişdirmişdilər." İbn Zeyd demişdir: "Onlar Allahın nazil etdiyi Tövratı təhrif edərək, oradakı haramları halal, halalları isə haram etmiş, haqqa batil, batilə isə haqq donu geyindirmişdilər."

İncilin təhrif olunması barədə isə Uca Allah buyurur: **"Biz xaçpərəstik!"– deyənlərlə də əhd bağlamışdıq. Onlar da *özlərinə* öyrədilənin bir hissəsini unutdular. Buna görə də onların arasına Qiyamət gününə qədər ədavət və kin saldıq. Allah onlara nə etdikləri**

**barədə xəbər verəcəkdir. Ey Kitab əhli! Artıq sizə Kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allahdan bir nur və açıq-aydın bir Kitab gəldi."** (əl-Maidə, 14-15).

Bəzi alimlər sonuncu ayəni belə təfsir etmişlər: "Uca Allah onların bir çox məsələləri dəyişdirib təhrif etdiklərini, ayələri başqa mənaya yozduqlarını və Allaha iftira yaxdıqlarını bəyan edir. Bir çox şeylər də artıq və mənasız olduğu üçün bunları bəyan etmir."[1]

Bütün bu qeyd olunan ayələr Tövrat və İncilin təhrif olunduğuna dəlalət edir.

Elə bu səbəbdən də müsəlman alimləri Tövrat və İncilin təhrif olunmasına dair ittifaq etmişlər.

**Quranın təhrifdən salamat qalması, təhriflərdən qorunması, və buna dair dəlillər.**

Əzəmətli Qurana gəlincə, o, öncəki kitablar kimi təhrifə məruz qalmamışdır. Uca Allah onu Özünün də bu barədə xəbər verdiyi kimi təhriflərdən qoruyur. O buyurur: **"Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq."** (əl-Hicr, 9). Təbəri bu ayənin təfsirində belə demişdir: "Yəni biz Quranı qoruyacağıq ki, onun hökm və fərzlərinə başqa bir şey daxil edilməsin və ya əlavə bir şey artırılmasın".[2]

Uca Allah Quranı hər bir təhrifdən qoruması ilə bağlı başqa bir ayədə buyurur: **"Nə önündən, nə də arxasından batil ona girişə bilməz. O, Müdrik, Tərifəlayiq *Allah* tərəfindən nazil edilmişdir."** (Fussilət, 42). Həmçinin buyurur: **"Əlif. Ləm. Ra. *Bu,* Müdrik, *hər şeydən* Xəbərdar *olan Allah* tərəfindən, ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş bir Kitabdır."** (Hud, 1). Başqa bir ayədə isə buyurur: ***"Cəbrail sənə Quranı nazil etdikdə* onu tələm-tələsik yadda saxlamaq üçün dilini tərpətmə! Şübhəsiz ki, *sənin qəl-***

[1] "Təfsir İbn Kəsir", 3/63.
[2] "Təfsir İbn Cərir", 14/7.

***bində* onun qərar tutması və *dilinlə* onun oxunması Bizə aiddir."** (əl-Qiyamət, 16-17).

Bütün bu ayələr göstərir ki, Allah Quranın həm ayələrini, həm mənasını, nazil olan gündən ta (Qiyamət günü) salamat şəkildə aradan qaldırılanadək mükəmməlcəsinə qoruyur və onda hər hansı bir dəyişkənlik baş verməsinə imkan vermir. Belə ki O, Quranı Öz Peyğəmbərinə ﷺ öyrətmiş, sonra onu Peyğəmbərin ﷺ qəlbində cəm etmiş, sonra onu bəyan etmiş və onun sünnəsi vasitəsilə Quranı təfsir etmişdir. Sonra da əsrlər boyu Quranı əzbərləyəcək və yazıb qoruyacaq adil insanlar yaratmışdır. Beləliklə də, Quran Peyğəmbərə ﷺ nazil olunduğu kimi, həm böyüklər, həm də kiçiklər tərəfindən daim oxunaraq bütün batillərdən qorunmuşdur. Alimlər, Tövrat təhrif olunduğu halda Quranın təhrif oluna bilməməsi barədə danışmışlar. Əbu Amr Əd-Dani, Əbu Həsən əl-Muntəbdən belə rəvayət etmişdir: "Bir gün mən Qazi Əbu İshaq İsmail ibn İshaqın yanında idim. Ondan: "Nə üçün Tövrat əhli təhrif edə bildi, Quran əhli isə yox?" – deyə soruşdular. Qazi dedi: "Qüdrətli və qüvvətli Allah Tövrat əhli barəsində buyurur: **"Din xadimləri və baş keşişlər isə Allahın Kitabından qorunub saxlanılanlarla hökm verirdilər."** (əl-Maidə, 44). Onu qoruyub saxlamağı onların özlərinə tapşırdığı üçün təhrif edə bilmişdilər. Quran barəsində isə belə buyurur: **"Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq."** (əl-Hicr, 9). Odur ki, onlar Quranı təhrif edə bilməmişlər." Sonra dedi: "Mən Əbu Abdullah əl-Muhamilinin yanına getdim və hekayəni ona söylədim. O dedi: Mən bundan daha gözəl əhvalat eşitməmişəm."

## *IV mövzu.*
## *Qurana iman və onun xüsusiyyətləri.*

**Quranın, Qüdsi hədisin və Peyğəmbərin ﷺ hədisinin tərifi, habelə bunların arasındakı fərq.**

***Qurani Kərim.*** Bu, Allahın o kəlamıdır ki, Allah həqiqi mənada danışmış, – halbuki biz bunun necə-nəcürlüyünü izah edə bilmərik, – sonra bunu Öz elçisinə vəhy etmiş, möminlər ona haqq olaraq iman gətirmiş və onun həqiqətən Allah kəlamı olduğunu yəqinliklə bilmişlər. Cəbrail ﵇ onu Allahdan eşitmiş, sonra da peyğəmbərlərin sonuncusu olan Muhəmmədə ﷺ ləfz və məna olaraq, qətiliyi və yəqinliyi bildirən mutəvatir şəkildə çatdırmış, üstəlik bu günə qədər o, Kitab şəklində yazılaraq bizə çatmış və hər bir dəyişiklikdən və təhrifdən qorunmuşdur.[1]

***Qüdsi hədis.*** Bu, Peyğəmbərin ﷺ öz Rəbbindən həm ləfz, həm də mənaca rəvayət etdiyi, bizə həm mutəvatir, həm də əhəd olaraq çatan hədislərdir. Lakin bunlar Quran kimi mutəvatir deyildir.[2]

Onun misalı Əbu Zərr əl-Ğifarinin Peyğəmbərdən ﷺ, onun isə öz Rəbbindən rəvayət etdiyi hədisdir: "Ey qullarım, şübhəsiz ki, Mən zülmü Özümə haram etdim, onu sizlərin də arasında haram etmişəm, odur ki, bir-birinizə zülm etməyin."[3]

***Peyğəmbərin ﷺ hədisi.*** Peyğəmbərin ﷺ dediyi sözləri və əməlləri, (səhabələrinin dediklərini və etdiklərini) təsdiqlədiyini özündə cəm edən, habelə onu vəsf edən hədislərə deyilir.[4]

**Quran, Qüdsi hədis və Peyğəmbərin ﷺ hədisi arasındakı fərq.**

Quranın oxunuşu ibadətdir, üslubu möcüzəvidir, heç kəs onun bənzərini deyə bilməz, napak halda olan kimsə ona toxunmamalı, cunub halında olan isə onu oxumamalıdır, məna ilə rəvayət edilməsi caiz

---

[1] "əl-Əqidə ət-Təhaviyyə", 1/172; əl-Mənna əl-Qəttanın "Məbahis fi ulum-ul-quran" səh. 21; Camaləddin əl-Qasimi, "Qəvaid ət-Təhdis", səh. 65.

[2] Camaləddin əl-Qasimi, "Qəvaid ət-Təhdis", səh. 65.

[3] "Səhih Muslim", 2577.

[4] İbn Useymin, "Müstələh əl-hədis", səh. 7; Camaləddin əl-Qasimi, "Qəvaid ət-Təhdis", səh. 61-62.

deyil, namazda oxunur, onu oxuyan oxuduğu hər bir hərfə görə on savab qazanır. Qüdsi hədis və Peyğəmbərin ﷺ hədisi isə belə deyildir.

**Qüdsi hədislə Peyğəmbərin ﷺ hədisi arasındakı fərq.**

Qüdsi hədis həm ləfz, həm də mənaca Allah kəlamıdır, Peyğəmbərin ﷺ hədisi isə bundan fərqli olaraq həm ləfz, həm də mənaca Peyğəmbərin ﷺ sözüdür. Allah kəlamı məxluqun sözündən əfzəl olduğu üçün, qüdsi hədis Peyğəmbərin ﷺ hədisindən daha əfzəl sayılır.[1]

**Qurana imanın xüsusiyyətləri.**

Öncə qeyd etdiyimiz kimi, kitablara iman imanın əsaslarından biridir. Muhəmməd ﷺ peyğəmbər göndərildikdən və Quran ona nazil olduqdan sonra bu kitab digər kitabları nəsx etdiyi, onlara şahidlik etdiyi, onunla ibadət edildiyi, bütün insanlara və cinlərə göndərildiyi üçün onu digər kitablardan fərqləndirən özəllik və xüsusiyyətlər də vardır. Qurana həqiqi iman gətirmək üçün kitablara imanla bağlı yuxarıda qeyd olunan məsələlərə əlavə olaraq həmin xüsusiyyətlərə də etiqad etmək gərəkdir. Həmin xüsusiyyətlər bunlardır:

1. Etiqad etmək lazımdır ki, Quran bütün insanlara və cinlərə göndərilmiş və oradakı şəriət qanunları hər ikisinə şamil olunmuşdur. Buna iman gətirmək və Allaha orada buyurulmuş şəkildə ibadət etmək onların hamısına vacibdir. Uca Allah buyurur: **"Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı nazil edən *Allah* necə də xeyirxahdır!"** (əl-Furqan, 1). Həmçinin Peyğəmbərinin ﷺ dilindən buyurmuşdur: **"Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim."** (əl-Ənam, 19). Həmçinin cinlər barəsində buyurur: **"De: "Mənə vəhy olundu ki, cinlərdən bir dəstə *Quranı* dinlədikdən sonra *öz tayfalarına qayıdıb* dedilər: "Həqiqətən, biz heyrətamiz bir Quran dinlədik! O, doğru yola yönəldir. Biz ona inandıq və *bundan sonra* əsla kimsəni Rəbbimizə şərik qoşmayacağıq."** (əl-Cin, 1-2).

2. Etiqad olunmalıdır ki, Quran bütün başqa kitabları nəsx edərək onları hökmdən salmışdır. Quran nazil olduqdan sonra nə Kitab əhlinə, nə də digərlərinə başqa bir kitaba tabe olması caiz deyildir. Yalnız Quranın əmrləri din sayılır, onun halal buyurduqları halal, ha-

[1] Camaləddin əl-Qasimi, "Qəvaid ət-Təhdis", səh. 65-66.

ram buyurduqları isə haram hesab edilir. Uca Allah buyurur: **"İslamdan başqa bir din axtaran şəxsdən, o *din* heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar."** (Ali İmran, 85). Həmçinin buyurur: **"Həqiqətən, Biz sənə Kitabı haqq olaraq nazil etdik ki, insanlar arasında Allahın sənə vəhy etdiyi ilə hökm verəsən. Odur ki, xainləri müdafiə edənlərdən olma."** (ən-Nisa, 105). Öncə qeyd etmişdik ki, Cabir ibn Abdullahdan rəvayət olunan hədisdə Peyğəmbər ﷺ səhabələrinə kitab əhlinin kitablarını oxumağı qadağan edərək demişdir: "Canım əlində olana and olsun ki, əgər Musa sağ olsaydı, hökmən mənə tabe olardı."[1]

3. Bilmək lazımdır ki, Quranın gətirdiyi şəriət çox asandır. Keçmiş şəriətlər isə bir çox çətinlikləri özündə ehtiva edirdi. Uca Allah buyurur: **"O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər. O *peyğəmbər* onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər."** (əl-Əraf, 157).

4. Quran ilahi kitablar arasında yeganə kitabdır ki, onu bütün ləfz və məna təhriflərindən qorumağı Uca Allah Öz üzərinə götürmüşdür. O, buyurur: **"Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq."** (əl-Hicr, 9). O, həmçinin buyurur: **"Nə önündən, nə də arxasından batil ona girişə bilməz. O, Müdrik, Tərifəlayiq *Allah* tərəfindən nazil edilmişdir."** (Fussilət, 42). Başqa bir ayədə O, buna bir daha zəmanət verərək buyurur: **"Şübhəsiz ki, *sənin qəlbində* onun qərar tutması və *dilinlə* onun oxunması Bizə aiddir. Biz onu oxuduğumuz zaman sən onun oxunuşunu izlə. Sonra, sözsüz ki, onu izah etmək də Bizə aiddir."** (əl-Qiyamət, 17-19).

İbn Kəsir sonuncu ayənin təfsirində demişdir: "Yəni Quranı, hifz edib Peyğəmbərə ﷺ oxutduqdan sonra onu aydınlaşdıraraq sənə istədiyimiz mənanı ilham veririk." Uca Allah Peyğəmbərin ﷺ zamanından bu günədək Öz Kitabını qoruyacaq bir çox möhtəşəm alimlər ha-

[1] "Musnəd Əhməd", 3/387; "Kəşf əl-Astar", 134.

zırlamışdır ki, onlar da bu işin öhdəsindən məharətlə gəlmişlər. Onlar Quranı əzbərləyərək mənasını dürüst anlamış və ona riayət etmişlər. Qurana xidmət etmək üçün onlar saysız-hesabsız kitablar yazmışlar. Bəziləri Quranın təfsiri barədə, bəziləri onun rəsmi və xətti barədə, bəziləri onun möhkəm və mütəşabih ayələri barədə, bəziləri onun Məkkədə və Mədinədə nazil olanları barədə, bəziləri ondan çıxarılan əhkamlar barədə, bəziləri nəsx və mənsux xüsusunda, bəziləri ayələrin nazil olma səbəbi haqqında, bəziləri Qurandakı məsəllər barədə, bəziləri onun ecazkarlığı barədə, bəziləri onun qəliz sözləri barədə, bəziləri də onun qrammatik təhlili barədə, habelə Quranla bağlı başqa-başqa mövzularda kitablar yazmışlar ki, bunların vasitəsilə Uca Allah Quranı qorumaqdadır. Bu alimlər Allahın Kitabı xüsusunda layiqincə xidmət etmiş, beləliklə də, bu Kitab indiyədək qorunmuş və təfsir edilmişdir.

5. Qurani Kərim digər ilahi kitablar kimi bir çox möcüzələri özündə ehtiva etmişdir. Quran özü-özlüyündə böyük bir möcüzə, əbədi və tutarlı bir dəlildir ki, Allah onun sayəsində Qiyamətə qədər Öz Peyğəmbərinə ﷺ və ona tabe olanlara dəstək verəcəkdir. Buxari və Muslim, Əbu Hureyradan ؓ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Uca Allah hər bir peyğəmbərə insanlar ona iman gətirsin deyə müxtəlif möcüzələr vermişdir. Allahın mənə verdiyi möcüzə isə vəhydir. Allahdan Qiyamət günü ən çox tərəfdarı olan peyğəmbər olmağımı diləyirəm."[1]

Quranın möcüzəvi xüsusiyyətlərindən biri onun fəsahətli və bəlağətli olmasıdır. Rəbbimiz bütün insanlara və cinlərə bacarırlarsa, Quranın bənzərini və ya onun bir qismini gətirməyi buyurmuşdur. Bu da üç mərtəbədən ibarətdir: Əvvəlcə Allah onlara Quranın bənzərini gətirməyi buyurmuş, onlar da bunu edə bilməyərək aciz qalmışlar. O buyurur: **"Yoxsa onlar: "Bunu özündən uydurdun!"– deyirlər. Xeyr, onlar iman gətirmirlər. Əgər doğru söyləyirlərsə, qoy *Qurana* bənzər bir kəlam gətirsinlər."** (ət-Tur, 33-34). Sonra Rəbbimiz onların aciz olduqlarını bildirərək buyurur: **"De: Əgər insanlar və cinlər**

[1] "Səhih əl-Buxari", 4981; "Səhih Muslim", 152.

**bu Qurana bənzər bir şey gətirmək üçün** ***bir yerə*** **toplaşıb, bir-birinə kömək etsələr belə ona bənzərini gətirə bilməzlər.”** (əl-İsra, 88). Sonra Allah onlara bacarırlarsa, on surə gətirmələrini buyurmuş, lakin onlar bunu da bacarmamışlar. Uca Allah buyurur: **“Yoxsa onlar: “*Muhəmməd* onu özündən uydurdu!”– deyirlər. De: “Əgər doğru danışırsınızsa, Ona bənzər uydurulmuş on surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, *köməyə* çağırın!”** (Hud, 13). Sonra Allah onlara növbəti dəfə bacarırlarsa, bir surə gətirmələrini buyurmuş. Lakin onlar yenə aciz qalmışlar. O, buyurur: **“Yoxsa: “*Muhəmməd* onu özündən uydurdu!”– deyirlər. De: “Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, *köməyə* çağırın!”** (Yunus, 38). Bununla da insanlar Quranda üç ayədən ibarət olan bir surənin bənzərini gətirə bilməyəcək qədər acizdirlər ki, bu da onun möcüzəviliyinin əlamətidir.

6. Uca Allah Qurani Kərimdə insanlara dinlərində, dünyalarında, sağ ikən və öldükdən sonra lazım olacaq şeyləri bəyan etmişdir. O, buyurur: **“Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik.”** (ən-Nəhl, 89). Həmçinin buyurur: **“Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq.”** (əl-Ənam, 38). İbn Məsud demişdir: Quranda bütün elmlər nazil edilmiş, hər bir şey bəyan edilmişdir.

7. Quranın ən əsas xüsusiyyətlərindən biri onu aramla, düşünərək oxuyan üçün asanlaşdırılmasıdır. Bu da Quranın ən böyük xüsusiyyətlərindəndir. Uca Allah buyurur: **“Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Amma heç bir yada salan varmı?”** (əl-Qəmər, 17). Həmçinin buyurur: **“*Bu* mübarək Kitabı, *insanların* onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik.”** (Sad, 29). Mücahid birinci ayənin təfsirində demişdir: “Yəni asan oxunulan etdik.” Əs-Suddi demişdir: “Tilavətini dillərdə asanlaşdırdıq.” İbn Abbas demişdir: “Uca Allah Quranı insanların dili üçün asanlaşdırmış olmasaydı, heç kim Allahın kəlamını oxuya bilməzdi.”[1] Təbəri və bir çox təfsir alimləri Quranın

[1] "Təfsir İbn Kəsir", 8/453.

asanlaşdırılmasının onun ləfzən tilavət üçün, həm də məna baxımından düşünüb ibrət almağa şamil olunduğunu bildirmişlər.[1] Bu da təcrübə nöqteyi-nəzərindən aydın bir məsələdir.

8. Quran keçmiş kitabların xülasəsini və peyğəmbərlərinin şəriətlərinin əsaslarını özündə ehtiva edir. Uca Allah buyurur: **"Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik."** (əl-Maidə, 48). Həmçinin buyurur: **"*Allah* Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin *tövhid* müşriklərə ağır gəldi."** (əş-Şura, 13).

9. Quran digər kitablardan fərqli olaraq keçmiş peyğəmbərlərin və ümmətlərin xəbərlərini qeyd etmişdir. Uca Allah buyurur: **"Elçilərin xəbərlərindən hər birini sənə söyləyirik ki, bununla sənin ürəyini möhkəmləndirək."** (Hud, 120). O, həmçinin buyurur: **"Bu, sənə söylədiyimiz məmləkətlər haqqında hekayətlərin bəzisidir. Onlardan *izi* qalanı da vardır, yerlə-yeksan olanı da."** (Hud, 100). O, həmçinin buyurur: **"Beləcə, olub-keçmiş əhvalatlardan sənə danışırıq. Artıq sənə Öz tərəfimizdən Zikr vermişik."** (Ta ha, 99).

10. Quran Allahın nazil etdiyi kitabların sonuncu, həm də bu kitabları təsdiqləyən bir kitabdır. Uca Allah buyurur: **"O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi, daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün. Furqanı da O nazil etdi."** (Ali İmran, 3-4). Başqa bir ayədə buyurur: **"Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik."** (əl-Maidə, 48).

Bütün bu sadalananlar Quranı digər kitablardan fərqləndirən özəlliklərdir. Bütün bunları bilib onlara əməl etməyincə iman kamil olmur. Daha doğrusunu isə Allah bilir!

---

[1] "Təfsir İbn Cərir", 27/96.

# III fəsil
## Peyğəmbərlərə iman
### Bu fəsil on bir mövzudan ibarətdir

*I mövzu. Peyğəmbərlərə iman gətirməyin hökmü və dəlilləri*

*II mövzu. Nəbi və rəsul sözlərinin tərifi və onlar arasındakı fərq*

*III mövzu. Peyğəmbərlərə iman gətirməyin məğzi*

*IV mövzu. Bizim peyğəmbərlər qarşısında borcumuz*

*V mövzu. Ulul-əzm elçilər.*

*VI mövzu. Peyğəmbərimiz Muhəmmədin ﷺ xüsusiyyətləri,onun ümməti üzərindəki hüquqları və yuxuda Peyğəmbəri ﷺ görməyin haqq olmasının bəyanı*

*VII mövzu. Peyğəmbərliyin xətm edilməsi və özündən sonra peyğəmbər gəlməyəcəyinin bəyan edilməsi*

*VIII mövzu. Peyğəmbərin ﷺ gecə səfəri, onun gerçəkliyi və dəlilləri*

*IX mövzu. Peyğəmbərlərin sağ olub-olmamaları haqqında həqiqi söz*

*X mövzu. Peyğəmbərlərin möcüzələri və onlarla övliyaların kəraməti arasındakı fərq*

*XI mövzu. Vəli və İslamda vilayət sözünün mənası*

# III fəsil. PEYĞƏMBƏRLƏRƏ İMAN

## *I mövzu.*
## *Peyğəmbərlərə iman gətirməyin hökmü və dəlilləri.*

Peyğəmbərlərə iman gətirmək bu dinin vaciblərindən və imanın əzəmətli rüknlərindən biridir. Buna dair Quran və Sünnədə bir çox dəlillər vardır.

Uca Allah buyurur: **"Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də** ***iman gətirdilər*****. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər.** ***Onlar dedilər*****: "Biz Onun elçiləri arasında fərq qoymuruq!"** (əl-Bəqərə, 285).

Uca Allah peyğəmbərlərə iman gətirməyi, Allah rəsulunun ﷺ və möminlərin gətirdiyi imanın digər rüknləri ilə birlikdə qeyd etmişdir. Üstəlik bildirmişdir ki, möminlər peyğəmbərlər arasında heç bir fərq qoymayaraq onların hamısına iman gətirirlər.

Uca Allah Öz kitabında peyğəmbərlərə iman gətirməyənlər barədə belə buyurur: **"Allahı və Onun elçilərini inkar edənlər, Allahı Onun elçilərindən ayırmaq istəyib: "Biz** *o elçilərin* **bəzisinə inanır, bəzilərinə isə inanmırıq!"– deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər, məhz onlar əsl kafirlərdir. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq."** (ən-Nisa, 150-151). Bu ayədə Rəbbimiz peyğəmbərləri yalan sayanları, habelə onların bəzilərinə iman gətirib digərlərini inkar edənləri kafir adlandırır. Sonda onların əsl kafir olduqlarını bildirir. Belə ki, onların kafir olması açıq-aydın və inkarolunmazdır. Növbəti ayədə isə Uca Allah onlara iman gətirənlərin mövqeyi barədə belə buyurur: **"Allaha və Onun elçilərinə iman gətirən və onlardan heç birinin arasında fərq qoymayanlara Allah Öz mükafatlarını verəcəkdir. Allah Bağışlayandır, Rəhmlidir."** (ən-Nisa, 152). Bu ayədə Uca Allah möminlərin Allaha və Onun göndərdiyi peyğəmbərlərin hamısına iman gətirdiklərini bildirir. Möminlər onların ara-

sında fərq qoymurlar. Əksinə, hamısının Allah tərəfindən göndərildiklərinə yəqinliklə iman gətirirlər.

Sünnədə də, Quranda olduğu kimi peyğəmbərlərə iman gətirməyin imanın əsaslarından olmasına dair kifayət qədər dəlillər vardır. Mələklərə iman fəslində qeyd etdiyimiz Cəbrail hədisində Peyğəmbər ﷺ Cəbrailin ﵇ iman barədə verdiyi suala cavab verərkən demişdir: "İman Allaha, Onun mələklərinə, Onun kitablarına, Onun elçilərinə, Axirət gününə və qədərə – onun xeyrinə və şərinə iman gətirməkdir." Hədisdə peyğəmbərlərə iman gətirmək imanın digər əsasları ilə birgə qeyd olunur. Müsəlmanın buna etiqad edərək həyata keçirməsi vacibdir.

Digər bir hədisdə deyilir ki, Peyğəmbər ﷺ gecə namazında təhəccüd duası edərkən deyərdi: "Allahım! Həmd Sənədir. Sən göylərin və yerin nurusan. Həmd Sənədir. Sən göylərin və yerin Hamisisən. Həmd Sənədir. Sən göylərin, yerin və onlarda olanların Rəbbisən. Sən Haqsan. Verdiyin vəd haqdır. Dediyin söz haqdır. Sənə qovuşmaq haqdır. Cənnət haqdır. Cəhənnəm haqdır. Peyğəmbərlər haqdır. Qiyamət haqdır."[1]

Peyğəmbərin ﷺ imanın əsaslarını qeyd edərək duasının əvvəlində Allaha imanla, Cənnət və Cəhənnəmin, habelə Qiyamətin haqq olması ilə yanaşı peyğəmbərlərə də imanı qeyd etməsi peyğəmbərlərə və elçilərə iman gətirməyin nə qədər mühüm olduğunu və dində xüsusi bir yer tutduğunu göstərir.

Bundan aydın olur ki, peyğəmbərlərə iman gətirmək vacibdir, həmçinin o da aydın olur ki, onlara iman gətirmək bu dinin ən böyük dəyərlərindən və onun ən əzəmətli xislətlərindəndir. Və o da aydın olur ki, peyğəmbərlərin hamısını və ya onlardan birini inkar edən kəs imanın rüknlərindən olan bu əzəmətli rüknü inkar etməklə Allaha qarşı böyük küfr işlətmiş olur və kafir sayılır.

**Peyğəmbərlərə iman gətirməyin faydaları.**

Peyğəmbərlərə iman gətirmək möminin qəlbinə yaxşı təsir edir və ona fayda verir. Onlardan bəziləri aşağıdakılardır:

---

[1] "Səhih əl-Buxari", 7499.

1. Bununla insan Allahın mərhəmətli olduğunu, Onun Öz qullarına qayğı göstərdiyini anlayır. Çünki Allah insanlara hidayət vermək və onları doğru yola yönəltmək üçün onlara elçilər göndərmişdir.

2. Bu böyük nemətin müqabilində insan Allaha şükür edir.

3. İnsan peyğəmbərləri sevir, onlara ehtiramla yanaşır və onları layiqli şəkildə tərifləyir. Ona görə ki, onlar Allahın göndərdiyi seçilmiş qullardır. Həm də ona görə ki, onlar Allahın risaləsini təbliğ etmiş, öz qövmlərinə nəsihət etmiş və onların əziyyətlərinə səbir etmişlər.

## *II mövzu. Nəbi və rəsul sözlərinin tərifi və onlar arasındakı fərq.*

Lüğəvi mənada **"nəbi"** ərəbcə **"nəbə"** – yəni böyük faydası olan xəbər sözündən götürülmüşdür. Uca Allah buyurur: **"Onlar nə barədə bir-birindən soruşurlar? Böyük bir xəbər barəsində."** (ən-Nəbə, 1-2). Peyğəmbər ona görə nəbi adlandırılıb ki, o öz Rəbbindən xəbərlər verir.

Bəziləri isə "nəbi" sözünün "nəbava" yəni hündür bir şey sözündən qaynaqlandığını bildirmişlər. Nəbi sözünə bu yöndən yanaşsaq, bunu hər bir peyğəmbərin digər insanlardan daha uca məqamda olduğunu deyə bilərik. Uca Allah buyurur: **"Biz onu yüksək bir məqama ucaltdıq."** (Məryəm, 57).

"Rəsul" sözünün lüğəvi mənasına gəlincə, bu, ərəbcə "irsal" sözündən götürülmüşdür ki, bu da "göndərilmək" deməkdir. Uca Allah Səba hökmdarı barədə buyurur: **"Mən onlara bir hədiyyə göndərəcəyəm və baxacağam görüm elçilər nə ilə qayıdacaqlar."** (ən-Nəml, 35).

Alimlər rəsul və nəbi sözlərinin istilahi mənalarında ixtilaf etmişlər. Onların içərisində ən məşhur rəylər aşağıdakılardır:

Nəbi o adama deyilir ki, Allah ona vəhy edərək müəyyən əməlləri yerinə yetirməyi buyurmuş, o da bunları möminlərə əmr etmişdir.

Rəsul isə o adama deyilir ki, Allah ona vəhy edərək onu Allahın əmrinə asi olanlara Allahın risaləsini çatdırması üçün göndərmişdir.

### Nəbi və rəsul arasındakı fərq.

Nəbi o kimsədir ki, Allah ona, möminlərə xitab etsin və Öz buyruqlarını onlara təbliğ etsin deyə, əmr və qadağaları barədə ona xəbər vermişdir. Allah onları kafirlərə xitab etməsi üçün göndərməmişdir.

Rəsul isə həm möminlərə, həm də kafirlərə göndərilmiş olur və Allahın risaləsini təbliğ edərək insanları yalnız Allaha ibadət etməyə çağırır.

Onu da qeyd edək ki, yeni bir şəriət gətirmək rəsul olmaq üçün şərt deyil. Belə ki, Yusuf عليه السلام İbrahimin عليه السلام dini üzərində olmuşdur. Davud عليه السلام və Süleyman عليه السلام da – hər ikisi Tövrata tabe olmuşlar, lakin bununla belə onlar rəsul idilər. Uca Allah buyurur: **"Daha öncə Yusuf sizə açıq-aydın dəlillər gətirmişdi. Siz onun gətirdiklərinə şəkk etməkdə davam edirdiniz. Nəhayət, o, vəfat etdikdə dediniz: "Allah ondan sonra elçi göndərməyəcəkdir!" Allah həddi aşan, şübhə edən kimsəni beləcə azğınlığa salar."** (Ğafir, 34). O, həmçinin buyurur: **"Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi sənə də vəhy etdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy etdik. Davuda da Zəburu verdik. Daha öncə *bir qisim* elçilər barəsində sənə söylədik, *digər* elçilər barəsində isə sənə *heç nə* söyləmədik. Və Allah Musa ilə sözlə (vasitəsiz) danışdı."** (ən-Nisa, 163-164).

Bəzən nəbi olan kimsəyə rəsul da deyilir. Uca Allah buyurur: **"Biz səndən əvvəl elə bir elçi, elə bir peyğəmbər göndərməmişik ki, o, *ayələrimizi oxumaq* istədikdə, şeytan onun oxuduğuna gizlicə *vəsvəsə* verməsin. Lakin Allah şeytanın gizlicə təlqin etdiyini yoxa çıxarar."** (əl-Həcc, 52).

Bu ayədə Rəbbimiz rəsul və nəbi göndərdiyini buyurur. Belə ki, Uca Allah möminləri nəyəsə dəvət etməyə əmr etdikdə həmin şəxs Allah tərəfindən göndərilmiş olur. Lakin bu mütləq rəsulluq sayılmır. Mütləq rəsulluq peyğəmbərlərin bütün insanlara, o cümlədən möminlərə və kafirlərə göndərilmələrinə deyilir.

### *III mövzu.*
### *Peyğəmbərlərə iman gətirməyin məğzi*

Peyğəmbərlərə iman, Allahın Kitabında və Peyğəmbərinin ﷺ sünnəsində xülasə və təfsilatı ilə xəbər verilənlərə etiqad etməyə deyilir.

**Xülasəsi.**

Bu, insanın hər bir ümmətə Allah tərəfindən peyğəmbər göndərilməsinə etiqad etməsinə deyilir. Həmin peyğəmbərlər insanları tək Allaha ibadət etməyə, Ona heç nəyi şərik qoşmamağa, habelə Allahdan savayı bütün məbudları inkar etməyə çağırmışlar. Uca Allah buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"–** ***deyə,*** **elçi göndərdik."** (ən-Nəhl, 36). Həmçinin bütün peyğəmbərlərin sadiq, təqvalı, etimad olunası, etibarlı və hidayət göstərən olmalarına da etiqad edilməlidir. Uca Allah buyurur: **"Onlar deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? Bu, Mərhəmətli** ***Allahı*****n vəd etdiyi** ***qiyamətdir.*** **Elçilər doğru deyirlərmiş."** (Yasin, 52). Başqa bir ayədə Uca Allah bir çox peyğəmbərlər haqqında söhbət açdıqdan sonra belə buyurur: **"Onların atalarından, nəsillərindən və qardaşlarından bəzilərini də. Onları seçdik və düz yola yönəltdik. Bu, Allahın hidayətidir. Bununla O, qullarından istədiyi şəxsi doğru yola yönəldir. Əgər** ***Ona*** **şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı."** (əl-Ənam, 87-88).

Həmçinin etiqad olunmalıdır ki, onların hamısı açıq-aydın haqq və hidayət üzərində olublar, üstəlik Allahın buyuruqlarını insanlara çatdırıblar. Uca Allah Cənnət əhli haqda xəbər verir ki, (onlar belə demişlər): **"Əlbəttə, Rəbbimizin elçiləri haqqı gətirmişdilər."** (əl-Əraf, 43). Həmçinin buyurur: "**Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar."** (əl-Hədid, 25).

Eyni zamanda bilmək lazımdır ki, peyğəmbərlərin hamısı eyni əqidəyə – TəkAllahlığa dəvət etmişlər. Fəqət onların şəriətləri müxtəlif olmuşdur. Uca Allah buyurur: **"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa heç bir məbud yoxdur, Mənə iba-**

**dət edin!"– deyə vəhy etməyək."** (əl-Ənbiya, 25). O, həmçinin buyurur: **"Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik."** (əl-Maidə, 48).

Onu da bilmək lazımdır ki, onlar özlərinə nazil olunmuş vəhyi tam olaraq insanlara çatdırmaqla onların üzərində hüccəti qaldırmışlar. Uca Allah buyurur: **"*Hər kəs* onların, Rəbbinin göndərdiklərini necə təbliğ etdiyini bilsin. *Allah* onların nə etdiklərini nəzarəti altında saxlayır və hər şeyi ayrı-ayrılıqda hesaba alır."** (əl-Cin, 28). O, həmçinin buyurur: **"*Biz* müjdə verən və qorxudan elçilər *göndərdik* ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın."** (ən-Nisa, 165).

Hər bir müsəlman etiqad etməlidir ki, peyğəmbərlər yaradılmış insandırlar, heç bir Rububiyyət xüsusiyyətlərinə (ilahi qüvvəyə) malik deyillər və adi Allah bəndəsidirlər. Sadəcə olaraq Allah onları seçib rəsul göndərməklə onlara ehtiram göstərmişdir. Uca Allah buyurur: **"Elçiləri *onlara* dedilər: "Biz də sizin kimi bir insanıq. Lakin Allah Öz qullarından istədiyinə lütfkarlıq edir. Allahın izni olmadan biz sizə heç bir dəlil gətirə bilmərik."** (İbrahim, 11).

Uca Allah Nuh ﷺ barəsində belə buyurur: **"Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm."** (Hud, 31).

Digər bir ayədə Allah Muhəmmədə ﷺ öz qövmünə belə deməyi buyurur: **"De: "Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm. Mən yalnız mənə vəhy olunana tabe oluram."** (əl-Ənam, 50).

Peyğəmbərlər barədə etiqad olunması vacib olan məsələlərdən biri də, Allahın onlara yardım etməsinə və onlara dəstək verməsinə, habelə gözəl aqibətin məhz peyğəmbərlərə və onların ardıcıllarına nəsib olmasına iman gətirməkdir. Uca Allah buyurur: "**Şübhəsiz ki, Biz Öz elçilərimizə və möminlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət verəcəyi gün yardım edəcəyik."** (Ğafir, 51).

Həmçinin Allahın xəbər verdiyi kimi peyğəmbərlərin bir-birindən üstün olmasına iman gətirmək vacibdir. Uca Allah buyurur: **"Biz o elçilərin bəzisini digərlərindən üstün etdik. Onlardan bəzisi ilə Allah danışmış, bəzisini isə dərəcələrə yüksəltmişdir."** (əl-Bəqərə, 253).

Bütün bunlara, habelə Quran və Sünnədə peyğəmbərlər barədə varid olan bütün məsələlərə iman gətirmək labüddür.

**Təfsilati iman** isə Allahın Öz kitabında və Peyğəmbərinin ﷺ sünnəsində onlardan adları çəkilənlərə, onların adları, xəbərləri, fəzilətləri və xüsusiyyətlərinə iman gətirməyə deyilir.

Qurani Kərimdə iyirmi beş peyğəmbərin adı çəkilmişdir. Onlardan on səkkizinin adı Uca Allahın aşağıdakı ayələrində qeyd olunur: **"Bunlar, öz qövmünə qarşı İbrahimə verdiyimiz dəlillərimizdir. Biz istədiyimiz kəsi dərəcə-dərəcə ucaldarıq. Şübhəsiz ki, Rəbbin Müdrikdir, Biləndir. Biz ona İshaqı və Yaqubu bəxş etdik. Hər ikisini doğru yola yönəltdik. *Bundan* əvvəl Nuhu da doğru yola yönəltmişdik. Onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusufu, Musanı və Harunu da. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq. Zəkəriyyanı, Yəhyanı, İsanı və İlyası da. Hamısı əməlisalehlərdən idilər. İsmaili, Əlyəsəni, Yunusu və Lutu da. Hamısını aləmlərdən üstün etdik."** (əl-Ənam, 83-86). **Digər peyğəmbərlərin adları isə başqa ayələrdə qeyd olunur. Uca Allah buyurur: "Ad qövmünə də qardaşları Hudu *göndərdik.*"** (əl-Əraf, 65). O, həmçinin buyurur: **"Səmud qövmünə də qardaşları Salehi *göndərdik.*"** (əl-Əraf, 73). Həmçinin buyurur: **"Mədyən qövmünə də qardaşları Şueybi *göndərdik.*"** (əl-Əraf, 85). O, həmçinin buyurur: **"Allah Adəmi, Nuhu, İbrahimin *mömin* nəslini və İmranın *mömin* nəslini seçib aləmlərdən üstün etdi."** (Ali İmran, 33). Həmçinin buyurur: **"İsmaili, İdrisi və Zülkifli də *yada sal!* Hamısı səbir edənlərdən idilər."** (əl-Ənbiya, 85). Həmçinin buyurur: **"Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər."** (əl-Fəth, 29). Hər bir müsəlman adları sadalanan bu peyğəmbərlərə və elçilərə müfəssəl şəkildə iman gətirməli, Allahın və Peyğəmbərinin ﷺ xəbər verdiyi kimi onların hər birinin nəbi və ya rəsul olduğuna etiqad etməlidir.

Bundan başqa, dəlillərdə göstərilən peyğəmbərlərə məxsus fəzilətlərə, xüsusiyyətlərə və xəbərlərə də iman gətirmək vacibdir. Buna Allahın İbrahimi و Muhəmmədi ﷺ Özünə dost seçdiyini misal çəkmək olar. Uca Allah buyurur: **"Allah İbrahimi sevimli dost tutmuşdur"** (ən-Nisa, 125). Peyğəmbər ﷺ demişdir: "Uca Allah İbra-

himi Özünə dost seçdiyi kimi, məni də Özünə dost seçmişdir." Hədisi Muslim rəvayət etmişdir.[1]

Uca Allahın Musa عليه السلام ilə bilavasitə danışması da buna misaldır. Allah buyurur: **"Və Allah Musa ilə sözlə (vasitəsiz) danışdı."** (ən-Nisa, 164). Həmçinin Uca Allahın quşları və dağları Davud عليه السلام üçün ram etməsi və onların Allahı zikr etmələri də buna misaldır. Uca Allah buyurur: **"Biz o hökmü Süleymana anlatdıq. Hər ikisinə hökmranlıq və elm bəxş etdik. Biz dağları və quşları Davudla birlikdə *Allahı* tərifləmələri üçün *ona* ram etdik. Bunları Biz etdik."** (əl-Ənbiya, 79). Dəmirin Davud عليه السلام üçün yumşaldılması barədə Uca Allah buyurur: **"Biz Davuda Özümüzdən bir lütf bəxş etdik *və buyurduq:* "Ey dağlar və quşlar! Onunla birlikdə *Allahın şəninə* tariflər deyin!" Biz dəmiri onun üçün yumşaltdıq."** (Səba, 10). Küləklərin və cinlərin Süleymana عليه السلام ram edilməsi barədə isə Uca Allah belə buyurur: **"Səhər bir aylıq məsafəni qət edən, günortadan sonra *yenə* bir aylıq məsafəni qət edən küləyi də Süleymana *ram etdik*. Biz onun üçün mis qaynağını sel kimi axıtdıq. Rəbbinin izni ilə cinlərin bir qismi onun qabağında işləyirdi."** (Səba, 12). Quşların dilinin Süleymana عليه السلام öyrədilməsi barədə isə Rəbbimiz belə buyurur: **"Süleyman Davuda *peyğəmbərlikdə* varis oldu və dedi: "Ey insanlar! Bizə quş dili öyrədildi və bizə hər şeydən verildi. Həqiqətən, bu, *bizə göstərilən* açıq-aşkar üstünlükdür."** (ən-Nəml, 16).

Bütün bunlarla yanaşı Uca Allahın Kitabında peyğəmbərlər və onların qövmləri barədə, onların arasında baş vermiş mücadilə barədə, sonda isə Allahın peyğəmbərlərinin zəfər çalmaları barədə verilən xəbərlərə də iman gətirmək vacibdir. Buna Musanın Fironla mübahisəsini, İbrahimlə qövmünün, Nuh, Hud, Saleh və Lutun öz qövmləri ilə etdikləri mücadilələri, Uca Allahın Yusuf və onun qardaşları ilə bağlı bizlərə verdiyi xəbərləri, Yunusla qövmünün və Allahın Kitabında, Peyğəmbərinin ﷺ sünnəsində peyğəmbərlərlə bağlı varid olan bütün xəbərləri misal çəkmək olar. Bütün bunlara təfsilatı ilə iman gətirmək vacibdir. Bununla da, peyğəmbərlərə imanın xülasə və təfsilati olan hər iki qismini sizlərə bəyan etmiş olduq. Daha doğrusunu isə Allah bilir.

---

[1] "Səhih Muslim", 532.

### *IV mövzu.*
### *Bizim peyğəmbərlər qarşısında borcumuz*

Müsəlman olan hər kəsin boynunda peyğəmbərlərin vacib haqları vardır. Bu ona görədir ki, Allah peyğəmbərləri dində yüksək məqamlara çatdırmış və Öz yanında onların hörmətini uca tutmuşdur. Üstəlik bu peyğəmbərləri əvəzolunmaz bir missiya ilə şərəfləndirmiş, Öz vəhyini və şəriət qayda-qanunlarını digər insanlara çatdırmaq üçün onları seçmişdir. Həmin haqlardan bəziləri aşağıdakılardır:

1. Onların hamısının peyğəmbər olmalarını, Allah tərəfindən göndərilmələrini, Allahın əmrlərini təbliğ etdiklərini təsdiq etmək və bu xüsusda onların arasında fərq qoymamaq. Uca Allah buyurur: **"Biz hər bir elçini, Allahın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik."** (ən-Nisa, 64). O, həmçinin buyurur: **"Allaha itaət edin,** ***Onun*** **Elçisinə itaət edin və** ***asi olmaqdan*** **çəkinin! Əgər üz çevirsəniz, bilin ki, Elçimizin öhdəsinə düşən ancaq açıq-aydın təbliğ etməkdir."** (əl-Maidə, 92). Həmçinin buyurur: **"Allahı və Onun elçilərini inkar edənlər, Allahı Onun elçilərindən ayırmaq istəyib: "Biz** ***o elçilərin*** **bəzisinə inanır, bəzilərinə isə inanmırıq!"– deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər, məhz onlar əsl kafirlərdir. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq."** (ən-Nisa, 150, 151). Beləliklə, peyğəmbərlərin gətirdikləri risalələrə iman gətirmək onlara olan imanın bir hissəsi sayılır.

Onu da qeyd edək ki, Muhəmmədin ﷺ göndərilməsindən sonra hər hansı bir insanın və ya cinin öncəki peyğəmbərlərin dediklərinə tabe olması yolverilməzdir. Belə ki, Muhəmmədin ﷺ gətirdiyi şəriət öncəki şəriətlərin hamısının hökmünü qüvvədən salmışdır. Odur ki, ondan başqa bir peyğəmbərə tabe olmaq caiz deyil. Uca Allah buyurur: **"İslamdan başqa bir din axtaran şəxsdən, o** ***din*** **heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar."** (Ali İmran, 85). Həmçinin buyurur: **"Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən** ***bir peyğəmbər*** **kimi göndərdik. Lakin insanların çoxu**

***bunu* bilmir.”** (Səba, 28). Həmçinin buyurur: **“De: “Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm.”** (əl-Əraf, 158).

2. Bütün peyğəmbərləri dost tutmaq, onları sevmək, onlara qarşı kin və ədavət hissləri keçirməkdən həzər etmək gərəkdir. Uca Allah buyurur: **“Kim Allahı, Onun Elçisini və iman gətirənləri *özünə* dost tutarsa, *bilsin ki,* qələbə çalanlar da məhz Allahın firqəsidir.”** (əl-Maidə, 56). O, həmçinin buyurur: **“Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır.”** (ət-Tövbə, 71). Bu ayədə Uca Allah möminlərin bir-birinin dostu olduqlarını bildirir. Belə olduğu halda ən kamil imana malik olan peyğəmbərləri dost seçmək daha məqsədəuyğundur. Onlar yüksək məqam sahibi olduqlarından dolayı möminlərin qəlbində onlar üçün xüsusi bir sevgi vardır. Buna görə də Uca Allah insanları Allaha, mələklərinə və peyğəmbərlərinə qarşı düşmən mövqe nümayiş etdirməkdən çəkindirərək buyurur: **“Kim Allaha, Onun mələklərinə və elçilərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz ki, Allah da o kafirlərə düşməndir.”** (əl-Bəqərə, 98).

3. Həmçinin etiqad etmək lazımdır ki, peyğəmbərlər adi insanlardan üstündürlər və insan nə qədər təqvalı, əməlisaleh olsa belə, onların dərəcəsinə çata bilməz. Çünki peyğəmbərlik Allahın dilədiyi kəsə bəxş etdiyi əvəzolunmaz bir nemətidir ki, bu da çalışmaqla əldə oluna bilməz. Uca Allah buyurur: **“Allah mələklərdən də elçilər seçir, insanlardan da. Həqiqətən, Allah Eşidəndir, Görəndir!”** (əl-Həcc, 75). O, həmçinin buyurur: **“Bunlar, öz qövmünə qarşı İbrahimə verdiyimiz dəlillərimizdir. Biz istədiyimiz kəsi dərəcə-dərəcə ucaldarıq. Şübhəsiz ki, Rəbbin Müdrikdir, Biləndir.”** (əl-Ənam, 83). Sonra Rəbbimiz bir çox peyğəmbərlərin adlarını qeyd etdikdən sonra belə buyurur: **“Hamısını aləmlərdən üstün etdik.”** (əl-Ənam, 86). Bu barədə bu fəsilin birinci məsələsində söhbət açmışdıq.

Sünnədə də peyğəmbərlərin yüksək məqam sahibi olmaları və insanların onlara çata bilməmələri haqqında dəlillər çoxdur. Buxari və Muslim, Əbu Hureyradan ؓ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Heç bir kəsə: “Mən Yunus ibn Məttədən daha fəzilət-

liyəm"– demək yaraşmaz.[1] Buxarinin rəvayətində isə deyilir: "Hər kim: "Mən Yunus ibn Məttədən daha fəzilətliyəm"– desə, yalan danışmış olar."[2] Hədisi şərh edən bəzi alimlər demişlər: "Peyğəmbər ﷺ bunu ona görə belə demişdir ki, ola bilsin cahillərdən kimsə Qurandakı hekayəyə əsaslanıb Yunusu ﷺ öz məqamından daha aşağı tutmuş olar." Həmçinin alimlər demişlər: "Yunusun başına gələnlər onu peyğəmbərlik məqamından zərrə qədər belə kənara çıxarmamışdır." Yunusun əhvalatı Qurani Kərimdə əlahiddə qeyd olunur: **"Zün-Nunu da *yada sal!* Bir zaman o qəzəbli *qövmündən* ayrılıb getmiş və ona gücümüz çatmayacağını güman etmişdi. Sonra da zülmətlər içində yalvarıb demişdi: "Səndən başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən isə həqiqətən, zalımlardan olmuşam!" Biz onun duasını qəbul etdik və onu qəmqüssədən qurtardıq. Biz möminləri belə xilas edirik!"** (əl-Ənbiya, 87-88). Başqa bir ayədə isə Uca Allah buyurur**: "Yunus da, həqiqətən, elçilərdəndir. Bir zaman o, yüklü bir gəmiyə tərəf qaçdı. Başqaları ilə birlikdə püşk atdı və uduzanlardan oldu. O, qınanmağa layiq olduqda balıq onu uddu. Əgər o, Allaha tərif deyənlərdən olmasaydı, balığın qarnında Qiyamət gününə qədər qalardı. O, halsız olduğu vəziyyətdə *Biz* onu sahilə çıxartdıq. Onun başı üstündə balqabaq tağı bitirdik. Biz onu yüz mindən də daha çox adama *peyğəmbər* göndərdik. Onlar ona iman gətirdilər, Biz də onlara müəyyən vaxtadək firavanlıq nəsib etdik."** (əs-Saffət, 139-148).

4. Ona da etiqad etmək lazımdır ki, peyğəmbərlərin hamısı eyni dərəcədə deyillər. Allah onların bəzilərini digərlərindən üstün etmişdir. Uca Allah bu barədə buyurur: **"Biz o elçilərin bəzisini digərlərindən üstün etdik. Onlardan bəzisi ilə Allah danışmış, bəzisini isə dərəcələrə yüksəltmişdir."** (əl-Bəqərə, 253). Təbəri bu ayənin təfsirində demişdir: "Uca Rəbbimiz buyurur ki, O, peyğəmbərlərin bəzilərini digərlərindən üstün etmişdir. Musanı bilavasitə danışdırmışam, beləcə onların bəzilərini dərəcə və məqam baxımından digərlərindən üst-

[1] "Səhih əl-Buxari", 3416; "Səhih Muslim", 2376.

[2] "Səhih əl-Buxari", 4604.

ün etmişəm." Buna görə də dəlillərdə göstərildiyi kimi onların fəzilətlərini bilmək onların bizim üzərimizdə olan haqlarıdır.

5. Peyğəmbərlərə salavat və salam demək lazımdır. Uca Allah sonrakı qövmlərin peyğəmbərləri tərif edəcəkləri barədə buyurur: **"Sonra gələnlər arasında onun üçün *gözəl xatirə* qoyduq; aləmlər içərisində Nuha salam olsun!"** (əs-Saffət, 78-79). İbrahim barədə də belə buyurur: **"Sonradan gələnlər arasında ona *gözəl xatirə* qoyduq. İbrahimə salam olsun!"** (əs-Saffət, 108-109). Musa ilə Harun barəsində isə belə buyurur: **"Sonradan gələnlər arasında hər ikisinə *gözəl xatirə* qoydu. Musaya və Haruna salam olsun!"** (əs-Saffət, 119-120). Başqa bir ayədə isə buyurur: **"Elçilərə salam olsun!"** (əs-Saffət, 181). İbn Kəsir demişdir: Uca Allahın: **"aləmlər içərisində Nuha salam olsun!"** (əs-Saffət, 79) ayəsində bildirilir ki, bütün qövmlər onu tərif edərək onu xoş xatirələrlə yad edəcəklər. İmam Nəvəvi bütün peyğəmbərlərə salavat deməyin caiz və müstəhəb olması məsələsində alimlərin yekdil rəy sahibi olmalarını bildirmiş və demişdir: "Alimlərin yekdil rəyinə görə, peyğəmbərimiz Muhəmmədə ﷺ salavat deyilməlidir. Həmçinin mötəbər alimlərin yekdil rəyinə görə, digər peyğəmbərlərə və mələklərə ayrılıqda qeyd olunduqda salavat deyilir. Peyğəmbərlərdən qeyrilərinə gəlincə isə əksər alimlərin rəyinə görə əvvəldən onlara salavat deyilmir."

Bunlar da dəlillərdə olduğu və elm əhlinin dediyi kimi, peyğəmbərlərin bəzi haqlarıdır.

## *V mövzu.*
## *Ulul-əzm elçilər.*

Ulul-əzm elçilər deyildikdə, əzmkar və səbirli olanlar nəzərdə tutulur. Uca Allah buyurur: **“Elçilərdən möhkəm iradə sahiblərinin səbir etdiyi kimi, sən də səbir et!”** (əl-Əhqaf, 35).

Alimlər onlar barədə ixtilaf etmişlər. Bəziləri burada bütün elçilərin nəzərdə tutulduqlarını bildirmişlər. Ayədə “elçilərdən” deyildikdə, onların bəziləri deyil, hamısı nəzərdə tutulur. İbn Zeyd demişdir: “Yəni bütün elçilər. Çünki Allahın göndərdiyi bütün peyğəmbərlər möhkəm səbir, iradə və kamil bir ağıl sahibi olmuşlar.”

Bəzi alimlər isə onların sayının beş olduğunu söyləmişlər – bunlar Nuh, İbrahim, Musa, İsa və Muhəmmədir (Allahın onlara salavatı və salamı olsun!). İbn Abbas demişdir: “Ulul-əzm peyğəmbərlər bunlardır: Peyğəmbərimiz, Nuh, İbrahim, Musa və İsa (Allahın onlara salavatı və salamı olsun!)” Mücahid və Əta əl-Xorasani də bu rəyə üstünlük vermişlər. Əksər elm əhli də sonradan bunu daha məqsədəuyğun saymışlar. Onların beşinin adı birlikdə Qurani Kərimdə iki yerdə çəkilir. Onlardan birincisi "əl-Əhzab" surəsindədir: **“Bir zaman Biz peyğəmbərlərdən əhd almışıq; səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da! Biz onlardan möhkəm bir əhd almışıq.”** (əl-Əhzab, 7). İkinci ayə isə "əş-Şura" surəsindədir: ***“Allah*** **Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: “Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!” Sənin dəvət etdiyin** ***tövhid*** **müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və** ***Ona*** **üz tutanı Özünə tərəf yönəldər.”** (əş-Şura, 13). Bəzi təfsirçilər demişlər: “Onların adlarının xüsusi olaraq qeyd olunması onların məşhur şəriətlərə sahib olduqlarının, xüsusi şərəf və fəzilətə layiq olduqlarının göstəricisidir.

Bu beşi peyğəmbərlərin ən fəzilətləsi, Adəm övladlarının ən xeyirlisidir. Əbu Hureyra ﵁ demişdir: "Adəm övladlarının ən xeyirlisi beş nəfərdir: Nuh, İbrahim, İsa, Musa və Muhəmməd (Allahın onlara salavatı və salamı olsun!) Onların arasında ən xeyirlisi isə Muhəmməddir ﷺ."[1]

Onların ən xeyirlisinin Muhəmməd ﷺ olması barədə Buxari Əbu Hureyradan Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mən Qiyamət günü Adəm övladlarının ən şərəflisi, qəbirdən ilk çıxan şəxs, şəfaət diləyənlərin və şəfaətçi olanların birincisi olacağam."[2]

---

[1] "Kəşf əl-astar", 3/114; "Məcmə əz-zəvaid", 8/255; "Mustədrək əl-Hakim", 2/546.

[2] "Səhih Muslim", 2278; "Sunən Əbu Davud", 4673.

## *VI mövzu. Peyğəmbərimiz Muhəmmədin ﷺ xüsusiyyətləri, onun ümməti üzərindəki hüquqları və yuxuda Peyğəmbəri ﷺ görməyin haqq olmasının bəyanı.*

**Birinci.** ***Peyğəmbərin*** **ﷺ** **xüsusiyyətləri.**

Əzəmətli və Uca Allah Peyğəmbərimiz Muhəmmədə ﷺ bir sıra fəzilət və xüsusiyyətlər əta etməklə, onu digər peyğəmbərlərdən və insanlardan üstün etmişdir. Bu xüsusiyyətlərdən bəziləri aşağıdakılardır:

1. Onun şəriəti bütün insanlar və cinlər üçündür və hamı onun risaləsinə tabe olaraq ona riayət etməlidir. Uca Allah buyurur: **"Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən *bir peyğəmbər* kimi göndərdik. Lakin insanların çoxu *bunu* bilmir."** (Səba, 28). Həmçinin buyurur: **"Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı nazil edən *Allah* necə də xeyirxahdır!"** (əl-Furqan, 1). İbn Abbas demişdir: "Burada aləmlər deyildikdə insanlar və cinlər nəzərdə tutulur." Əbu Hureyra Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mən altı xüsusiyyətlə digər peyğəmbərlərdən üstünəm: mənə hikmətli ifadələr verilib, (düşmənin qəlbinə) qorxu salmaqla mənə qələbə verilib, qənimətlər mənə halal olunub, bütün yer üzəri mənə pak səcdəgah buyurulub, mən bütün məxluqata göndərilmişəm və mənimlə peyğəmbərliyə möhür vurulub"[1] İmam Muslim "Səhih" əsərində Əbu Hureyradan Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Muhəmmədin canı Əlində olan *Allaha* and olsun ki, bu ümmətdən hər hansı bir yəhudi və ya xristian mənim barəmdə eşidib, sonra da mənimlə göndərilənə iman gətirmədiyi halda ölərsə, mütləq Cəhənnəm əhlindən olar."[2]

2. Ayə və hədislərdə göstərildiyi kimi, o, peyğəmbərlərin və elçilərin sonuncusudur. Uca Allah buyurur: **"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir."** (əl-Əhzab, 40). Bu-

[1] "Səhih Muslim", 523.

[2] "Səhih Muslim", 153.

xari və Muslim, Əbu Hureyradan رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Mənim və əvvəlki peyğəmbərlərin məsəli, gözəl və heyrətamiz bir ev tikmiş, lakin kərpicinin birini qoymamış bir kimsənin məsəlinə bənzəyir. Camaat bu evin yan-yörəsindən keçir, ona təəccüb edir və deyirlər: "Nə üçün bura bir kərpic qoyulmayıb?" (Sonra) Peyğəmbər ﷺ davam edib dedi: "O kərpic mənəm və mən peyğəmbərlərin sonuncusuyam."[1] Bütün bu sadalanan dəlillərə əsaslanaraq sələflər və onlardan sonra gələnlər də bu mövqedə olmuş və ondan sonra peyğəmbərlik iddia edən hər kəsin kafir olduğunu, habelə bunda israrlı olarsa öldürülməli olduğunu bildirmişlər. Əl-Əlusi demişdir: "Muhəmmədin ﷺ peyğəmbərlərin sonuncusu olması Quranda xəbər verilmiş, Sünnə ilə təsdiqlənmiş, ümmət tərəfindən yekdilliklə qəbul olunmuşdur. Odur ki, bunun əksini iddia edən hər kəs təkfir olunmalı, bunda israrlı olanlar isə qətlə yetirilməlidir."

3. Uca Allah Peyğəmbərə ﷺ möcüzələrin ən əzəmətlisi olan, bütün təhriflərdən qorunan və Allah diləyənədək insanların arasında qalacaq Qurani Kərimi bəxş etmişdir. Uca Allah buyurur: **"De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün *bir yerə* toplaşıb, bir-birinə kömək etsələr belə ona bənzərini gətirə bilməzlər."** (əl-İsra, 88). Həmçinin buyurur: **"Onlara oxunan Kitabı sənə nazil etməyimiz onlar üçün kifayət deyilmi? Həqiqətən, bunda iman gətirən adamlar üçün mərhəmət və ibrət vardır."** (əl-Ənkəbut, 51). Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Hureyradan رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Peyğəmbərlərin hər birinə insanı imana gətirəcək möcüzə göstərmək qüdrəti verilmişdir. Mənə isə Allahın nazil etdiyi vəhy bəxş edilmişdir. Ümid edirəm ki, Qiyamət günü mənim ardıcıllarım onların hamısından çox olacaq."[2]

4. Peyğəmbərimizin ﷺ ümməti ən xeyirli ümmət və Cənnət əhlinin əksəriyyətini təşkil edirlər. Uca Allah buyurur: **"Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz."** (Ali İmran, 110). Müaviyə ibn Heydə əl-Quşeyri Peyğəmbərin ﷺ yuxarıdakı: **"Siz insanlar**

[1] "Səhih əl-Buxari", 3535; "Səhih Muslim", 2286.

[2] "Səhih əl-Buxari", 4981; "Səhih Muslim", 152.

**üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz."** ayəsi barədə belə buyurduğunu eşitmişdir: "Siz yetmiş ümmətin sonuncusu olmanıza rəğmən Allah yanında onların ən xeyirlisi və ən şərəflisisiniz." Buxari və Muslimin "Səhih" əsərlərində Abdullah ibn Məsudun belə dediyi rəvayət olunur: "Bir dəfə biz Peyğəmbərlə ﷺ birlikdə bir qübbədə idik. O dedi: "Cənnət əhlinin dörddə biri olmanıza razısınızmı?" Biz: "Bəli"– deyə cavab verdik. Sonra o dedi: "Cənnət əhlinin üçdə biri olmanıza razı olarsınızmı?" Biz: "Bəli"– deyə cavab verdik. O yenə dedi: "Cənnət əhlinin yarısı olmanıza razı olarsınızmı?" Biz yenə: "Bəli"– deyə cavab verdik. O dedi: "Muhəmmədin canı Əlində olan Allaha and olsun ki, mən sizin Cənnət əhlinin yarısını təşkil edəcəyinizə ümid edirəm. Belə ki, Cənnətə yalnız müsəlman olanlar daxil olacaqlar. Sizinlə şirk əhlinin misalı qara öküzün tükləri arasındakı bir ağ tük kimi və ya ağ öküzün tükləri arasındakı qara tük kimidir."[1]

5. Peyğəmbərimiz ﷺ Qiyamət günü Adəm övladının ən hörmətlisi olacaqdır. Əbu Hureyra رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mən Qiyamət günü Adəm övladlarının ən hörmətlisi, qəbri hamınınkından qabaq açılan, ən birinci şəfaət diləyən və şəfaətçilik edənəm."[2]

6. Peyğəmbərimiz ﷺ əzəmətli şəfaət sahibi olacaqdır. Bu o vaxt baş verəcək ki, insanlar peyğəmbərlərə bir-bir müraciət edəcək və onlardan şəfaət diləyəcəklər. Onların hamısı isə bundan boyun qaçıracaqdır. Tərifəlayiq məqam da məhz budur. Uca Allah buyurur: **"Ola bilsin ki, *buna görə* Rəbbin səni tərifəlayiq bir məqama yüksəltsin."** (əl-İsra, 79). Bir çox səhabə və tabiinlər, o cümlədən Huzeyfə, Salman, Ənəs, Əbu Hureyra, İbn Məsud, Cabir ibn Abdullah, İbn Abbas, Mücahid, Qətadə və başqaları buradakı tərifəlayiq məqamın şəfaət olduğunu bildirmişlər. Qatədə demişdir: "Elm əhli tərifəlayiq məqamın onun şəfaətçi olması qənaətində olmuşlar. Sünnədə Peyğəmbərin ﷺ şəfaətçi olması barədə bir çox dəlillər vardır. Onlardan biri də şəfaətçilik barədə rəvayət olunmuş uzun hədisidir. Buxari və

[1] "Səhih əl-Buxari", 6528; "Səhih Muslim", 221.

[2] "Səhih Muslim", 2278.

Muslimin "Səhih" əsərlərində Əbu Hureyradan ﷺ rəvayət olunan həmin hədisdə Peyğəmbər ﷺ Adəmin, sonra Nuhun, sonra İbrahimin, sonra Musanın, sonra da İsanın şəfaətdən üzrxahlıq edəcəklərini və: "mən buna layiq deyiləm"– deyəcəklərini bildirmiş və demişdir: "Sonra onlar mənim yanıma gələcəklər, mən Rəbbimdən izn istəyəcəyəm və mənə izn veriləcəkdir. Mən Rəbbimi gördükdə Ona səcdə edəcəyəm, O da məni bir müddət beləcə tərk etdikdən sonra buyuracaq: "Ey Muhəmməd! Başını qaldır, danış, sənə qulaq asılacaq, istə, sənə istədiyin veriləcək, havadarlıq et, havadarlığın qəbul olunacaq. Sonra Allah mənə indi bilmədiyim həmd-sənaları təlqin edəcək və mən o həmd-sənalarla Ona təriflər deyəcəyəm və bundan sonra şəfaətçilik edəcəyəm... "[1]

7. Peyğəmbərimiz ﷺ həmd bayrağını daşıyacaq. Bu, həqiqi bayraqdır ki, Qiyamət günü onu ancaq Peyğəmbərimiz ﷺ daşıyacaqdır, insanlar da onun arxasınca gedəcək və o bayrağın altında olacaqlar. Allah bu xüsusiyyəti ona yalnız ona görə nəsib etmişdir ki, o, Allahı heç kimin tərif etmədiyi şəkildə həmd-səna ilə tərif etmişdir. Bunu bəzi elm əhli də bildirmişdir. Sünnədə də bu əzəmətli xüsusiyyətə dair dəlillər vardır. Əbu Səid əl-Xudri ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Qiyamət günü mən Adəm övladlarının seyyidi olacağam və əlimdə həmd bayrağı olacaqdır, lakin mən bununla lovğalıq etmirəm. Həmin gün Adəmdən bəri bütün peyğəmbərlər mənim bayrağımın altında duracaqlar və Qiyamət günü yer ən birinci mənim üçün yarılacaqdır. Lakin mən bununla lovğalıq etmirəm."[2]

8. Peyğəmbər ﷺ Cənnətdə uca bir dərəcə olan və yalnız bir nəfərə verilən vəsilənin sahibidir. Qeyd edək ki, vəsilə Cənnətin ən uca yeridir. Abdullah ibn Amr ibn Asdan Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Müəzzinin azan verdiyini eşitdiyiniz zaman siz də onun dediklərini təkrar edin. Sonra mənə salavat oxuyun. Hər kim mənə bir salavat oxuyarsa, Allah ona bunun sayəsində onunu yetirər.

---

[1] "Səhih əl-Buxari", 3340; "Səhih Muslim", 193.

[2] "Sunən ət-Tirmizi", 3615; "Musnəd Əhməd", 3/2. ət-Tirmizi bu hədisə yaxşı və səhih demişdir.

Sonra Allahdan mənim üçün vasitəçilik haqqı diləyin. Çünki, vasitəçilik Cənnətdə Allahın qullarından yalnız birinə məxsus olan bir məqamdır. Ümid edirəm ki, o qul mənəm. Hər kim mənim üçün *Allahdan* vasitəçilik haqqı diləyərsə, şəfaətimə nail olar."[1]

Peyğəmbər ﷺ bu kimi bir çox xüsusiyyətlərə və üstünlüklərə malikdir ki, bu da, onun həm bu dünyada, həm də axirətdə Rəbbi yanında uca məqamda və yüksək dərəcədə olduğunu göstərir.

**İkinci. Peyğəmbərin ﷺ ümməti üzərindəki hüquqları.**

Peyğəmbərin ﷺ öz ümməti üzərində bir çox hüquqları vardır ki, bunlardan bəzilərini artıq əvvəldə xatırlatmışıq. İndi isə həmin hüquqlardan yalnız Peyğəmbərin ﷺ özünə aid olanları nəzərinizə çatdıraq:

1. Onun peyğəmbərliyinə qətiyyətlə iman gətirmək və onun şəriətinin bütün digər şəriətləri nəsx etməsinə etiqad etmək. Bunun üçün də onun dediklərini təsdiq etmək, onun qadağan etdiyi şeylərdən uzaqlaşmaq və Allaha yalnız Onun buyurduğu şəkildə ibadət etmək lazımdır. Quran və Sünnədə bunu təsdiqləyən bir çox dəlillər vardır. Uca Allah buyurur: **"Elə isə Allaha, Onun Elçisinə və nazil etdiyimiz Nura** (Qurana) **iman gətirin!"** (ət-Təğabun, 8). Həmçinin buyurur: **"Elə isə Allaha və Onun Elçisinə – yazıb-oxumaq bilməyən, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman gətirin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz."** (əl-Əraf, 158). O, həmçinin buyurur: **"Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin."** (əl-Həşr, 7). İbn Ömər Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "İnsanlar Allahdan başqa *ibadətə haqqı olan* məbudun olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirməyincə, namaz qılıb zəkat verməyincə *onlarla* vuruşmaq mənə əmr edildi. Əgər *aşkarda* bunu yerinə yetirsələr, – İslam haqqı (cinayətə görə veriləcək cəza) istisna olmaqla, – canlarını və mallarını məndən qorumuş olarlar. Onların (gizli əməllərinin) haqq-hesabı isə Allaha aiddir."[2]

---

[1] "Səhih Muslim", 384.

[2] "Səhih əl-Buxari", 25; "Səhih Muslim", 22.

2. Peyğəmbərin ﷺ risarəti təbliğ etməsinə, əmanəti ümmətə çatdırmasına, habelə ümmətinə nəsihət etməsinə iman gətirmək lazımdır. Elə bir xeyirli əməl yoxdur ki, o ümmətinə onu göstərmiş olmasın. Həmçinin elə bir zərərli şey yoxdur ki, onu ümmətinə xəbər verib onları ondan çəkindirməsin. Uca Allah buyurur: **"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim."** (əl-Maidə, 3). Əbu Dərdə رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Allaha and olsun ki, sizlərə gecəsi gündüzündən fərqlənməyən ağappaq (aydın) bir yol qoyub gedirəm."[1] Peyğəmbərin ﷺ ümmətinə hər şeyi çatdırmasına çox sayda səhabələr də şahidlik etmişlər. Belə ki, Vida həcci zamanı Peyğəmbər ﷺ xütbə verərkən insanlara vacib buyurulanları və haram olanları xatırladaraq onları Allahın Kitabına tərəf çağırmış, sonrada belə buyurmuşdur: "Sizdən mənim barəmdə soruşacaqlar. Nə cavab verəcəksiniz?" Səhabələr dedilər: "Şahidlik edəcəyik ki, sən həqiqətən, (bu dini) təbliğ etdin, öz missiyanı yerinə yetirdin və (ümmətinə) nəsihət etdin." Onda Peyğəmbər ﷺ şəhadət barmağını göyə qaldırıb insanlara tərəf işarə edərək dedi: "Allahım şahid ol, Allahım şahid ol, Allahım şahid ol!"[2] Əbu Zərr demişdir: "Peyğəmbərimiz Muhəmməd ﷺ bizə hər şey haqqında, hətta göydə qanad çalan quş barəsində belə bir elm qoyub getmişdir."[3] Bu xüsusda sələflərdən bir çox dəlillər vardır.

3. Peyğəmbəri ﷺ (Allahdan başqa) hamıdan, hətta özündən belə çox sevmək. Sözsüz ki, bütün peyğəmbərləri sevmək bizə vacibdir. Lakin Peyğəmbərimiz Muhəmmədi ﷺ xüsusilə sevməliyik. Gərək insanlar Peyğəmbəri ﷺ bütün insanlardan, övladlarından, yaxınlarından, hətta özlərindən belə çox sevsinlər. Uca Allah buyurur: **"De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun**

---

[1] "Sunən İbn Macə. Müqəddimə", 5.
[2] "Səhih Muslim", 1218.
[3] "Musnəd Əhməd", 5/153.

**Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmrini verincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz."** (ət-Tövbə, 24).

Uca Allah Özünə olan sevgini Peyğəmbərin ﷺ sevgisi ilə birgə qeyd edərək, malını, yaxınlarını və övladlarını Allah və Onun rəsulundan daha çox sevənləri hədələyərək buyurur: "**Allah Öz əmrini verincəyə qədər gözləyin."** (ət-Tövbə, 24). Buxari və Muslimin "Səhih" əsərlərində Ənəsdən رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Sizdən biriniz məni valideynindən, övladından və bütün insanlardan çox istəməyincə, iman gətirmiş olmaz."[1] Ömərdən رضي الله عنه rəvayət olunur ki, bir dəfə o, Peyğəmbərə ﷺ dedi: "Ya Rəsulullah! Mən səni özümdən savayı hamıdan çox sevirəm." Peyğəmbər ﷺ buyurdu: "Xeyr, canım Əlində olan *Allaha* and olsun ki, sən məni özündən də çox sevməlisən." Ömər dedi: "Vallahi ki, indi mən səni hamıdan, hətta özümdən də çox sevirəm." Peyğəmbər ﷺ buyurdu: "Bax indi (sən vacib buyurulanı yerinə yetirdin), ey Ömər!"[2]

4. Peyğəmbərə ﷺ ehtiram göstərmək və hörmətlə yanaşmaq. Bu da Allahın Öz Kitabında vacib buyurduğu, hər bir müsəlmanın üzərinə düşən Peyğəmbərin ﷺ haqlarındandır. Uca Allah buyurur: **"*Biz belə etdik* ki, siz Allaha və Onun Elçisinə iman gətirəsiniz, ona kömək edəsiniz, onun hörmətini saxlayasınız."** (əl-Fəth, 9). Həmçinin buyurur: **"Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun ardınca gedənlər isə nicat tapanlardır."** (əl-Əraf, 157). İbn Abbas demişdir: "Dəstəkləyən, yəni ehtiram göstərən və kömək edən." Qətadə demişdir: "Dəstəkləyən, yəni yardım edən, ehtiram göstərən. Uca Allah onun rəhbər kimi qəbul olunmasını buyurmuşdur. Uca Allah buyurur: **"Ey iman gətirənlər! *Heç bir şeydə* Allahı və Onun Elçisini qabaqlamayın."** (əl-Hucurat, 1). Həmçinin buyurur: **"Peyğəmbəri, öz aranızda bir-birinizi çağırdığınız kimi çağırmayın."** (ən-Nur, 63). Mücahid demişdir: "Allah bu ayədə müsəlmanlara Peyğəmbəri ﷺ mülayim və müti şəkildə:

---

[1] "Səhih əl-Buxari", 15; "Səhih Muslim", 44.

[2] "Səhih əl-Buxari", 6632.

"Ey Allahın rəsulu"– deyə çağırmağı buyurur və onlara qaşqabaqlı olduqları halda onu: "Ey Muhəmməd!"– deyə çağırmamağı əmr edir." Səhabələr Peyğəmbərə ﷺ ehtiram göstərməkdə insanlara nümunə olmuşlar. Usamə ibn Şərik demişdir: "Mən Peyğəmbərin ﷺ yanına gəldikdə səhabələr onun ətrafında sanki başlarının üstündə quş oturmuş kimi əyləşmişdilər." Peyğəmbərin ﷺ sağlığında ikən ona ehtiram göstərildiyi kimi ölümündən sonra da ehtiram göstərilməlidir. Qazi İyad demişdir: "Bil ki, Peyğəmbərə ﷺ sağlığında ikən ehtiram göstərildiyi kimi, ölümündən sonra da ehtiram göstərilməlidir. Peyğəmbərə ﷺ, onun adı çəkildikdə, onun hədislərini və Sünnədə varid olanları yada saldıqda, onun adı və həyat tərzi barədə eşitdikdə ehtiram göstərilməlidir. Habelə onun ailəsinə və onların nəslinə, əhli-beytinə və səhabələrinə də ehtiram göstərilməlidir."

5. Allahın buyurduğu kimi Peyğəmbərə ﷺ salavat və salam oxumaq, üstəlik bunu tez-tez təkrarlamaq gərəkdir. Uca Allah buyurur: "**Həqiqətən də, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona xeyir-dua verib onu kamil ədəb-ərkanla salamlayın.**" (əl-Əhzab, 56). Əl-Mübərrid demişdir: "Əslində salavat diləmək rəhmət diləmək anlamındadır. Allahın salavatı rəhmət, mələklərin salavatı isə Allahdan onun üçün rəhmət diləmək mənasındadır." Abdullah ibn Amr ibn As Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Hər kim mənə bir salavat oxuyarsa, Allah ona bunun sayəsində onunu yetirər."[1] Əli ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Paxıl o kimsədir ki, yanında mənim adım çəkildikdə mənə salavat gətirmir."[2] Bütün peyğəmbərlərə salavat demək lazım olduğu halda, öncə qeyd etdiyimiz kimi, Peyğəmbərimizə ﷺ salavat demək xüsusi olaraq vacib hesab olunur və bu, qeyd etdiyimiz hüquqlardan biridir. Alimlər Peyğəmbərə ﷺ salavat deməyi vacib hesab etmiş, hətta bəziləri bu barədə alimlərin yekdil rəydə olduğunu bildirmişlər. Qazi İyad demişdir: "Bil ki, Peyğəmbərə ﷺ sa-

---

[1] "Səhih Muslim", 384.

[2] "Sunən ət-Tirmizi", 3546; "Musnəd Əhməd", 1/201. ət-Tirmizi bu hədisə yaxşı və səhih demişdir.

lavat demək vacibdir və bunun üçün xüsusi bir vaxtın təyin edilməsinə də gərək yoxdur, çünki Uca Allah bunu bizə belə əmr etmişdir. İmamlar və alimlər də yekdilliklə bunu vacib saymışlar."

6. Peyğəmbərin ﷺ şanlı fəzilətləri, dəyərli xüsusiyyətləri və yüksək dərəcələri barədə varid olan bütün mötəbər rəvayətləri təsdiq etmək gərəkdir. Bu haqda artıq bu fəsilin əvvəlində danışmışdıq. Hər bir müsəlman bunu təsdiqləməli, Peyğəmbəri ﷺ tərif etməli və bunları insanlar arasında yaymalıdır. Həmçinin bunları azyaşlı uşaqlara öyrədərək onu sevdirməli, şənini uca tutmalı və Rəbbi yanında hansı məqama sahib olduğunu uşaqların qəlbinə salmalıdır.

7. Peyğəmbərə ﷺ olan münasibətdə ifrata varmamaq və bundan uzaq olmaq, çünki bu münasibət həqiqi mənada ona əziyyət verir. Uca Allah Öz peyğəmbərinə ﷺ ümmətinə belə müraciət etməyi buyurur: **"De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və yerinə yetirdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!"** (əl-Kəhf, 110). O, həmçinin buyurur: **"De: "Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm. Mən yalnız mənə vəhy olunana tabe oluram."** (əl-Ənam, 50).

Bu minvalla Rəbbimiz Peyğəmbərin ﷺ Allah tərəfindən göndərildiyini, Rəbb və ya mələk olmadığını, sadəcə Allahın buyruqlarını yerinə yetirdiyini bildirir. Həmçinin Rəsulullah ﷺ ümmətinə ona olan münasibətdə ifrata varmağı, onu tərif lədikdə həddi aşmağı qadağan etmişdir. Buxarinin "Səhih" əsərində Ömər ibn Xəttabdan رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyi rəvayət edilir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Xristianlar Məryəm oğlunu şişirtdikləri kimi, siz də məni şişirtməyin! Mən sadəcə Allahın quluyam. Elə isə (mənə): "Allahın qulu və rəsulu!"- deyin."[1] Burada şişirtmək dedikdə həddən artıq tərif olunmaq nəzərdə tutulur. Bunu İbn Əsir belə izah etmişdir. İbn Abbas رضي الله عنهما rəvayət etmişdir ki, bir dəfə bir nəfər Pey-

---

[1] "Səhih əl-Buxari", 3445; "Musnəd Əhməd", 1/23.

ğəmbərin ﷺ yanına gəlib onunla söhbət edərkən dedi: "Allah və sən istədin." Peyğəmbər ﷺ bunu eşitdikdə ona dedi: "Məni Allaha tay tutursan?! Xeyr, yalnız Allah istədi (de)!"[1] Beləliklə də, Peyğəmbər ﷺ onu şişirtməyi, habelə Rəbbinin onu layiq bildiyi məqamdan üstün tutmağı qadağan etmişdir. Bu dəlil Peyğəmbərə ﷺ münasibətdə olan hər növ ifrata aiddir, çünki Peyğəmbərə ﷺ münasibətdə ifrata varmaq hər bir halda haram sayılır.

Peyğəmbər ﷺ xüsusunda ifrata varmanın biri də ona dua etməkdir ki, bu da şirk sayılır. Məsələn bəziləri deyirlər: "Ya Rəsulullah, mənə filan, filan işdə kömək ol!" Bu müraciət duadır, dua isə ibadətdir və onu Allahdan qeyrisinə yönəltmək qadağandır. Həddi aşmanın başqa növləri də Peyğəmbərə ﷺ qurban kəsmək, ona nəzir demək, qəbrini təvaf etmək, namaz qıldıqda və ibadət etdikdə onun qəbrinə tərəf üz tutmaqdır ki, bütün bunlar ibadət növləri olduğundan (bunları Allahdan qeyrisinə yönəltmək) haram hesab olunur. Uca Allah buyurur: **"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm."** (əl-Ənam, 162-163).

8. Peyğəmbərin ﷺ hüquqlarından biri də onun səhabələrini, əhli beytini, zövcələrini sevmək və onları dost tutmaqdır. (Müsəlman) onların haqqını tapdalamamalı, onları söyməməli və onlara tənə vurmamalıdır. Uca Allah bu ümmətə səhabələri dost tutmağı, onlar üçün bağışlanma diləməyi və qəlblərində onlara qarşı kin-küdurətə yer verməməyi diləməyi əmr etmişdir. Uca Allah mühacir və ənsarları qeyd etdikdən sonra buyurur: **"*Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"** (əl-Həşr, 10). Peyğəmbərin ﷺ qohumları və əhli-beyti barədə Rəbbimiz buyurur: **"De: "Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm."** (əş-Şura, 10). Ayənin

[1] "Musnəd Əhməd", 1/214; "Sunən İbn Macə", 2117.

təfsirində deyilir: "Sənə tabe olan möminlərə de ki, mən sizlərə çatdırdığım hidayətin müqabilində qohumluq sevgisindən savayı bir şey istəmirəm." Muslim "Səhih" əsərində Zeyd ibn Ərqamdan rəvayət etmişdir ki, bir dəfə Rəsulullah ﷺ insanlara nəsihət edib demişdir: "Sonrasına gəlincə, ey insanlar, (bilin ki,) mən də bir insanam, tezliklə Allahın elçisi gələcək və mən onun çağırışını qəbul edəcəyəm. Mən sizə iki dəyərli şey qoyub gedirəm, onlardan birincisi içərisində hidayət və nur olan Kitabdır. Allahın Kitabını tutub ondan möhkəm yapışın." Peyğəmbər ﷺ insanları Allahın Kitabına sarılmağa çağırdıdan sonra dedi: "Və əhli-beytim! Odur ki, Allah xatirinə əhli-beytimlə (gözəl) rəftar edin! Allah xatirinə əhli-beytimlə (gözəl) rəftar edin! Allah xatirinə əhli-beytimlə (gözəl) rəftar edin!"[1] Beləcə Peyğəmbər ﷺ əhli-beytə qayğı göstərməyi, onlara ehtiram göstərməyi və onların haqlarını ödəməyi tövsiyə etmişdir. Çünki onlar Peyğəmbərin ﷺ yaxınları, habelə şərəfli və hörmətli insanlar hesab olunurlar. Peyğəmbər ﷺ həmçinin səhabələrinə də ehtiram göstərilməsini əmr etmiş, onları söyməyi və onlara tənə vurmağı qadağan etmişdir. Əbu Səid əl-Xudri رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mənim səhabələrimi söyməyin! Əgər sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə, onlardan birinin verdiyi bir ovuc sədəqəyə, hətta yarısına belə çata bilməz." Hədisi Buxari və Muslim rəvayət etmişlər.[2] Əhli-Sünnənin yekdilliklə qəbul etdiyi əsaslarından biri Peyğəmbərin ﷺ səhabələrinə, əhli-beytinə və zövcələrinə ehtiram göstərməkdir. Əhli-Sünnə alimləri onlara tənə vuranı azğınlıq əlaməti hesab etmişlər. Əbu Zura demişdir: "Kiminsə səhabələrdən birini söydüyünü görsən, bil ki, o zındıqdır." İmam Əhməd demişdir: "Əgər bir kimsənin səhabələrdən biri haqda pis fikir söylədiyini görsən, onu müsəlman olmamaqda ittiham et."

Bu yığcam və müxtəsər şəkildə sadaladıqlarımız, Peyğəmbərin ﷺ ümməti üzərində olan bəzi hüquqlarıdır. Uca Allah bizi və qardaşlarımızı bunlara riayət etməyə müvəffəq eləsin!

---

1 "Səhih Muslim", 2408.

2 "Səhih əl-Buxari", 3673; "Səhih Muslim", 2541.

**Üçüncü. Peyğəmbəri ﷺ yuxuda görməyin həqiqət olmasının bəyanı**.

Sünnədə göstərilir ki, insan yuxuda Peyğəmbəri ﷺ görə bilər və onu yuxuda görən həqiqətdə görmüş olur.

Əbu Hureyra ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Məni yuxuda görən həqiqətdə də görmüş olur. Çünki şeytan mənim qiyafəmə girə bilməz." Hədisi Muslim rəvayət etmişdir.[1] Başqa bir rəvayətdə isə Buxari və Muslim Əbu Hureyradan Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Məni yuxuda görən, oyaq olarkən də görəcək. Şeytana gəlincə isə o mənim qiyafəmə girə bilmir."[2] Buxari, İbn Sirinin belə dediyini rəvayət etmişdir: "Əgər onu öz surətində görmüş olarsa,.." Cabir ibn Abdullah ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Məni yuxuda görən həqiqətdə görmüş olur. Belə ki, şeytanın mənə oxşaya bilməz." Hədisi Muslim rəvayət etmişdir.[3]

Peyğəmbəri ﷺ yuxuda görməyin mümkünlüyü barədə bir çox səhih hədislər varid olmuşdur. Onu yuxuda görən həqiqətən onu görmüş sayılır və şeytan Allah rəsulunun ﷺ qiyafəsinə girə bilmir. Onu da xüsusi olaraq qeyd edək ki, Peyğəmbəri ﷺ onun Sünnədə vəsf olunmuş həqiqi surətində görmək mümkündür. Əks təqdirdə isə bu, onu görmək hesab olunmur. Buxarinin "Səhih" əsərində İbn Sirindən nəql olunduğu kimi, "Peyğəmbəri ﷺ həqiqi qiyafəsində görmüş olarsa..." Buna görə də Buxari hədisi qeyd etdikdən sonra buna şərh olaraq İbn Sirinin sözünü də qeyd etmişdir. Daha bir hədisi buna dəlil göstərmək olar, Hakimin, Asim ibn Kuleybdən rəvayət etdiyi hədisdə deyilir: "Atam mənə belə rəvayət etmişdir: "Mən İbn Abbasa Peyğəmbəri ﷺ yuxuda gördüyümü xəbər verdim. O mənə: "Peyğəmbəri ﷺ mənə vəsf et"– dedi. Dedim: "O, Əlinin oğlu Həsənə bənzəyirdi." İbn Abbas ﵁

[1] "Səhih Muslim", 2266.

[2] "Səhih əl-Buxari", 6993; "Səhih Muslim", 2266.

[3] "Səhih Muslim", 2268.

dedi: "Doğrudur, ona bənzəyirdi." İbn Həcər demişdir: "Bu, hədisin isnadı yaxşıdır."

Əyyub demişdir: "Kimsə Muhəmməd ibn Sirinə Peyğəmbəri ﷺ yuxuda gördüyünü xəbər versəydi, İbn Sirin həmin adama: "Gördüyün adamı mənə vəsf et." deyərdi. Və əgər adam Peyğəmbərə ﷺ xas olmayan bir xüsusiyyəti qeyd edərdisə, ona belə deyərdi: "Sən onu görməmisən." Bu rəvayəti İbn Həcər "Fəthul-Bari" əsərində nəql etmiş və isnadının səhih olduğunu bildirmişdir.

Peyğəmbərin ﷺ: "Məni yuxuda görən kəs oyaq halda da görəcəkdir" sözünə gəlincə, alimlər bu məsələyə dair müxtəlif rəylər söyləmişlər. Bu rəylərin ən məşhuru üçdür:

***Birinci:*** Burada oxşatma və bənzətmə nəzərdə tutulur. Muslimin, Əbu Hureyradan rəvayət etdiyi hədis buna dəlildir: "Məni yuxuda görmüş kimsə, məni ayıq ikən görmüş kimidir."

***İkinci:*** Bu, Peyğəmbərin ﷺ zamanında yaşayanlara, onu görməzdən öncə iman gətirənlərə aiddir.

***Üçüncü:*** Bu, Qiyamət günü olacaqdır. Yəni Peyğəmbəri ﷺ yuxuda görənlərin durumu onu görməyənlərdən fərqli olacaqdır. Daha doğrusunu isə Allah bilir.

## *VII mövzu.*
## *Peyğəmbərliyin xətm edilməsi və özündən sonra peyğəmbər gəlməyəcəyinin bəyan edilməsi.*

Bu məsələ barədə əvvəldə – Peyğəmbərin ﷺ xüsusiyyətlərindən danışarkən kifayət qədər dəlilləri zikr etmişdik. Bildirmişdik ki, Muhəmməd ﷺ peyğəmbərlərin sonuncusudur. Bu fəsildə peyğəmbərliyin xətm edilməsi məsələsinə başqa yöndən yaxınlaşacaq, bu əqidənin müsəlmanların dininə nə cür təsir etdiyini və bunun onlara nə qədər faydalı olduğunu açıqlayacağıq. Bu faydalardan bəziləri aşağıdakılardır:

1. Müsəlmanlar öz şəriətlərinin və dinlərinin kamil olduğuna əmin olur və bu əqidə onların həyatında dərin iz buraxır. Uca Allah İslam ümmətinə bu lütfü xatırladaraq buyurur: **"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim."** (əl-Maidə, 3).

Bu ayə Peyğəmbərə ﷺ vəfatından bir neçə ay qabaq, Vida həccində nazil olmuş və beləliklə də bu din tamamlanmışdır. Elə buna görə də yəhudilər müsəlmanlara qibtə edirdilər. Buxari və Muslimin rəvayət etdiyi hədisdə deyilir ki, bir yəhudi Ömərin رضي الله عنه yanına gəlib deyir: "Sizin Kitabınızda oxuduğunuz elə bir ayə vardır ki, əgər o, biz yəhudilərə nazil olsaydı, həmin günü bayram elan edərdik." Ömər: "Bu hansı ayədir elə?"– deyə soruşdu. *Yəhudi*: **"Bu gün dininizi sizin üçün kamil etdim..."**[1] ayəsidir dedi..."

Başqa bir hədisdə Peyğəmbər ﷺ əvvəlki şəriətləri bircə kərpici çatmayan tikilmiş qəsrə bənzədir və özünün gəlişi ilə həmin binanın tamamlandığını bildirir. Bununla o demək istəmişdir ki, həmin binaya tamamlandıqdan sonra bir şey artırmaq mümkün olmadığı kimi, bu dinə də nə isə əlavə etmək qeyri-mümkündür. Bu hədisi Peyğəmbərin ﷺ xüsusiyyətlərinə dair fəsildə qeyd etmişdik.[2]

---

[1] "əl-Maidə" surəsi, 3.
[2] Bax: səh, 150.

2. Ümmətimiz əmindir ki, Bu din və Muhəmmədin ﷺ şəriəti başqa bir peyğəmbərin göndərilməsi ilə nəsx edilə bilməz. Muhəmmədin ﷺ peyğəmbərlərin sonuncusu olması o deməkdir ki, onun peyğəmbərliyindən və şəriətindən sonra nə bir peyğəmbər, nə də bir şəriət gələ bilər. Qaldı ki İsanın ﵇ (Qiyamətə yaxın) peyğəmbər olaraq nazil olmasına, bu, peyğəmbərimizin sonuncu peyğəmbər olması ilə ziddiyyət təşkil etmir. Çünki İsa peyğəmbər ﵇ nazil olduğu zaman Peyğəmbərimizin ﷺ şəriətinə tabe olacaq və onunla hökm verəcəkdir. Özünün keçmiş şəriəti nəsx olunduğuna görə, həmin vaxt o, istər dinin əsasları, istərsə ikinci dərəcəli məsələlər olsun, bu xüsusda yalnız İslam şəriətinə tabe olacaqdır.

3. Heç bir tərəddüdsüz və araşdırmadan peyğəmbərlik iddiasında olan hər kəsin iddiası rədd olunmalıdır. Bu isə – yəni Peyğəmbərimizin ﷺ sonuncu peyğəmbər olması imanın əsas faydalarından biridir. Belə ki, bununla müsəlmanlar bütün yalançı peyğəmbərləri ifşa etmiş olur. Peyğəmbər ﷺ də buna xüsusi olaraq diqqət çəkər, özündən sonra peyğəmbərlik iddiasında olan otuz nəfərin peyda olacağını bildirərdi. Sonra da özünün sonuncu peyğəmbər olduğunu, yalançılara isə tabe olmaqdan və onlara inanmaqdan həzər etməyin gərəkliyini bəyan edərdi. Sövbanın ﵁ fitnələr barədə rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: “Ümmətim arasında peyğəmbərlik iddiasında olan otuz nəfər yalançı olacaqdır. (Biləsiniz,) peyğəmbərlərin sonuncusu mənəm və məndən sonra peyğəmbər olmayacaqdır.”[1]

4. Bu ümmətdən olan əmirlərin və alimlərin fəziləti bəlli olur. Belə ki, onlar həm dini, həm də dünyəvi işləri idarə edə bilərlər. İsrail oğullarında isə onları yalnız peyğəmbərlər idarə edə bilərdilər. Əbu Hureyra ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “İsrail oğullarını peyğəmbərlər idarə edirdilər və hər dəfə bir peyğəmbər dünyasını dəyişdikdə, digəri ilə əvəz olunurdu. Məndən sonra isə peyğəmbər olmayacaq, çoxlu xəlifələr olacaqdır.” *Səhabələr* dedilər: “Bizə nə əmr edirsən, (ya Rəsulullah)?” Dedi: “Aralarından birinci seçilmiş olana beyət edərək onların haqlarını ödəyin. Uca Allah onları

[1] "Sunən ət-Tirmizi", 2219. ət-Tirmizi bu hədisə yaxşı və səhih demişdir.

rəiyyətləri barədə sorğu-sual edəcəkdir."[1] Bu ümmətin xəlifələri siyasət yürütmək və insanları idarə etmək baxımından İsrail oğullarının peyğəmbərləri kimidirlər. Başqa bir hədisdə Əbu Hureyra ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Uca Allah hər yüz ilin əvvəlində bu ümmətə Öz dinini dirçəldəcək şəxslər göndərər."[2] Ümmətimizin bu günkü durumu da buna açıq-aydın sübutdur. Dinimiz indi də insanlar arasında əmirlər, rəhbərlər və alimlərin şəriətə uyğun yürütdüyü rəylər sayəsində qorunmaqdadır. Uca Allah əsrlər boyu hər yüz ilin əvvəlində dinini təzələyən, Allahın Kitabını təhriflərdən, cahillərin açıqlamalarından qoruyan insanlar göndərmişdir. Məhz onların sayəsində Allahın dini Peyğəmbər ﷺ göndərildiyi vaxtdan uzun bir müddət ötüb keçməsinə baxmayaraq indiyədək olduğu kimi qalmaqdadır. Bu da Uca Allahın ümumən ümmətimizə verdiyi bir lütfü, xüsusi olaraq isə bu məqama layiq olanların şərəfidir.

Hər bir halda Peyğəmbərimizin ﷺ sonuncu olması əqidəsi və onun bu dində dərin iz buraxması bu ümmətin xüsusiyyətlərindəndir ki, bunun da imanın artmasında, yəqinliyin formalaşmasında və insanların Allahın əmri gələnədək bu yolda sabitqədəm olmasında əvəzolunmaz rolu vardır.

---

[1] "Səhih əl-Buxari", 3455; "Səhih Muslim", 1842.

[2] "Sunən Əbu Davud", 4291; "Mustədrək əl-Hakim", 4/522.

## *VIII mövzu. Peyğəmbərin ﷺ gecə səfəri, onun gerçəkliyi və dəlilləri.*

**İsra sözünün lüğəvi və istilahi mənası.**

Lüğəvi mənada "İsra" ərəbcə "sura" sözündən əmələ gəlmiş, gecə vaxtı, çox hissəsini və ya hamısını səyahət etmək deməkdir. Buna Həssanın şeirini misal çəkmək olar. O demişdir: "Səni gecə ikən apardılar, lakin sən özün səyahət etmədin."

İstilahi mənada "isra" deyildikdə isə Rəsulullahın ﷺ bir gecədə Məkkədəki Məscidul-Həramdan Yerusəlimdəki Beytul-Məqdisə gedib həmin gecə də geri qayıtması nəzərdə tutulur.

**İsranın gerçəkliyi və dəlilləri.**

İsra Uca Allahın hicrətdən öncə Peyğəmbəri ﷺ bir gecədə Məscidul-Həramdan Məscidul-Əqsaya Buraq adlı miniklə, Cəbrailin عليه السلام müşayiəti ilə aparması sayəsində ona verdiyi böyük bir möcüzədir. Peyğəmbər ﷺ Beytul-Məqdisə çatdıqda Burağın ipini məscidin qapısının tutqacına bağlamış, sonra da məscidə daxil olub orada peyğəmbərlərə namaz qıldırmışdır. Sonra Cəbrail عليه السلام, birinin içərisində şərab, digərində isə süd olan iki qab gətirmiş, o da südü seçmişdir. Onda Cəbrail عليه السلام ona demişdir: "Fitrətə müvafiq seçim etdin."

İsraya dair Quran və Sünnədə bir çox dəlillər vardır.

Uca Allah buyurur: **"Dəlillərimizdən bəzisini *Peyğəmbərə* göstərmək üçün Öz qulunu gecə vaxtı Məscidulharamdan ətrafına xeyir-bərəkət verdiyimiz Məsciduləqsaya aparan *Allah* pak və müqəddəsdir. Həqiqətən, O, Eşidəndir, Görəndir."** (əl-İsra, 1).

Muslimin "Səhih" əsərində Ənəs ibn Malik, Sabit əl-Bunanidən Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mənim yanıma Buraq – uzunqulaqdan böyük, qatırdan alçaq olan uzun, ağ rəngli bir heyvan gətirdilər. O, addımını gördüyü son nöqtəyə qoyurdu. Mən

ona minib Beytul-Məqdisə gəldim və onun ipini peyğəmbərlərin öz miniklərinin iplərini bağladıqları həlqəyə bağladım. Sonra məscidə daxil olub orada iki rükət namaz qıldım. Sonra da çölə çıxdım və Cəbrail ﷺ mənə birində şərab, digərində isə süd olan iki qab gətirdi. Mən südü seçdim. Cəbrail ﷺ də mənə: "Sən fitrətə müvafiq seçim etdin"– dedi."[1] Sonra Peyğəmbər ﷺ hədisin qalanını danışıb Meraca qalxdığını bildirdi. Peyğəmbərin ﷺ gecə səfəri barədə bir neçə hədis varid olmuşdur. Buxari və Muslimin "Səhih" əsərlərində, habelə "Sunən" əsərlərində və digər əsərlərdə nəql edilmişdir ki, otuza yaxın səhabə Peyğəmbərdən ﷺ bü mövzuda hədis rəvayət etmişdir. Həm sələflər, həm də onlardan sonrakılar yekdilliklə gecə səfərinin həqiqət olduğunu bildirmişlər. Qazi İyad "əş-Şifa" əsərində, Səffərayəni isə "Ləvamiul-Ənvar" əsərində bu barədə alimlərim yekdil fikirdə olduğunu bildirmişlər. Səhih dəlillərə əsasən, habelə səhabələrin, Sünnə alimlərinin və elm əhlinin yekdil rəyinə görə Peyğəmbərin ﷺ gecə səfərinin həm bədəni, həm də ruhu ilə olduğunu, yuxuda yox, oyaq ikən baş verdiyini bildirmişlər.

İbn Əbul-İzz əl-Hənəfi demişdir: "İsra hədisindən aydın olur ki, Peyğəmbər ﷺ oyaq ikən cismi ilə Məscidul-Həramdan Məscidul-Əqsaya getmişdir." Qazi İyad da bunun səhabələrdən və onlardan sonra gələnlərin əksəriyyətindən nəql olunduğunu bildirərək belə demişdir: "Əksər müsəlmanların rəyinə görə İsra, cisimlə və oyaq ikən olmuşdur." Bu həqiqətən belə olmuşdur. Bu fikri İbn Abbas, Cabir, Ənəs, Huzeyfə, Ömər, Əbu Hureyra, Malik ibn Səsəa, Əbu Həbbə əl-Bədri, İbn Məsud, Dəhhak, Səid ibn Cubeyr, Qətadə, İbn Museyyib, İbn Şihab, İbn Zeyd, Həsən, İbrahim, Məsruq, Mücahid, İkrimə, İbn Cureyc, Aişə, Təbəri, İbn Hənbəl, habelə bir çox müsəlmanlar, əksər təfsir və fiqh alimləri də dəstəkləmişlər.

Alimlərdən biri İsranın iki dəfə baş verdiyini iddia edənlərə belə cavab vermişdir: "Alimlərin mövqeyi ondan ibarətdir ki, İsra bir dəfə, Məkkədə, Peyğəmbərin ﷺ rəsul göndərilməsindən sonra baş vermişdir. Bunun iki dəfə olmasını iddia edənlərin bu fikri çox əcaib-

---

[1] "Səhih Muslim", 162.

dir. Belə çıxır ki, birinci dəfə ona əlli namaz fərz edilmiş, Musa ilə Rəbbi arasında gedib-gəlməklə Uca Allah bunun sayını on-on azaltmış, nəhayət: "Mən əzəldən yazdığım hökmü vacib buyurdum, *sonra da* qullarımın yükünü yüngülləşdirdim"– deyə ona cəmi beş vaxt namaz qılmağı fərz buyurmuş, daha sonra yenidən əlli namaza qaldırıb, sonra yenidən azaltmışdır?!"

**Merac və onun həqiqət olması**.

İsra və Merac hadisələri hədislərdə və alimlərin dediklərində yanaşı qeyd olunur. Odur ki, bu yerdə onu da qeyd etmək yerinə düşər və faydalı olardı.

"Merac" sözü ərəbcə "uruc" kəlməsindən əmələ gəlmişdir və qalxmaq, ucalmaq mənasını verir. Bu, pilləkən misalında olsa da onun keyfiyyəti bizlərə bəlli deyil. Şəriətdə isə Merac deyildikdə Peyğəmbərin ﷺ Cəbrailin عليه السلام müşayiəti ilə Beytul-Məqdisdən dünya səmasına, daha sonra isə səmanın digər qatlarına qalxaraq yeddinci səmaya qədər qalxması, bu səmalarda peyğəmbərlərlə görüşüb onları salamlaması, sonra da Sidratul-Muntəhaya (son həddəki Sidr ağacının yanına) qalxması, orada Cəbraili عليه السلام xəlq edildiyi surətində görməsi, həmin gecə Allahın onunla danışması və ona beş vaxt namazı fərz buyurması və nəhayət, yerə enməsi nəzərdə tutulur. Səhih budur ki, Merac hadisəsi İsra gecəsi baş vermişdir.

Quran və Sünnədə Meracın baş verməsinə dair bir çox dəlillər vardır. Qurana gəlincə, Meracda baş vermiş bəzi hadisələr orada belə xatırlanır. Uca Allah buyurur: **"İndi siz onunla gördüyü şey barəsində mübahisəmi edirsiniz? Onu bir daha *öz surətində* enərkən gördü – son həddəki Sidr ağacının yanında. Məva bağı da onun yanındadır. O zaman Sidr ağacını bürüyən bürümüşdü. *Peyğəmbərin* gözü yayınmadı və həddi aşmadı. O, öz Rəbbinin ən böyük dəlillərindən *bəzisini* gördü."** (ən-Nəcm, 12-18). Bu ayələrdə Uca Allah Merac zamanı Peyğəmbərin ﷺ gördüyü hadisələri qeyd edir. O, Cəbraili عليه السلام, Sidratul-Muntəhanı bürümüş şəkildə görmüşdü. İbn Abbas və Məsruq demişdir: "Onu qızıl pərvanələr bürümüşdü."

Sünnədə isə Merac barədə bir sıra hədislər müfəssəl şəkildə varid olmuşdur. Bunlardan biri də İsra hadisəsi fəsilində qeyd etdiyimiz Ənəsdən ﷺ rəvayət olunan hədisdir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "Sonra biz səmaya qalxdıq, Cəbrail qapının açılmasını xahiş etdi. (Gözətçilər): "Sən kimsən?"– deyə soruşdular. O: "Cəbrailəm"– dedi. Onlar: "Yanındakı kimdir?"– deyə soruşdular. O: "Muhəmməddir"– dedi. Onlar: "Ona peyğəmbərlik verildimi?"– deyə soruşdular. O: "Bəli, verildi"– dedi. Bundan sonra göy qapısı bizim üçün açıldı. Bu vaxt mən Adəmi gördüm. O məni salamladı və mənə xeyir-dua etdi." Sonra Peyğəmbər ﷺ göyün o biri qatlarına qalxdığını və orada peyğəmbərlərlə görüşdüyünü qeyd etdi. Sonra (hədisinə davam edib) dedi: "Daha sonra biz Sidratul-Muntəhaya qalxdıq. Onun yarpaqları fil qulaqlarına, meyvələri isə saxsı səhənglərə bənzəyirdi. Allah tərəfindən bu ağacı bürüyən bürüdükdə onun görünüşü dəyişdi. Allahın yaratdıqlarından heç kəs onun gözəlliyini vəsf edə bilməz. Sonra Allah mənə bir çox əmrləri vəhy etdi və mənə gün ərzində əlli vaxt namaz qılmağı əmr etdi. Mən Musanın yanına qayıtdıqda o məndən soruşdu: "Rəbbin sənin ümmətinə nəyi fərz buyurdu?" Dedim: "Əlli vaxt namaz qılmağı." Dedi: "Rəbbinin yanına get və ondan bu əmri yüngülləşdirməyini dilə, çünki sənin ümmətin bunu yerinə yetirə bilməyəcək. Mən artıq İsrail oğullarından gördüyümü görmüşəm." Sonra mən Rəbbimin yanına qayıdıb dedim: "Ey Rəbbim, verdiyin əmri ümmətim üçün yüngülləşdir." O da bundan beşini azaltdı. Mən yenə Musanın yanına qayıtdım və ona bunu xəbər verdim. O dedi: "Sənin ümmətin bunu yerinə yetirə bilməyəcək. Rəbbinin yanına qayıt və ondan bu əmri yüngülləşdirməsini dilə." Beləcə, mən Rəbbimlə Musanın arasında gedib-gəlməyə başladım. Axırda Uca Allah belə buyurdu: "Ey Muhəmməd! Bu beş namazın hər biri on namaza bərabərdir və (ümumilikdə) əlli namaz kimidir..." Hədisi Muslim rəvayət etmişdir.[1] Merac barəsində Buxari və Muslimin əsərlərində buna yaxın ləfzlərdə Malik ibn Səsəadan, Əbu Zərdən, İbn Abbasdan və qeyrilərindən rəvayətlər də vardır.

[1] "Səhih Muslim", 162.

**Qeyd.** İsra və Merac hadisələri Uca Allahın Öz Peyğəmbərinə ﷺ bəxş etdiyi iki əvəzolunmaz nemətdir və hər bir müsəlman bu hadisələrin həqiqət olduğuna etiqad etməli və bilməlidir ki, Allah bu iki hadisə sayəsində Peyğəmbərimizi ﷺ digər peyğəmbərlərdən üstün etmişdir. Lakin, bəzi avam müsəlmanların bu hadisələrin baş verdiyi gecəni bayram etmələri və həmin gecədə xüsusi namazlar qılmaları yolverilməzdir. Üstəlik bütün bunlar inkarolunan bidət hesab edilir. Bunu da nə Peyğəmbərimiz ﷺ buyurmuş, nə sələflərdən bir kimsə belə bir şey etmiş, nə də ki elminə etimad olunası bir alim belə bir şeyi tövsiyə etmişdir.

Əhli-Sünnə alimləri bəyan etmişlər ki, Rəcəb ayının iyirmi yeddinci gecəsində qılınan ayrıca namaz və başqa bu kimi xüsusiləşdirilmiş ibadətlər Allahın dininə artırılmış bidətlərdir. İslam alimlərinin yekdil rəyinə görə belə əməllərə yol vermək olmaz və bunu edənlər yalnız cahillər və bidətçilərdir."

Peyğəmbər ﷺ demişdir: "Kim bizim dinimizə ondan olmayan bir şeyi əlavə etsə, bu əlavə rədd edilər."[1] Yəni bu əməl qəbul olunmaz.

---

[1] "Səhih Muslim", 2697.

## *IX mövzu.*
## *Peyğəmbərlərin sağ olub-olmamaları haqqında.*

Bir çox dəlillərdə peyğəmbərlərin vəfat etdikləri öz əksini tapmışdır. Yalnız İsa peyğəmbərdən başqa. O ölməmişdir və Uca Allahın yanına qaldırılmışdır. Bu haqda bir qədər sonra danışacağıq. Peyğəmbərlərin öldüklərinə isə aşağıdakı ayələri dəlil göstərmək olar. Uca Allah buyurur: **“Yoxsa siz Yaquba ölüm gəldikdə *onun* yanında idiniz?”** (əl-Bəqərə, 133). O, həmçinin buyurur: **“Daha öncə Yusuf sizə açıq-aydın dəlillər gətirmişdi. Siz onun gətirdiklərinə şəkk etməkdə davam edirdiniz. Nəhayət, o, vəfat etdikdə dediniz: “Allah ondan sonra elçi göndərməyəcəkdir!” Allah həddi aşan, şübhə edən kimsəni beləcə azğınlığa salar.”** (Ğafir, 34). Süleyman عليه السلام barədə Rəbbimiz buyurur: **“*Süleymanın* ölümünə hökm verdiyimiz zaman onun öldüyünü *cinlərə* ancaq onun əsasını yeyən bir ağac qurdu göstərdi. *Süleyman* yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, alçaldıcı əzaba məruz qalmazdılar.”** (Səba, 14). Peyğəmbərimiz Muhəmmədə ﷺ xitabən isə Uca Allah belə buyurur: “**Sözsüz ki, sən də öləcəksən, onlar da öləcəklər.”** (əz-Zumər, 30). Bəzi təfsirçilər demişlər: Bu ayə həm Peyğəmbərin ﷺ, həm də digər insanların öləcəklərini göstərir və səhabələrə Peyğəmbərin ﷺ öləcəyini xəbər verirdi. Uca Allah hər bir insanın öləcəyini xəbər verərək buyurur: **“Hər bir kəs ölümü dadacaqdır.”** (Ali İmran, 185).

Bu ayələr peyğəmbərlərin adi insanlar kimi öldüklərini sübuta yetirir. Yalnız İsa peyğəmbər müstəsnadır ki, Allah onu Öz dərgahına qaldırmışdır. Uca Allah buyurur: **“O vaxt Allah dedi: “Ey İsa! Mən sənin həyatına son qoyub Özümə tərəf qaldıracağam, səni kafirlərdən təmizləyəcək və sənin ardınca gedənləri Qiyamət gününə qədər kafirlərdən üstün edəcəyəm.”** (Ali İmran, 55).

Bu ayə İsanın ölmədiyini, həm ruhu, həm də cəsədi ilə birlikdə Allah dərgahına qaldırıldığını göstərir. Ayədəki **“həyatına son qoyub”** ifadəsinə gəlincə, bu belə təfsir olunur: “İsanın Allah dərgahına qaldırılması, elə onun həyatına son qoyulması deməkdir. Bu, İbn Cə-

rir Təbərinin rəyidir. Əksər təfsir alimləri isə buradakı vəfat sözünün yuxu mənasını ifadə etdiyini bildirmişlər. Necə ki, Uca Allah buyurur: **"Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır."** (Zumər, 42).

Demək, İsa peyğəmbər ölməyib və hal-hazırda səmalardan birində yaşayır. Uca Allah onun Qiyamət qopmamışdan öncə öləcəyini belə xəbər verir: **"Kitab əhlindən elə kimsə yoxdur ki, *öz ölümündən, yaxud İsanın* ölümündən əvvəl ona iman gətirməsin. Qiyamət günü isə *İsa* onların əleyhinə şahid olacaqdır."** (ən-Nisa, 159).

Burada İsanın Qiyamət qopmazdan öncə öləcəyi nəzərdə tutulur. İsa peyğəmbərin axır zamanda yerə enməsi barədə varid olmuş mötəbər hədislərdə bildirilir ki, o yerə endikdən sonra xaçları sındıracaq, donuzları məhv edəcək və cizyəni aradan qaldıracaqdır. Bütün bunlar imam Buxari və Muslimin "Səhih" əsərlərində və başqa hədis kitablarında varid olmuşdur.

Bəziləri İdrisin də ölmədiyini bildirmişlər. Həmin alimlər onun İsa kimi göyə qaldırıldığını bildirərək bu ayəni dəlil gətirmişlər: **"Kitabda İdrisi də xatırla! Həqiqətən, o, düz danışan adam və bir peyğəmbər idi. Biz onu yüksək bir məqama ucaltdıq."** (Məryəm, 56-57).

Mücahid demişdir: "İdris də İsa kimi ölməyib və göyə qaldırılıb." İbn Abbas demişdir: "O göyə qaldırılıb və orada ölmüşdür." Digərləri isə belə demişlər: "O dördüncü səmaya qaldırılmışdır və onun barəsində elm yalnız Allaha məxsusdur." Alimlər arasındakı ixtilafın səbəbi İdrisin ölüb-ölməməyi barəsindədir. Bununla belə aşağıdakı ayəyə görə hər bir insan öləcəkdir. Uca Allah buyurur: **"Hər bir nəfs ölümü dadacaqdır."** (Ali İmran 185).

Elm əhlindən heç kim İsa عليه السلام ilə İdrisdən عليه السلام savayı peyğəmbərlərdən heç birinin ölmədiyini deməmişdir. Çünki bu mövzuda açıq-aydın dəlillər vardır, üstəlik onların bəlli mövqeyi də buna dəlalət edir. Təəssüflər olsun ki, müsəlmanlardan bəziləri bu mövzuya dair varid olmuş bəzi hədisləri düzgün başa düşmürlər. Məsələn, Merac hədislərində deyilir ki, Peyğəmbər ﷺ səmada bəzi peyğəmbərlərlə görüşmüş və onlarla danışmışdır. Buxari və Muslimin, Ənəsdən رضي الله عنه rəvayət etdikləri hədisdə deyilir: "Sonra biz səmaya qalxdıq,

Cəbrail qapının açılmasını xahiş etdi. (Gözətçilər): "Sən kimsən?"– deyə soruşdular. O: "Cəbrailəm"– dedi. Onlar: "Yanındakı kimdir?"– deyə soruşdular. O: "Muhəmməddir"– dedi. Onlar: "Ona peyğəmbərlik verildimi?"– deyə soruşdular. O: "Bəli, verildi"– dedi. Bundan sonra göy qapısı bizim üçün açıldı. Bu vaxt mən Adəmi gördüm. O məni salamladı və mənə xeyir-dua etdi. Sonra biz ikinci səmaya qalxdıq, Cəbrail qapının açılmasını xahiş etdi. (Gözətçilər): "Sən kimsən?"– deyə soruşdular. O: "Cəbrailəm"– dedi. Onlar: "Yanındakı kimdir?"– deyə soruşdular. O: "Muhəmməddir"– dedi. Onlar: "Ona peyğəmbərlik verildimi?"– deyə soruşdular. O: "Bəli, verildi"– dedi. Bundan sonra göy qapısı bizim üçün açıldı. Bu vaxt mən xalauşaqlarını – Məryəm oğlu İsanı عليه السلام və Zəkəriyya oğlu Yəhyanı عليه السلام gördüm. Onlar məni salamladılar və mənə xeyir-dua etdilər..."[1] Həmin hədisdə Peyğəmbərin ﷺ üçüncü səmada Yusufu gördüyü və Yusufa gözəlliyin yarısının bəxş edildiyi, dördüncü səmada İdrisi, beşinci səmada Harunu, altıncı səmada Musanı və yeddinci səmada İbrahimi kürəyini Beytul-Məmura söykəmiş vəziyyətdə gördüyü bildirilir. Onların hamısı Peyğəmbəri ﷺ salamlayaraq ona xeyir-dua vermişdir.

Həmçinin Buxari və Muslimin "Səhih" əsərlərində, İbn Abbasdan Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunmuşdur: "Mən İsra gecəsində Musanı gördüm. O, Qarabuğdayı və hündürboylu bir adam idi, lap Şənuə qəbiləsinin kişiləri kimi. *Məryəm oğlu* İsanı da gördüm. O, ortaboylu, alyanaq, ağbəniz və nazik saçlı bir adam idi..."[2]

Bəzi insanlar bu kimi hədislərdən peyğəmbərlərin ölmədiyi qənaətinə gəlmişlər. Həqiqətdə isə dəlillərdəki kimi, İsa və barəsində ixtilaf edilsə də, İdris istisna olmaqla, peyğəmbərlərin hamısı ölmüşdür. Bunlardan başqa hamısının ölümü dəqiqdir və buna heç bir şübhə yoxdur. Bu xüsusda dəlilləri artıq qeyd etmişik. Peyğəmbərin ﷺ Merac gecəsi digər peyğəmbərlərlə görüşməsi və bu mənada varid olan dəlillərə gəlincə, bunların hamısı haqdır və bunlar arasında heç bir ziddiyyət yoxdur. Peyğəmbər ﷺ onların surətlərinin qiyafəsində olan ruhları ilə görüşmüşdür. Əhli-Sünnə alimlərinin fikrincə onların

[1] "Səhih əl-Buxari", 3570; "Səhih Muslim", 162.

[2] "Səhih əl-Buxari", 3239; "Səhih Muslim", 165.

bədənləri yer üzərindədir. Yalnız göyə qaldırılması barədə dəlil olan peyğəmbərlərdən başqa.

Mötəbər alimlərdən biri bu məsələni araşdırarkən belə demişdir: "Peyğəmbərin ﷺ Merac gecəsi digər peyğəmbərləri görməsi – dünya səmasında Adəmi, ikinci səmada Yəhyanı və İsanı, üçüncü səmada Yusufu, dördüncü səmada İdrisi, beşinci səmada Harunu, altıncı səmada Musanı, yeddinci səmada İbrahimi və ya tərsinə altıncı səmada İbrahimi, yeddinci səmada Musanı[1] görməsi onların surətlərinin qiyafəsində olan ruhlarını görməsi ilə baş vermişdir. Bəziləri isə demişlər: Ola bilsin ki, o, həmin peyğəmbərlərin dəfn olunmuş bədənlərini görmüşdür. Lakin, bu rəy əsassızdır. İsaya gəlincə, o, həm ruhu, həm də bədəni ilə göyə qaldırılmışdır. Bu sözləri bəziləri İdrisə də şamil etmişlər. O ki qaldı İbrahim, Musa və digər peyğəmbərlərə, onların hamısı yerdə dəfn olunmuşlar."

Onu da bilmək lazımdır ki, Uca Allah peyğəmbərlərin ruhunu şərəfləndirərək göylərə qaldırdığı və onlara istədiyi qədər nemətlər bəxş etdiyi kimi, onların bədənlərini də hifz etmiş və torpağa onları yeməyi haram etmişdir. Ovs ibn Ovs rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizin ən fəzilətli günlərinizdən biri cümə günüdür. Odur ki, həmin gün mənə çoxlu salavat deyin. Bilin ki, sizin salavatlarınız mənə çatdırılır." *Səhabələr* soruşdular: "Ya Rəsulullah, bədənin çürüdükdən sonra salavat sənə necə çata bilər?!" Dedi: "Qüdrətli və qüvvətli Allah yerə peyğəmbərlərin bədənlərini yeməyi haram buyurmuşdur."[2]

Bununla da bu mühüm məsələdə haqq bəyan edilmiş və hər bir müsəlmanın bu mövzuda nəyə etiqad edəcəyinin vacib olduğu aydın olmuşdur. Daha doğrusunu isə Allah bilir!

---

[1] "Səhih Muslim", 415.

[2] "Musnəd Əhməd", 4/8; "Sunən Əbu Davud", 1047; "Sunən əd-Darimi", 1580.

## *X mövzu. Peyğəmbərlərin möcüzələri və onlarla övliyaların kəraməti arasındakı fərq.*

**Möcüzənin tərifi.**

"Möcüzə" sözü acizlik sözündən əmələ gəlmiş və "qadir olmamaq" mənasını ifadə edir. "Əl-Qamus" əsərində bildirilir: "Peyğəmbərin möcüzələri insanların onları etməkdə aciz olduqları şeylərə deyilir."

İstilahi mənada isə möcüzə, peyğəmbərlərin əli ilə onların sadiq olduqlarının sübutu olaraq baş verən fövqəladə hadisələrə deyilir. Həmin hadisələrin bənzərini heç kəs edə bilməz.

"Fövqəladə" deyildikdə, peyğəmbərlərin adi halda etdikləri əməllər istisna olunur. Bu kimi əməllər möcüzə sayılmır.

"Peyğəmbərlərin əli ilə baş verən" deyildikdə, övliyaların əli ilə baş verən fövqəladə əməllər istisna olunur. Belə ki, övliyaların əli ilə baş verən fövqəladə əməllər kəramət adlanır. Bu da onlara, peyğəmbərlərin yolunu tutub getdiklərinə görə verilir. Sehrbaz və kahinlərin etdiyi əməllər isə əlbəttə ki, buna aid edilmir və bunların etdikləri şarlatanlıq sayılır. Bununla da ən pis insanlar məşğul olurlar.

"Onların sadiq olduqlarının sübutu olaraq baş verən fövqəladə hadisələrə deyilir. Həmin hadisələrin bənzərini heç kəs edə bilməz" deyildikdə, peyğəmbərlik iddiasında olan yalançılar, sehrbazlar və kahinlərin etdiyi əməllər istisna olunur. Çünki bu cür sehrlərin bənzərini digər sehrbazlar da edə bilir.

**Peyğəmbərlərin bəzi möcüzələrinə misallar.**

Peyğəmbərlərin bir çox möcüzələri olmuşdur. Məsələn, Saleh peyğəmbərdən müşriklər özlərinin təyin etdiyi bir qayadan dəvə çıxarmasını istəmiş, hətta sonradan həmin dəvəni vəsf də etmişdilər. Saleh də Uca Allaha dua edərək bunu Ondan istəmişdi. Uca Allah da həmin qayadan onların istədikləri xüsusiyyətlərə malik bir dəvəni çı-

xarmışdı.[1] Uca Allah bu barədə buyurur: **"Səmud qövmünə də qardaşları Salehi *göndərdik*. O dedi: "Ey qövmüm! Allaha ibadət edin! Sizin Ondan başqa məbudunuz yoxdur. Rəbbinizdən sizə açıq-aydın dəlillər gəldi. Allahın *qayadan çıxartdığı* bu dişi dəvəsi sizin üçün bir möcüzədir. Onu buraxın Allahın torpağında otlasın. Ona bir pislik etməyin, yoxsa sizi ağrılı-acılı bir əzab yaxalayar."** (əl-Əraf, 73).

İbrahim peyğəmbərin عليه السلام möcüzəsi isə qövmünün ona əzab vermək və onu məhv etmək məqsədilə qaladıqları, sonra da içinə atdıqları odun onun üçün soyuq və salamat olmasıdır. Uca Allah buyurur: **"Onlar dedilər: "Əgər ondan əvəz çıxmaq istəyirsinizsə, onu yandırın ki, məbudlarınıza kömək edəsiniz". Biz: "Ey od! İbrahim üçün sərin və zərərsiz ol!"– dedik. Onlar İbrahimə qəsd etmək fikrinə düşdülər, lakin Biz onları daha şiddətli cəzaya məruz qoyduq."** (əl-Ənbiya, 68-70).

Musa peyğəmbərin عليه السلام möcüzələrindən biri onun əsası idi. O, əsanı yerə atdıqda, əsa Allahın izni ilə böyük bir ilana çevrilirdi. Uca Allah buyurur: **"Sağ əlindəki nədir, ey Musa?"** ***Musa*** **dedi: "Bu mənim əsamdır. Ona söykənir və onunla qoyunlarıma yarpaq silkələyirəm. Bu, mənim üçün başqa işlərə də yarıyır".** ***Allah*** **buyurdu: "At onu** ***yerə***, **ey Musa!"** ***Musa*** **onu** ***yerə*** **atdı və o, dərhal ilan olub sürətlə sürünməyə başladı.** ***Allah*** **buyurdu: "Götür onu, qorxma! Biz onu əvvəlki halına qaytaracağıq."** (Ta ha, 17-21). Onun digər bir möcüzəsi isə əlini köynəyinin yaxasına salıb çıxardıqda əlinin ay parçası tək par-par parıldaması idi. Uca Allah buyurur: **"Əlini qoynuna sal ki,** ***əlin oradan*** **başqa bir möcüzə kimi ləkəsiz, ağappaq çıxsın."** (Ta ha, 22).

İsa peyğəmbərin عليه السلام möcüzəsi isə bu idi ki, o palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürdükdə o əsl quşa dönürdü. Bundan başqa o kor və cüzam xəstəliyinə mübtəla olana Allahın izni ilə əlini sürtər, o da sağalardı, qəbirdəki ölüləri çağırar, onlar da onun çağırışına cavab verər və dirilərdilər. Uca Allah buyurur: **"Sən Mənim izni̇mlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu. Sən Mənim iznimlə anadangəlmə koru**

[1] "Təfsir İbn Kəsir", 3/436.

**və cüzam xəstəliyinə tutulanı sağaldır və Mənim iznimlə ölüləri dirildirdin."** (əl-Maidə, 110).

Peyğəmbərimizin ﷺ möcüzələrindən biri də əzəmətli Qurandır ki, bu da bütün peyğəmbərlərə verilmiş möcüzələrin ən əzəmətlisidir. Uca Allah buyurur: **"Əgər qulumuza nazil etdiyimizə şübhə edirsinizsə, onda ona bənzər bir surə gətirin və əgər doğru deyirsinizsə, Allahdan savayı *bütün* şahidlərinizi *köməyə* çağırın!"** (əl-Bəqərə, 23). O, həmçinin buyurur: **"De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün *bir yerə* toplaşıb, bir-birinə kömək etsələr belə ona bənzərini gətirə bilməzlər."** (əl-İsra, 88). Onun daha bir möcüzəsi Məkkə əhlinin ondan möcüzə göstərməsini istədiyi zaman ayı iki yerə bölməsi idi. O zaman ay iki yerə bölünmüş, həm Məkkə əhli, həm də başqaları bunu görmüşdülər. Uca Allah buyurur: **"Qiyamət və ay bölündü. Onlar bir möcüzə gördükdə üz döndərib: "*Bu,* tez keçib-gedən bir sehrdir" deyirlər"** (əl-Qəmər, 1-2). Peyğəmbərin ﷺ bir başqa möcüzəsi də İsra və Merac hadisəsi idi. Uca Allah buyurur: **"Dəlillərimizdən bəzisini *Peyğəmbərə* göstərmək üçün Öz qulunu gecə vaxtı Məscidulharamdan ətrafına xeyir-bərəkət verdiyimiz Məsciduləqsaya aparan *Allah* pak və müqəddəsdir. Həqiqətən, O, Eşidəndir, Görəndir"** (əl-İsra, 1).

Peyğəmbərlərin,ələlxüsus da Peyğəmbərimizin ﷺ möcüzələri çoxdur. Burada qeyd etdiklərimiz isə onlardan bir neçəsidir.

**Kəramətin tərifi.**

Kəramət, peyğəmbərlik iddiası və buna yaxın bir əlaqəsi olmayan, yaxşı işlər görən dürüst əqidəli, əməlisaleh bir möminin əli ilə baş verən fövqəladə hadisəyə deyilir.

"Fövqəladə" deyildikdə, adi insanın edə biləcəyi əməllər istisna olunur.

"Peyğəmbərlik iddiasında olmayan" deyildikdə, peyğəmbərlərin möcüzələri istisna olunur.

“Buna yaxın bir əlaqəsi olmayan” deyildikdə, İrhas istisna olunur. İrhas – peyğəmbər olacaq şəxsin peyğəmbərlikdən öncə başına gələn fövqəladə hadisəyə deyilir.

“Əməlisaleh bir kəsin əli ilə baş verir” dedikdə, sehrbaz və kahinlərin etdikləri əməllər istisna olunur.

Övliyaların kəramətləri çoxdur. Onlardan bəzilərinin keçmiş ümmətlərdə olması xəbər verilir. Buna misal olaraq Məryəm haqqında nazil olmuş ayəni göstərmək olar. Uca Allah buyurur: **“Zəkəriyya hər dəfə onun yanına ibadətgaha daxil olduqda, onun yanında ruzi olduğunu görərdi. O dedi: “Ey Məryəm! Bu, sənin üçün haradandır?”** ***Məryəm*** **dedi: “Bu, Allah tərəfindəndir. Həqiqətən, Allah istədiyi kimsəyə hesabsız ruzi verir.”** (Ali İmran, 37).

Uca Allahın Mağara camaatı barəsində verdiyi xəbərlər də bu qəbildəndir.

Ümmətimizdən olan kəramətlərə misal olaraq Useyd ibn Hudeyrin رضي الله عنه əhvalatını göstərmək olar. Rəvayət olunur ki, o, “əl-Kəhf” surəsini oxuduqda göydən buluda bənzər bir şey, içində də qəndilə bənzər məxluqlar olurdu. Bunlar Quranın oxunuşuna qulaq asmaq üçün enən mələklər idi. Həmçinin mələklər İmran ibn Husaynla رضي الله عنه salamlaşardılar. Salman və Əbu Dərda رضي الله عنهما qabdan yemək yeyərkən, həmin qab və ya onun içindəki yemək Allahı zikr etmişdir. Xəbib ibn Ədiy رضي الله عنه Məkkədə müşriklərin əlində əsir olarkən Allah onu şərəfləndirər və ona vaxtaşırı üzüm gətirilərdi. Halbuki, Məkkədə o zaman üzüm yox idi.

Əla əl-Hədrəmi öz ordusu ilə birlikdə dənizin üstü ilə yerimiş və onların atlarının yəhərlərinə su dəyməmişdir. Əbu Muslim əl-Xövlani, peyğəmbərlik iddiasında olan Əsvəd əl-Ənsiyə əsir düşdükdə Əsvəd ondan soruşmuşdu: “Mənim Allahın rəsulu olmağıma şahidlik edirsənmi?” Əbu Muslim: “Eşitmirəm”– demişdir. Soruşmuşdu: “Muhəmmədin Allahın elçisi olmasına şahidlik edirsənmi?” O: “Bəli!”– deyə cavab verdikdə, Əsvəd əmr etmişdi ki, bir çuxurda od qalasınlar və onu həmin odun içinə atsınlar. Əsvədin əlaltıları onu oda atdıqdan sonra gəlib görmüşdülər ki, o orada namaz qılır və od ona

təsir etməyib. Tarixdə bu kimi bir çox hadisələrin baş verməsi bizlərə müxtəlif kitablar vasitəsilə nəql olunmuşdur.

**Möcüzə ilə kəramət arasındakı fərq.**

Möcüzə yalnız peyğəmbərlərin əli ilə baş verir. Kəraməti edən kəs isə əsla peyğəmbərlik iddiasında olmur. O, peyğəmbərə tabe olduğuna və onun gətirdiyi şəriətə əməl etdiyinə görə, onun əli ilə bu kəramət baş verir. Möcüzə peyğəmbərlərə, kəramət isə övliyalara məxsusdur. Lakin bunların hər ikisinin fövqəladə hadisə olması onların birgə xüsusiyyətidir.

Bəzi alimlər demişlər ki, övliyaların kəraməti əslində elə peyğəmbərlərin möcüzələrinə aididir. Çünki onlar peyğəmbərlərə tabe olduqları üçün bunu edə bilmişlər. Deməkk, övliyanın etdiyi hər bir kəramət onun tabe olduğu peyğəmbərlərin möcüzələrindən hesab olunur.

Beləliklə, aydın olur ki, möcüzə və kəramət sözləri, Quran və Sünnədə varid olmasa da, alimlər ayə və hədislərdən çıxan mənalara görə o hadisələrə bu adları vermişlər.

**Möcüzə və kəramətlərə iman gətirməyin hökmü**.

Peyğəmbərlərin möcüzələrinə və övliyaların kəramətinə iman gətirmək imanın əsaslarından sayılır. Buna da Quran, Sünnə və reallıq dəlildir. Odur ki, hər bir müsəlmanın bunun səhihliyinə etiqad etməsi vacibdir. Bunları yalan sayaraq inkar etmək isə əslində ayə və hədisləri inkar etmək, müsəlman alimlərinə zidd mövqedə olmaq və real faktları danmaqdan başqa bir şey deyildir. Daha doğrusunu isə Allah bilir.

## *XI mövzu. Övliyalar barədə.*

**Vəli və İslamda vilayət sözünün mənası.**

“Vilayət” sözü ərəbcə “ədavət” sözünün əksi olub dostluq mənasını ifadə edir. Bu söz əsasən “yaxınlıq” və “sevgi” sözlərindən qaynaqlanır. “Ədavət” isə “uzaqlıq” və “nifrət” sözlərindən götürülmüşdür.

İstilahi mənada isə “vilayət” Allaha itaət etməklə Ona yaxın olmaq deməkdir.

İstilahi mənada “vəli” isə iki xüsusiyyəti – imanı və təqvanı özündə birləşdirən kimsəyə deyilir. Uca Allah buyurur: **“Həqiqətən, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və *Allahdan* qorxmuşlar.”** (Yunus, 62-63).

**Övliyalar arasındakı fərq.**

Övliyalar mömin və müttəqi olduqları üçün, imanlarına və təqvalarına görə Allah yanında da müxtəlif məqamlarda yaxın olurlar. İmanı və təqvası daha kamil olanlar, Allaha daha çox yaxın olurlar. Odur ki, insanlar imanlarına və təqvalarına görə vilayət xüsusunda bir-birlərindən fərqlənirlər.

Allahın ən üstün övliyaları Onun peyğəmbərləridir. Peyğəmbərlərinin ən fəzilətliləri isə rəsullardır. Rəsulların da ən əfzəli Ulul-Əzm peyğəmbərlərdir. Bunlar – Nuh, İbrahim, Musa, İsa və Muhəmməddir (Onlara Allahın salavatı və salamı olsun!) Ulul-Əzm peyğəmbərlərin ən üstünü isə Muhəmməd peyğəmbər ﷺ, sonra da İbrahim peyğəmbərdir عليه السلام. Digər üç peyğəmbərin hansının daha əfzəl olması barədə isə alimlər arasında fikir ayrılığı vardır.

**Övliyaların qisimləri.**

Allahın övliyaları iki qisimdir:

***Birinci qisim.*** Dində hamını ötüb keçərək Allaha yaxın olanlar.

***İkinci qisim.*** Sağ tərəf sahibləri.

Uca Allah buyurur: **"Vaqiə qopacağı zaman onun qopduğunu heç kəs dana bilməz. O,** ***bəzilərini*** **alçaldacaq,** ***bəzilərini də*** **ucaldacaqdır. Yer şiddətlə titrədiyi zaman, Dağlar parça-parça olub ovxalandığı və** ***ətrafa*** **səpələnmiş toz-torpağa döndüyü zaman, siz üç dəstəyə ayrılacaqsınız. Sağ tərəf sahibləri. Nə xoşbəxtdir sağ tərəf sahibləri! Sol tərəf sahibləri. Nə bədbəxtdir sol tərəf sahibləri!** ***Xeyirxah işlərdə*** **öndə gedənlər,** ***Cənnətdə də*** **öndədirlər! Onlar** ***Allaha*** **yaxın olanlar, Nəim bağlarında** ***qalacaq kimsələrdir."*** (əl-Vaqiə, 1-12).

Burada üç sinif insan qeyd olunur. Bunlardan biri, yəni sol tərəf sahibləri Cəhənnəmlik, digəri ikisi isə Cənnətlikdir. Bunlar da sağ tərəf sahibləri və bir də yaxşı işlərdə hamını ötüb keçən kimsələrdir. Vaqiə surəsinin sonunda Uca Allah onları bir daha qeyd edərək buyurur: **"Amma əgər o,** ***Allaha*** **yaxın olanlardandırsa, onda rəhmətə, gözəl ruziyə və Nəim bağına yetişər. Əgər o, sağ tərəf sahiblərindəndirsə,** ***ona*****: "Sağ tərəf sahiblərindən sənə salam olsun!"–** ***deyiləcəkdir."*** (əl-Vaqiə, 88-91). Peyğəmbər ﷺ bu iki qismi, övliyalarla bağlı olan məşhur qüdsi bir hədisdə qeyd etmişdir. Buxarinin Əbu Hureyradan رضي الله عنه rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Uca Allah buyurur: "Kim Mənim dostumla düşmənçilik edərsə, Mən ona hərb elan edərəm. Qulumun Mənə sevimli olan və onun vasitəsilə Mənə yaxınlaşdığı ən gözəl əməl ona vacib buyurduğum əməllərdir. Qulum nafilə ibadətləri yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm. Onu sevdiyim təqdirdə onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən diləsə, ona dilədiyini verərəm, sığınacaq istəsə, ona sığınacaq verərəm..."[1]

Sağ tərəf sahibləri olan əməlisaleh insanlar fərz buyurulmuş əməlləri yerinə yetirməklə Allaha yaxınlaşan kimsələrdir. Onlar Allahn onlara vacib buyurduqlarını yerinə yetirir, haram buyurduqlarını isə tərk edirlər. Onlar nə müstəhəb sayılan nafilə ibadətlərini yerinə yetirməyi öz öhdələrinə götürür, nə də mübah sayılan (özlərinə nə günah, nə də savab qazandıran) əməlləri tərk edirlər. Öndə gedən, *Allaha* yaxınlaşan əməlisalehlərə gəlincə, onlar fərz buyuru-

[1] "Səhih əl-Buxari", 6502.

lanlarla yanaşı nafilə ibadələrini yerinə yetirməklə Uca Allaha yaxınlaşır, vacib və müstəhəb əməlləri yerinə yetirir, haram və məkruh buyurulanları isə tərk edirlər. Onlar əllərindən gələn yaxşı işləri görüb Allaha yaxınlaşdıqlarına görə Allah da onları tam bir sevgi ilə sevir, onları günahlardan qoruyur və onların dualarını qəbul edir. Uca Allah qüdsi hədisdə belə buyurur: "Qulum nafilə ibadətləri yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm...."[1]

**Övliyalar müəyyən bir libas və ya zahiri görünüşlə başqa insanlardan seçilmirlər.**

Əhli-Sünnə alimlərinin rəyinə görə, Allaha yaxın olan övliyalar, nə libasları, nə də zahiri görünüşləri ilə digər insanlardan seçilmirlər.

Övliyalar haqqında kitab yazan müəlliflərdən biri demişdir: "Allah dostları zahirən, mübah sayılan işlərdə digər insanlardan seçilmirlər. Onlar nə mübah sayılan xüsusi bir libası geyməklə, nə də şəriətin icazə verdiyi qaydada saçlarını qırxmaq, yaxud qısaltmaq, yaxud da hörməklə digər insanlardan fərqlənmirlər. Yaxşı deyiblər: "Nə çox abid insan var ki, kaftan[2] geyir və nə çox zındıq[3] var ki, əbada gəzir." Bidət əhli xaric olmaqla, onlar Muhəmməd ümmətinin hər bir təbəqəsində mövcuddurlar – Quran əhlində, elm əhlində, cihad əhli arasında, ticarət, sənaye və əkinçiliklə məşğul olanlar arasında da beləəri vardır."

**Onları ifrat dərəcədə ucaltmağın batil olması.**

Allahın övliyaları nə məsumdurlar, nə qeybi bilirlər, nə də ki məxluqatın işlərini səhmana salmağa və onlara ruzi verməyə qadirdilər. Onlar insanları özlərinə təzim etməyə və ya var-dövlətlərindən onlara verməyə çağırmırlar. Belə əməlləri edən şəxs Allahın dostu yox, yalançı, iftiraçı və şeytanın dostu sayılır. Daha doğrusunu isə Allah bilir.

---

1 "Səhih əl-Buxari", 6502.

2 Uzunətəkli qədim kəndli paltarı.

3 Allahı inkar edən dinsiz adam.

# IV fəsil.

## Axirət gününə iman

### Bu fəsil üç mövzudan ibarətdir

*I mövzu. Saatın əlamətləri və onların növləri*

*II mövzu. Qəbirdəki nemət və əzab*

**Birinci məsələ. Qəbir nemətinə və qəbir əzabına iman gətirmək, və buna dəlillər**

**İkinci məsələ. Qəbir nemətinin və onun əzabının həm ruh, həm də bədən üçün olması**

**Üçüncü məsələ. İki mələyə – Münkər və Nəkir adlı mələklərə iman gətirmək.**

*III mövzu. Ölümdən sonra dirilməyə iman*

**Birinci məsələ: Ölümdən sonra dirilmə və onun məğzi**

**İkinci məsələ: Ölümdən sonra dirilməyə dair Quran və Sünnədən dəlillər, habelə məntiqi sübutlar**

**Üçüncü məsələ: *məhşərə* toplanma**

**Dördüncü məsələ: Hovuz, onun vəsfi və buna dair dəlilləri**

**Beşinci məsələ: Tərəzi, onun vəsfi və buna dair dəlilləri**

**Altıncı məsələ: Şəfaət, onun tərifi, növləri və dəlilləri**

**Yeddinci məsələ: Sirat, onun vəsfi və buna dair dəlilləri**

**Səkkizinci məsələ: Cənnət və Cəhənnəm, onların vəsfi, onlara iman gətirməyin necəliyi və buna dair dəlillər.**

# IV fəsil.
# AXİRƏT GÜNÜNƏ İMAN

## *I mövzu.*
## *Saatın əlamətləri və onların növləri.*

**Saatın əlamətlərinin tərifi.**

Əlamət və ya nişanə bir şey baş verməmişdən öncə onu qabaqlayan hadisəyə deyilir.

Əslində saat zamanın bir hissəsidir, lakin burada "Saat" deyildikdə Qiyamət günü nəzərdə tutulur. Uca Allah buyurur: **"O Saat haqqında bilgi Ondadır."** (əl-Zuxruf, 85). Saat – Qiyamət gününün ayə və hədislərdə varid olmuş və danışıq dilində tez-tez rast gəlinən ən məşhur adlarından biridir. Qiyamət günü qəfil qopacağına və insanları bir göz qırpımında yaxalayacağına görə belə adlandırılmışdır. Burada Qiyamətin əlamətləri deyildikdə, o Saat gəlməmişdən əvvəl baş verəcək hadisələr nəzərdə tutulur. Uca Allah buyurur: **"Məgər *kafirlər* o Saatın qəfil onlara gəlməsindən başqa bir şeymi gözləyirlər?! Artıq onun əlamətləri gəlmişdir."** (Muhəmməd, 18).

**Qiyamətin əlamətlərinin növləri.**

Qiyamətin əlamətləri üç qismə bölünür:

***Birinci qisim,*** uzaq əlamətlərdir ki, bunlar artıq baş vermişdir.

Bu əlamətlərdən biri Peyğəmbərin ﷺ göndərilməsidir. Buxari və Muslimin "Səhih" əsərlərində Ənəs ibn Malikin belə rəvayət etdiyi nəql edilmişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ orta barmağıyla işarə barmağını birləşdirib dedi: "Qiyamət Saatı *insanlara,* bu iki barmaq qədər *yaxın olduğu zaman mən peyğəmbər* göndərildim."[1]

Digər bir əlamət isə Allahın Öz Kitabında xəbər verdiyi kimi, ayın parçalanmasıdır. Uca Allah buyurur: **"O Saat yaxınlaşdı və ay böləndü."** (əl-Qəmər, 1).

---

[1] "Səhih əl-Buxari", 6504; "Səhih Muslim", 2951.

Həmin əlamətlərdən biri də Hicaz ərazisindən alovun çıxması və Busradakı dəvələrin boyunlarına belə işıq düşməsidir. Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Hureyradan Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Hicaz torpağından od çıxıb Busradakı[1] dəvələrin boyunlarını işıqlandırmayınca, Qiyamət qopmayacaq."[2] Bu od Peyğəmbərin ﷺ dediyi kimi, hicrətin 654-cü ilində Cumadəl-Axira ayının əvvəllərində Mədinənin şərqindən çıxmışdır. O zaman vadilər lava[3] ilə dolmuş və insanlar bundan dəhşətə gəlmişlər. Odun işığını Şam və Busra əhli görmüş, oradakı dəvələrin boyunları isə Peyğəmbərin ﷺ dediyi kimi işıqlanmışdır.

***İkinci qisim***, orta əlamətlərdir ki, bunlar da zahir olub, lakin hələ bitməyib, əksinə getdikcə çoxalmaqdadır. Bu növ əlamətlər çoxdur.

Həmin əlamətlərdən biri məşhur Cəbrail عليه السلام hədisində deyildiyi kimi kənizin öz ağasını doğması, ayaqyalın, çılpaq çobanların hündür bina tikməkdə yarışmalarıdır.

Muslimin rəvayət etdiyi həmin hədisdə deyilir: "Sonra *Cəbrail* soruşdu: "Mənə Qiyamət saatı haqqında xəbər ver." Peyğəmbər ﷺ buyurdu: "Bu haqda soruşulan soruşandan çox bilmir." O soruşdu: "Mənə onun əlamətləri haqqında xəbər ver." Peyğəmbər ﷺ buyurdu: "*O vaxt ki,* cariyə öz ağasını dünyaya gətirəcək və sən ayaqyalın, çılpaq və kasıb çobanların hündür binalar tikməkdə yarışdıqlarını görəcəksən."[4]

Həmin əlamətlərdən biri də peyğəmbərlik iddiasında olan otuz yalançının meydana gəlməsidir. Əbu Hureyra رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Allahın rəsulu olduğunu iddia edən otuza yaxın yalançı dəccallar meydana gəlməyincə Qiyamət qopmaz."[5] Əbu Davudun və Tirmizinin "Sunən" əsərlərində Sövban, Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Ümmətim arasında otuz yalançı olacaq və onların hər biri peyğəmbər olduğunu iddia edəcəkdir. Lakin mən peyğəmbərlərin sonuncusuyam və məndən sonra peyğəmbər gəlməyəcəkdir."[6]

[1] Busra: Suriyanın cənubunda yerləşən şəhərdir.

[2] "Səhih əl-Buxari", 7118; "Səhih Muslim", 2902.

[3] Vulkanın ağzından çıxan ərgin odlu kütlə.

[4] "Səhih Muslim", 8.

[5] "Səhih əl-Buxari", 3609.

[6] "Sunən Əbu Davud", 4252; "Sunən ət-Tirmizi", 2219.

Bir əlaməti də budur ki, Fərat çayının suyu çəkiləcək və yerində qızıldan bir dağ peyda olacaq ki, insanlar onun üstündə bir-birilərini qıracaqlar. Əbu Hureyra ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Fərat çayının suyu çəkilib oradan qızıl bir dağ çıxmayınca və insanlar onun uğrunda müharibə etməyincə, Qiyamət qopmaz. Hər yüz nəfərdən doxsan doqquzu məhv olacaq və onlardan hər biri: "Bəlkə xilas oldum"– deyəcəkdir."[1] Bu əlamət hələ ki, baş verməyibdir.

***Üçüncü qisim,*** Qiyamətin böyük əlamətləridir ki, bu əlamətlər baş verdikdən dərhal sonra Qiyamət qopacaqdır. Bunların isə sayı ondur və onların heç biri hələ baş verməyib. Muslim "Səhih" əsərində Huzeyfə ibn Useydin belə dediyini rəvayət etmişdir: "Bir gün biz bir-birimizlə söhbət edərkən Peyğəmbər ﷺ bizim yanımıza gəldi və: "Nə haqda danışırsınız?"– deyə soruşdu. Biz: "Qiyamət saatı barədə danışırıq"– dedik. Onda o: "Doğrusu, on əlamət baş verməyincə Qiyamət qopmayacaqdır"– dedi *və bu əlamətləri* zikr etdi: tüstünün gəlməsi, Dəccalın peyda olması, heyvanın zühur etməsi, günəşin məğribdən çıxması, Məryəm oğlu İsanın yerə enməsi, Yəcuc və Məcucun axışıb gəlməsi, üç yerdə – məşriqdə, məğribdə və bir də Ərəb yarımadasında yerə batma və bir də Yəməndən alovun çıxıb insanları məhşərə qovması."[2] Bəzi başqa hədislərdə Mehdinin çıxması, Kəbənin viran edilməsi, Quranın göyə qaldırılması da qeyd olunmuşdur.

Təhqiqat aparmış əksər alimlərin rəyinə görə bu üç əlamət də on böyük əlamətə daxildir. Huzeyfə ibn Useydin ﷺ hədisindəki üç yerdə baş verən batmalar bu on əlamətdən qabaq baş verəcəkdir. Huzeyfə ibn Useyddən rəvayət olunan digər rəvayətlər buna sübutdur. Muslimin rəvayət etdiyi hədisdə üç yerdə batma məsələsi digərlərindən öncə qeyd olunmuşdur. Peyğəmbər ﷺ demişdir: "On əlamət olmayınca Qiyamət qopmayacaqdır: məşriqdə, məğribdə və Ərəb yarımadasında batma hadisələrinin baş verməsi, tüstünün gəlməsi, Dəccalın çıxması..."[3] Sonra da qalan əlamətləri qeyd etmişdi. Qurtubi demişdir: "İlk əlamətlər hədisdə qeyd olunduğu kimi üç batma hadisələridir ki, İbn Vəhbin dediyinə görə bunun bəziləri Peyğəmbərin ﷺ zamanında baş vermişdir." İndi isə bu on əlaməti təfsilatı ilə qeyd edək.

---

[1] "Səhih əl-Buxari", 7119; "Səhih Muslim", 2894; "Musnəd Əhməd", 2/261.

[2] "Səhih Muslim", 2901.

[3] "Səhih Muslim", 2901.

**Birinci əlamət: Mehdinin gəlməsi**.

Mehdi əhli beytdən olan bir kişinin ləqəbidir. Özü Həsən ibn Əli ibn Əbu Talibin ﷺ nəslindəndir. Yer üzünü ədalətsizlik və zülm bürüyəcəyi zaman o, üzə çıxacaq və orada ədaləti bərqərar edəcəkdir. Onun adı Peyğəmbərin ﷺ adı kimi, atasının adı da Peyğəmbərin ﷺ atasının adı kimi olacaq. Əbu Davud və Tirmizi, Abdullah ibn Məsuddan Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Ərəblərə əhli beytimdən olan bir kişi rəhbərlik etməyincə, dünya dağılmayacaqdır. Onun adı mənim adım kimi, atasının adı isə mənim atamın adı kimi olacaq. Yer üzündə zülm və ədalətsizlik hökm sürdüyü bir zamanda o, hər yerdə ədaləti və düzgünlüyü bərqərar edəcək."[1]

**İkinci əlamət: Məsihi Dəccalın üzə çıxması.**

Məsihi Dəccal Adəm övladından olan bir kişidir. Qiyamətə yaxın çıxacaq və insanların çoxu onun fitnəsinə uyacaqdır. Allahın izni ilə o bir sıra fövqəladə əməllər etmək bacarığına malik olacaq. O, həmçinin Allahlıq iddiasında olacaq, lakin onun elədikləri möminlərə təsir etməyəcək. Məkkə ilə Mədinədən savayı hər yerə gedəcək, onun cənnəti və cəhənnəmi olacaq, lakin onun cənnəti cəhənnəm, cəhənnəmi isə cənnət olacaq. Dəccalın çıxmasına dəlalət edən bir çox hədislər varid olmuşdur. Həmin hədislərdən biri Muslimin "Səhih" əsərində Abdullah ibn Amr ibn Asın rəvayət etdiyi hədisdir. Bu hədisdə Peyğəmbər ﷺ demişdir: "Ümmətimdən Dəccal çıxacaq və bilmirəm, ya qırx gün, ya qırx ay, ya da qırx il yer üzündə qalacaqdır. Sonra Allah Məryəm oğlu İsanı göndərəcək. O, Urva ibn Məsuda oxşayır. Nəhayət, İsa Dəccalı tapıb öldürəcəkdir."[2]

Buxari və Muslimin "Səhih" əsərlərində Abdullah ibn Ömər ﷺ demişdir: "Peyğəmbər ﷺ camaatın arasında ayağa qalxıb Allaha – Ona layiq tərzdə təriflər dedikdən sonra Dəccalı yada salıb dedi: "Mən sizi xəbərdar edib ondan çəkindirirəm. Elə bir peyğəmbər olmamışdır ki, ümmətini ondan çəkindirmiş olmasın. Nuh da öz ümmətini ondan çəkindirmişdir. Lakin mən Dəccal barəsində sizə elə bir

[1] "Sunən Əbu Davud", 4282; "Sunən ət-Tirmizi", 2230.

[2] "Səhih Muslim", 2940.

söz deyəcəyəm ki, *onu* heç bir peyğəmbər öz ümmətinə deməmişdir. Bilin ki, o, təkgözdür. Allah isə təkgöz deyildir."[1]

**Üçüncü əlamət: Məryəm oğlu İsanın yerə enməsi.**

Quran və Sünnədə göstərildiyi kimi İsa peyğəmbər عليه السلام ədalətli bir hökmdar olaraq göydən yerə enəcək, xaçları sındıracaq, donuzları öldürəcək və Dəccalı məhv edəcəkdir. Uca Allah buyurur: "**Həqiqətən, *İsanın yer üzünə enməsi* Saatın *yaxınlaşmasının* əlamətidir.**" (əz-Zuxruf, 61).

Təfsir alimlərinin əksəriyyəti bu ayənin İsa peyğəmbərin عليه السلام yerə enəcəyinə işarə olduğunu bildirmişlər. Əhmədin "Musnəd" əsərində İbn Abbasın bu ayənin təfsiri barəsində belə dediyi nəql olunur: "Burada Qiyamətdən öncə İsanın enməsi nəzərdə tutulur."[2] İsanın enməsi barədə bir çox səhih hədislər varid omuşdur. Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Hureyradan رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Canım Əlində olan Allaha and olsun ki, tezliklə Məryəm oğlu *İsa* aranızda ədalətlə hökm vermək üçün sizin yanınıza enib xaçları sındıracaq, donuzları məhv edəcək və cizyəni aradan qaldıracaq. *Həmin vaxt* mal-dövlət o qədər artacaq ki, heç kəs sədəqə götürmək istəməyəcək. O zaman bircə dəfə səcdə etmək bütün dünya və onun üzərindəkilərdən daha xeyirli olacaqdır."[3]

**Dördüncü əlamət: Yəcuc və Məcucun çıxması.**

Onlar sayları olduqca çox olan bir tayfadır. Heç kəs onlara qarşı mübarizə aparmaq iqtidarında olmayacaqdır. Deyilənə görə, onlar Nuhun عليه السلام övladı Yafəsin nəslindəndirlər. Quran və Sünnədə onların çıxmasına dəlillər vardır. Uca Allah buyurur: **"Nəhayət, Yəcuc və Məcuc *səddi* açıldığı və onlar təpələrdən axışıb gəldikləri zaman; haqq olan vədimiz yaxınlaşdıqda kafirlərin gözləri dərhal bərələcəkdir.** ***Onlar deyəcəklər:*** **"Vay halımıza! Biz bundan qafil idik. Üstəlik zalım da olmuşuq!"** (əl-Ənbiya, 96-97).

---

[1] "Səhih əl-Buxari", 3057; "Səhih Muslim", 169.

[2] "Musnəd Əhməd", 1/318.

[3] "Səhih əl-Buxari", 2222; "Səhih Muslim", 155.

Buxari və Muslimin "Səhih" əsərlərində, Zeynəb bint Cəhş ﵂ rəvayət etmişdir ki, (bir dəfə) Peyğəmbər ﷺ qəfil onun (otağına) daxil olub: "Allahdan başqa məbud yoxdur! Yaxınlaşmış şərdən dolayı vay ərəblərin halına! Bu gün Yəcuc və Məcuc səddindən bu boyda dəlik açıldı"– dedi və baş barmağı ilə şəhadət barmağını birləşdirərək (onları) halqa şəklinə saldı."[1]

**Beşinci əlamət: Kəbənin viran edilməsi.**

Sünnədə bildirilir ki, bunu nazik ayaqlı bir həbəşi edəcəkdir. Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Hureyradan ﵁ Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Kəbəni nazik ayaqlı bir həbəşi dağıdacaq."[2] İmam Əhməd də səhih isnadla Abdullah ibn Amrdan Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Kəbəni nazik ayaqlı bir həbəşi dağıdacaq, onun bəzəyini oğurlayacaq və üstündəki örtüyünü çıxaracaqdır. Mən sanki onun keçəl və əyribarmaq *bir adam olduğunu,* əlindəki bel və külünglə Kəbəni uçurduğunu görürəm."[3]

**Altıncı əlamət: Tüstünün gəlməsi.**

Burada səmadan böyük bir tüstünün hər tərəfə yayılması və insanları bürüməsi nəzərdə tutulur. Quran və Sünnədə bunu təsdiqləyən neçə-neçə dəlillər vardır. Uca Allah buyurur: **"Sən göydən aşkar bir tüstü gələcəyi günü gözlə. O** ***tüstü ki,*** **insanları bürüyəcəkdir. Bu, ağrılı-acılı bir əzabdır."** (əd-Duxan, 10-11).

Sünnədən isə dəlil olaraq öncə qeyd etdiyimiz Huzeyfə ibn Useyddən rəvayət olunan hədisi göstərmək olar. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "On əlaməti görməyincə Qiyamət qopmayacaqdır: tüstünün gəlməsi, Dəccalın çıxması, heyvanın çıxması..."[4]

**Yeddinci əlamət: Quranın yerdən səmaya qaldırılması**.

O zaman nə yazılarda, nə də hafizələrdə Qurandan bir ayə belə qalmayacaqdır. Buna dair Sünnədə bir çox dəlillər vardır. İbn Macə və

---

[1] "Səhih əl-Buxari", 3346; "Səhih Muslim", 2880.

[2] "Səhih əl-Buxari", 1591; "Səhih Muslim", 2909.

[3] "Musnəd İmam Əhməd", 2/220.

[4] "Səhih Muslim", 2909.

Hakim, Huzeyfədən ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Paltarın naxışları silindiyi kimi, İslam da yox olacaqdır. İş o yerə gəlib çatacaq ki, insanlar namazın, orucun və qurbanın nə olduğunu bilməyəcəklər. Bircə gecənin içərisində Allahın Kitabı göyə qaldırılacaq və yer üzündə Ondan bircə ayə belə qalmayacaqdır..."[1]

**Səkkizinci əlamət: Günəşin günbatan tərəfdən çıxması.**

Quran və Sünnədə buna bir çox dəlillər vardır. Uca Allah buyurur: **"Rəbbinin bəzi əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir."** (əl-Ənam, 158).

Bir sıra təfsirçilər ayədəki "Allahın ayələri" ifadəsini günəşin batdığı yerdən çıxması kimi açıqlamışlar.

Təbəri bu ayə barədə təfsirçilərin rəylərini qeyd etdikdən sonra demişdir: "Bu barədə varid olan rəylərdən ən güclüsü odur ki, Peyğəmbər ﷺ bunu günəşin günbatandan çıxacağını bəyan etdikdə demişdir."[2] Buxari və Muslim Əbu Hureyradan ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Günəş batdığı yerdən doğmayınca *qiyamət qopmayacaq*. Günəş *məğribdən* doğduğu zaman insanlar onu görəcək, yəni hamısı *bu həqiqətə* inanacaq, *lakin artıq iş işdən keçmiş olacaq*. Həmin vaxt: **"....əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir."**[3]

**Doqquzuncu əlamət: Heyvanın çıxması.**

Bu, böyük bir məxluqdur. Deyilənə görə, həmin heyvan altmış ərəş[4] uzunluğunda olacaq. Onun möhkəm ayaqları, özü də olduqca tüklü olacaqdır. Həmçinin onun bir neçə məxluqa oxşadığı da bildirilir. Onun Qiyamətə yaxın çıxacağına Quran və Sünnədəki dəlillər sübutdur. Uca Allah buyurur: **"O söz** *(Qiyamət)* **onların başlarının üstünü aldığı zaman onlar üçün yerdən elə bir heyvan çıxardarıq**

[1] "Sunən İbn Macə", 4049 və başqaları.

[2] "Təfsir İbn Cərir", 8/97.

[3] "Səhih əl-Buxari", 4636; "Səhih Muslim", 157.

[4] Dirsəkdən barmaqların ucuna qədər uzunluqda olan qədim ölçü.

**ki, onlarla danışıb insanların ayələrimizə yəqinliklə inanmadıqlarını söyləyər."** (ən-Nəml, 82). Muslimin Əbu Hureyradan ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Üç *əlamət* vardır ki, onlar zühur etdiyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir; (bu,) günəşin məğribdən doğması, Dəccal və yer heyvanıdır"[1] İmam Əhmədin, Əbu Ümamədən ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Heyvan çıxıb insanların burunlarına dağ basdıqdan sonra onlar sizlərin arasında yayılacaqlar. Onlardan biri bir qatır aldıqda ondan: "Bunu kimdən almısan?"– deyə soruşacaqlar və o: "Damğalanmışların birindən"– deyə cavab verəcəkdir."[2] Bu hədisin isnadını Heysəmi və başqaları səhih hesab etmişlər.

**Onuncu əlamət: Əzəmətli bir odun çıxması.**

Həmin od Ədəndən çıxacaq və insanları məhşərə toplayacaqdır. Bu da böyük əlamətlərin sonuncusudur. Bu əlamətə Sünnədə bir çox dəlillər vardır. Muslimin Huzeyfə ibn Useyddən ﷺ rəvayət etdiyi hədisdə deyilir: "Sonra Yəməndən od çıxaraq insanları məhşərə toplayacaqdır."[3] Huzeyfədən ﷺ rəvayət olunan bu hədisin digər bir rəvayətində deyilir: "Ədəndəki bir çuxurdan od çıxacaq və insanları *məhşərə* toplayacaqdır."

Bütün bu əlamətlər Qiyamətdən öncə Allahın izni ilə baş verəcəkdir. Həmçinin bildirilir ki, bu əlamətlər zəncirvari şəkildə ardıcıllıqla baş verəcəkdir. Təbərani "Əvsat" əsərində Əbu Hureyradan ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Bu əlamətlər bir-birinin dalınca, zəncirvari ardıcıllıqla baş verəcəkdir."[4]

---

[1] "Səhih Muslim", 158.

[2] "Musnəd Əhməd", 5/268.

[3] "Səhih Muslim", 2901.

[4] "əl-Mücəm əl-Ausət", 4283.

### *II mövzu. Qəbirdəki nemət və əzab.*

Bu mövzunu öyrənmək üçün üç məsələni araşdırmaq gərəkdir:

**Birinci məsələ. Qəbir nemətinə və qəbir əzabına iman gətirmək və buna dəlillər.**

Əməlisaleh insanların qəbirdə nemətlər içində olduğuna, günahkar və asi adamlara isə əzab verildiyinə iman gətirmək, Quran və Sünnənin xəbər verdiyi imanın əsaslarındandır. Uca Allah buyurur: **"Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar. Allah zalımları sapdırar. Allah istədiyini edər."** (İbrahim, 27).

Bu ayə açıq-aydın dəlalət edir ki, Uca Allah qəbirdə sorğu-sual olunan möminləri sabitqədəm edir və bunun ardından onlara nemətlər verilir. Buxari, Bəra ibn Azibdən ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mömin bəndə qəbrə qoyulduqda onun yanına *iki mələk* gəlir və mömin: "Şəhadət verirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur və Muhəmməd Onun elçisidir"– deyir. Bu da Rəbbimizin: **"Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar."** ayəsinin təsdiqidir."[1]

Qəbir əzabı barəsində isə Uca Allah buyurur: **"Allah *Musanı* onların qurduğu hiylələrin şərindən qorudu. Firon nəslini isə dəhşətli əzab bürüdü. Onları səhər və axşamüstü oda salırlar. O Saat gələcəyi gün isə; Firon nəslini ən şiddətli əzaba salın!"** (əl-Ğafir, 45-46).

Qurtubi demişdir: "Əksər alimlərin rəyinə görə bu oda salınma qəbirdə baş verəcəkdir və bu ayə buna sübutdur." Hafiz İbn Kəsir də belə demişdir: "Bu ayə Əhli-Sünnənin gətirdiyi, qəbir əzabını sübuta yetirən ən əsas dəlillərdəndir."[2]

Quranda qəbir əzabına dəlalət edən başqa ayə də budur: **"Biz onlara iki dəfə işgəncə verəcəyik. Sonra isə böyük bir əzaba qaytarılacaqlar."** (ət-Tövbə, 101). Əksər sələflər bu ayəni qəbir əzabına dəlil gətirmişlər. Mücahid bu ayənin təfsirində demişdir: "Yəni aclıq və qəbir əzabı ilə işgəncə verəcəyik, sonra isə böyük bir əzaba, yəni Qi-

---

[1] "Səhih əl-Buxari", 1369.

[2] "Təfsir İbn Kəsir", 7/136.

yamət gününün əzabına düçar olacaqlar." Qatədə demişdir: "Yəni dünyadakı və qəbirdəki əzab ilə işgəncə verəcəyik, sonra isə əzəmətli əzaba düçar olacaqlar." İmam Buxari də bu ayələrə əsaslanaraq qəbir əzabı barədəki hədisləri qeyd etmişdir.[1]

Sünnədə qəbir nemətləri və əzabı barədə bir çox dəlillər mövcuddur. Buxari və Muslimin "Səhih" əsərlərində Abdullah ibn Ömərdən ﷺ Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Biriniz öldükdən sonra səhər-axşam ona yeri göstərilir. Cənnət əhlindəndirsə, Cənnət, Cəhənnəm əhlindəndirsə, Cəhənnəm. Sonra ona deyilir: "Qiyamət günü Allah səni dirildənədək bu sənin qalacağın yer olacaq."[2] Muslimin "Səhih" əsərində Ənəsdən ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "(Ölülərinizi) dəfn edəsi olmasaydınız Allaha dua edərdim ki, qəbir əzabını sizlərə eşitdirsin." [3]

Quran və Sünnədə bu cür dəlillər çoxdur və biz də bunlardan bəzilərini qeyd etdik. Allah isə daha yaxşı bilir.

**İkinci məsələ. Qəbir nemətinin və onun əzabının həm ruh, həm də bədən üçün olması.**

Qəbirdəki nemətlər və əzab həm ruha, həm də bədənə veriləcəkdir. Ruh bədənlə birlikdə bütün nemət və əzabları dadacaqdır. Ola bilsin ki, bəzən yalnız ruha nemət və ya əzab verilsin. Buna dair bir çox dəlillər vardır və Əhli Sünnə alimlərinin mövqeyi də bundan ibarətdir. Bəziləri isə qəbirdəki nemət və əzabın bədənə deyil, yalnız ruh üçün olacağını iddia etmişlər.

Buna dəlil olaraq Buxarinin, Ənəs ibn Malikdən rəvayət etdiyi hədisi göstərmək olar. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "Bəndə qəbrə qoyulduğu və yoldaşları dönüb getdiyi zaman onların ayaqqabılarının səsini belə eşidir və həmin anda onun yanına iki mələk gəlib onu otuzdurur və ondan soruşurlar ki: "Bu Muhəmməd ﷺ deyilən adam haqqında nə deyə bilərsən?" Mömin: "Mən şahidlik edirəm ki, Muhəmməd Allahın qulu və elçisidir"– deyə cavab verir. *Onda ona* deyirlər: "Cəhənnəm odundakı yerinə bax! Allah onun əvəzinə

---

[1] "Səhih əl-Buxari", "Qəbir əzabı" fəsli.

[2] "Səhih əl-Buxari", 1379; "Səhih Muslim", 2866.

[3] "Səhih Muslim", 2868.

sənə Cənnətdə bir yer verdi." O adam hər iki yerini görür. Münafiqə və kafirə gəlincə, ondan da: "Bu Muhəmməd ﷺ deyilən adam haqqında nə deyə bilərsən?"– deyə soruşurlar. O: "Bilmirəm, mən insanların dediyini deyirdim." *Onda ona* deyilir: "Sən *haqqı* başa düşməmisən və *Quran* oxumamısan!" Bundan sonra dəmir çəkiclə ona bir zərbə vurulur və o elə bağırır ki, cinlər və insanlar istisna olmaqla, ətrafdakıların hamısı onun səsini eşidir."[1]

Əhməd, Əbu Davud və Hakimin, Bəra ibn Azibdən رضي الله عنه rəvayət etdiyi uzun bir hədisdə Peyğəmbər ﷺ möminin ruhunun çıxıb səmaya yüksəldiyini qeyd etdikdən sonra demişdir: "Sonra onun ruhu bədəninə qaytarılır və yanına iki mələk gəlir. Onlar: "Rəbbin kimdir?"– deyə soruşurlar."[2] Bu hədisi Hakim və başqaları səhih saymışlar.

Bu iki hədis qəbirdəki nemət və əzabın həm ruh, həm də bədən üçün olduğunu göstərir. Peyğəmbərin ﷺ: "İnsan qəbrə qoyulduqda.." sözündə insan kəlməsi həm ruha, həm də bədənə şamil olunur. Həmçinin Bəra ibn Azibdən rəvayət olunan hədisdə göstərilir ki, insanın ruhu bədəninə qaytarıldıqdan sonra o, sorğu-suala tutulur. Habelə hədisdə: "O da onların ayaq səslərini eşidir", "ona toppuzla zərbə endirilir", "o çığırır"– deyilir ki, bütün bunlar da qəbirdəki nemət və əzabın həm ruh, həm də bədən üçün olacağını sübut edir.

Bəzi hədislərdə isə qeyd olunur ki, bəzən əzab və ya nemət yalnız ruha verilir. Abdullah ibn Abbasdan رضي الله عنهما rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Qardaşlarınız Uhud döyüşündə şəhid olduqdan sonra Allah onların ruhunu yaşıl quşların içinə yerləşdirdi, onlar da Cənnətin çaylarına gedir, Cənnət meyvələrindən yeyir və Ərşin kölgəsində yerləşən qızıl çıraqlara qonurlar."[3]

Bir sözlə bəlli olur ki, qəbirdəki nemət və əzab həm ruha, həm də bədənə verilir, bəzi hallarda isə yalnız ruha da verilə bilər. Bəzi mötəbər Sünnə alimləri bu məsələ barəsində demişlər: "Əhli Sünnə vəl Cəmaənin yekdil rəyinə görə qəbir neməti və əzabı həm ruha, həm də bədənə verilir. Bu zaman ruh bədənlə əlaqədə olur və hər ikisi əzabı dadır. Bəzən bədənə deyil, yalnız ruha, ya əzab, ya da nemət verilir."

---

[1] "Səhih əl-Buxari", 1338.

[2] "Musnəd Əhməd", 4/287; "Sunən Əbu Davud", 4753.

[3] "Musnəd Əhməd", 1/266; "Mustədrək əl-Hakim", 2/88, 297.

**Üçüncü məsələ. İki mələyə – Münkər və Nəkir adlı mələklərə iman gətirmək.**

Mələklərə iman fəslində qeyd etmişdik ki, qəbirdə insanı sorğu-sual edən Münkər və Nəkir adlı iki mələk vardır. Burada, onlara iman gətirməyi ona görə yenidən qeyd edirik ki, onlara iman qəbir həyatına iman gətirməyin bir hissəsidir.

Bu mələklərin nə biçimdə olduğu və onların qəbirdəki insanları sorğu-suala tutmaları barədə bir çox səhih hədislər varid olmuşdur. Tirmizi və İbn Hibban, Əbu Hureyradan ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "İnsan (və ya sizlərdən biri) dəfn olunduqda yanına rəngi qara və göy olan iki mələk gəlir. Birinə Münkər, digərinə isə Nəkir deyirlər. Onlar qəbirdəkindən soruşurlar: "Bu kişi haqqında nə deyirdin?" *Mömin bəndə* deyir: "Şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur və Muhəmməd onun qulu və elçisidir." Onlar: "Bilirdik ki, belə deyəcəksən"– deyir, sonra da həmin şəxsin qəbri yetmiş arşının yetmiş arşına nisbətində genişləndirilir. Münafiq olan kəs isə deyir: "Bilmirəm, insanlar nə deyirdilərsə, mən də onu deyirdim." Onlar da ona: "Bilirdik ki, belə deyəcəksən"– deyir, sonra da yerə: "Sıxıl"– deyə buyurur və yer elə sıxılır ki, həmin şəxsin qabırğaları bir-birinə keçir. Allah insanları dirildənədək o, bu vəziyyətdə əzab çəkir."[1]

Mələklərin sorğu-sual etmələrinə dair keçən fəsildə qeyd etdiyimiz, Ənəsdən ﵁ rəvayət olunan hədis də dəlildir.

Hədislərdə göstərildiyi kimi, təfsilatı ilə bu iki mələyə, onların adlarına, onların vəsflərinə, sorğu-sual etmələrinə, bunun necəliyinə, möminin və münafiqin necə cavab verməlırinə, habelə bundan sonra baş verən nemət və əzaba iman gətirmək vacibdir.

Alimlər qəbirdəki sorğu-sualın bizim ümmətə, yoxsa bütün ümmətlərə şamil edildiyi barədə fikir ayrılığındadırlar. Əslində isə dəlillərdə göstərildiyi kimi, bu sorğu-sual bütün insanlara aiddir. Daha doğrusunu isə Allah bilir.

---

[1] "Sunən ət-Tirmizi", 1071.

## *III mövzu.*
## *Ölümdən sonra dirilməyə iman.*

Ölümdən sonra dirilməyə iman gətirmək dinimizin ən əzəmətli əsaslarındandır. Bu şərt özündə bir sıra önəmli məsələləri birləşdirir. Bunların araşdırarkən axirətə iman gətirməyin məğzini və vacibliyini, habelə ona aid hadisələrlə bağlı bəzi məsələlərə toxunacağıq ki, hər bir möminin buna iman gətirməsi vacibdir.

**Birinci məsələ: Ölümdən sonra dirilmə və onun məğzi.**

Ərəb dilindəki "bəs" sözü iki mənada olur:

Birincisi, "göndərmək" mənasıdır. Uca Allah buyurur: **"Onlardan sonra Musanı möcüzələrimizlə Firon və onun əyanlarına elçi göndərdik."** (əl-Əraf, 103).

İkincisi, "diriltmək", "təhrik etmək". Ölülərin dirildilərək qəbirlərindən çıxarılması da bu qəbildəndir. Uca Allah buyurur: "**Ölümünüzdən sonra Biz sizi dirildtdik ki, bəlkə şükür edəsiniz."** (əl-Bəqərə, 56).

İstilahi mənada da isə bu kəlimə, Uca Allahın ölüləri dirildib qəbirlərindən çıxarmasına deyilir.

Bunun mənası budur ki, Allah Öz qüdrəti ilə çürümüş cəsədlərə yenidən həyat verərək, onları dirildib əvvəlki halına salacaq və ruhları bədənlərə qaytaracaqdır. Daha sonra isə haqq-hesaba çəkilsinlər deyə onları məhşərə aparacaqdır. Uca Allah buyurur: **"O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim dirildə bilər?" De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir."** (Ya sin, 78-79).

Huzeyfə ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Bir adamın ölüm vaxtı gəlib çatmışdı. Adamın artıq yaşamaqdan ümidi kəsildikdə ailəsinə (belə bir) vəsiyyət etdi: "Mən öldükdən sonra çoxlu odun yığıb od qalayarsınız, (sonra da məni bu odda yandırarsı-

nız). Elə ki od mənim ətimi yandırıb sümüyümə çatdı və sümüyümü yandırıb-yaxdı, onları götürün və ovxalayıb toza döndərin, sonra küləkli bir günü gözləyin və həmin tozu dənizə sovurun." Onlar onun vəsiyyətini yerinə yetirdilər. Lakin Allah onu əvvəlki görkəminə qaytardı və ondan: "Nə üçün belə etdin?"– deyə soruşdu. O: "Səndən qorxduğum üçün!"– deyə cavab verdi. Allah da onu bağışladı."[1]

Bu kimi hədislər sübutdur ki, Uca Allah bədənləri yenidən xəlq edərək dirildəcək və ruhları onlara qaytaracaqdır. Şübhəsiz ki, bu Onun üçün çox asandır və O, hər şeyə qadirdir.

Sünnədə dirilmənin necə olacağı da göstərilir və bildirilir ki, Uca Allah yerə su endirəcək və ot bitdiyi kimi insanlar da qəbirlərindən çıxacaqlar. Buxari və Muslimin, Əbu Hureyradan ﷺ rəvayət etdikləri hədisdə Peyğəmbər ﷺ demişdir: "Surun birinci üfürülməsindən ikinci üfürülməsinədək qırx keçəcək." Bəziləri (Əbu Hureyradan): "Qırx gün?"– deyə soruşdular. O cavab vermədi. "Qırx ay?"– deyə soruşdular. Yenə cavab vermədi. "Qırx il?"– deyə soruşdular. Yenə cavab vermədi. Sonra o dedi: "İnsan (öldükdən sonra) onun bütün cəsədi çürüyür. Yalnız büzdüm[2] sümüyündən başqa. Qiyamət günü yaradılış məhz ondan başlayacaqdır."[3]

Bu hədis dirilmənin necə olacağını göstərir və bildirir ki, insanları öldürən birinci surla ikinci dirilmə suru arasında qırx vardır. Ravi qırx gün, ay və ya il deməmişdir. Lakin bəzi rəvayətlərdə zamanın qırx il olduğu bildirilir. Sonra Allah göydən yağmur endirərək insanları dirildəcək. Bəzi rəvayətlərdə həmin suyun insan mənisinə bənzədiyi də bildirilir. İnsanlar da yerdən ot bitdiyi kimi çıxacaqlar. İnsan öləndə onun büzdüm sümüyündən başqa bütün sümükləri çürüyür. Lakin bu peyğəmbərlərə aid deyildir. Belə ki, öncə qeyd etdiyimiz kimi onların bədənləri çürümür. Bununla da ölümdən sonra dirilmənin vaxtı və keyfiyyəti bizə bəlli olur. Daha doğrusunu Allah bilir.

---

[1] "Səhih əl-Buxari", 3479.
[2] Onurğanın qurtaracağını təşkil edən sümük.
[3] "Səhih əl-Buxari", 4935; "Səhih Muslim", 2955.

**İkinci məsələ: Ölümdən sonra dirilməyə dair Quran və Sünnədən dəlillər, habelə məntiqi sübutlar.**

Qurani Kərimdə və Peyğəmbərin ﷺ sünnəsində insanların öldükdən sonra diriləcəklərinə dair bir çox dəlillər vardır. Uca Allah buyurur: **"Ölümünüzdən sonra Biz sizi diriltdik ki, bəlkə şükür edəsiniz."** (əl-Bəqərə, 56). O, həmçinin buyurur: **"Sizi yaratmaq və diriltmək ancaq bir adamı yaratmaq və diriltmək kimidir. Həqiqətən, Allah Eşidəndir, Görəndir."** (Loğman, 28). O, həmçinin buyurur: **"Kafir olanlar heç vaxt dirildilməyəcəklərini iddia edirlər. De: "Xeyr, Rəbbimə and olsun ki, siz mütləq dirildiləcəksiniz. Sonra isə etdiyiniz əməllər sizə xəbər veriləcəkdir. Bu, Allah üçün çox asandır!"** (ət-Təğabun, 7).

Sünnədə isə Əbu Hureyra Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Allahın peyğəmbərlərini bir-birindən üstün tutmayın. Sur çalındığı zaman, Allahın dilədiyindən savayı, göylərdə və yerdə nə varsa hamısı məhv olacaqdır. Sonra daha bir sur çalınacaq və mən dirilənlərin ilki olacağam. Musa isə artıq Ərşdən tutmuş olacaq."[1] Buxari və Muslimin, Əbu Səid əl-Xudridən rəvayət etdikləri başqa bir hədisdə belə deyilir: "Yer ilk əvvəl mənim üçün aralanacaq."[2] Hər iki hədis Qiyamət günü ölülərin diriləcəyinə dəlildir. Eyni zamanda Peyğəmbərimizin ﷺ ilk olaraq dirilməsi onun fəzilətini göstərir.

Həmçinin məntiq də insanların diriləcəyini təsdiq edir. Belə ki, dirilmə bir şeyin bərpa olunması mənasındadır. Məlumdur ki, bir şeyi bərpa etmək onu yaratmaqdan daha asandır. Bu baxımdan Uca Allah Öz Kitabında ölümdən sonra dirilməni isbat edərək bildirir ki, yoxdan var edən ikinci dəfə diriltməyə də qadirdir. Bununla razı olmayanlar isə deyirlər: **"Çürümüş sümükləri kim dirildə bilər?"** (Ya sin, 78). O, həmçinin buyurur: **"De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir."** (Ya sin, 79). Başqa bir ayədə Rəbbimiz buyurur: **"Məxluqatı ilk dəfə *yoxdan* yaradan, sonra onu bir daha təkrarlayan Odur. Bu da Onun üçün çox asandır."** (Rum, 27). Bu da ölümdən sonra dirilməyi yalanlayan hər bir inadkara rədd olaraq həm şəri, həm də məntiqi dəlillərdir ki, bunu da heç kəs inkar edə bilməz.

---

[1] "Səhih əl-Buxari", 3414; "Səhih Muslim", 2373.

[2] "Səhih əl-Buxari", 2412; "Səhih Muslim", 2278.

**Üçüncü məsələ: *məhşərə* toplanma.**

Şəriətdə varid olmuş dəlillər insanların dirildikdən sonra çılpaq, sünnət olunmamış və ayaqyalın vəziyyətdə məhşərə toplanacaqlarını xəbər verir. Uca Allah buyurur: "**Biz hamını bir yerə toplayacaq, onlardan heç birini *kənara* buraxmayacağıq.**" (əl-Kəhf, 47). O, həmçinin buyurur: "**O gün yer başqa bir yerlə, göylər də *başqa göylərlə* əvəz olunacaq *və insanlar* Tək olan, *hər şeyə* Qalib gələn Allahın hüzurunda duracaqlar.**" (İbrahim, 48).

Aişə ﵂ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü insanlar ayaqyalın, çılpaq və sünnət olunmamış vəziyyətdə *məhşərə* toplanacaqlar." Aişə dedi: "Ya Rəsulullah! Qadınlar və kişilər hamısı bir yerdə, bir-birlərinə baxacaqlar?" Dedi: "Ey Aişə! *Onların* işi elə çətin olacaq ki, bu onları heç maraqlandırmayacaq."[1]

Bu toplanma bütün məxluqatlar üçün olacaq. Bundan savayı başqa bir toplantı da olacaqdır ki, bu da ya Cənnətdə, ya da Cəhənnəmdə baş verəcəkdir. Möminlər Cənnətdə ayaq üstə və oturmuş vəziyyətdə toplanacaqlar. Uca Allah buyurur: **"O gün Biz müttəqiləri Mərhəmətli *Allahın* hüzuruna hörmətli nümayəndələr kimi toplayarıq."** (Məryəm, 85).

Təbəri bu ayənin təfsirində Əlinin ﵁ belə dediyini rəvayət etmişdir: "And olsun ki, insanlar nə piyada gələrlər, nə də onları gətirərlər. Onlar heç kəsin görmədiyi dəvələr üzərində gələcəklər. Onların yəhərləri qızıldan, cilovları isə xrizolitdən[2] olacaq. Onlar həmin miniyə minərək Cənnətin qapılarının yanına gələrlər."[3]

Kafirlərə gəlincə, onlar Cəhənnəmə lal, kar və kor vəziyyətdə toplanarlar. Uca Allah buyurur: **"Üzüstə sürüklənib Cəhənnəmə toplanılacaq kimsələr – məhz onlar yerləri ən pis olan, *haqq* yoldan ən çox azan kimsələrdir."** (əl-Furqan, 34). O, həmçinin buyurur: **"Qiya-**

[1] "Səhih əl-Buxari", 6527; "Səhih Muslim", 2859.
[2] Qızılaçalar yaşılımtıl-sarı rəngli qiymətli daş.
[3] "Təfsir ət-Təbəri", 8/380.

**mət günü Biz onları kor, lal və kar olduqları halda üzü üstə bir yerə toplayacağıq."** (əl-İsra, 97).

**Dördüncü məsələ: Hovuz, onun vəsfi və buna dair dəlilləri.**

Bu, Allahın məhşərdə Öz peyğəmbəri Muhəmmədə ﷺ bəxş etdiyi böyük bir hovuzdur ki, Peyğəmbər ﷺ və onun ümməti onun başına toplanacaqlar. Dəlillərdə göstərilir ki, onun suyu süddən ağ, qardan soyuq və baldan şirin, iyisi də müşkdən daha xoşagedəndir. Bu hovuzun sahəsi olduqca genişdir – eni ilə uzunu bərabərdir, belə ki hər bir tərəfi bir aylıq məsafəyədək uzanır. Onun suyu öz mənbəyini Cənnətdən alır, belə ki, Cənnətdən ona biri qızıldan, digəri isə gümüşdən olan iki novla çay axır. Ətrafında da göydəki ulduzların sayı qədər bardaqlar vardır.

Hovuzun həqiqət olduğunu sübuta yetirən bir çox səhih hədislər vardır, hətta bəzi alimlər bu barədə varid olan hədislərin mutəvatir[1] dərəcəsinə çatdığını bildirmişlər. Otuzdan çox səhabə Peyğəmbərdən ﷺ hovuz barədə hədis rəvayət etmişdir. Ənəs ibn Malik رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mənim hovuzumun böyüklüyü Əylə[2] ilə Yəmənin Səna şəhərinin arası boydadır, ətrafına düzülmüş qədəhlər isə göydəki ulduzlar qədərdir." [3]

Abdullah ibn Amr ibn əl-As رضي الله عنهما Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mənim hovuzumun sahəsi bir ay gedilən yol qədər, tərəfləri də bərabərdir. Suyunun rəngi süddən ağ, qoxusu müşkdən daha gözəldir. Ətrafına düzülmüş bardaqlar isə göydəki ulduzlar qədərdir. Ondan (bir dəfə) içən kimsə artıq heç vaxt susamaz."[4]

Bu Hovuz məhşərdə olacaq, suyu da öz mənbəyini Kövsər çayından götürəcəkdir. Bu, Allahın Cənnətdə Öz Peyğəmbərinə ﷺ bəxş

---

[1] Bu, yalan danışacaqları təsəvvür olunmayan, isnadın əvvəlindən axırınadək bir toplumun digərindən rəvayət etdiyi hədisdir.

[2] Əylə Şam tərəfdən Qırmızı dənizin sahillərində yerləşən bir şəhərdir.

[3] "Səhih əl-Buxari", 6580; "Səhih Muslim", 2303.

[4] "Səhih əl-Buxari", 6579; "Səhih Muslim", 2292.

etdiyi çaydır. Uca Allah buyurur: **"Həqiqətən, Biz sənə Kövsəri bəxş etdik."** (əl-Kövsər, 1). Alimlər hansı birinin – tərəzinin qoyulmasının, yoxsa hovuzun başına toplanmanın daha öncə olacağı barədə ixtilaf etmişlər. Bəziləri tərəzinin qoyulacağını, digərləri isə hovuzun başına toplanmanın daha öncə olacağını bildirmişlər. Doğrusu isə budur ki, hovuzun başına toplanma daha öncə olacaq. Qurtubi demişdir: "Sağlam düşüncə də bunu təsdiqləyir, belə ki, insanlar qəbirlərindən çıxdıqları zaman susamış halda olacaqlar."

**Beşinci məsələ: Tərəzi, onun vəsfi və buna dair dəlilləri**.

Axirətə imanla bağlı digər bir məsələ də tərəzinin qoyulacağına iman gətirməkdir. Burada bir dili və iki gözü olan həqiqi tərəzi nəzərdə tutulur. Həmin tərəzidə insanların əməlləri çəkiləcək, zərrə qədər yaxşı və pis işləri hesaba alınacaqdır. Tərəzi haqda Quran və Sünnədə bir çox dəlillər vardır.

Uca Allah buyurur: **"Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir."** (əl-Ənbiya, 47). O, həmçinin buyurur: **"*O gün* kimin tərəziləri ağır gələrsə xoşbəxt güzəran sürəcək. Kimin tərəziləri yüngül gələrsə, məskəni Haviyə olacaqdır."** (əl-Qariə, 6-9).

Buxari və Muslim, Əbu Hureyradan ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Mərhəmətli Allaha sevimli, tələffüzü asan və tərəzidə ağır gələn iki kəlmə *vardır ki, bunlar*: "Sübhanəllahi və bihəmdihi, subhanəllahil-əzim!"[1] (kəlmələridir)."[2] İmam Əhməd, əl-Hakim və başqaları İbn Məsuddan rəvayət etmişlər ki, bir dəfə o Ərak ağacına çıxmışdı. Onun baldırları çox nazik idi. Külək onun paltarını yellədikdə insanlar gülməyə başladılar. Peyğəmbər ﷺ dedi: "Nəyə

---

[1] Tərcüməsi: Allah pak və müqəddəsdir! Allaha həmd olsun! Böyük Allah pak və müqəddəsdir!

[2] "Səhih əl-Buxari", 7563; "Səhih Muslim", 2694.

gülürsünüz?" Dedilər: "Onun ayaqlarının nazikliyinə gülürük, ey Allahın peyğəmbəri!" Peyğəmbər ﷺ dedi: "Canım əlində olan *Allaha* and olsun ki, onun ayaqları tərəzidə Uhuddan ağır gələcəkdir."[1] Hədisi Hakim səhih saymış, Zəhəbi də onun bu fikri ilə razılaşmışdır.

Dəlillərdə xəbər verilir ki, tərəzidə üç şey ölçüləcəkdir:

**1. Əməllər** – onlar tərəzidə cisim formasında olacaqlar. Yuxarıda Əbu Hureyradan رضي الله عنه nəql etdiyimiz: "İki kəlmə vardır ki..." hədisi buna dəlildir.

**2. Əməl səhifələri.** Abdullah ibn Amr رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ümmətimdən olan bir kişi Qiyamət günü məxluqatın qarşısına çağırılacaq və ona doxsan doqquz ədəd kitab göstəriləcək. Hər bir kitabın ölçüsü gözün gördüyü son məsafəyə qədər olacaq. Sonra qüdrətli və qüvvətli Allah buyuracaq: "Bunlardan birini inkar edə bilərsənmi? *Əməlləri* yazan gözətçi mələklərim sənə zülm ediblərmi?" Adam: "Xeyr, ya Rəbb!"– deyə cavab verəcək. Allah buyuracaq: "Sənin üzrün və ya savabın varmı?" Adam qorxu içində: "Xeyr, ya Rəbb!"– deyə cavab verəcək. Allah buyuracaq: "Əksinə, dərgahımızda sənin üçün bir savab vardır. Odur ki, bu gün sənə zülm edilməyəcək." Bu vaxt onun qarşısına içində "Əşhədu ən lə ilәhə illəllah və ənnə Muhəmmədən rəsulullah" yazılmış bir kağız parçası qoyulacaq. Sonra kitablar tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyulacaq və bu kağız parçasının ağırlığından o kitablar havaya qalxacaq. Əslində heç bir şey içində Mərhəmətli və Rəhmli Allahın Adı olan şeydən ağır gələ bilməz."[2]

**3. Əməl sahibinin özü.** Uca Allah bu barədə buyurur: **"Odur ki, Qiyamət günü Biz onlar üçün tərəzi qurmayacağıq."** (əl-Kəhf, 105).

Həmçinin dəlil olaraq qeyd etdiyimiz Abdullah ibn Məsuddan rəvayət olunan hədisi də göstərmək olar. Həmin hədisdə onun ayaqlarının tərəzidə Uhuddan daha ağır olduğu bildirilir.

[1] "Musnəd Əhməd", 1/420-421; "Mustədrək əl-Hakim", 3/317.

[2] "Musnəd Əhməd", 2/213; "Sunən ət-Tirmizi", 2639.

**Altıncı məsələ: Şəfaət, onun tərifi, növləri və dəlilləri**.

Şəfaət sözü lüğəvi mənada "tələb" və "vasitə" mənasındadır. İnsanlar arasında isə şəfaət, başqası üçün xeyirli bir şey istəməyə deyilir.

Allah yanında olunan şəfaət isə Ondan başqasının günahlarını əfv etməsini diləməyə deyilir.

Bu şəfaətin məğzi ondan ibarətdir ki, Qiyamət günü Uca Allah bəzi əməlisaleh bəndələrinə – mələklərə, peyğəmbərlərə və möminlərə izn verəcək ki, tövhid əhlindən olan bəzi günahkarlar üçün Onun yanında şəfaət diləsinlər. Bununla da Allah şəfaət diləyənlərin üstünlüyünü göstərmiş, şəfaət dilənilənə isə mərhəmət etmiş olacaq.

Allah yanında şəfaət diləmək yalnız iki şərtlə qəbul olur:

***Birinci:*** Uca Allahın şəfaətçiyə şəfaətçilik etməsi üçün izin verməsi. Uca Allah buyurur: **"Allahın izni olmadan Onun yanında kim havadarlıq edə bilər?"** (əl-Bəqərə, 255). O, həmçinin buyurur: **"Onun qarşısında, izin verdiyi kəslərdən başqa, heç kimin şəfaəti fayda verməz."** (Səba, 23).

***İkinci:*** Allahın şəfaət edən şəxsdən razı qalması. Uca Allah bu xüsusda buyurur: **"Onlar yalnız Onun razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir."** (əl-Ənbiya, 28).

Dəlillərdə göstərilir ki, Uca Allah şəfaəti yalnız tövhid əhlindən qəbul edər. Muslimin "Səhih" əsərində Əbu Hureyradan رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Hər bir peyğəmbərin qəbul edilmiş duası olmuşdur ki, o (artıq) bu dua ilə Allaha müraciət etmişdir. Mən isə öz duamı axirətdə ümmətimə şəfaət etmək üçün saxlamışam. Bu da, inşaAllah ümmətimdən Allaha şərik qoşmadığı halda dünyadan köşmüş kimsələrə nəsib olacaqdır."[1] Uca Allah kafirlər barəsində buyurur: **"Odur ki, şəfaət edənlərin şəfaəti onlara fayda verməz."** (əl-Müddəssir, 48).

Quran və Sünnədə Qiyamət günü Allah yanında şəfaətin olacağına dair bir çox dəlillər vardır. Quranda bu barədə varid olan bəzi dəlilləri qeyd etdik. Sünnədə isə şəfaət barədə hədislər çoxdur. Əbu

[1] "Səhih Muslim", 199.

Səid əl-Xudri Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "...Bundan sonra İzzətli və Qüdrətli Allah: "Mələklər şəfaət etdilər, peyğəmbərlər şəfaət etdilər, möminlər şəfaət etdilər. (Şəfaət etməyən) bircə rəhmlilərin Rəhmlisi qaldı"– deyə buyuracaq, sonra da heç vaxt yaxşılıq etməmiş bir toplumu ovuclayıb Cəhənnəmdən çıxaracaq."[1]

Şəfaət barədə hədislər çoxdur. Alimlər öz kitablarında bu hədislərin məşhur və mutəvatir dərəcələrinə çatdığını bildirmişlər. Buxari və Muslimin "Səhih" əsərlərində belə bir hədis də vardır: "Qəlbində xardal dənəciyi qədər olsa belə imanı olan kəs Cəhənnəm odundan çıxacaqdır."[2]

**Şəfaətin növləri.** Şəfaət qəbul olunub-olunmamaq baxımından iki qismə bölünür:

**– Rədd olunan növ.** Bu, yuxarıda qeyd etdiyimiz şəfaətə aid şərtlərdən birini özündə ehtiva etməyən növlərə deyilir.

**– Məqbul olunan növ.** Bura da özündə həmin şərtləri cəm edən şəfaət aiddir.

Peyğəmbərimizə ﷺ bu şəfaətin səkkiz növü verilmişdir:

1. Ən böyük şəfaət. Bu, Allahın insanlar arasında hökm verməsi üçün Peyğəmbərimizin ﷺ tərifəlayiq məqamda insanlara edəcəyi şəfaətdir ki, bunu da Allah başqa bir peyğəmbərə yox, məhz peyğəmbərimiz Muhəmmədə ﷺ bəxş etmişdir.

2. Savabları ilə günahları eyni səviyyədə olan kimsələr üçün edəcəyi şəfaət. Onlar bu şəfaətin sayəsində Cənnətə girəcəklər.

3. Cəhənnəmə layiq olan kimsələrin ora düşməmələri üçün edəcəyi şəfaət.

4. Cənnət əhlinin Cənnətdəki dərəcələrinin yüksəlməsi üçün edəcəyi şəfaət.

5. Bəzi insanların Cənnətə haqq-hesabsız girmələri üçün edəcəyi şəfaət.

---

[1] "Musnəd Əhməd", 3/94; "Musənnəf Abdurrəzzaq", 20857.

[2] "Səhih əl-Buxari", 7439; "Səhih Muslim", 184.

6. Şiddətli əzaba layiq olan kəslərin əzabının yüngülləşdirilməsi üçün edəcəyi şəfaət. Peyğəmbərin ﷺ əmisi Əbu Talib üçün edəcəyi şəfaət bu növə aiddir.

7. Cənnət əhlinin Cənnətə girmələrinə izin verilməsi üçün edəcəyi şəfaət.

8. Ümmətindən Cəhənnəmə daxil olmuş böyük günah sahiblərinin oradan çıxmaları üçün edəcəyi şəfaət.

Bütün bu növlərə səhih Sünnədə ayrı-ayrı dəlillər vardır. Bu növlərdən bəziləri, o cümlədən ən böyük şəfaət, habelə əmisi Əbu Talib üçün edəcəyi şəfaət və Cənnət əhlinin Cənnətə daxil olmaları üçün edəcəyi şəfaət yalnız Peyğəmbərimizə ﷺ xasdır. Böyük günah sahiblərinə ediləcək şəfaət və digər şəfaətlər isə onunla yanaşı digər peyğəmbərlərə və əməlisaleh insanlara da veriləcəkdir. Bunun bəzi növlərinin kimlərə xas olması barədə elm əhli müxtəlif fikirlər irəli sürmüşlər. Daha doğrusunu isə Allah bilir.

**Yeddinci məsələ: Sirat, onun vəsfi və buna dair dəlilləri.**

"Sirat" sözünün lüğəvi mənası "aydın yol"dur.

İstilahi mənada isə "sirat" Cəhənnəmin üzərində qurulacaq körpüdür ki, əvvəlincilərdən axırıncılaradək (bütün insanlar) onun üzərindən keçəcəklər. Həmçinin məhşərdəki (cənnətliklər) onun üzərindən keçib Cənnətə daxil olacaqlar. Quran və Sünnədə bu körpünün həqiqət olduğuna dair çoxlu dəlillər vardır.

Uca Allah buyurur: **"İçinizdən hər kəs oraya varid olacaqdır.** ***Bu,*** **Rəbbinin** *əzəldən* **müəyyən etdiyi qəti bir qərardır. Sonra Biz müttəqiləri** ***oddan*** **xilas edəcək, zalımları isə orada diz üstə çökmüş halda tərk edəcəyik"** (Məryəm, 71-72). Əksər təfsir alimləri burada, Cəhənnəmə varid olacaq deyildikdə, Siratın üstündən keçmək nəzərdə tutulduğunu bildirmişlər. Bu, İbn Abbas, İbn Məsud və Kəb əl-Əhbardan nəql olunmuşdur.

Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Səid əl-Xudridən رضي الله عنه Allahı görmək və şəfaət barəsində rəvayət olunmuş uzun hədisdə Peyğəmbər ﷺ demişdir: "...Bundan sonra Körpü gətiriləcək və Cə-

hənnəmin üzərində qurulacaqdır." Soruşduq: "Yə Rəsulullah! O nə körpüdür elə?" Dedi: "Sürüşkən və hamar bir şeydir. Orada çəngəllər, qarmaqlar və dəmir tikanlar vardır. Bunlar Nəcddə bitən, *üstü* tikanla *dolu*, sadan deyilən bir bitkiyə *bənzəyir*. Möminlərdən – *kimisi* bir göz qırpımında, *kimisi* şimşək tək, *kimisi* külək kimi, *kimisi də* ən bərk qaçan cins at və ya adi bir atlı kimi *sürətlə həmin körpünün üstündən* keçəcək. *Kimisi* sağ-salamat qurtulacaq. Kimisi *tikanlara ilişib* didik-didik ediləcək, lakin axırda xilas olacaq. Bəziləri də Cəhənnəm odunda qalaqlanacaqlar. Lap axırıncılar isə o Körpünün üstündən sürünə-sürünə keçəcəklər."[1]

Siratı vəsf edən bir çox dəlillər vardır. Onların məzmunu ondan ibarətdir ki, sirat tükdən nazik, qılıncdan iti və həm də sürüşkəndir. Allahın sabitqədəm etdiklərindən başqa heç kəs onun üzərində dura bilməyəcək, zülmətdə insanlara onların imanlarına görə nur saçılacaq və az öncə qeyd etdiyimiz hədisdə göstərildiyi kimi, imanlarına görə onun üzərindən keçəcəklər.

**Səkkizinci məsələ: Cənnət və Cəhənnəm, onların vəsfi, onlara iman gətirməyin necəliyi və buna dair dəlillər.**

İman gətirilməsi vacib olan məsələlərdən biri də Cənnət və Cəhənnəmə iman gətirməkdir.

Cənnətə gəlincə, bu, itaətkar möminlər üçün mükafat olaraq hazırlanmış bir yeridir. O, yeddinci səmada, Sidratul-Muntəhanın yanında yerləşir. Uca Allah buyurur: **"Onu bir daha *öz sürətində* enərkən gördü – son həddəki Sidr ağacının yanında. Məva bağı da onun yanındadır."** (ən-Nəcm, 13-15).

Cənnətdə yüz mərtəbə vardır ki, bunların hər birinin arasındakı məsafə yerlə göy arasında olan məsafəyə bərabərdir. Buxarinin "Səhih" əsərində, Əbu Hureyradan ﵁ Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Cənnətdə yüz mərtəbə vardır ki, Allah onları Allah yolunda cihad edənlər üçün hazırlamışdır. Və hər iki mərtəbə arasın-

[1] "Səhih əl-Buxari", 7439; "Səhih Muslim", 183.

dakı məsafə yerlə göy arasındakı məsafə qədərdir."[1] Cənnətin ən yüksək yeri Uca Firdovsdur. Onun üzərində Ərş yerləşir. Cənnətin çayları da öz mənbəsini Firdovsdan götürür. Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Allahdan dilədikdə Firdovs Cənnətini istəyin, o Cənnətin ortası və ən uca yeridir. Onun üzərində ər-Rəhmanın Ərşi yerləşir, Cənnətin çayları da öz mənbələrini oradan götürürlər." Həmçinin Cənnətin səkkiz qapısı vardır. Buxarinin "Səhih" əsərində Səhl ibn Səddən ﷺ Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Cənnətin səkkiz qapısı vardır. Onun Rəyyan adlı bir qapısı vardır ki, oradan yalnız oruc tutanlar daxil olar."[2] Allah Cənnətdə insanlar üçün heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi və heç kimin ağlına belə gəlməyən saysız nemətlər hazırlamışdır.

Cəhənnəmə gəlincə, bu, Allahın kafirlər, müşriklər, etiqadlarında nifaq olan münafiqlər və günahlarının müqabilində cəzaya məhkum olmuş günahkar tövhid əhli üçün hazırladığı dönüş yeridir. Sonra isə həmin tövhid əhli Oddan çıxıb Cənnətə daxil olacaqdır. Uca Allah buyurur: **"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa *olan günahları* isə istədiyi kimsəyə bağışlayar."** (ən-Nisa, 48) İbn Abbasdan nəql edilmiş rəvayətə əsasən, Cəhənnəm yerin yeddinci qatında yerləşir. Və Cəhənnəmin bir-birindən aşağı təbəqələri vardır. Abdur-Rəhman ibn Əsləm demişdir: "Cənnətin mərtəbələri yuxarıya doğru, Cəhənnəmin təbəqələri isə aşağıya doğru uzanır. Cəhənnəmin ən alt təbəqəsi münafiqlərin yeridir. Uca Allah buyurur: **"Həqiqətən, münafiqlər Odun ən aşağı təbəqəsində olacaqlar; və sən onlara heç bir köməkçi tapa bilməzsən."** (ən-Nisa, 145). Və Cəhənnəmin yeddi qapısı vardır. Uca Allah buyurur: **"Onun yeddi qapısı vardır. Hər qapı üçün onlardan müəyyən bir dəstə təyin olunmuşdur."** (əl-Hicr, 44). Dünya həyatındakı od, Cəhənnəm odunun yetmişdə biridir. Buxari və Muslim, Əbu Hureyradan ﷺ Pey-

---

[1] "Səhih əl-Buxari", 2790.

[2] "Səhih əl-Buxari", 3257.

ğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Sizin istifadə etdiyiniz od Cəhənnəm odunun yetmiş hissəsindən biridir."[1]

**Cənnət və Cəhənnəmə iman gətirməyin üç şərti:**

***Birinci:*** Onların hər ikisinin varlığına, Cənnətin müttəqilər, Cəhənnəmin isə kafir və münafiqlər üçün hazırlandığına etiqad etmək.

Uca Allah buyurur: **"Şübhəsiz ki, ayələrimizi inkar edənləri odda yandıracağıq. Hər dəfə onların dəriləri yandıqca, əzabı *daim* dadsınlar deyə, Biz o *dəriləri* başqa dərilərlə əvəz edəcəyik. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. İman gətirib saleh əməllər işləyənləri isə *ağacları* altından çaylar axan, içində əbədi məskunlaşacaqları Cənnət bağlarına daxil edəcəyik. Onlar üçün orada pak zövcələr vardır. Biz onları sıx kölgəliklərdə yerləşdirəcəyik."** (ən-Nisa, 56-57).

***İkinci:*** Onların hal-hazırda mövcud olmalarına etiqad etmək. Uca Allah buyurur: **"Müttəqilər üçün hazırlanmışdır."** (Ali İmran, 133). Cəhənnəm barədə isə belə buyurur: **"Kafirlər üçün hazırlanmışdır."** (əl-Bəqərə, 24).

Buxari və Muslimin "Səhih" əsərlərində İmran ibn Husayndan رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Mən Cənnətə baxdım və onun sakinlərinin əksəriyyətinin kasıblar olduğunu gördüm. Həmçinin Cəhənnəmə baxdım və onun sakinlərinin əksəriyyətinin qadınlar olduğunu gördüm."[2]

***Üçüncü:*** Onların hər ikisinin əbədi olaraq qalacaqlarına və içindəkilərlə birlikdə əsla fəna olmayacaqlarına etiqad etmək. Uca Allah Cənnət barəsində buyurur: **"Onlar orada əbədi qalacaqlar, bu böyük bir uğurdur."** (ən-Nisa, 13). Cəhənnəm barədə isə belə buyurur: **"Kim Allaha və Onun Elçisinə asi olarsa, onun üçün içərisində əbədi qalacaqları Cəhənnəm odu hazırlanmışdır."** (əl-Cin, 23).

Burada asilik deyildikdə, küfr nəzərdə tutulur və onların Cəhənnəmdə əbədi qalacaqları bildirilir. Qurtubi demişdir: "Burada əbə-

---

[1] "Səhih əl-Buxari", 3265; "Səhih Muslim", 871.

[2] "Səhih əl-Buxari", 3241; "Səhih Muslim", 2738.

di sözünün işlənməsi asiliyin şirk olduğunu bildirir."[1] Buxari və Muslim, Abdullah ibn Ömərdən ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Allah cənnətlikləri Cənnətə, cəhənnəmlikləri də Cəhənnəmə daxil etdikdən sonra, carçı onları çağırıb deyəcək: "Ey Cənnət əhli, artıq ölüm yoxdur! Ey Cəhənnəm əhli, artıq ölüm yoxdur! Hər kəs indi olduğu yerdə əbədi qalacaqdır."[2]

**Axirət gününə iman gətirməyin səmərəsi:**

Axirətə iman gətirməyin möminin həyatında böyük faydaları vardır. Onlardan ən önəmli olanları bunlardır:

1. Həmin gün savaba nail olmaq üçün Allaha itaət etməyə can atmad, həmçinin o gün günahlara görə cəzalandırılmaqdan qorxaraq günahlardan çəkinmək.

2. Möminin axirət savabını və nemətlərini dilədiyinə görə dünya həyatında əldə edə bilmədiyi nemətlərə görə narahat olmaması.

3. Allahın ədalətli olmasını dərk etmək, çünki hər kəs etdiyi əməllərinin əvəzini alacaqdır.

---

[1] "Təfsir əl-Qurtubi", 19/27; "Fəth əl-Qədir", 5/307.

[2] "Səhih əl-Buxari", 6544; "Səhih Muslim", 2850.

# V fəsil

## Qəza və qədərə iman

### Bu fəsil iki mövzudan ibarətdir

*I mövzu. Qəza və qədərin tərifi, dəlilləri və onlar arasındakı fərq.*

*II mövzu: Qədərin mərtəbələri*

# V fəsil.
# QƏZA VƏ QƏDƏRƏ İMAN

## *I mövzu. Qəza və qədərin tərifi, dəlilləri və onlar arasındakı fərq.*

**Qəza və qədərin tərifi.**

Lüğəvi mənada ərəbcə "qəza" "hökm", "son qərar" deməkdir.

Şəri mənada isə bu, pak və Uca Allahın bu aləmdə yaratdığına, məhv etdiyinə və dəyişdirdiyinə verdiyi qərara deyilir.

"Qədər" sözü isə lüğəvi mənada ərəbcə "qədərə" feilindən əmələ gəlmiş məsdərdir və bir şeyin miqdarını təyin etməyə deyilir.

İstilahi mənada isə qədər, Uca Allahın Öz əzəli elmi sayəsində əzəldən məxluqatı üçün müəyyən etdiyi müqəddəratdır.

**Qəza və qədər arasındakı fərq.**

Alimlər qəza ilə qədər arasındakı fərqi belə izah etmişlər: qədər – bir şey baş verməmişdən öncə onun müqəddəratını təyin etməyə deyilir. İş bitdikdən sonra isə ona qəza deyilir. Əbu Hatim qəza ilə qədərin arasındakı fərqi izah edib demişdir: "Qədər – dərzinin bir libası tikməmişdən öncə onu təxmin etməsinə deyilir. Onu dəqiqliklə ölçüb-biçib, tikib hazırladıqda bu artıq qəza sayılır. Beləliklə də qədər qəzadan öncə baş verir. İbn Əsir demişdir: "Qəza və qədər bir-biri ilə sıx bağlılığı olan, ayrılmaz iki məfhumdur. Qədər bir binanın özülü kimidir, qəza isə binanın özü kimidir. Bu iki şeyi bir-birindən ayıran binanı tarimar etmiş olar."

Qəza və qədər kəlmələri yanaşı işləndikdə fərqli mənada, ayrı-ayrılıqda işləndikdə isə eyni mənanı ifadə edirlər. Bunu da bəzi alimlər bildirmişlər.

**Qədəri isbat edən dəlillər.**

Qədərə iman gətirmək imanın əsaslarından biridir və bunu Quran və Sünnədəki dəlillər sübuta yetirir.

Qurandan Uca Allahın bu ayələrini dəlil göstərmək olar: **"Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq."** (əl-Qəmər, 49). O, həmçinin buyurur: **"Allahın əmri əzəldən müəyyən edilmiş bir hökmdür."** (əl-Əhzab, 38). O, həmçinin buyurur: **"O, bütün şeyləri xəlq etmiş və onlara münasib bir biçim vermişdir."** (əl-Furqan, 2).

Sünnədə də qədər barədə çoxlu hədislər vardır. Həmin hədislərdən biri məşhur Cəbrail hədisidir ki, bu hədisdə o, Peyğəmbərdən ﷺ imanın rüknləri barədə soruşmuş və Peyğəmbər ﷺ: "Qədərin xeyir və şərinə iman gətirməkdi"– deyə cavab vermişdir. Həmin hədisi tam formada mələklərə iman fəslində qeyd etmişik.

Muslim "Səhih" əsərində Abdullah ibn Amr ibn əl-Asdan رضي الله عنهما Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: "Allah göyləri və yeri yaratmamışdan əlli min il əvvəl məxluqatın müqəddəratını yazmışdır. O zaman Onun Ərşi suyun üzərində idi."[1]

Qədərə iman məsələsində səhabələr və onlardan sonrakılar yekdil rəydə olmuşlar. Muslim "Səhih" əsərində Tavusun belə dediyini rəvayət etmişdir: "Mən Rəsulullahın ﷺ səhabələrindən bəzilərini gördüm, onların hamısı hər bir şeyin qədərə uyğun baş verdiyini xəbər vermişlər." Həmçinin Abdullah ibn Ömərin رضي الله عنهما belə dediyini eşitmişəm: "Peyğəmbər ﷺ belə buyurmuşdur: "Hər bir şey, hətta acizlik və fəallıq (yaxud fəallıq və acizlik) belə qədərlə bağlıdır." İmam Nəvəvi demişdir: "Quran və Sünnədə varid olmuş tutarlı dəlillər, habelə səhabələrin icması və bir də sələf və xələf alimlərinin yekdil rəyi subut edir ki, pak və Uca Allah (əzəldən) hər bir şeyin müqəddəratını yazmışdır."

[1] "Səhih Muslim", 2653.

## *II mövzu: Qədərin mərtəbələri.*

Dəlillərdən aydın olur ki, qədərin dörd mərtəbəsi vardır. Bunu alimlər də təsdiqləmişlər. Həmin mərtəbələr aşağıdakılardır:

***Birinci mərtəbə:*** Allah bütün mövcud olan və olmayan, mümkün olan və olmayan hər bir şeyi əhatəli şəkildə bilir. Nə olub, nə olacaq, nə olmayıb və əgər olsaydı, nə cür olacağını yalnız Allah bilir. Buna da Uca Allahın bu ayəsi dəlildir: **"Vəhy onların arasında ona görə nazil olur ki, Allahın hər şeyə qadir olduğunu və Allahın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz."** (ət-Taləq, 12).

Buxari və Muslimin "Səhih" əsərlərində İbn Abbasın ﵄ belə dediyi rəvayət olunur: "Peyğəmbərdən ﷺ müşriklərin uşaqları haqqında soruşdular. O buyurdu: "Allah onları yaratdığı zaman onların nə əməllər edəcəklərini yaxşı bilir."[1]

***İkinci mərtəbə:*** Allahın Qiyamət gününədək olacaq hər bir şeyi yazmasıdır. Uca Allah buyurur: **"Məgər bilmirsən ki, Allah göydə və yerdə olanları bilir? Həqiqətən, bu, Yazıda mövcuddur. Şübhəsiz ki, bu, Allah üçün asandır."** (əl-Həcc, 70). O, həmçinin buyurur: **"Biz hər şeyi açıq-aydın Yazıda *(Lövhi-məhfuzda)* qeydə almışıq."** (Yasin, 12). Sünnədən isə bir az əvvəl Abdullah ibn Amr ibn əl-Asdan, müqəddəratın yerlə göy yaranmamışdan əlli min il əvvəl yazılması hədisini dəlil göstərmək olar.

***Üçüncü mərtəbə:*** hər şeyin istəklə bağlı olması, yəni Allah istədiyi şey olur, istəmədiyi isə olmur. Uca Allah buyurur: "**Bir şeyi *yaratmaq* istədikdə ona ancaq: "Ol!" deyər, o da olar."** (Yasin, 82). O, həmçinin buyurur: **"Aləmlərin Rəbbi Allah istəməyincə, siz istəyə bilməzsiniz!"** (ət-Təkvir, 29). Buxari və Muslim, Əbu Hureyradan ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Sizdən heç kəs deməsin ki: "Allahım, əgər istəyirsənsə, məni bağışla! Allahım, əgər istə-

[1] "Səhih əl-Buxari", 1384; "Səhih Muslim", 2659.

yirsənsə, mənə rəhm et!" Qoy hər kəs qətiyyətlə dua etsin. Çünki Allah istədiyini edir və heç kəs Onu nəyəsə vadar edə bilməz."[1]

***Dördüncü mərtəbə:*** Allahın hər bir şeyi yoxdan yaratmağa qadir olması. Belə ki, hər bir iş görəni və onun gördüyü işi, hər bir hərəkət edəni və onun hərəkətini, habelə hər bir hərəkətsiz duranı və onun hərəkətsizliyini yaradan məhz pak və müqəddəs Allahdır. Uca Allah buyurur: **"Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır."** (əs-Saffət, 96). Buxarinin "Səhih" əsərində İmran ibn Husayndan ﷺ Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Allah var idi və Ondan başqa heç bir şey yox idi. Onun Ərşi suyun üzərində idi. Allah Kitabda (olacaq) hər şeyi yazdı. (Sonra) göyləri və yeri yaratdı."[2]

Qədərə tam iman gətirmək üçün bu mərtəbələrin hamısına iman gətirmək vacibdir. Bunlardan birini inkar edən kəs qədərə iman gətirmiş sayılmır. Daha doğrusunu isə Allah bilir.

**Qədərə iman gətirməyin faydaları**.

Qədərə iman gətirməkdə möminin həyatı üçün böyük faydalar vardır.

1. Bir işi gördükdə Allaha arxayın olmaq, belə ki, səbəbləri də, onun nəticələrini də yaradan Allahdır.

2. Hər bir şeyin Allahın qəza və qədəri ilə olmasını başa düşdükdə möminin canı rahat və qəlbi arxayın olur.

3. İnsan istəyinə nail olduqda lovğalanmamalıdır, çünki bu nailiyyət Allahın istəyi sayəsində olmuşdur. Sadəcə olaraq Allaha şükür edib lovğalıqdan uzaq durmaq lazımdır.

4. Bir iş alınmadıqda qəmgin olmaq lazım deyil. Çünki bu da Allahın qədəridir və buna səbir etmək gərəkdir.

---

[1] "Səhih əl-Buxari", 6339; "Səhih Muslim", 2679.

[2] "Səhih əl-Buxari", 3191.

# III hissə.

## ƏQİDƏYƏ AİD OLAN DİGƏR MƏSƏLƏLƏR

**Bu hissə beş fəsildən ibarətdir**

**I fəsil.** **İslam, iman və ehsan**

**II fəsil.** **İslamda dost və düşmən anlayışı, mənası və qaydaları.**

**III fəsil.** **Səhabələr və onların haqları.**

**IV fəsil.** **Müsəlmanların rəhbərləri və ümumi müsəlmanlar xüsusunda vacib olanlar, habelə onların camaatı ilə birgə olmaq**

**V fəsil.** **Quran və Sünnəyə sarılmağın vacibliyi və təfriqəyə düşməyin qadağan olması**

# I fəsil
## İslam, iman və ehsan

*I mövzu. İslam*

*II mövzu. İman*

*III mövzu. Ehsan*

*IV mövzü. İslam, iman və ehsan arasındakı bağlılıq*

# III hissə.
# ƏQİDƏYƏ AİD OLAN DİGƏR MƏSƏLƏLƏR

## I fəsil. İslam, iman və ehsan

### *I mövzu. İslam*

**Tərifi.** Lüğəvi mənada "İslam" "tabe olmaq", "itaət etmək" və "boyun əymək" mənasındadır.

Şəri mənada isə təkAllahlığı qəbul edərək Allaha boyun əymək, Onun buyruqlarına itaət etmək, Ona şərik qoşmaqdan uzaq durmaq və müşrikləri dost tutmamaqdır. Uca Allah buyurur: **"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm."** (əl-Ənam, 162-163). O, həmçinin buyurur: **"İslamdan başqa bir din axtaran şəxsdən, o *din* heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar."** (Ali İmran, 85).

**İslamın rüknləri.**

İslamın beş rüknü vardır. Abdullah ibn Ömərdən رضي الله عنهما rəvayət edilir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "İslam beş (əsas) üzərində qurulmuşdur: Allahdan başqa (ibadətə haqqı olan) məbud olmadığına və Muhəmmədin ﷺ Allahın elçisi olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq və Allahın Evinə həcc etmək."[1] Öncə qeyd etdiyimiz Cəbrail hədisi də buna dəlildir: "Ey Muhəmməd, mənə İslam haqqında xəbər ver!" Peyğəmbər ﷺ dedi: "İslam (odur ki,) Allahdan başqa (haqq) məbud olmadığına və

[1] "Səhih əl-Buxari", 8; "Səhih Muslim", 16.

Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirəsən, namaz qılasan, zəkat verəsən, ramazan ayını oruc tutasan və imkanın olduğu təqdirdə Kəbəni ziyarət edəsən." Adam: "Doğru söylədin!"– dedi."[1]

İki şəhadətin mənası: "Lə iləhə illəllah" sözü "Allahdan başqa ibadətə haqqı çatan məbud yoxdur" mənasını ifadə edir.

"Muhəmmədən rasulullah" sözü isə onun əmrlərinə itaət etmək, verdiyi xəbərləri təsdiqləmək, qadağalarından çəkinmək və Allaha yalnız onun göstərdiyi tərzdə ibadət etmək mənasına gəlir.

---

[1] "Səhih əl-Buxari", 50; "Səhih Muslim", 8.

## *II mövzu: İman, onun rüknləri və böyük günah sahibinin hökmü*

**Tərifi.** Lüğəvi mənada "iman" "təsdiqləmək" və "iqrar etmək" deməkdir.

Şəriətdə isə iman: qəlblə etiqad etmək, dillə tələffüz etmək və bədən üzvləri ilə əməl etməyə deyilir.

**İmanın rüknləri və buna dair dəlillər.**

İmanın altı rüknü vardır. Uca Allah buyurur: **"Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl *sahibləri* Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən..."** (əl-Bəqərə, 177).

Sünnədə isə Cəbrail hədisində xəbər verildiyi kimi, Cəbrail عليه السلام Peyğəmbərdən ﷺ iman barəsində soruşduqda o belə cavab vermişdi: "(İman odur ki,) Allaha, Onun mələklərinə, Onun kitablarına, Onun elçilərinə və Axirət gününə, habelə qədərə – onun xeyrinə və şərinə iman gətirəsən..."[1]

**İmanın artıb-azalması.**

Quran və Sünnədəki dəlillər imanın itaətlə artıb, günahlarla azalmasını bildirir.

Qurandan Uca Allahın bu ayələrini dəlil göstərmək olar: **"Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər."** (əl-Ənfal, 2). O, həmçinin buyurur: **"Möminlərin imanı üstünə iman artırmaq üçün onların qəlbinə rahatlıq göndərən Odur."** (əl-Fəth, 4).

---

[1] "Səhih əl-Buxari", 50; "Səhih Muslim", 8.

Sünnədən isə Peyğəmbərin ﷺ bu hədislərini dəlil göstərmək olar: "Qəlbində zərrə qədər imanı olan kəs Cəhənnəmdən çıxacaqdır."[1] Həmçinin o demişdir: "İman yetmiş və bir neçə şöbədən ibarətdir, bunların ən yüksəyi "Lə iləhə illəllah" sözü, ən aşağısı isə əziyyət verən bir şeyi yoldan götürməkdir, həya da imanın bir şöbəsidir."[2]

**Böyük günah sahibinin hökmü.**

Böyük günahlar iki növdür: küfr sayılan və küfr sayılmayan böyük günahlar. Küfr sayılanlara misal Allaha şərik qoşmaqdır. Bu, Allaha qarşı olan ən böyük günah sayılır. Həmçinin etiqadda olan nifaq, Allahı və ya Onun rəsulunu söymək və bunlara bənzər göyük günahlar da buna aiddir.

İkinci növ isə küfr sayılmayan böyük günahlardır ki, bu da onu edən adamı İslamdan kənarlaşdırmır. Yalnız bu günahları etməyi halal sayanlardan başqa.[3] Bura da sələm, adam öldürmək, zina etmək və digər günahlar daxildir.

Quran və Sünnədə göstərilir ki, küfr sayılmayan böyük günahları edən kəs imanı naqis olan mömin sayılır. Ona fasiq və asi deyilir.

Axirətdə isə həmin şəxs Allahın istəyi altında olacaq. Allah istəsə onu Öz mərhəmitinə qovuşdurub günahlarını bağışlayacaq, istəsə ədalətli hökmü ilə ona əzab verəcək. Lakin bununla belə, o əbədi olaraq Cəhənnəmdə qalmayacaq, mömin olduğuna və təkAllahlığı qəbul etdiyinə görə gec-tez Cənnətə daxil olacaqdır. Uca Allah buyurur: **"Şübhəsiz ki, Allah Ona şərik qoşmağı bağışlamayacaq. Bundan başqa olan *günahları* isə istədiyi kimsəyə bağışlayacaqdır. Allaha şərik qoşan şəxs əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür."** (ən-Nisa, 116).

Buxari və Muslimin "Səhih" əsərlərində Ənəsdən رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Qəlbində arpa dənəsi ağırlığın-

[1] "Səhih əl-Buxari", 7510; "Səhih Muslim", 193.

[2] "Səhih Muslim", 57.

[3] Belə ki, Allahın və Rəsulunun ﷺ haram buyurduğunu halal sayan kimsə kafir sayılır.

da iman ola-ola "Allahdan başqa *haqq* məbud yoxdur!"– deyən kəs Cəhənnəmdən çıxacaqdır. Qəlbində buğda dənəsi ağırlığında iman ola-ola "Allahdan başqa *haqq* məbud yoxdur!"– deyən kəs Cəhənnəmdən çıxacaqdır. Qəlbində zərrə ağırlığında iman ola-ola "Allahdan başqa *haqq* məbud yoxdur!"– deyən kəs Cəhənnəmdən çıxacaqdır."[1]

Sələflər – səhabələr, tabiinlər və gözəl şəkildə onların yolunu tutub gedənlər böyük günah edən kimsə barəsində yuxarıda qeyd etdiyimiz dəlillərdə göstərilən hökmü vermişlər. Bu da qeyd olunan məsələdə həm o zamanlar, həm də dövrümüzdə hədlərini aşmış və böyük günah sahibini kafir sayan, onları İslam ümmətindən çıxaran, qanlarını halal görən və Qiyamətdə onların Cəhənnəmdə əbədi olaraq qalacaqlarını bildirən Xəvariclərlə, bu məsələdə səhlənkar olan və böyük günah sahibinin kamil iman sahibi olduğunu bildirən, onunla haram etməyən mömin arasında fərq qoymayan həddi aşmış Murciələr arasında orta bir yol hesab olunur.

**Böyük günah edənin kafir olmamasına dair dəlillər.**

Quran və Sünnə böyük günah sahibinin kafir olmadığını bildirir:

Uca Allah buyurur: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini *yerinə yetirməyə* qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir. Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin."** (əl-Hucurat, 9-10). Bu ayələrdən açıq-aydın görünür ki, Allah, bir-biriləri ilə vuruşan və bir-birilərinə qarşı çıxan hər günah iş görən iki tayfanın mömin olduğunu xəbər verir. Möminlərin bir-biriləri ilə vuruşması böyük günah sayılsa da, ayədə Allah onların qardaş olduğunu deyir. Sonra Uca Allah möminlərə qardaşlarının arasını düzəltməyi buyurur.

[1] "Səhih əl-Buxari", 44; "Səhih Muslim", 192.

Sünnədə isə Əbu Səid əl-Xudri رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Cənnət əhli Cənnətə daxil olduqda Allah Öz rəhməti ilə istədiyini Cənnətə daxil edər. Cəhənnəm əhli Cəhənnəmə daxil olduqdan sonra Allah belə buyuracaq: Baxın, kimin qəlbində xardal dənəsi qədər belə iman tapsanız, onu Cəhənnəmdən çıxarın."[1]

Bu hədisdə açıq-aydın dəlalət edir ki, böyük günah sahibləri əbədi olaraq Cəhənnəmdə qalmayacaq və qəlbində azacıq da olsa imandan əsər-əlamət olan kəs əbədi oddan qurtulacaqdır. Hədisdən o da görünür ki, iman əhlinin imanı əməllərinə görə müxtəlif səviyyədə olur və bu iman itaətlə artır, vacibləri tərk etmək və günah işlər görməklə isə azalır.

[1] "Səhih Muslim", 184.

### *III mövzu. Ehsan*

**Tərifi.** "Ehsan" sözünün mənası həm gizlində, həm də aşkarda Uca Allahın insanı gördüyünü etiqad etməkdir. Bunu da Allahı sevərək, Ondan qorxaraq, Onun verdiyi mükafata nail olacağına ümid bəsləyərək və əzabından qorxaraq, fərzləri və nafilələrini yerinə yetirərək və nahəyət, haramlardan və məkruhlardan çəkinərək etməlidir. Ehsan əhli və ya mühsin deyildikdə, yaxşı işlərdə bir-biri ilə yarışanlar nəzərdə tutlur.

Uca Allah Qurani Kərimdə buyurur: **"Həqiqətən də, Allah *Ondan* qorxanlar və yaxşı işlər görənlərlədir."** (ən-Nəhl, 128).

Sünnədə isə Cəbrailin hədisində bildirilir ki, o, Peyğəmbərdən ﷺ ehsan barəsində soruşduqda o belə cavab verdi: "(Ehsan odur ki,) Allaha, sanki Onu görürmüşsən kimi ibadət edəsən. Sən Onu görməsən də, (bil ki,) O səni görür."[1]

[1] "Səhih Muslim", 8.

### *IV mövzü.*
### *İslam, iman və ehsan arasındakı bağlılıq.*

Cəbrailin hədisində İslam, iman və ehsan barədə xəbər verilir. Deyilir ki, Cəbrail ﷵ Peyğəmbərin ﷺ yanına gəlib ona bu üç məsələyə dair sual verdikdə, Peyğəmbər ﷺ İslamın Allahdan başqa ibadətə layiq məbudun olmadığına və Muhəmmədin ﷺ Allahın Rəsulu olduğuna şahidlik etmək, namaz qılmaq, oruc tutmaq, zəkat vermək və Allahın Evini ziyarət etmək kimi zahiri əməllər, imanın Allaha, Onun mələklərinə, kitablarına, peyğəmbərlərinə, Axirət gününə, qəza və qədərin Allahdan olmasına iman gətirmək kimi batini və qeybi əməllər, ehsanın isə gizlində və aşkarda Allahın insanı gördüyünü düşünmək olduğunu bildirmiş və demişdir: (Ehsan odur ki,) Allaha, sanki Onu görürmüşsən kimi ibadət edəsən. Sən Onu görməsən də, (bil ki,) O səni görür."

Bu üç məsələ yanaşı işlədildikdə onlardan hər biri özünəməxsus mənanı ifadə edir. Demək, İslam deyildikdə zahiri əməllər, iman deyildikdə qeybi məsələlər, ehsan deyildikdə isə dinin ən üstün dərəcəsi nəzərdə tutulur. Ayrılıqda isə İslam deyildikdə özündə imanı da cəm edir, habelə ayrılıqda iman deyidikdə özündə İslamı da cəm edir. Ayrılıqda ehsan deyildikdə isə özündə həm İslamı, həm də imanı cəm edir.

## II fəsil.
## İslamda dost və düşmən anlayışı, mənası və qaydaları.

**Tərifi.** ***"Vəla"*** ərəbcə "vəliyə" feilindən əmələ gəlmiş məsdərdir və "yaxın olmaq" mənasını ifadə edir. Burada yaxın olmaq deyildikdə, müsəlmanlara yaxın olub onlara qarşı mərhəmətli olmaq, onlara yardım etmək, düşmənə qarşı onlara dəstək olmaq və onlarla birlikdə yaşamaq nəzərdə tutulur.

***"Bəra"*** ərəbcə "bəriyə" feilindən əmələ gəlmiş məsdərdir və "əlaqəni kəsmək" mənasını ifadə edir. Ərəb dilində "bəriəl-qaləmə" ifadəsi "qələmi kəsdi" mənasındadır. Burada əlaqəni kəsmək deyildikdə kafirlərlə əlaqəni kəsmək nəzərdə tutulur. Yəni onları sevməmək, onlara yardım göstərməmək və zərurət olmadığı halda onların diyarında yaşamamaq qəsd edilir.

**Dost və düşmən anlayışı tövhidin tələblərindəndir**.

Müsəlmanlar dostluq etdikdə də, düşmənçilik etdikdə də, sevdikdə də, nifrət etdikdə də bunları yalnız Allah xatirinə etməlidir. Uca Allah möminlərlə dostluq etmək barədə buyurur: **"Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar** *Allaha* **boyun əyərək namaz qılır və zəkat verirlər. Kim Allahı, Onun Elçisini və iman gətirənləri** *özünə* **dost tutarsa,** ***bilsin ki,*** **qələbə çalanlar da məhz Allahın firqəsidir."** (əl-Maidə, 55-56). O, həmçinin buyurur: **"Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri** *özünüzə* **dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizlərdən kim onları** *özünə* **dost tutarsa, o da onlardandır. Allah zalım qövmü doğru yola yönəltməz."** (əl-Maidə, 51). O, həmçinin buyurur: **"Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər."** (əl-Mucədələ, 22).

Bütün bu ayələr möminləri sevib onlarla dostluq etməyi, habelə kafirlərlə dostluq etməkdən çəkinməyi əmr edir.

**Dost və düşmən anlayışının İslamdakı yeri.**

Dost və düşmən anlayışının İslam dinində xüsusi yeri vardır və bu, imanın ən etibarlı ipi hesab olunur. Məqsəd isə müsəlmanlar arasında sevgi və ülfət yaratmaq, habelə İslam düşmənlərindən uzaq olmaqdır. İbn Abbas ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "İmanın ən etibarlı ipi, Allah üçün dostluq etmək, Allah üçün düşmənçilik etmək, Allah üçün sevmək, Allah üçün nifrət etməkdir."[1]

***Müdahənə*** **ilə** ***müdərat*** **arasındakı fərq və onların dost və düşmən anlayışına təsiri.**

***"Müdahənə"*** Allahın yoluna dəvət edib, pis işlərdən çəkindirməyi tərk edərək dünya işlərində kafirlərlə və asilərlə birlikdə olmağa, habelə yerinə yetirilməsi gərəkən məsələlərdə onlara güzəştə getməyə deyilir. Buna misal olaraq kafirlərin öz küfr və azğınlıqlarına davam etmələrinə göz yumaraq, onlara isinişməyi, onlarla birlikdə yaşamağı və imkan olduğu halda onları bundan çəkindirməməyi göstərmək olar. Uca Allah buyurur: **"İsrail oğullarından kafir olanlar həm Davudun, həm də Məryəm oğlu İsanın dili ilə lənətləndilər. Bu, onların asi olduqlarına və** ***Allahın qoyduğu*** **hədləri aşdıqlarına görə idi. Onlar bir-birlərini etdikləri pis əməllərdən çəkindirmirdilər. Onların etdikləri necə də pisdir! Sən onların bir çoxunun kafirlərlə dostluq etdiyini görürsən. Nəfslərinin onlar üçün hazırladığı şey necə də pisdir!** ***Buna görə də*** **Allah onlara qəzəblənmişdir və onlar əzab içində əbədi qalacaqlar."** (əl-Maidə, 78-80).

***"Mudərat"*** isə birisinin pis əməlini və ya onun daha böyük şərə yol açacağını gördükdə buna sərt münasibət göstərməyərək onunla yumşaq tərzdə davranmağa deyilir. Məsələn, cahilə nəsə öyrətdikdə həddən ziyadə yumşaq rəftar etmək, fasiqin pis əməlini gördükdə onu bundan yumşaqlıqla çəkindirmək, ya da onun pis əməlinə yumşaq tərzdə reaksiya vermək. Aişə ﵂ demişdir: "Bir dəfə bir kişi Peyğəmbərin ﷺ yanına gəlmək üçün izn istədi. Peyğəmbər ﷺ onu gördük-

[1] ət-Təbərani, "Mücəm əl-Kəbir", 11/215.

də dedi: "Bu nə pis qardaşdır, qövmünün nə pis oğludur!" O, (içəri daxil olub) oturduqda Peyğəmbər ﷺ onunla gülüb danışmağa başladı. O, çıxıb getdikdən sonra Aişə Peyğəmbərə ﷺ dedi: "Ya Rəsulullah! Sən bu adamı görəndə onun barəsində belə-belə dedin, sonra da onunla oturub deyib-güldün." Peyğəmbər ﷺ buyurdu: "Ey Aişə, sən mənim nə vaxtsa tərbiyəsizlik etdiyimi görmüsənmi? Qiyamət günü Allah yanında insanların ən pisi o kəsdir ki, insanlar onun şərindən qorunmaq üçün onu tərk edirlər."[1]

Peyğəmbər ﷺ yanına gələn o kişinin nə dərəcədə pis adam olduğunu bildiyi halda, məsləhət bilib ona heç nə deməmişdir. Bu da dəlildir ki, məsləhət olduğu vaxt – gələ biləcək şərin qarşısını almaq, yaxud qismən də olsa onu yüngülləşdirmək məqsədilə düşmən olan bir kimsəyə dost kimi görünməkdə heç bir eyib yoxdur. Bu, Allahın yoluna dəvətin metodlarından biridir. Buna Mədinədə Peyğəmbərin ﷺ münafiqlərin şərindən qorunmaq üçün onlarla olan münasibətini misal göstərmək olar. O ki qaldı müdahənəyə – dünya mənfəəti əldə etmək məqsədilə insanları pis işlərdən çəkindirməməyə, şər adamlarla oturub-durmağa, bu cür dostluq yolverilməzdir.

**Dost və düşmən anlayışına misallar.**

Uca Allah İbrahim haqqında buyurur: **"İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə vardır. Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaqdır!"** (əl-Mumtəhinə, 4). Uca Allah mühacirlərlə ənsarın arasında olan dostluq barədə belə buyurur: ***"Mühacirlərdən* əvvəl *Mədinədə* yurd salmış, *sonra da* iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır."** (əl-Həşr, 9).

---

[1] "Səhih əl-Buxari", 6032.

**Asi insanlar və bidətçilərlə dostluq etməyin hökmü.**

Əgər bir insanda həm xeyir, həm də şər, həm itaət, həm də asilik, həm Sünnəyə bağlılıq, həm də bidət cəm olarsa, onda olan yaxşı işləri dəyərləndirib onun qədərində o adamla dostluq etmək, pis işləri qədər də ondan uzaqlaşmaq və ona nifrət etmək lazımdır. Ola bilsin ki, bir insanda həm hörməti, həm də nifrəti vacib edən xüsusiyyətlər cəm olsun. Bunun misalı kasıb oğrunun misalına bənzəyir ki, oğurluq etdiyinə görə əli kəsilir, lakin buna rəğmən beytulmaldan onun yaşaması üçün ona müəyyən məbləğdə pul ayrılır və ona sədəqə verilir. Əhli-Sünnə vəl Cəmaanın ittifaq etdiyi mövqe bundan ibarətdir.

**Dünyəvi işlərlərdə kafirlərlə iş görmək dostluğa aiddirmi?**

Səhih dəlillərə əsasən kafirlərlə dünyəvi məsələlərdə – alış-veriş etmək, icarə vermək və ya almaq, habelə ehtiyac olduqda onlardan yardım istəmək kimi əməllərlə müamələ etmək olar. Lakin bu yalnız zərurət halında, dar bir çərçivədə, İslama və müsəlmanlara zərər verməyəcək miqdarda olmalıdır. Belə ki, Peyğəmbər ﷺ Abdullah ibn Ureyqiti yol göstərən bir adam olaraq icarəyə götürmüşdü.[1]

Həmçinin Peyğəmbər ﷺ öz zirehini yəhudi birisinə müəyyən miqdarda arpa müqabilində girov qoymuşdu. Habelə Əli رضي الله عنه, yəhudi bir qadının qapısında işləmiş və hər vedrəsi bir xurma müqabilində onun özünün su quyusundan ona on altı verdə su çıxartmışdır. Həmçinin Peyğəmbər ﷺ Mədinədə yaşayan yəhudilərdən müşriklərə qarşı döyüşdə kömək istəmişdir. Həmçinin Məkkə müşriklərinə qarşı Xuzaənin köməyindən istifadə etmişdir. Bu kimi əməllər dost və düşmən anlayışına zərər yetirmir, bir şərtlə ki, müşriklər müsəlmanların arasında etik qaydalara riayət etsinlər və onları öz dinlərinə çağırmasınlar.

---

[1] "Səhih əl-Buxari", 2263.

# III fəsil.
## Səhabələr və onların haqları

*I mövzu. Səhabələr kimlərdir, habelə onları sevməyin və dost tutmağın vacibliyi*

*II mövzu. Quran və Sünnə işığında səhabələrin fəzilətli və ədalətli olmalarının vacibliyinə etiqad etmək və onların arasında baş vermiş münaqişələr barəsində susmaq*

*III mövzu. Peyğəmbərin ﷺ əhli-beyti, onların haqları və onun zövcələrinin də əhli-beytdən olmalarının bəyanı*

*IV mövzu. Raşidi xəlifələr, onların fəziləti, onlar barəsində nəyin vacib olması, habelə onların ardıcıllığı*

*V mövzu. Cənnətlə müjdələnmiş on nəfər*

## III fəsil. Səhabələr və onların haqları.

### *I mövzu. Səhabələr kimlərdir, habelə onları sevməyin və dost tutmağın vacibliyi.*

**Səhabənin tərifi:**

Səhabə Peyğəmbərlə ﷺ müsəlman olaraq görüşən və müsəlman olduğu halda ölən kəsə deyilir.

**Onları sevməyin və dost tutmağın vacibliyi.**

Səhabələr Peyğəmbərimizdən ﷺ sonra ən xeyirli insanlar, bu ümmətin seçilmiş və fəzilətli nümayəndələri hesab olunurlar. Onları dost tutmaq, onları sevmək, onlardan razı qalmaq və onların haqlarını ödəmək hər bir müsəlmana vacibdir. Onları sevmək dindar və mömin olmağın, habelə Mərhəmətli Allaha yaxınlaşmağın əlaməti, onlara nifrət bəsləmək isə kafirliyin və üsyankarlığın əlamətidir. Bu dini də məhz onlar yaymışlar. Odur ki, onlara tənə vurmaq bu dinə bütövlükdə tənə vurmaq sayılır. Çünki dinimiz bizlərə onların vasitəsilə çatmışdır. Məhz onlar bu dini olduğu kimi Peyğəmbərimizdən ﷺ eşitmiş və onu olduğu kimi ixlasla bizlərə nəql etmişlər. Onlar bu dini qısa bir vaxt ərzində yer üzünün hər tərəfinə yaymış, Allah onların əli ilə bir çox diyarları fəth etmiş, beləliklə də, insanlar dəstə-dəstə bu dinə daxil olmuşlar. Quran və Sünnədə səhabələrlə dostluq etmək, onları sevmək və bunun imandan olması barədə bir çox dəlillər vardır. Uca Allah Öz Kitabında buyurur: **"Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır."** (ət-Tövbə, 71).

Səhabələr həqiqi mömin sayıldıqları, habelə Allahın və Rəsulunun ﷺ xəbər verdiyi kimi ən fəzilətli möminlər hesab olunduqları üçün onları dost tutmaq və onları sevmək, möminliyin əlamətidir.

Sünnədə isə Ənəs ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "(Kamil) imanın əlaməti ənsarı sevməkdir, münafiqliyin əlaməti isə ənsara nifrət etməkdir."[1]

---

[1] "Səhih əl-Buxari", 17.

Bu barədə dəlillər həddindən artıq çoxdur və onların hamısını burada qeyd etmək qeyri-mümkündür. Onu da qeyd etmək lazımdır ki, həmin dəlillərlə tanış olduqda, səhabələri sevməyin dünya və axirət üçün nə qədər faydalı olması bəlli olur. Bu da insanları onları sevməyə həvəsləndirir.

Bu dünyada səhabələri sevməyin bir növü də onlara yardımçı olmaqdır. Uca Allah buyurur: **"Kim Allahı, Onun Elçisini və iman gətirənləri *özünə* dost tutarsa, *bilsin ki,* qələbə çalanlar da məhz Allahın firqəsidir."** (əl-Maidə, 56).

İbn Kəsir demişdir: "Allahın, Onun rəsulunun ﷺ və möminlərin dostluğu ilə razı olanlar həm dünyada, həm də axirətdə zəfər çalanlardır."

Səhabələri sevənlərin axirətdə qarşılaşacağı səmərələrdən biri də onların səhabələrlə birlikdə həşr olunmalarıdır. Abdullah ibn Məsud رضي الله عنه demişdir: "Bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah! Bir qövmü sevib onlara yetişə bilməyən kəs haqda nə deyirsən? Peyğəmbər ﷺ dedi: "İnsan sevdiyi kəslə birlikdə olacaqdır."[1]

Buna görə də Peyğəmbərin ﷺ səhabələri Allaha, Əbu Bəkr və Öməri sevməklə yaxınlaşır və bunu Allah yanında olan ən xeyirli əməllərdən sayırdılar. İmam Buxarinin "Səhih" əsərində, Ənəs رضي الله عنه rəvayət edir ki, (bir dəfə) bir nəfər Peyğəmbərdən ﷺ Qiyamət barəsində soruşub dedi: "Qiyamət Saatı nə zaman gələcək?" Peyğəmbər ﷺ buyurdu: "Sən Qiyamətə nə tədarük görmüsən?" Adam dedi: "Heç bir şey hazırlamamışam, mən sadəcə Allahı və onun Rəsulunu sevirəm." Peyğəmbər ﷺ buyurdu: "Sən sevdiyin kəslə bir yerdə olacaqsan!" Ənəs dedi: "Biz Peyğəmbərin ﷺ: "Sən sevdiyin kəslə bir yerdə olacaqsan!" sözünə sevindiyimiz kimi heç bir şeyə sevinməmişdik." Ənəs dedi: "Mən Peyğəmbəri ﷺ, Əbu Bəkri, Öməri sevirəm və ümid edirəm ki, onlar qədər yaxşılıq etmiş olmasam belə, bu sevgimə görə onlarla bir yerdə olacağam."[2]

---

[1] "Səhih Muslim", 6168.

[2] "Səhih əl-Buxari", 3688.

## *II mövzu. Quran və Sünnə işığında səhabələrin fəzilətli və ədalətli olmalarının vacibliyinə etiqad etmək və onların arasında baş vermiş münaqişələr barəsində susmaq*

**Onların fəzilətləri.**

Uca Allah səhabələri tərifləmiş və onlara Cənnəti vəd etmişdir.

Allah buyurur: **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. *Allah* onlar üçün *ağacları* altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur."** (ət-Tövbə, 100). O, həmçinin buyurur: **"Möminlər *Hüdeybiyyədə* ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı."** (əl-Fəth, 18). O, həmçinin buyurur: **"*Qənimət həmçinin* yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun Elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır. *Mühacirlərdən* əvvəl *Mədinədə* yurd salmış, *sonra da* iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. *Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"** (əl-Həşr, 8-10).

Quran ayələri səhabələrin, o cümlədən mühacir və ənsarın, Bədr əhlinin, ağac altında Ridvan beyətində iştirak edənlərin fəzilətlərini göstərməkdədir. Səhabələrdən sonra gələnlərin isə onlar üçün bağışlanma diləyərək qəlblərində onlara qarşı kinə yol verməməsini dilədiyini göstərir.

Həmçinin Quran ayələri Allahın səhabələrdən razı qaldığını, onları Cənnətlə müjdələdiyini bildirir, onları sevgi və sayğı ilə xatırla-

dır, onların müsəlmanları sevdiklərini, dini yaydıqlarını və bu kimi digər gözəl vəsflərlə xatırlatmaqdadır.

Peyğəmbər ﷺ də bir çox hədislərində onları tərif etmişdir. Cabir ibn Abdullahdan  Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Ağac altında beyət edənlərin heç biri Cəhənnəm oduna girməz."[1] Bəzi hədislər ümumi olaraq səhabələrin fəzilətini, digərləri isə xüsusi olaraq Bədr əhlinin və digər səhabələrin təklikdə fəzilətlərini qeyd etməkdədir.

Müsəlmanlar da bütün bu dəlillərə riayət etməli, səhabələri özünə dost tutmalı, onları sevməli, onlardan razı qalmalı, onların yalnız gözəl xüsusiyyətlərini xatırlamalı və onlara tabe olmalıdırlar.

**Səhabələr arasında baş verən münaqişələr barədə susmaq və bir də onları söyməyin hökmü.**

Yuxarıda qeyd olunanlardan aydın oldu ki, Peyğəmbərin ﷺ səhabələri Peyğəmbədən ﷺ sonra bu ümətin seçilmişləridir. Onlar İslamı hamıdan öncə qəbul etmişlər və hidayətin çıraqları hesab olunurlar. Onlar Allah yolunda həqiqi olaraq cihad etmiş, dini layiqincə təbliğ etmiş və Uca Allah da məhz onların əli ilə dini yer üzərində bərqərar etmişdir. Onlardan hər hansı birini söyən, barəsində nalayiq söz söyləyən kəs çox pis insan sayılır və ümumilikdə bu əməl dinə qarşı zorakılıq sayılır. Onları kafir sayan və mürtəd olduqlarını etiqad edən kəs özü kafir və mürtəd sayılır. Çünki insan nə qədər yaxşı əməl edirsə etsin, onlardan birinin fəzilətinə çata bilməz. Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Səid əl-Xudridən  Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunmuşdur: "Mənim əshabələrimi söyməyin! Əgər sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə, onlardan birinin verdiyi bir ovuc sədəqəyə, hətta yarısına belə çata bilməz."[2] Bu hədis Peyğəmbərin ﷺ səhabələrini söyməyin haram olduğunu və insanların nə qədər yaxşı əməl etsələr belə onların fəzilətinə çatmayacaqlarını göstərməkdədir.

---

[1] "Səhih Muslim", 2496.

[2] "Səhih əl-Buxari", 3673; "Səhih Muslim", 2540, 2541.

Bütün müsəlmanlar səhabələrin ədalətli olmalarına etiqad etməli, onlardan razı olmalı, aralarında baş verən ixtilaflar barəsində susmalı və bunu Allaha saxlamalıdırlar. Ömər ibn Abdüləziz demişdir: "Uca Allah o qövmün qanlarından bizim əllərimizi təmizləmişdir. Gərək dilimizi də onların namusu barədə danışmaqdan qoruyaq."

Bir sözlə, Sünnə əhli səhabələrin hamısını özlərinə dost tutur, onların haqqını layiqli şəkildə ədalətlə və insafla ödəyir, onlara qarşı boş-boş danışmır və təəssübkeşlik etmirlər. Bütün bunlar onlara qarşı çıxmaq hesab olunur ki, bunu edən kəs də cəzaya məhkumdur.

## *III mövzu. Peyğəmbərin ﷺ əhli-beyti*

**Əhli-beytin tərifi.**

Peyğəmbərin ﷺ əhli-beyti deyildikdə, onun, özlərinə sədəqə haram edilmiş ailəsi nəzərdə tutulur. Əhli-beyt, Əli ibn Əbu Talibin رضي الله عنه ailəsi, Cəfərin رضي الله عنه ailəsi, Abbasın رضي الله عنه ailəsi, Haris ibn Abdulmuttalibin oğulları və Peyğəmbərin ﷺ xanımlarıdır.

**Əhli-beytin fəziləti barədə.**

Uca Allah buyurur: **"Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir."** (əl-Əhzab, 33).

Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allah xatirinə əhli-beytimlə *gözəl* rəftar edin!"[1]

**Peyğəmbərin ﷺ xanımlarının əhli beytdən sayılması.**

Uca Allah buyurur: **"Ey Peyğəmbərin zövcələri! Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər *Allahdan* qorxursunuzsa, *yad kişilərlə* nazlana-nazlana danışmayın, yoxsa qəlbində xəstəlik olan tamaha düşər. *Şəriətə* müvafiq qaydada danışın. Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun Elçisinə itaət edin. Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir. Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın. Həqiqətən, Allah Lütfkardır, *hər şeydən* Xəbərdardır."** (əl-Əhzab, 32-34).

İmam İbn Kəsir demişdir: "Quran oxuduğumuz zaman hər birimizə aydın olan məsələlərdən biri də odur ki, Peyğəmbərin ﷺ xanımları Uca Allahın: "**Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir"–** ayəsinə daxildirlər. Ayədə söhbət məhz onlardan gedir, belə ki Uca Allah qadın cinsində xitab edərək buyurur: "**Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın."** Yəni evlərinizdə Allahın rəsuluna ﷺ nazil etdiklərinə –

---

[1] "Səhih Muslim", 2408.

Quran və Sünnəyə riayət edin." Qatədə və başqaları demişlər: "Digər qadınlardan fərqləndirildiyiniz bu neməti xatırlayın."[1]

**Əhli-beytin qeydinə qalmaq xüsusunda vəsiyyət.**

Az öncə əhli-beytin qeydinə qalmaq xüsusunda hədisi qeyd etdik. Əhli-Sünnə əhli-beyti sevir, onlara qarşı hörmət bəsləyir və Peyğəmbərin ﷺ onlar barəsində etdiyi tövsiyəyə riayət edirlər. Çünki əhli-beyti sevmək Peyğəmbəri ﷺ sevmək deməkdir. Lakin bir şərtlə ki, əhli-beytə mənsub olunanlar, məsələn Abbas رضي الله عنه və onun ailəsi, habelə Əli رضي الله عنه və onun ailəsi kimi Sünnəyə riayət edənlərdən olsunlar. Sünnəyə və dinə müxalif olanlara gəlincə, onlar əhli-beytdən olsalar belə, onlarla dostluq etmək olmaz.

Əhli-Sünnə vəl cəmaanın əhli-beyt barədə mövqeyi insaflı və ədalətlidir. Onlar əhli-beytdən dinə riayət edənlərə sayğı göstərir, dinə müxalif olanlardan isə uzaq dururlar. Çünki dinə riayət etməyən kəslərə Peyğəmbərə ﷺ qohumluğu heç bir fayda verməyəcəkdir. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, qüdrətli və əzəmətli Allah: **"Ən yaxın qohumlarını qorxut!"** (əş-Şuəra surəsinin, 214-cü) ayəsini nazil etdikdə Peyğəmbər ﷺ (qohum-əqrəbasını çağırıb) dedi: "Ey qureyşlilər, canınızı satın alın![2] Mən sizi Allahın (əzabından) qurtara bilməyəcəyəm. Ey Abdumənaf oğulları, mən sizi Allahın (əzabından) qurtara bilməyəcəyəm. Ey Abbas ibn Abdulmuttəlib, mən səni Allahın (əzabından) qurtara bilməyəcəyəm. Ey Peyğəmbərin bibisi Səfiyyə, mən səni Allahın (əzabından) qurtara bilməyəcəyəm. Ey Muhəmmədin qızı Fatimə, malımdan nə istəyirsənsə, istə. Mən səni Allahın (əzabından) qurtara bilməyəcəyəm."[3] Həmçinin "Kimin əməli təxirə düşərsə, onun nəsəbinin ona heç bir faydası olmaz" hədisi də bu qəbildəndir.

Əhli-Sünnə vəl-Cəmaə bəzi əhli-beytə mənsub şəxslərin barəsində həddi aşaraq onların məsum olduğunu iddia edənlərdən, habelə əhli-beytə qarşı düşmən mövqeyində olanlardan, onlara tənə vuranlardan, əhli-beyt vasitəsilə təvəssül edən bidətçi və xürafatçılardan və nəhayət, onları Allaha tay tutanlardan uzaqdırlar.

Bu məsələdə Sünnə əhli ifratla təfrit arasında orta mövqe nümayiş etdirmişlər.

[1] İbn Kəsir, "Təfsir əl-Quran əl-Əzim", 6/411.
[2] Yəni canınızı Allahın əzabından qurtarın.
[3] "Səhih Muslim", 2699.

## IV mövzu. Raşidi xəlifələr

**Raşidi xəlifələrin tərifi.**

Raşidi xəlifələr aşağıdakılardır: Əbu Bəkr əs-Siddiq (dostluqda sadiq olan), Ömər ibn Xəttab əl-Faruq (haqqı batildən ayırd edən), zin-Nureyn (Peyğəmbərin ﷺ iki qızını almış) Osman ibn Əffan, Əbu Sibteyn (Peyğəmbərin ﷺ iki nəvəsinin atası) Əli ibn Əbu Talib (Allah onların hər birindən razı olsun).

**Onların yeri və onlara tabe olmağın vacibliyi.**

Raşidi xəlifələr səhabələrin ən xeyirlisidir. Peyğəmbər ﷺ öz ümmətinə, doğru yolu göstərən xəlifələrinə tabe olmağı buyurmuşdur. İrbad ibn Səriyədən rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: "Sizlərə eşidib itaət etməyi tövsiyə edirəm, sizlərdən məndən sonra yaşayanlar bir çox ixtilaflar görəcəkdir. Mənim və raşidi xəlifələrimin sünnəsindən arxa dişlərinizlə yapışın, *dində sonradan* yaranmış yeniliklərdən isə çəkinin, çünki hər bir bidət zəlalətdir."[1]

**Onların fəziləti.**

Əhli-Sünnənin rəyinə görə raşidi xəlifələr ardıcıllığa görə bir-birindən fəzilətlidirlər. Əbu Bəkr, sonra Ömər, sonra Osman, sonra Əli رضي الله عنهم. Onların fəzilətləri barəsində saysız hesabsız hədislər mövcuddur ki, biz onların hər birinə aid yalnız bir hədis qeyd edirik:

– Əbu Bəkr رضي الله عنه barədə Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət olunur ki, Peyğəmbər ﷺ minbərdə oturub demişdir: "Əgər yer üzündəki insanlardan özümə ən yaxın dost seçməli olsaydım, hökmən Əbu Bəkri dost seçərdim. *Elə isə* bu məsciddə Əbu Bəkrin qapısından başqa bütün qapıları bağlayın!"[2]

---

[1] "Musnəd Əhməd", 4/127-129; "Sunən ət-Tirmizi", 7/438.

[2] "Səhih əl-Buxari", 3654.

– Ömərin ﵁ fəziləti barədə Buxari və Muslimin "Səhih" əsərlərində Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Sizdən öncəki ümmətlər içində özlərinə ilham verilən kimsələr olmuşdur. Və əgər ümmətim arasında belə birisi varsa, bu, Ömər ibn Xəttabdır."[1]

– Osman ibn əl-Əffanın ﵁ fəziləti barəsində Aişədən ﵂ rəvayət olunan uzun hədisdə o demişdir: "Əbu Bəkr, sonra Ömər, sonra da Osman Peyğəmbərin ﷺ yanına daxil oldular. Osman daxil olduqda Peyğəmbər ﷺ qalxıb ətəyini dizinin üstünə çəkdi." Aişə bu haqda Peyğəmbərdən ﷺ soruşduqda o dedi: "Mələklərin utandığı bir adamdan mən necə utanmayım?!"[2]

– Əlinin ﵁ fəziləti barəsində Buxari və Muslimin "Səhih" əsərlərində Səhl ibn Səddən Peyğəmbərin ﷺ Xeybər gecəsi belə dediyi rəvayət olunur: "Sabah mən bu bayrağı elə bir adama verəcəm ki, o, Allahı və Rəsulunu sevir, Allah və Onun Rəsulu da onu sevir. Allah onun əli ilə *Xeybəri* fəth edəcəkdir..." Sonra: "Əlini mənim yanıma çağırın"– dedi və bayrağı ona verdi. Beləliklə də, Allah onun əli ilə Xeybəri fəth etdi."[3]

---

[1] "Səhih əl-Buxari", 3689; "Səhih Muslim", 2398.

[2] "Səhih Muslim", 2401.

[3] "Səhih əl-Buxari", 3702; "Səhih Muslim", 2405.

## *V mövzu. Cənnətlə müjdələnmiş on nəfər*

Öncəki fəsillərdə səhabələrin fəzilətlərini, onların ədalətli olmalarını və bəzilərinin digərlərindən üstün olduqlarını qeyd etmişdik. Səhabələrin ən xeyirlisi İslamı qəbul etməkdə hamını ötüb keçmiş mühacirlər, sonra ənsar, sonra Bədr döyüşündə iştirak edənlər, sonra Uhud döyüşündə iştirak edənlər, sonra Əhzab döyüşündə iştirak edənlər, sonra Ridvan beyətində iştirak edənlər, sonra Məkkənin fəthindən öncə hicrət edib döyüşənlər, sonra da Məkkənin fəthindən sonra hicrət edənlərdir. Bunların hamısını Allah gözəl aqibətlə müjdələmişdir.

Səhabələrin ən xeyirlisi Raşidi xəlifələr – Əbu Bəkr əs-Siddiq, Ömər əl-Faruq, Osman zin-Nureyn, Əbu Sibteyn Əli ibn Əbu Talib, sonra Abdur-Rəhman ibn Auf, Peyğəmbərin ﷺ həvarisi Zubeyr ibn Əvvam, Təlhə ibn Ubeydullah, Səd ibn Əbu Vaqqas, bu ümmətin ən etibarlısı Əbu Ubeydə ibnul-Cərrah, Səid ibn Zeyd ibn Nufeyldir – Allah onların hamısından razı qalsın. Onların barəsində həm ümumi, həm də xüsusi dəlillər varid olmuşdur. İmam Əhməd və "Sunən" əsərlərinin müəllifləri Abdurrəhman ibn Əxnəsdən, o da Səid ibn Zeyddən rəvayət etmişdir ki, o belə demişdir: "Şəhadət verirəm ki, mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "On nəfər Cənnətdə olacaq. Peyğəmbər ﷺ Cənnətlikdir, Əbu Bəkr Cənnətlikdir, Ömər Cənnətlikdir, Osman Cənnətlikdir, Əli Cənnətlikdir, Təlhə Cənnətlikdir, Zubeyr ibn Əvvam Cənnətlikdir, Səd ibn Malik Cənnətlikdir, Abdur-Rəhman ibn Auf Cənnətlikdir." Sonra dedi: "Əgər istəsən sənə onuncunun da kim olduğunu xəbər verərəm." Soruşdular: "O kimdir elə?" O bir qədər susduqdan sonra yenə soruşdular: "O kimdir elə?" O dedi: "Səid ibn Zeyd."[1]

Peyğəmbər ﷺ bu on nəfərdən başqalarını da Cənnətlə müjdələmişdir. Onlardan Abdullah ibn Məsudu, Bilal ibn Əbu Rəbahı, Ukkaşə ibn Mihsanı, Cəfər ibn Əbu Talibi və bir çox başqalarını misal

[1] "Musnəd Əhməd", 1/188 və "əs-Sunən" topluları.

göstərmək olar. Ümumən Sünnə əhli dəlillərdə varid olan hər kəsin Cənnətlə müjdələndiyinə etiqad edirlər. Onlardan qeyrilərinə isə ümumilikdə onlara vəd olunan Cənnətdə olacaqlarına da etiqad edirlər. Uca Allah səhabələrin bir-birindən fəzilətli olmaları barədə buyurur: **"Allah *onların* hamısına ən gözəl nemət vəd etmişdir."** (ən-Nisa, 95).

Burada gözəl nemət deyildikdə, Cənnət nəzərdə tutulur. Həmçinin Əhli Sünnə vəl Cəmaanın rəyinə görə onlar ümumən heç bir müsəlmana onun Cənnətə və ya Cəhənnəmə gedəcəyini qəti şəkildə bildirmirlər. Onlar yaxşı əməl sahiblərinə savab diləyir, pis əməl sahiblərinin isə əzaba düçar olacaqlarından qorxurlar. Tövhid üzərində ölən hər bir kəsin isə əsla əbədi olaraq Cəhənnəmdə qalmayacağını bildirirlər. Uca Allah buyurur: **"Şübhəsiz ki, Allah Ona şərik qoşmağı bağışlamayacaq. Bundan başqa olan *günahları* isə istədiyi kimsəyə bağışlayacaqdır."** (ən-Nisa, 116).

## IV fəsil. Müsəlmanların rəhbərləri və sıravi müsəlmanlar xüsusunda vacib olanlar, habelə onların camaatı ilə birgə olmaq

Muslim Əbu Ruqayyə Təmim əd-Dəridən ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Din nəsihətdir, din nəsihətdir, din nəsihətdir." Biz soruşduq: "Kimin üçün, ya Rəsulullah?" Dedi: "Allaha, Onun rəsuluna, Onun Kitabına, müsəlmanların rəhbərlərinə və sıravi müsəlmanlara."[1]

– Allaha nəsihət deyildikdə, Allahın Tək ibadətə layiq olan məbud olduğunu qəbul etmək, Ona təzim etmək, Ondan qorxmaq, Ondan rica etmək, Onu sevmək, Onun əmrlərini yerinə yetirmək və qadağalarından çəkinmək nəzərdə tutulur.

– Peyğəmbərə ﷺ nəsihət deyildikdə, onun gətirdiyini təsdiq etmək, Sünnəsinə tabe olmaq, onun yolunu tutub getmək, onu sevmək və Allaha yalnız onun buyurduğu tərzdə ibadət etmək nəzərdə tutulur.

– Müsəlmanların rəhbərlərinə nəsihət etmək deyildikdə, onlar üçün dua etmək, onları sevmək, Allaha itaət çərçivəsində onlara itaət etmək nəzərdə tutulur.

– Sıravi müsəlmanlara nəsihət deyildikdə isə onları yaxşı işlərə dəvət etmək, pis işlərdən çəkindirmək, özümüz üçün dilədiyimiz kimi onlar üçün də xeyir diləmək, onlar üçün xeyir sərf etmək və bacardığımız qədər onlara yardım etmək nəzərdə tutulur.

**Əmr sahibləri xüsusunda ümmətə vacib olanalar**.

Quran, Sünnə və bu ümmətin sələflərinin rəyinə görə, əmir zülm etsə belə, ona itaət etmək vacibdir. Yalnız asiliyi buyurduğu təqdirdə ona itaət etmək qadağandır. Çünki Xaliqə asi olaraq məxluqa itaət etmək olmaz. Bundan başqa əmirin arxasında namaz qılmaq,

[1] "Səhih Muslim", 55.

onunla birlikdə həcc və cihad etmək, ictihadi məsələlərdə ona itaət etmək də vacibdir. Belə ki, ictihadi məsələlərdə insanlar öz rəylərini tərk edib onun rəyinə tabe olmalıdırlar. Çünki camaatla birlikdə olub onlarla həmrəylik nümayiş etdirmək təfriqəyə varıb ayrıseçkiliyə yol verməkdən daha önəmlidir. Həmçinin şəriətdə göstərilən qaydada onlara nəsihət etmək, onlarla münaqişə etməmək və onlara qarşı çıxmamaq da vacib olan məsələlərdəndir.

İmam Təhavi demişdir: "Rəhbərlərimiz və əmr sahiblərimiz zülm etsələr belə onlara qarşı çıxmaq, onlara bəd dua etmək, onların itaətindən boyun qaçırmaq olmaz. Bizim rəyimizə görə asiliyə əmr etmədikləri müddətdə onlara itaət etmək Allaha itaətdən sayılır və onlara islah və afiyət diləmək borcumuzdur."

Bu xüsusda Quran və Sünnədə bir çox dəlillər vardır. Uca Allah buyurur: "**Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə *şəriətə uyğun şəkildə itaət edin.*"** (ən-Nisa, 59). Əbu Hureyradan ﵁ Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Mənə itaət edən Allaha itaət etmiş, mənə asilik edən isə Allaha asi olmuş olur. Rəhbərə itaət edən mənə itaət etmiş, rəhbərə asi olan isə mənə asi olmuş sayılır."[1] İbn Ömərdən ﵁ Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Müsəlman asiliyə əmr olunmadığı müddətdə istəsə də, istəməsə də eşidib itaət etməlidir. Asiliyə əmr etdikdə isə eşidib itaət etmək olmaz."[2]

Sünnəyə görə rəhbərə xəlvətdə nəsihət olunmalıdır. İbn Əbu Asim, İyad ibn Ğanəmdən ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Rəhbərə nəsihət etmək istəyən bunu gizlincə edərək ona yardımçı olsun. Rəhbər onun nəsihətini eşitsə, çox gözəl, eşitməsə, həmin şəxs üzərinə düşəni yerinə yetirmiş sayılır."[3]

Quran və Sünnədə olan bütün bu dəlillər rəhbərlərə və əmr sahiblərinə itaət etməyi əmr edir. Bunları qısa şəkildə belə qeyd etmək olar:

---

[1] "Səhih əl-Buxari", 7137.

[2] "Səhih əl-Buxari", 7144.

[3] İbn Əbu Asim, "əs-Sünnə", 2/507.

1. Asilik olmadığı təqdirdə hər bir halda onları eşidib itaət etmək vacibdir.

2. Nəsihəti qəbul etmədikləri təqdirdə əmr sahiblərinə qarşı çıxmamaq.

3. Rəhbərə nəsihət edərək şəriət buyurduğu formada ona hər hansı bir əməli inkar edən kəs günahdan azad olmuş sayılır.

4. Fitnə-fəsaddan və onlara aparan amillərdən uzaq olmaq.

5. Açıq-aşkar, yəni heç bir yozum qəbul etməyən küfr etmədiyi müddətdə əmr sahiblərinə qarşı çıxmamaq.

6. Dildə, əməldə və etiqadda Quran və Sünnəyə riayət edən müsəlman camaatı ilə birlikdə olmaq, onlarla dostluq etmək, onların birləşməsinə həris olmaq, onlardan ayrılmamaq.

Uca Allah buyurur: **"Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir."** (ən-Nisa, 115).

Peyğəmbər ﷺ demişdir: "Camaatla olun! Həqiqətən də, Allahın əli camaatladır, müxalif olan isə Cəhənnəmə vasil olar."[1] İbn Abbasdan رضي الله عنهما Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Kim rəhbərində xoşagəlməz bir şey görsə səbir etsin, çünki camaatdan bir arşın uzaqlaşıb ölən kəs cahiliyyə ölümü ilə ölmüş olur."[2]

Bütün bu dəlillər onu göstərir ki, camaatla olmaq, əmr sahiblərinə qarşı çıxmamaq lazımdır. Buna müxalif olanlar isə şiddətli əzaba düçar olacaqlar. Belə ki camaat rəhmət, təfriqə isə əzab deməkdir.

---

[1] "Sunən ət-Tirmizi", 2167; İbn Əbu Asim, "əs-Sünnə", 80.

[2] "Səhih əl-Buxari", 7143.

# V fəsil.
## Quran və Sünnəyə sarılmağın vacibliyi və bunun vacibliyinə dair dəlillər

## Bu fəsil üç mövzudan ibarətdir

*I mövzu. Quran və Sünnəyə sarılmağın mənası və dəlilləri*
*II mövzu. Bidətlərdən çəkinmək*
*III mövzu. İxtilaf və parçalanmanın pis əməl olması*

## V fəsil. Quran və Sünnəyə sarılmağın vacibliyi və bunun vacibliyinə dair dəlillər

### *I mövzu. Quran və Sünnəyə sarılmağın mənası və dəlilləri*

Uca Allah bu ümmətə Quran və Sünnə ətrafında birləşməyi, bərabər olmağı əmr etmiş, təfriqəyə varmağı isə nəhy edərək bunun həm dünya, həm də axirət üçün təhlükəli olduğunu bildirmişdir. Bunun üçün də hər bir halda, əsaslarda və fəri[1] məsələlərdə Quranın hökmünə müraciət etməyi buyuraraq parçalanmaya aparan səbəblərdən uzaq olmağı əmr etmişdir.

Qurtuluşa çatmağın ən yaxın yolu Allahın Kitabına və Rəsulunun ﷺ Sünnəsinə sarılmaqdır. Çünki məhz bu iki amil müsəlman üçün alınmaz qala və möhkəm bir sipər sayılır. Uca Allah buyurur: **"Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz *bir-birinizə* düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində *bir-birinizlə* qardaş oldunuz. Siz odlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola gələsiniz."** (Ali İmran, 103). Bu ayədə Rəbbimiz insanlara Allahın ipindən yapışmağı əmr edir, Allahın ipi isə təfsirçilərin dedikləri kimi, Onun əhdi və ya Qurani Kərimdir. Çünki Allahın müsəlmanlardan aldığı əhd Quran və Sünnəyə sarılmaqdır. Həmçinin Uca Allah camaat halında olmağı əmr edib parçalanmağı da qadağan edir. Başqa bir ayədə Rəbbimiz buyurur: **"Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin."** (əl-Həşr, 7). Bu ayə həm zahiri, həm də batini bütün əsas və fəri məsələlərə şamil olunur.

Allahın elçisinin gətirdiyi hər şeyi insanlar götürməli və ona müxalif olmamalıdırlar. Çünki Peyğəmbərin ﷺ sözünə riayət etmək Allahın əmrləri kimi vacibdir, başqasının sözünü onun sözündən öndə tutmaq yolverilməzdir. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allaha və Onun Elçisinə itaət edin, eşitdiyiniz halda ondan üz dön-**

[1] İkinci dərəcəli məsələlər.

**dərməyin."** (əl-Ənfal, 20). Bu ayədə Allah Öz qullarını Özünə və Peyğəmbərinə ﷺ itaət etməyə çağırır, kafirlərə və inadkarlara bənzəməyərək ona müxalif olmamağı əmr edir. Buna görə də ayədə: "**ondan üz döndərməyin"**– deyə bildirilir, yəni onun əmrlərini tərk etməyin. Uca Allah başqa bir ayədə buyurur: **"Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə *şəriətə uyğun şəkildə itaət edin*. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və *Onun* Elçisinə müraciət edin. Bu, *sizin üçün* daha xeyirli və nəticə etibarilə daha yaxşıdır."** (ən-Nisa, 59).

Hafiz İbn Kəsir demişdir: "Allaha itaət edin – yəni Onun Kitabına, elçisinə itaət edin – yəni Sünnəsinə tabe olun, aranızdakı əmr sahiblərinə itaət edin – yəni asilikdən başqa hər bir məsələdə onlara tabe olun. Belə ki Xaliqə qarşı asilikdə məxluqa tabe olunmaz. O, həmçinin buyurur: "**Əgər bir şey haqqında mübahisə etsəniz... Allaha və *Onun* Elçisinə müraciət edin."** Mücahid demişdir: "Yəni Allahın kitabı və rəsulunun Sünnəsi ilə."

Allahın əmri ondan ibarətdir ki, istər üsul, istərsə də fəri məsələlərdə ixtilaf olduqda Quran və Sünnəyə qayıtmaq lazımdır. Uca Allah buyurur: **"İxtilafa düşdüyünüz şeylər barəsində hökm vermək ancaq Allaha aiddir."** (əş-Şura, 10).

Kitab və Sünnənin buyurduğu və səhih olduğunu dediyi hər şey haqdır. Bu baxımdan Uca Allah buyurur: "... **əgər Allaha və axirət gününə iman gətirirsinizsə...",** yəni ixtilaf baş verdiyi zaman Quran və Sünnəyə qayıtmayan kəs Allaha və axirət gününə iman gətirmiş sayılmır. Uca Allahın: **"bu daha yaxşı..."**– sözündə Kitab və Sünnənin hökmü **"nəticə etibarı ilə daha yaxşıdır",** yəni bunu edənin aqibəti daha yaxşı olacaqdır. Mücahid demişdir: yəni aqibət etibarı ilə bu daha yaxın mənadadır.[1]

Quranda Kitab və Sünnədən yapışmağa dair dəlillər çoxdur.

Sünnədən olan dəlillərə gəlincə:

İmam Muslim Əbu Hureyradan رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Allah sizdəki üç şeyə razı qalır, üç şeyə isə qə-

[1] İbn Kəsir, "Təfsir əl-Quran əl-Əzim".

zəblənir: sizin yalnız Allaha ibadət edib Ona heç nəyi şərik qoşmamağınızdan, Allahın ipindən möhkəm yapışaraq parçalanmamağınızdan və rəhbərlərinizə nəsihət etməyinizdən razı qalır, üç şeyə isə – dedi-qoduya, çoxlu sual verməyə və malı israf etməyə qəzəblənir."[1]

Cabirdən رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Özümdən sonra sizə iki şeyi qoyub gedirəm ki, onlardan yapışsanız əsla yolunuzu azmazsınız: Allahın Kitabı və mənim yolum."[2]

Həmçinin Peyğəmbər ﷺ demişdir: "Sizi aydın bir yol üzərində buraxıb gedirəm. O yolun gecəsi gündüz kimidir, həmin yoldan yalnız həlak olacaq kimsələr azarlar."[3]

İrbad ibn Səriyədən rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Məndən sonra mənim və hidayət üzərində olan raşidi xəlifələrin yolu ilə gedin, bu yoldan arxa dişlərinizlə möhkəmcə yapışın."[4]

Peyğəmbərimiz ﷺ onun yoluna tabe olan kəsləri hər bir imanlı kəsin amalı olan Cənnəti verəcəyi ilə müjdələmişdir. Bu müjdə Əbu Hureyradan rəvayət olunan hədisdə bildirilir. Peyğəmbər ﷺ həmin hədisdə demişdir: "Qarşı çıxanlardan başqa bütün ümmətim Cənnətə girəcəkdir." Soruşdular: "Ey Allahın rəsulu, qarşı çıxanlar kimlərdir?" O buyurdu: "Mənə tabe olanlar Cənnətə daxil olacaq, mənə asi olanlar isə qarşı çıxanlardır."[5]

Sünnədən üz döndərmək isə dində yol verilən bidətlər və yeniliklər səbəbindən Peyğəmbərin ﷺ əmrinə müxalif olmaqdan daha böyükdür. Məlumdur ki, nicata çatan firqə Peyğəmbərin ﷺ və səhabələrinin yolunu camaat şəklində tutub gedənlərdir. Ubey ibn Kəb demişdir: "Sünnəni və yolu tutub gedin, çünki Sünnə ilə gedərək Mərhəmətli Allahı xatırlayıb gözləri yaşaran hər kəsə Cəhənnəm odu toxunmaz. Sünnə və yol üzərində riayət etmək, onun üzərində ictihad və ixtilaf etməkdən daha əfzəldir."

---

[1] "Səhih Muslim", 1715.
[2] "Muvatta Malik", 2/899.
[3] "Səhih İbn Macə", 1/6.
[4] "Musnəd Əhməd", 4/127-129; "Sunən ət-Tirmizi", 7/438.
[5] "Səhih əl-Buxari", 7280.

## *II mövzu. Bidətlərdən çəkinmək*

**Bidətin tərifi.**

Lüğəvi mənada buna öncə edilməyən bir şeyi ixtira etmək deyilir. Uca Allah buyurur: **"O, göylərin və yerin ixtiraçısıdır."** (əl-Bəqərə, 117).

Şəriətdə isə Quran, Sünnə, ümmətin sələflərinin icmasının buyurduğu ibadət və etiqadlardan başqa olan yeniliklərə deyilir.

**Bidətlərin təhlükəsi.**

Dində olan yeniliklər və bidətlər çox təhlükəlidir və onların insanlara və ümumilikdə cəmiyyətə, hətta dinin əsas və fəri məsələlərinə də çox böyük mənfi təsiri vardır. Bidət dində yeniliyə və elmsiz olaraq Allah və şəriət barəsində danışmağa deyilir. Bidətlər əməllərin qəbul olunmamasının və ümmətin parçalanmasının başlıca səbəbidir. Bidət edən kəs həm özünün, həm də onun bidətini edən hər kəsin günahını daşıyır. Bundan əlavə, bidət Peyğəmbərin ﷺ hovuzundan su içməkdən məhrum olmağa da səbəbdir. Səhl ibn Səd əl-Ənsari və Əbu Səid əl-Xudridən rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: "Hamıdan əvvəl Hovuzun başına gələn kəs mən olacağam. Sonra mənim yanımdan keçən kimsə hovuzdan su içər, ondan içən isə əsla susamaz. Onda yanıma mənim tanıdığım və məni tanıyan bir qövm gələcəkdir. Sonra onları məndən ayıracaqlar. Onda Mən: "Onlar mənim ümmətimdəndirlər"– deyəcəyəm. Mənə belə deyiləcək: "Sən bilmirsən, onlar səndən sonra nə yeniliklər ediblər." Və mən: "Məndən sonra yeniliklər edənlər məndən uzaq olsunlar"– deyəcəyəm."[1]

Bidət, dini və onun əsaslarını dəyişdirməkdir. Bir sözlə, bidət müsəlmanların həm dünya, həm də axirətlərində onlara zərər yetirəcək təhlükəli bir əməldir.

[1] "Səhih əl-Buxari", 6583; "Səhih Muslim", 2290.

**Bidətin səbəbləri.**

Bidətlərə yol verməyin bir çox səbəbləri vardır. Həmin səbəblərin birincisi insanın Allahın Kitabından, Peyğəmbərinin ﷺ Sünnəsindən və sələfin yolundan uzaq olmasıdır ki, bununla da insan şəriətin əsaslarından bixəbər qalmış olur.

Bidətlərin yayılmasının digər səbəbləri kimi isə şübhələrdən asılılıq, ağıla üstünlük vermək, pis dostlarla oturub-durmaq, bidət əhlinin dəlil gətirdikləri zəif və uydurma hədislərə etimad göstərmək, kafirlərə bənzəmək, zəlalət əhlini təqlid etmək və sairəni göstərmək olar.

**Bidətlərin təhlükəsi.**

Quran və Sünnəyə nəzər salan hər kəs dində bidətlərə yol verməyin qəbulolunmaz və haram olduğunu görəcəkdir. Bidətlərin növünə görə onların haramlıq dərəcələrinin fərqlənmələrinə baxmayaraq Peyğəmbər ﷺ bidətləri qadağan edərək demişdir: "Yeniliklərdən çəkinin, şübhəsiz ki, hər bir yenilik bidət, hər bir bidət isə zəlalətdir."[1] O, həmçinin demişdir: "Bizim bu işimizə ondan olmayan bir şeyi əlavə edənin əməli rədd olunur."[2]

Bu iki hədis göstərir ki, dində hər hansı bir yeniliyə yol vermək bidət, hər bir bidət isə zəlalətdir. Yəni etiqad və ibadətlərdə yol verilən hər bir bidət haramdır. Lakin bidətin növünə görə onun haramlıq dərəcəsi də fərqlidir. Onlardan bəzisi, məsələn, qəbirlərə yaxınlaşmaq amalı ilə onların ətrafında təvaf etmək, onlara qurban və nəzir təqdim etmək, qəbirdəkilərə dua edərək onlardan yardım diləmək kimi əməllər açıq-aydın küfr sayılır. Qəbirlərin üzərini tikmək, onların yanında namaz qılmaq və dua etmək kimi bidətlər şirkə aparan yol hesab olunur. Şəriətdə olmayan mərasimlər keçirmək, bidət olan zikrlər, tərkidünyalıq və günəşin qabağında duraraq oruc tutmaq kimi əməllərə gəlincə isə bunlar fasiqlik sayılır.

---

[1] "Musnəd Əhməd", 1/435 və başqaları.

[2] "Səhih əl-Buxari", 2697; "Səhih Muslim", 1718.

## *III mövzu.*
## *İxtilaf və parçalanmanın pis əməl olması*

**Parçalanmanın pis əməl olmasına dəlillər.**

Uca Allah parçalanmağı və ona aparan amilləri pisləmişdir. Quran və Sünnədə bunun qəbahətli bir əməl olması, bunu edənin aqibətinin pis olacağı, sahibinin dünyada rüsvay olacağı, axirətdə isə alçalacağı və üzü qara olacağı barədə bir çox dəlillər vardır. Uca Allah buyurur: **"Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir. O gün** ***neçə-neçə*** **üzlər ağaracaq,** ***neçə-neçə*** **üzlər də qaralacaqdır. Üzləri qaralan kəslərə: "İman gətirdikdən sonra kafirmi oldunuz? Elə isə küfrünüzə görə dadın əzabı!"–** ***deyiləcəkdir.*** **Üzləri ağ olan kəslər isə Allahın mərhəməti altında olacaq və orada əbədi qalacaqlar."** (Ali İmran, 105-107). İbn Abbas ﵄ demişdir: "Toplum şəklində Peyğəmbərin ﷺ yolu ilə gedənlərin üzü ağ, bidət və parçalanma əhlinin üzü isə qara olacaqdır." Uca Allah həmçinin buyurur: **"Dinlərini parçalayıb firqə-firqə olanlarla sənin heç bir əlaqən yoxdur. Onların işi Allaha aiddir. Sonra** ***Allah*** **onlara etdikləri əməllər barədə xəbər verəcəkdir."** (əl-Ənam, 159).

Bu ayələr parçalanmağın müsəlmanlar üçün həm bu dünyada, həm də axirətdə təhlükəli olmasına dəlalət edir. Məhz bu səbəbdən yəhudi və xaçpərəstlər həlak olmuşlar və bu hər bir zaman insanların yollarını azmasına gətirib çıxarır.

Sünnədə də ixtilafın və təfriqəyə varmağın yolverilməz bir əməl olmasını bildirən və birliyə təşviq edən bir çox hədislər mövcuddur. İmam Əhməd və Əbu Davud, Müaviyənin ﵁ belə dediyini rəvayət etmişlər: Bir dəfə Allahın elçisi ﷺ qalxaraq belə dedi: "Sizdən qabaqkı kitab əhli yetmiş iki firqəyə bölündü. Bu ümmət də yetmiş üç firqəyə bölünəcəkdir. Onların hamısı Cəhənnəmlik, yalnız biri – Camaatla olanlar Cənnətlik olacaqlar."[1]

---

[1] "Musnəd Əhməd", 4/152; "Sunən Əbu Davud", 5/5.

Bu hədisdə Peyğəmbər ﷺ xəbər vermişdir ki, onun ümməti yetmiş üç firqəyə bölünəcək və onlardan yetmiş ikisi Cəhənnəmə daxil olacaqdır. Şübhəsiz ki, onlar özlərindən əvvəlkilərin etdiklərini edənlərdir. İxtilafa gəlincə, bu ya yalnız dində olur, ya da həm dində, həm də dünyada olub tədricən dinə aid olur. Bəzən isə ixtilaf yalnız dünyəvi məsələlərdə olur. Hər bir halda ümmətin ixtilaf etməsi və parçalanması qaçılmazdır. Buna görə də Peyğəmbər ﷺ bunu xəbər vermişdir ki, bacaran bundan canını qurtarsın.

**İxtilaf və parçalanma, öncəki ümmətlərin həlak olmasına səbəb olmuşdur.**

Quran və Sünnəyə nəzər saldıqda bizə bəlli olur ki, əvvəlki ümmətlərin həlak olmalarının başlıca səbəbi onların təfriqəyə varması, xüsusən də nazil olunmuş kitablar barəsində ixtilaf etmələri olmuşdur.

Huzeyfə رضي الله عنه Osmana رضي الله عنه demişdir: "Bu ümmətin dadına çat ki, öncəki ümmətlər kimi kitabları barəsində ixtilaf etməsinlər." O da görəndə ki, Şam və İraq əhli Quranın hərfləri barəsində Peyğəmbərin ﷺ qadağan etdiyi ixtilafı edirlər, bunu deməyə vadar olmuşdu. Bundan da iki fayda meydana çıxmış olur:

***Birincisi:*** Bu cür məsələlərdə ixtilaf etməyin haram olması.

***İkincisi:*** Əvvəlkilərdən ibrət götürmək və onlara bənzəməmək. Uca Allah bu xüsusda buyurur: **"Bu ona görədir ki, Allah kitabı haqq olaraq nazil etmişdir. Kitab barəsində ixtilaf edənlər isə əlbəttə, *haqdan* uzaq bir ziddiyyət içindədirlər."** (əl-Bəqərə, 176). O, həmçinin buyurur: **"Həqiqətən, Allah yanında *qəbul olunan* din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər."** (Ali İmran, 19).

Sünnədə isə Əbu Hureyra رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mənim sizlərə əmr etmədiklərimi etməyin. Şübhəsiz ki, sizlərdən əvvəlkilər çox sual verdikləri, peyğəmbərlərinə müxalif olduqları üçün həlak oldular. Sizə qadağan etdiyim şeylərdən çəkinin, əmr etdiyim şeyləri isə bacardığınız qədər yerinə yetirin."[1] Bu hədisdə

[1] "Səhih əl-Buxari", 7288; "Səhih Muslim", 1337.

Peyğəmbər ﷺ qövmünə, demədiyi şeylərdən çəkinməyi əmr etmiş, əvvəlki ümmətlərin həlak olma səbəbini aydınlaşdıraraq bunun çox sual vermək və peyğəmbərlərə müxalif çıxmaları olduğunu bildirmişdir.

**İxtilaf rəhmətdirmi?**

Bəzi insanlar uydurma olan "Ümmətimin ixtilafı rəhmətdir" hədisinə əsaslanaraq ixtilafın rəhmət olduğunu iddia edirlər. Bu da Quran, Sünnə və əqli dəlillərlə rədd olunur. İxtilafın və parçalanmanın pis bir əməl olması barədə bəzi ayə və hədisləri qeyd etmişdik. Həmin dəlilləri oxuyan üçün zənnimizcə bunlar kifayət edər.

Əksinə Quran göstərir ki, ixtilaf rəhmətlə ziddiyyət təşkil edir. Uca Allah buyurur: **"Amma onlar elə hey ixtilafdadırlar. Yalnız Rəbbinin rəhm etdiyi şəxslərdən başqa."** (Hud, 118-119).

Bunu iddia edənlərin dəlilləri isə batil və səhvdir və Sünnə kitablarında bu barədə heç bir əsas yoxdur. Bu da qeyd olunan iddianın batilliyini sübut etmək üçün yetərli dəlildir. Bundan savayı, bu əqli cəhətdən də qəbulolunmazdır. Çünki ixtilafın rəhmət olmasını təsəvvürə gətirmək belə mümkün deyil. İxtilaf səbəbindən insanlar arasında hətta fəri məsələlərdə belə vaxtaşırı qətl hadisələri, müharibələr və qarşıdurmalar baş verir.

**İxtilaf və parçalanmadan yaxa qurtarmağın yolları.**

Bizə bəlli oldu ki, nicata çatacaq firqə camaatla olanlardır. Camaat isə Peyğəmbərin ﷺ və onun səhabələrinin yolunu tutub gedən, onu heç bir başqa rəyə dəyişməyənlərə deyilir. Şatibi "İtisam" əsərində demişdir: "Camaat Peyğəmbərin ﷺ, onun səhabələrinin və tabiinlərin yolunu tutub gedənlərə deyilir."

Deməli, nicata çatmağın yeganə yolu dildə, əməldə və etiqadda Əhli Sünnə vəl Camaanın yolunu tutub getməkdir.

Uca Allah buyurur: **"Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir."** (ən-Nisa, 115). O, həmçinin buyurur: **"Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki,** ***o yollar*** **sizi Allahın yolundan uzaqlaşdırar. Allah**

**bunları sizə tövsiyə etmişdir ki, bəlkə** *pis əməllərdən* **çəkinəsiniz."** (əl-Ənam, 153).

Tirmizi və başqaları Abdullah ibn Ömərdən ﵄ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mənim ümmətim zəlalət üzərində yekdil ola bilməz – və ya Muhəmmədin ümməti zəlalət üzərində yekdil ola bilməz – Allahın Əli camaatladır."[1]

Beləliklə, aydın olur ki, salamatlığa qovuşmağın yolu Allahın kitabıdır. O kitab ki, ona heç bir batil toxuna bilməz və o hikmət sahibi olan Allah tərəfindən nazil olunmuşdur. Həmçinin Peyğəmbərin ﷺ sünnəsinə sarılmaqla olur. O peyğəmbər ki, o havadan danışmır və onun bütün danışdıqları bir vəhydir. Quran və Sünnə İslam əqidəsinin yeganə və əvəzolunmaz qaynaqlarıdır. Bundan savayı bütün yollar xəsarətə aparandır. Sünnəyə sarılmaq möminlərin yolu və Rəbbimizin razılığına nail olmağın yoludur. Məhz bu yolla Uca Allah bu ümməti bidətçilərin batil əməllərindən qoruyur. İslamın ilk dönəmlərində məhz bu yolun sayəsində insanlar islah olunmuşdular. Bunsuz həmin vəziyyətə qayıtmaq qeyri mümkündür. İmam Malik (Allah ona rəhmət eləsin) demişdir: "Ümmətin əvvəli nəyin sayəsində düzəlmişdirsə sonu da onunla düzələcək." Ümmətin əvvəli isə Quran və Sünnəyə əməl etməklə düzəlmişdir. Odur ki hər bir müsəlman sələflərin Quran və Sünnəyə yanaşmalarına uyğun olaraq onlardan yapışmalıdır. Uca Allah buyurur: **"Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir."** (ən-Nisa, 115).

Möminlərin yolu səhabələrin və onlara tabe olan hidayət əhlinin yoludur. Uca Allahdan ümmətimizi Allahın kitabına, Peyğəmbərinin ﷺ sünnəsinə və möminlərin yoluna tabe olmağa müvəffəq etməsini diləyirik. Sonuncu duamız isə belədir: Həmd yalnız aləmlərin rəbbi olan Allaha məxsusdur. Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə salam olsun.

[1] "Sunən ət-Tirmizi", 4/466.

# MÜNDƏRİCAT

**Möhtərəm nazir şeyx Saleh ibn Abduləziz ibn Muhəmməd Ali Şeyxin müqəddiməsi ........ 3**

**Müqəddimə ........ 5**

**Giriş ........ 10**

**BİRİNCİ HİSSƏ. ALLAHA İMAN ........ 12**

**Birinci fəsil: Rububiyyət tövhidi ........ 14**

*I mövzu. Mənası, Quran, Sünnə, ağıl və fitrətdən ona dəlillər ........ 14*

*II mövzu. Tövhidin bu növünü təsdiq etməyin əzabdan qurtulmaq üçün kifayət etmədiyinin bəyanı ........ 17*

*III mövzu. Rububiyyət tövhidindən uzaqlaşmağın təzahürləri ........ 20*

**İkinci fəsil: Uluhiyyət tövhidi ........ 21**

*I mövzu. Onun dəlilləri və əhəmiyyətinin bəyan edilməsi ........ 22*

*II mövzu. Tək Allaha ibadət etməyin vacibliyi ........ 27*

*III mövzu. Peyğəmbərin ﷺ tövhidin toxunulmazlığını qoruması ........ 32*

*IV mövzu. Şirk, küfr və onların növləri ........ 52*

*V mövzu. Qeybi və bununla bağlı məsələləri bilməyi iddia etmək ........ 63*

**Üçüncü fəsil: Ad və sifətlərin tövhidi ........ 69**

*Müqəddimə. Allahın ad və sifətlərinə iman gətirmək və bunların müsəlmanın davranışına təsiri ........ 69*

*I mövzu. Ad və sifətlər tövhidinin tərifi və dəlilləri ........ 71*

*II mövzu. Quran və Sünnə işığında ad və sifətlərin isbatı üçün tətbiqi misallar ........ 76*

*III mövzu. Ad və sifətlərlə bağlı qaydalar ........ 82*

**İKİNCİ HİSSƏ. İMANIN DİGƏR ƏSASLARI ........ 89**

**Birinci fəsil. Mələklərə iman ........ 89**

*I mövzu. Mələklərin tərifi, onların yaranışı, sifətləri və xüsusiyyətləri ........ 89*

*II mövzu. Mələklərə iman gətirməyin yeri, necəliyi və dəlilləri* ........ 94

*III mövzu. Mələklərin vəzifələri* .................................................. 102

**İkinci fəsil. Nazil olunmuş kitablara iman** .................................. **111**

*I mövzu. Kitablara imanın hökmü və dəlilləri* ................................ 115

*II mövzu. Kitablara imanın məğzi* ................................................ 118

*III mövzu. Tövrat, İncil və digər kitabların təhrif olunmasının, Quranın isə salamat qalmasının bəyan edilməsi* ...................................... 125

*IV mövzu. Qurana iman və onun xüsusiyyətləri* ............................ 129

**Üçüncü fəsil. Peyğəmbərlərə iman** ............................................ **137**

*I mövzu. Peyğəmbərlərə iman gətirməyin hökmü və dəlilləri* .............. 137

*II mövzu. Nəbi və rəsul sözlərinin tərifi və onlar arasındakı fərq* .... 140

*III mövzu. Peyğəmbərlərə iman gətirməyin məğzi* ........................ 142

*IV mövzu. Bizim peyğəmbərlər qarşısında borcumuz* .................... 146

*V mövzu. Ulul-əzm elçilər* .......................................................... 150

*VI mövzu. Peyğəmbərimiz Muhəmmədin ﷺ xüsusiyyətləri, onun ümməti üzərindəki hüquqları və yuxuda Peyğəmbəri ﷺ görməyin haqq olmasının bəyanı* ................................................. 152

*VII mövzu. Peyğəmbərliyin xətm edilməsi və özündən sonra peyğəmbər gəlməyəcəyinin bəyan edilməsi* .......................................... 165

*VIII mövzu. Peyğəmbərin ﷺ gecə səfəri, onun gerçəkliyi və dəlilləri* ........................................................................................ 168

*IX mövzu. Peyğəmbərlərin sağ olub-olmamaları haqqında* ............. 173

*X mövzu. Peyğəmbərlərin möcüzələri və onlarla övliyaların kəraməti arasındakı fərq* ............................................................... 177

*XI mövzu. Övliyalar barədə* ........................................................ 182

**Dördüncü fəsil. Axirət gününə iman** ........................................... **187**

*I mövzu. Saatın əlamətləri və onların növləri* ............................... 187

*II mövzu. Qəbirdəki nemət və əzab* ............................................. 195

*III mövzu. Ölümdən sonra dirilməyə iman* .................................... 199

**Beşinci fəsil: Qəza və qədərə iman ...215**

*I mövzu. Qəza və qədərin tərifi, dəlilləri və onlar arasındakı fərq ...215*

*II mövzu. Qədərin mərtəbələri...217*

**ÜÇÜNCÜ HİSSƏ. ƏQİDƏYƏ AİD OLAN DİGƏR MƏSƏLƏLƏR...223**

**Birinci fəsil. İslam, iman və ehsan...223**

*I mövzu: İslam...223*

*II mövzu. İman, onun rükünləri və böyük günah sahibinin hökmü...225*

*III mövzu. Ehsan ...229*

*IV mövzu. İslam, iman və ehsan arasındakı bağlılq...230*

**İkinci fəsil. İslamda dost və düşmən anlayışı, mənası və qaydaları ...231**

**Üçüncü fəsil. Səhabələr və onların haqları...237**

*I mövzu. Səhabələr kimlərdir, habelə onları sevməyin və dost tutmağın vacibliyi ...237*

*II mövzu. Quran və Sünnə işığında səhabələrin fəzilətli və ədalətli olmalarının vacibliyinə etiqad etmək və onların arasında baş vermiş münaqişələr barəsində susmaq...239*

*III mövzu. Peyğəmbərin ﷺ əhli beyti ...242*

*IV mövzu. Raşidi xəlifələr...244*

*V mövzu. Cənnətlə müjdələnmiş on nəfər...246*

**Dördüncü fəsil. Müsəlmanların rəhbərləri və sıravi müsəlmanlar xüsusunda vacib olanlar, habelə onların camaatı ilə birgə olmaq...248**

**Beşinci fəsil. Quran və Sünnəyə sarılmağın vacibliyi və bunun vacibliyinə dair dəlillər...253**

*I mövzu. Quran və Sünnəyə sarılmağın mənası və dəlilləri...253*

*II mövzu. Bidətlərdən çəkinmək...256*

*III mövzu. İxtilaf və parçalanmanın pis əməl olması...258*